MALİYYƏ BAZARLARI TERMİNLƏRİNİN

İZAHLI LÜĞƏTİ

NURLAR
BAKI–2010

Bu nəşr Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Avropa Birliyi tərəfindən maliyyələşdirilmiş və Yerli İqtisadi İnkişaf Mərkəzi (YİİM) tərəfindən hazırlanmışdır. Nəşrin məzmunu Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Avropa Birliyinin mövqeyini əks etdirmir və məsuliyyəti yalnız YİİM daşıyır.

This publication has been prepared by the Center for Local Economic Development (CLED) and funded by the European Union under initiative of the State Committee for Securities. The contents of this publication are the sole responsibility of of the CLED and can in no way be taken to reflect the views of the State Committee for Securities of the Republic of Azerbaijan and European Union

MALİYYƏ BAZARLARI TERMİNLƏRİNİN İZAHLI LÜĞƏTİ

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2010, 272s.

Bu lüğətdə maliyyə bazarları, o cümlədən qiymətli kağızlar bazarları, fond birjaları, valyuta birjaları, ilkin səhm bazarları, bu bazarlarda həyata keçirilən əməliyyatlar, onların iştirakçıları, istifadə olunan maliyyə alətləri, investisiya fondları, depozit sistemləri, maliyyə hesabatlılığı və bu kimi digər əlaqəli məsələlər üzrə terminlər (Azərbaycan və İngilis dillərində) və onların Azərbaycan dilində izahı əks olunmuşdur.

Lüğət geniş oxucu auditoriyası, xüsusən də maliyyə, o cümlədən beynəlxalq maliyyə və maliyyə bazarları ilə əlaqədar məsələlərlə məşğul olan mütəxəssislər, müstəqil ekspertlər, dövlət və özəl təşkilatların işçiləri, maliyyə menecerləri, brokerlər, investorlar eləcə də müvafiq ixtisaslar üzrə dərs deyən müəllimlər, təhsil alan tələbə və aspirantlar üçün nəzərdə tutulmuşdur.

ISBN: 978 - 9952 - 450 - 79 - 8

© Yerli İqtisadi İnkişaf Mərkəzi, 2010

MÜNDƏRİCAT

1. GİRİŞ 4
2. ƏSAS HİSSƏ (terminlərin izahı) 7
3. SÖZLÜK 230
4. İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR 271

GİRİŞ

Azərbaycan Respublikasının dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində ölkədə maliyyə sisteminin inkişafına, o cümlədən maliyyə sahəsində beynəlxalq standartların və maliyyə əməliyyatlarının mütərəqqi texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə məqsədyönlü, sistemli və ardıcıl iş aparılır. Son dövrlərdə ölkənin beynəlxalq maliyyə institutları, dünyanın aparıcı şirkətləri və ayrı-ayrı ölkələri ilə əməkdaşlığının dinamik şəkildə genişlənməsi və dərinləşməsi bu prosesin əhəmiyyətini daha da artırmaqla yanaşı, onun sürətləndirilməsini də şərtləndirmişdir.

Təbiidir ki, bu proses müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və ölkədə tətbiqinin sürətləndirilməsini də nəzərdə tutur. Bunun üçün isə bilavasitə maliyyə qurumlarında və əlaqədar sahələrdə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılması, müasir maliyyə əməliyyatlarından baş çıxaran və qabaqcıl texnologiyalardan istifadə edə bilən kadrların hazırlanması tələb olunur. Bu isə öz növbəsində müvafiq ədəbiyyatların və əlaqədar beynəlxalq təşkilatların müvafiq sənədlərinin öyrənilməsi və onların Azərbaycan dilinə tərcümə olunaraq yayılması, qabaqcıl təcrübəyə malik xarici ölkələrə təlim turlarının təşkili, beynəlxalq səviyyədə tanınmış mütəxəssisləri dəvət etməklə ölkədə müvafiq təlimlərin təşkili kimi məsələləri daha da aktuallaşdırır.

Aydındır ki, bütün bunlar, ilk növbədə, beynəlxalq maliyyə sistemində istifadə olunan, o cümlədən maliyyə bazarları ilə əlaqədar terminlərin Azərbaycan dilinə çevrilməsini və onların anlaşıqlı dildə dəqiq izahının verilməsini nəzərdə tutur. Belə ki, təcrübə göstərir ki, bu istiqamətdə aparılan işlərin uğuru bir çox hallarda müzakirə olunan məsələlərlə əlaqədar bu və ya digər anlayışların ehtiva etdiyi mənanın vaxtında dəqiq başa düşülməsi və çatdırılmasından asılı olur.

Oxucuların diqqətinə təqdim olunan bu lüğət məhz yuxarıda qeyd edilən ehtiyacların ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin təşəbbüsü əsasında Avropa İttifaqının maliyyə və texniki dəstəyi ilə həyata keçirilən "İnvestisiya-

ların və ixracın təşviqi mühitinin yaxşılaşdırılmasına dəstək" layihəsi çərçivəsində Yerli İqtisadi İnkişaf Mərkəzində yaradılmış işçi qrup tərəfindən hazırlanmışdır.

Maliyyə bazarları terminlərinin izahlı lüğətinin hazırlanmasında əsas məqsəd ölkədaxili maliyyə sistemində və beynəlxalq maliyyə əlaqələrində daha çox işlənilən terminlərin ingilis dilində qarşılığı ilə birlikdə Azərbaycan dilinə tərcüməsi və onların ümumiləşdirilmiş izahlarının verilməsi yolu ilə ölkədə maliyyə sahəsində vahid terminoloji mühitin yaradılmasına yardım etməkdir.

Lüğətdə aşağıdakı sahələr üzrə terminlərin izahına üstünlük verilmişdir: maliyyə bazarları, o cümlədən qiymətli kağızlar bazarları, fond birjaları, valyuta birjaları, ilkin səhm bazarları, bu bazarlarda həyata keçirilən əməliyyatlar, onların iştirakçıları, maliyyə alətləri, investisiya fondları, depozit sistemləri, maliyyə hesabatlılığı və maliyyə menecmenti.

Lüğət hazırlanarkən, əsasən, beynəlxalq maliyyə təşkilatlarının sənədlərindən, müvafiq sahədə müxtəlif dillərdə mövcud olan və istinad edilən sözlük və izahlı lüğətlərdən, elmi və praktiki nəşrlərdən və elektron resurslardan istifadə olunmuşdur.

Lüğətdə işgüzar praktikada ən çox rast gəlinən 1500-ə yaxın maliyyə terminləri və onların məzmunlu izahı verilmişdir. Terminlərin ardıcıllığı Latın əlifbası ilə, onların adı isə iki dildə - İngilis və Azərbaycan dillərində verilmişdir ki, bu da müvafiq anlayışların həmin dillərdəki qarşılığının tapılmasını və onlardan istifadəni asanlaşdırır. Terminlər ingilis dilində *kursiv* və Azərbaycan dilində **qalın** şriftlərlə verilmişdir.

Ümumilikdə, lüğət geniş oxucu auditoriyası, xüsusən də maliyyə, o cümlədən beynəlxalq maliyyə və maliyyə bazarları ilə əlaqədar məsələlərin bu və ya digər aspektləri ilə məşğul olan mütəxəssislər, dövlət və özəl təşkilatların işçiləri, maliyyə menecerləri, brokerlər, investorlar, müstəqil ekspertlər, eləcə də, müvafiq ixtisaslar üzrə dərs deyən müəllimlər, təhsil alan tələbə və aspirantlar üçün nəzərdə tutulmuşdur.

Lüğət hazırlanarkən terminlərin adının düzgün ifadə edilməsi və oxşar terminlərin fərqli cəhətlərinin aydınlaşdırılması və izahının dəqiqləşdirilməsi məqsədilə müvafiq sahədə fəaliyyət göstərən təşki-

latların nümayəndələri ilə müzakirələr aparılmış, bu sahədə tanınmış mütəxəssislər və ekspertlərin məsləhətlərindən də istifadə olunmuşdur. Odur ki, müəlliflər bu lüğətin hazırlanması zamanı öz dəyərli məsləhətlərini onlardan əsirgəməmiş mütəxəssislərə, ümumilikdə isə bu işin yerinə yetirilməsində yardımçı olmuş və zəhmət çəkmiş bütün şəxslərə öz minnətdarlıqlarını bildirirlər.

Ümumiyyətlə, müəlliflər lüğətin keyfiyyətli olmasına, ən başlıcası isə terminlərin tərcüməsinin dəqiqliyini və izahların əhatəliyini təmin etməyə çalışmışlar. Bununla yanaşı, müəlliflər oxuculara təqdim olunan bu lüğətin maliyyə bazarları ilə əlaqədar bütün terminləri əhatə etməsi və burada verilən izahların hamısının bütün məqamları nəzərə alması iddiasında deyillər. Bu baxımdan, müəlliflər, lüğətin gələcəkdə təkmilləşdirilməsi zamanı nəzərə alınmaq üçün, lügətlə tanış olduğu zaman meydana çıxan təklif və tövsiyələrini *office@cled.az* elektron poçt ünvanına göndərəcək oxuculara əvvəlcədən minnətdarlıqlarını bildirirlər.

Müəllif heyəti:

1. Vaqif Əli oğlu Rüstəmov, qrupun rəhbəri və elmi redaktor, iqtisad elmləri namizədi;
2. Faiq Misir oğlu Camalov;
3. İlkin Allahverən oğlu Nəzərov;
4. Firdovsi Vidadi oğlu Mütəllimov;
5. Pərviz Əlövsət oğlu Baxşəliyev.

- **A2/P2 spredi**
  A2/P2 spread

30 günlük A2/P2 (aşağı keyfiyyətli) və AA (yüksək keyfiyyətli) qeyri-maliyyə kommersiya kağızlarının faiz dərəcələri arasındakı fərq. Bu spred A2/P2 kommersiya kağızının AA kommersiya kağızına nisbətdə "risk mükafatı"dır. Bu göstəricinin qiyməti fond bazarının ümumi vəziyyətinin qiymətləndirilməsi, o cümlədən defolt riskinin müəyyənləşdirilməsi üçün mühüm indiqator hesab olunur. Odur ki, bu göstəricinin qiymətinin dəyişməsi daim diqqət mərkəzində saxlanılır.

- **Abandon (imtina etmək)**
  Abandon (abandonment)

1) Fiziki və ya hüquqi şəxsin müəyyən hüquq, iddia və tələblərindən (o cümlədən sahiblik və mülkiyyət hüquqları ilə əlaqədar) imtina etməsi;

2) Müxtəlif iqtisadi münasibətlərdə tərəflərdən birinin digər tərəfdən üzərinə düşən öhdəlikləri yerinə yetirməsini tələb etməkdən birtərəfli qaydada imtina etməsi;

3) Tərəf-müqabillərdən birinin hər hansı sövdələşmədən, müəyyən olunmuş cərimə və ya mükafat məbləğini ödəyərək, çıxması;

4) Mülkiyyət hüququnu təsdiq edən hər hansı bir sənədin istifadə müddətinin başa çatması və ya qüvvədən düşməsi;

5) Sığorta olunanın sığorta olunmuş əmlak üzərində malik olduğu hüquqlarından sığortaçının xeyrinə imtina etməsi. Bu zaman sığorta olunan tam sığorta məbləğini əldə etmiş olur. Adətən, bu halda müvafiq ərizə birtərəfli qaydada imtinaya görə əsasın yaranmasından sonrakı 6 ay ərzində təqdim olunmalıdır. Bundan sonra sığortalanmış əmlakın bütün hüquqları sığortaçıya keçir;

6) Borc münasibətlərində borc verən tərəfin təqdim etdiyi borcdan borc alanın xeyrinə qismən və ya tam imtina etməsi.

- **ABŞ xəzinə notu**
  US treasury note

ABŞ-ın öhdəlik müddəti 1 ildən 10 ilədək olan ortamüddətli dövlət borc qiymətli kağızları. Bu notların vaxtından əvvəl ödənişinə icazə verilmir. Onlara görə sabit yarımillik kupon və ödəmə vaxtı nominal dəyər ödənilir.

- **ABŞ xəzinə vekseli**
  US treasury bill

ABŞ-ın öhdəlik müddəti 1(bir) ilədək (adətən: 3 ay, 6 ay və mak-

simum 12 ay) olan qısamüddətli dövlət borc qiymətli kağızları. Müntəzəm əsasda satılır və pul bazarında aparıcı mövqeyə malikdir.

- **ABŞ uzunmüddətli xəzinə istiqrazları**
  US treasury bond

ABŞ-ın öhdəlik müddəti 10 il və ya daha uzunmüddətli olan dövlət borc qiymətli kağızları. Xəzinə notlarında olduğu kimi, onlara yarımillik kupon ödənilir və bu səbəbdən onlar kuponlu qiymətli kağız kimi də tanınırlar.

- **Açıq bazar əməliyyatları**
  Open market operations

Tədavüldə olan pul və kredit kütləsini tənzimləmək məqsədilə daxili pul bazarında dövlət qiymətli kağızlarının alqı və satqısı vasitəsilə maliyyə bazarlarına Mərkəzi Bankın müdaxiləsi. Mərkəzi Bankın müdaxiləsi qısa müddətli dövlət istiqrazlarının bazara buraxılması və ya bazardan çəkilməsi yolu ilə həyata keçirilir.

Açıq bazar əməliyyatlarının əsas hədəfləri inflyasiya səviyyəsinin, pul kütləsinin, valyuta məzənnəsinin tənzimlənməsi ola bilər.

- **Açıq Bazar üzrə Federal Komitə**
  Federal Open Market Committee (FOMC)

ABŞ-da Federal Rezerv Sisteminin pul tədavülünə, kreditləşdirmə həcminə, faiz dərəcəsinə və valyuta bazarına təsir etmək məqsədilə açıq bazarda qiymətli kağızların alqısı və satqısı sahəsində siyasətinin işlənib hazırlanmasına məsul olan orqanı. Komitəyə Federal Rezerv Sisteminin İdarəetmə Şurasının üzvləri, Nyu-York Federal Rezerv Bankının prezidenti və digər dörd federal rezerv banklarının prezidentləri daxildir. Komitə üzvləri ayda və ya ay yarımdan bir toplaşır və yuxarıda göstərilən məsələləri müzakirə edərək müvafiq siyasətlə bağlı qərarlar qəbul edirlər.

- **Açıq devalvasiya**
  Open devaluation

Ölkənin milli valyutasının sabitliyinin təmin olunması məqsədilə müvafiq dövlət orqanları tərəfindən milli valyutanın məzənnəsinin digər ölkələrin möhkəm valyutalarına və beynəlxalq hesablaşma vasitələri vahidlərinə nisbətdə rəsmən endirilməsi, həmçinin, milli valyuta vahidinin real qızıl məzmununun azaldılması. Bu zaman milli valyutanın məzənnəsinin qaldırılması məqsədi ilə dövlət tərəfindən milli valyutanın əhəmiyyətli həcmdə dövriyyədən yığılması, yaxud dəyərdən düşmüş milli pul nişanlarının yeniləri ilə əvəz edilməsi kimi tədbirlərə əl atılır.

Açıq devalvasiya daxili bazarda əmtəə qiymətlərinin azalmasına, ixracın ucuzlaşmasına, idxalın isə bahalaşmasına səbəb olur.

- **Açıq faktorinq**
  Open factoring

Faktorinq əməliyyatının xüsusi forması. Bu zaman kreditor tərəf faktor-banka, yaxud faktor-firmaya borc sənədləri haqqında məlumat təqdim etdikdən sonra ikinci tərəf borc məbləğinin 80%-ni ona kredit formasında ödəyir. Kreditor tərəf borcalan tərəfdən bütün borc məbləğinin ödənişini əldə etdikdən sonra (adətən 60 gün ərzində) faktor-subyektdən əldə etdiyi məbləği və ona hesablanmış faiz məbləğini qaytarır. Borclu tərəf borc məbləğini kreditora ödəmək imkanına malik olmadıqda kreditor bütün borc sənədlərini faktor-subyektə təqdim edir və bundan sonra borc öhdəliyinin tələb edilməsi hüququ sonuncuya keçir.

- **Açıq fond (açıq investisiya fondu, açıq qarşılıqlı fond)**
  Open-end fund (open-end investment fund, open-end mutual fund)

İstənilən zaman yeni səhmlərin buraxılışına və ya buraxdığı səhmləri geri almağa məhdudiyyəti olmayan kollektiv (qarşılıqlı) investisiya fondu.

- **Açıq idarəetmə şirkəti**
  Open-end management company

Qiymətli kağızların buraxılması və alqı-satqısı yolu ilə aktivlərin idarə olunmasını həyata keçirən şirkət. Ən sadə açıq idarəetmə şirkətləri qarşılıqlı fondların aktivlərinin xalis dəyərinə uyğun sayda səhm buraxan və onların alqı-satqısını həyata keçirən şirkətlərdir.

- **Açıq investisiya şirkəti**
  Open-end investment company

Kapitalını başqa müəssisələrə investisiya edən şirkət. Açıq tipli investisiya şirkətləri özlərinin yeni səhmlərini investorlara satırlar, keçmiş səhmlərini yenidən almağa hazırdılar və fond birjasında listinqə düşmürlər. Tələb artdıqca daha çox səhmlər buraxırlar.

- **Açıq mövqe**
  Open position

İcra olunmamış və ya bağlanılmamış mövqe, başqa sözlə, qiymətli kağızların alqı və ya satqısına dair sifarişlərin açıq qalması. Məsələn, 500 neft fyuçersinə sahib olan investor, bu mövqeyini bağlamadıqca açıq mövqeyə malik olur.

- **Açıq mövqelərin sayı**
  Open interest

Müəyyən dövr üzrə açıq (həyata keçirilməmiş və ya başa çatmamış) bütün fyuçers və opsion müqavilələrinin sayı.

- **Açıq səhmdar cəmiyyəti**
  Public corporation

Səhmləri səhmdarları tərəfindən digər səhmdarlarının razılığı olmadan belə müstəqil surətdə özgəninkiləşdirilə bilən səhmdar cəmiyyət.

- **Açıq səhmdar cəmiyyətinə çevrilmə**
  Going Public

Qapalı səhmdar cəmiyyətinin və ya özəl şirkətin listinqdən keçərək ilk dəfə səhmlərini sərbəst bazarda kütləvi təklif etməsi

- **Açıq sifariş**
  (açıq sərəncam, açıq əmr)
  Open order

Qiymətli kağızların alqı-satqısı üzrə həyata keçirilməmiş və ya ləğv olunmamış sifariş.

- **Açılışa qədər ticarət**
  Pre-market trading

Birjaların ticarət sessiyasının rəsmi başlanmasından öncə aparılan ticarət.

- **Açılışın (ticarətin) ləngiməsi**
  Delayed opening

Müəyyən səbəblərdən birjada ticarətin başlanmasının (hərracın açılışının) ləngiməsi. Gecikmənin səbəbləri alış və ya satış tələblərinin çox olması və ya yayılması üçün müəyyən vaxt tələb edən korporativ xəbərlərin gözlənilməsi ola bilər.

- **Adi (oksidləşən) metallar**
  Base metals

Mis, dəmir və ya qalay kimi (qızıl, gümüş və ya platin kimi nəcib metallardan fərqli olaraq) açıq havada və ya rütubətdə qaldıqda paslanan və ya korlanan, nisbətən ucuz və adi metallar.

- **Adi (sadə) səhm**
  Common stock (common share, equity share, ordinary share)

Sahibinə səhmdar cəmiyyətin idarə heyətinin üzvlərinin seçilməsində və səhmdarların ümumi yığıncağında səhmdar cəmiyyətinə aid olan digər məsələlərin həll edilməsində iştirak etmək hüququnu verən səhm. Səhmdar cəmiyyətin mənfəətindən imtiyazlı səhm sahiblərinə divident faizi ödənildikdən sonra qalan mənfəətin bir hissəsi adi səhm sahibləri arasında divident şəklində bölüşdürülür. İmtiyazlı səhmdən fərqli olaraq adi səhmlər üzrə dividentin həcmi səhmdar cəmiyyətin mənfəətinin həcmindən asılı olaraq dəyişir.

- **Adi birja sövdələşməsi**
  Cash transaction (spot)

Sövdələşmə predmeti olan qiymətli kağızların və əmtəələrin

təqdimi və pul ödənişləri təxirə salınmadan sövdələşmə günü və ya sövdələşmə günündən sonrakı iki gün ərzində həyata keçirilən birja sövdələşməsi (ticarəti).

- **Adlı (qeydiyyatdan keçmiş) istiqraz**
  Registered bond

Emitent-şirkətin reyestrində sahibinin adına qeydiyyata alınmış istiqraz. Belə istiqrazlar üzrə mülkiyyət hüququ yalnız onların qeydiyyatdan keçmiş sahiblərinin razılığı ilə başqasına keçə bilər və bu proses ötürücü yazı və reyestrdə məlumatların dəqiqləşdirilməsi ilə müşayiət olunur. Əksər hallarda belə istiqrazlar üçün sertifikatlar buraxılmır, bu zaman bütün məlumatlar hesablar üzrə aparılan qeydlər şəklində mövcud olur.

- **Adlı qiymətli kağızlar (qeydiyyatdan keçmiş qiymətli kağızlar)**
  Registered securities (registered certificates)

Müəyyən şəxsin adına qeydiyyatdan keçirilmiş qiymətli kağızlar. Belə qiymətli kağızların sahibləri haqqında məlumatlar emitent tərəfindən qeydiyyata alınır və onların satışı zamanı sahiblərinin ötürücü yazısı tələb olunur.

- **Adlı veksel**
  Inscribed bill

Üzərində sahibinin adı qeyd olunmuş veksel. Bu veksel üzrə əməliyyatlar sahibinin tanınmasını tələb etdiyindən onu başqa bir şəxsə ötürmək olmur.

- **Admonisiya (ehtiyat tədbiri)**
  Admonition

Borc alan tərəfindən götürülən borc məbləğinin ödəniləcəyi barədə borc verən (kreditor) tərəfə təqdim edilən yazılı öhdəlik.

- **Adsız istiqraz**
  Bearer bond

Təqdim edənə faiz və borc məbləğinin alınması hüququnu verən istiqraz.

- **Adsız qiymətli kağız**
  Bearer security

Sahibi haqqında heç bir yerdə qeydiyyat aparılmayan qiymətli kağızlar. Bu qiymətli kağızlar üzrə sahiblik hüququ müvafiq sertifikatı təqdim edən şəxsə aiddir. Anonimliyini saxlamaq istəyən investorlar üçün maraqlıdır.

- **Adsız səhmlər**
  Bearer shares

Sahibi haqqında heç bir yerdə qeydiyyat aparılmayan səhmlər. Bu səhmlər üzrə sahiblik hüququ mü-

vafiq sertifikata malik olan şəxsə aiddir. ABŞ və Böyük Britaniyada səhmlərin belə forması artıq sıradan çıxmışdır.

- **Agent müqaviləsi (sığorta üzrə)**
  Contract of agency

Sığorta hadisəsi baş verdikdə qorunan əmanətçilərə kompensasiyaların ödənilməsinin təşkil edilməsi məsələlərini tənzimləyən agent müqaviləsi.

- **Agent**
  Agent

Başqa fiziki və ya hüquqi şəxsin adından, müəyyən komissiya haqqı müqabilində, onun hesabına və riskinə alqı-satqı aparan fiziki və ya hüquqi şəxs. Bir qayda olaraq, agent alqı-satqı predmetinin sahibi olmadığından mümkün zərərə görə risklər də onun üzərinə deyil, təmsil etdiyi tərəfin üzərinə düşür.

Bəzən vasitəçi, təmsilçi, səlahiyyətli nümayəndə və etibarlı şəxs də adlandırılır.

- **Agent-transfer**
  Agent-transfer

Qiymətli kağızlar bazarında reyestr saxlayıcısı və qeydiyyatdan keçmiş şəxslər və ya onların səlahiyyətli nümayəndələri arasında vasitəçilik funksiyasını həyata keçirən hüquqi şəxs. Agent-transfer reyestr saxlayıcısı ilə bağlanmış müqavilə əsasında fəaliyyət göstərir və qiymətli kağızlar bazarının peşəkar iştirakçısı sayılır. Agent-transfer qeydiyyatdan keçmiş şəxslər və ya onların səlahiyyətli nümayəndələrindən reyestrdə lazımi əməliyyatlar aparmaq üçün zəruri olan məlumatların və sənədlərin qəbul edilməsi və reyestr saxlayıcısına verilməsi, həmçinin, reyestr saxlayıcısından qarşı tərəfə lazım olan məlumat və sənədlərin qəbul edilməsi və ötürülməsi funksiyalarını həyata keçirir. Agent-transfer qeydiyyatdan keçmiş şəxslər üçün reyestrdə hər hansı bir digər əməliyyat aparılması, hesabların açılması, bu hesablar üzrə əməliyyatların aparılması və s. bu kimi digər funksiyaları həyata keçirmək səlahiyyətinə malik olmur.

- **"Ağ cəngavər"**
  White knight

Rəqib ("Qara cəngavər") tərəfindən ələ keçirilmək təhlükəsindən qorunmaq üçün şirkət tərəfindən axtarılan potensial dost alıcı və ya müəyyən bir şirkətə kömək etmək niyyətində olan korporasiya, şəxsi kompaniya və ya fiziki şəxs. Göründüyü kimi, "Ağ Cəngavər"in iki növü ola bilər: (i) birinci növ "Ağ Cəngavər" rəqib şirkət tərəfindən alınma təhdidi altında olan hədəflənmiş şirkəti daha əlverişli şərtlərlə almaq haqqında yeni təkliflə çıxış edən alıcıdır; (ii) ikinci növ

"Ağ Cəngavər" rəqib şirkət tərəfindən alınma təhdidi olmayan güclü şirkəti əlverişli şərtlərlə almaq təklifi ilə çıxış edən alıcıdır.

- **Ajio-konto**
  Agio-conto

Gəlirləri və zərərləri əks etdirən hesab.

- **Ajio**
  Agio

1) Qızılın bazar qiyməti ilə verilmiş qızıl miqdarını nominal olaraq təmsil edən nağd pulun kəmiyyəti arasında fərq (qızıl standartı şərti daxilində);

2) Qiymətli kağızların bazar qiyməti ilə onların nominal dəyəri arasında fərq;

3) Çatdırılma müddəti müxtəlif olan qiymətli kağızların dəyərləri arasında fərq;

4) Pulun müxtəlif formalarının dəyərləri arasında fərq (məsələn, valyutaların mübadiləsi, xırda pulların iri pullara dəyişdirilməsi, kağız pulun qızıla dəyişdirilməsi (qızıl standartı şərti daxilində) zamanı bank tərəfindən götürülən komissiya haqqı);

5) Bankın götürdüyü və verdiyi kreditlər üzrə faiz dərəcələri arasında fərq;

6) Əmtəənin cari qiyməti ilə müddətli sövdələşmə qiyməti arasındakı müsbət fərq.

- **Ajiotaj**
  Agiotage

1) Hər hansı bir fəaliyyətdə, ani dəyişikliklər səbəbindən yaranmış təşviş, vahimə;

2) Əmtəənin və ya qiymətli kağızların qiymətinin, eləcə də, valyuta kursunun gözlənilmədən (ani) dəyişməsi. Adətən, bu zaman bazar subyektlərinin bir qismi yüksək mənfəət qazanır, digər qismi isə böyük ziyanla üzləşir;

3) Kəskin qiymət dəyişmələri zamanı yüksək mənfəət əldə edilməsi məqsədi ilə valyuta və qiymətli kağızların mübadiləsi ilə bağlı ehtikar əməliyyatlarla müşayiət olunan vəziyyət.

- **Akkreditə olunmuş investor**
  Accredited investor

1) Maliyyə məsələlərində səlahiyyətlərinə münasibətdə müvafiq tələblərə uyğun gələn institusional və ya fərdi investor;

2) ABŞ-da illik gəlirlərinin, xalis aktivlərinin və investisiya qoyuluşlarının həcmi ABŞ Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyasının müəyyən etdiyi müvafiq tələblərə cavab verən investor. Bu tələblərə cavab verən investorlar məhdud məsuliyyətli əməkdaşlıqda iştirak edən investorların sayına qoyulan məhdudiyyətin təsir dairəsinə düşmürlər. ABŞ qanunvericiliyinə görə akkreditə olunmuş investor

aşağıdakı tələblərdən birinə cavab verən fiziki şəxs hesab olunur: (i) özünün və ya həyat yoldaşı ilə birlikdə malik olduğu xüsusi kapitalın məbləği 1 mln. ABŞ dollarından çoxdur və ya (ii) son ardıcıl iki il ərzində hər il üçün özünün gəliri 200 min ABŞ dollarından və ya həyat yoldaşı ilə birlikdə gəliri 300 min ABŞ dollarından çoxdur və cari ildə gözlənilən gəlirin bu səviyyədən az olmayacağına tutarlı əsaslar vardır.

- **Aksept (qəbul etmə, təsdiq etmə, razılıq)**
  Acceptance (accept)

1) Müqavilənin bağlanması, yaxud müqavilə şərtlərinin dəyişdirilməsi barəsində təklifə razılığın verilməsi (bu zaman: (i) aksept tam və qeyd-şərtsiz olmalıdır; (ii) əgər oferent aksept üçün müddət müəyyənləşdiribsə, aksept yalnız həmin müddətdə həyata keçirilə bilər).

2) Ödəyən subyekt tərəfindən veksel, çek və hesab üzrə borc məbləğinin təsbit olunmuş müddətdə ödənilməsi barədə öhdəliyin qəbul edilməsi;

3) Bank tərəfindən köçürmə veksel üzrə ödənişin vaxtında ödənilməsi ilə bağlı zəmanətin təqdim edilməsi;

4) Pul və ya əmtəə sənədlərində (ödəniş məqsədilə təqdim olunmuş) göstərilən məbləği ödəmək barəsində ödəyən (borclu) tərəfin rəsmi razılıq təqdim etməsi;

5) Köçürmə vekselin üzərində borclu tərəfin ödəniş barəsində razılığını bildirən (təsdiq edən) imzanın qoyulması;

6) Bank tərəfindən mal göndərən, iş görən, yaxud xidmət göstərən tərəfə məxsus hesaba ödəniş edilməsi barəsində rəsmi razılığın təqdim edilməsi.

- **Aksept evi**
  Accepting house

Əsasən, yardımçı maliyyə xidmətlərinin (ticarət, xüsusi ilə də xarici ticarət əməliyyatları zamanı meydana gələn köçürmə veksellərinin (trattaların) akseptləşdirilməsi, qiymətli kağızların yeni buraxılışlarının yerləşdirilməsi, birləşmələr və udulmalar, xarici valyuta əməliyyatları, investisiya portfellərinin idarə olunması kimi müəyyən maliyyə əməliyyatları ilə əlaqədar məsələlər üzrə məsləhətlər verilməsi və s.) üzrə ixtisaslaşan maliyyə qurumu. Məsələn, Böyük Britaniyada ticarət bankı kimi formalaşan və əsasən, xarici ticarətin kreditləşdirilməsi üzrə ixtisaslaşan belə bir qurum kommersiya veksellərinin akseptləşdirilməsi ilə yanaşı, kredit və depozit əməliyyatları da həyata keçirir və müştərilərinə bank-kredit sahəsində məsləhət xidmətləri də göstərir.

- **Aksept krediti**
  Acceptance credit

Bank tərəfindən müəyyən komissiya haqqı müqabilində alıcı və ya satıcının verdiyi köçürmə vekselin akseptləşdirilməsi qaydasında kredit təqdim edilməsi. Bu prosesdə bank müəyyən mənada kreditor qismində çıxış etsə də, əvvəlcədən kredit məbləğini təqdim etmir və aksept əməliyyatına öz vəsaitini qoymur, yalnız, ödəniş müddəti çatdıqda veksel üzrə ödənişi həyata keçirməyi öhdəsinə götürür. Məhz, bu cəhət aksept kreditini kommersiya kreditindən fərqləndirir. Xarici ticarət əməliyyatları üçün xarakterik olan belə sövdələşmədə rəsmi kreditor kimi satıcı çıxış edir, akseptin olması isə onun üçün satış prosesini və ya vekselin uçotunu asanlaşdırır.

- **Aksept tapşırığı**
  Acceptance order

Alıcı (idxalçı) tərəfin ona xidmət edən banka onun hesabında olan vəsaitin qismən və ya tam həcmdə müəyyən bir hesabda depozitə qoyması və aksepti barəsində təqdim etdiyi ödəniş tapşırığı. Aksept tapşırığını alan bank satıcı (ixracatçı) tərəflə ödənişi həmin xüsusi hesabda depozitə qoyduğu və akseptləşdirdiyi məbləğ əsasında həyata keçirir. Əsasən, xarici ticarət əməliyyatları zamanı istifadə olunur.

- **Akseptant**
  Acceptor

1) Üzərinə vekselin ödənişi barəsində öhdəlik götürmüş və bunu vekselin üzərində imzası ilə təsdiq edən fiziki və ya hüquqi şəxs. Akseptant həmin sənəd üzrə əsas borclu tərəf sayılır;

2) Köçürmə vekselin üzərində göstərilən məbləğin ödənişi ilə bağlı zəmanət təqdim etmiş bank.

- **Aktiv bazar (fəal bazar)**
  Active market (tight market)

Həyata keçirilən əməliyyatların həcminin böyüklüyü, satış və alış qiymətləri arasındakı spredin kiçikliyi və rəqabətin yüksək səviyyəsi ilə səciyyələnən qiymətli kağızlar bazarı.

- **Aktiv əməliyyatlar**
  Active operations

Hər hansı iqtisadi subyektin (dövlətin, müəssisənin, yaxud hər hansı fiziki şəxsin) özünə məxsus olan maliyyə resurslarını mənfəət əldə etmək məqsədilə dövriyyəyə buraxması, yaxud idarə etməsi. Hər hansı hüquqi və ya fiziki şəxsin özünün sərbəst pul vəsaitlərini qiymətli kağızlara investisiya şəklində yatırması, yaxud dövlətin öz valyuta ehtiyatlarını mənfəət əldə etmək məqsədilə xarici aktivlərdə, eləcə də xarici valyutada saxlaması (idarə etməsi) da aktiv əməliyyatlara aiddir.

- **Aktivin dəyərinin artması (bahalaşması)**
  Appreciation

Bazar qiymətlərinin artması nəticəsində aktivin dəyərinin artması. Dəyərdən düşmənin (ucuzlaşmanın) əksi.

- **Aktivlər üzrə zərərin ödənilməsi üçün "adi" ehtiyatlar**
  "Common" store for compensation paid to assets

Bankın "standart aktivlər"i üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış ehtiyat.

- **Aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli" ehtiyatlar**
  "Purposeful" (special purpose) store for compensation paid to assets

Bankın "qeyri-standart aktivlər"i üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış ehtiyat.

- **Aktivlər**
  Assets

Fiziki və ya hüquqi şəxslərin malik olduqları maşın və avadanlıqlar, binalar, pul vəsaitləri, bank depozitləri, qiymətli kağızlar, patentlər və digər bu kimi digər bütün maddi və qeyri-maddi mülkiyyət obyektləri. Aktivlər xarakterinə görə iki böyük qrupa bölünür: maddi aktivlər və qeyri-maddi aktivlər. Maddi aktivlərə daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və s. bu kimi fiziki formaya malik olan monetar aktivlər, qeyri-maddi aktivlərə isə patentlər, müəllif hüquqları, ticarət markaları və s. bu kimi fiziki formaya malik olmayan tanına bilən qeyri-monetar aktivlər aiddir.

- **Aktivlərin bölünməsi (ayrılması)**
  Asset stripping

Əsasən, mənfəət götürmək məqsədi ilə bazar qiyməti aktivlərin dəyərindən aşağı düşdüyü halda şirkətin səhmlərinin alınması yolu ilə aktivlərin əldə edilməsi və sonradan həmin aktivlərin hamısının və ya bir qisminin satılması.

- **Aktivlərin idarə edilməsi**
  Asset management

1) Müəyyən investisiya məqsədlərinə nail olmaq üçün müştərilərin vəsaitlərinin toplanması və investisiya portfelinin yaradılması (qiymətli kağızlara və ya digər aktivlərə yatırmaq) yolu ilə peşəkar səviyyədə idarə olunması.

2) Şirkətə və ya banka məxsus maliyyə resurslarından gələn gəlirləri maksimallaşdırmaq məqsədilə onların idarə olunması.

Adətən, aktivlərin idarə edilməsini investisiya şirkətləri (fond-

ları) və investisiya bankları həyata keçirir.

- **Aktivlərin müddətlərinə görə sıralanması**
  Laddering

Müxtəlif müddətlərə malik aktivlərə təqribən bərabər həcmdə investisiya qoyulması yolu ilə investisiya portfelinin formalaşdırılması strategiyası.

- **Aktivlərin yerləşdirilməsi (paylanması)**
  Asset allocation

Risklərin balanslaşdırılması məqsədi ilə tətbiq olunan investisiya strategiyası. Bu strategiya mövcud vəsaitlərin müxtəlif aktivlər (səhmlər, istiqrazlar, törəmə maliyyə alətləri və s.), o cümlədən yerli və xarici aktivlər arasında paylanmasını nəzərdə tutur. Başqa sözlə, müxtəlif gəlirlilik və risk dərəcəsinə malik aktivlərdən ibarət investisiya portfelinin strukturunun formalaşdırılması.

- **Aktivlərlə təmin edilmiş qiymətli kağızlar**
  Asset-backed securities
  (Asset-based securities, ABS)

Dəyəri və ödənişləri müvafiq baza aktivlərindən gələn vəsaitlər hesabına formalaşan qiymətli kağızlar. Bu tip qiymətli kağızlar, adətən, avtomobil kreditləri və kredit kartı üzrə ödənişlər kimi kiçik və qeyri-likvid aktivlər hovuzunun sekuritizasiyası yolu ilə yaradılır. İnvestorlar üçün bu cür qiymətli kağızlar korporativ borc alətlərinə investisiyanın alternatividir.

- **Aktuar hesablamalar**
  Actuarial calculations

Maliyyə, xüsusilə də sığorta əməliyyatlarında ehtimal nəzəriyyəsi, statistika və riyazi üsulların tətbiqi ilə aparılan hesablamalar sistemi. Əvvəllər, həyat sığortası və pensiya məqsədləri üçün sığorta fondunun əmələ gəlməsi və xərclənməsi mexanizminin qurulmasında riyazi düsturların köməyi ilə aparılan hesablamaları əhatə edirdi (bu zaman aktuar hesablamalar sığorta olunanın yaşından asılı olaraq sığorta hadisəsi ehtimalının müəyyən edilməsi əsasında aparılır). Sonradan aktuar hesablamalar əlillik zamanı sığorta, əmlak sığortası daxil olmaqla bütün sığorta növləri üzrə tariflərin hesablanmasını əhatə etdi. Aktuar hesablamanın köməyilə sığorta fondunun yaradılmasında hər bir sığortalının iştirak payı müəyyən edilir, yəni tarif dərəcələrinin ölçüləri müəyyən edilir. Aktuar hesablamalar metodologiyasında ehtimal nəzəriyyəsindən, demoqrafik məlumatlardan, uzunmüddətli statistik məlumatlardan, maliyyə hesablamalarından istifadə edilir.

Maliyyə hesablamalarının köməyilə sığortaçının sığortalayanlar tərəfindən akkumulyasiya olunmuş ödənişlərinin kredit resursları kimi istifadə edilməsindən əldə olunan gəlirlər də nəzərə alınır. Hazırda aktuar hesablamalardan sığorta əməliyyatları ilə yanaşı, digər maliyyə əməliyyatlarında da tərəf-müqabillər arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində, o cümlədən qarşılıqlı öhdəliklərin müəyyənləşdirilməsində geniş istifadə olunur.

- **Aktuar mənfəət və zərər**
  Actuarial gains and losses

Müəyyən dövr ərzində şirkətin aktuar qiymətləndirmələrə nəzərən yaranan əlavə mənfəəti və ya zərəri. Bunlar aşağıdakılarla əlaqədar yaranır: (i) təcrübə əsasında dəqiqləşdirmələr aparılması (gələcək hadisələr haqqında ilkin aktuar fərziyyələrlə həqiqətdə baş verənlər arasındakı fərqə əsasən); (ii) aktuar fərziyyələrdə dəyişiklər baş verməsi.

Aktuar mənfəət və zərərlər müəyyən olduqları dövrlərin mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir.

- **Aktuar risk**
  Actuarial risk

Aktuar hesablamaların xətası ilə əlaqədar yaranan risk. Aktuar risk sığorta hadisəsinin baş verməsinin riyazi gözləməsi ilə ölçülür. Bu risk müəyyən sığorta mükafatının ödənilməsi əvəzinə örtülür.

- **Aktuariat**
  Actuariat

Maliyyə, xüsusilə də sığorta əməliyyatlarında ehtimal nəzəriyyəsi, statistika və riyazi üsulların tətbiqi sahəsi. Əvvəllər aktuariatdan yalnız həyat sığortasında istifadə olunsa da, sonralar bu üsullar sığortanın digər növlərinə də tətbiq olunmağa başladı. Hazırda qiymətli kağızlar bazarında investisiya risklərinin qiymətləndirilməsi başda olmaqla, bir sıra maliyyə əməliyyatlarında da aktuariatdan istifadə olunur. Aktuariat maliyyə riyaziyyatının əsasını təşkil edir. Aktuariat istiqrazların nəzəri əsaslandırılması və praktiki tətbiqində də öz əksini tapmışdır. Bundan əlavə, ehtimalın hesablanması əsasında seçim edilən maliyyə əməliyyatlarında da aktuariat tətbiq edilməyə başlanmışdır: birja siyasətinin formalaşması, likvid vəsaitlərdən istifadə edilməsi yollarının müəyyənləşdirilməsi, gəlirlərin aktuallaşdırılmasına əsaslanan investisiyaların seçilməsi bu qəbildəndir.

- **Akvizisiya (əldə etmə, satın alma)**
  Acquisition

Birjada bir şirkətin səhmlərinin digər şirkət, şəxslər qrupu və ya şəxs tərəfindən nağd pul, səhmlər

və ya ikisinin kombinasiyası formasında alınması. Akvizisiya razılıq (friendly acquisition) və ya təcavüz (hostile acquisition) yolu ilə həyata keçirilə bilər. Dostcasına akvizisiya hədəflənmiş şirkət ilə alqı-satqı haqqında razılıq əldə olunmaqla, təcavüzkar akvizisiya isə hədəflənmiş şirkətin nəzarət paketini əldə etmək məqsədilə bu şirkətin səhmlərinin aktiv şəkildə alınması əsasında həyata keçirilir. Hər iki halda hədəflənmiş şirkətin səhmdarlarını səhmlərini satmağa təşviq etmək məqsədilə bu səhmlərə görə bazar qiymətindən daha yüksək qiymət təklif olunur.

- **Alan tərəf**
  Buy-side

Əsas işi böyük həcmdə qiymətli kağızları özləri və ya investorları üçün almaq olan maliyyə institutları. Məsələn, investisiya fondları, pensiya və sığorta fondları.

- **Alfa (alfa əmsalı)**
  Alpha

Risk/gəlirlilik modellərinin (məsələn CAPM) proqnozlaşdırdığı gəlirlilik səviyyəsindən artıq olan gəlirlilik. Qiymətli kağızın və ya fondun riskə uyğunlaşdırılmış gəlirliliyini ölçür. Məsələn, CAPM təhlili əsasında portfelin gəlirliliyi 10% proqnozlaşdırılmış, lakin gəlirlik 15% təşkil etmişdir. Bu təqdirdə Alfa 5% təşkil edir.

- **Alıcı opsionu (“Koll” opsionu)**
  Call option

Saxlayana müəyyən miqdar qiymətli kağızı müəyyən müddət ərzində müəyyən olunmuş qiymətə almaq hüququ verən opsion müqaviləsi. “Koll” opsionun alıcısı opsionu istifadə etmək istədikdə opsionun satıcısı müvafiq baza qiymətli kağızı satmaq öhdəliyi daşıyır.

- **Alıcı və satıcı qiyməti**
  Bid and ask

Alıcıların və satıcıların təkliflərinin birgə kotirovkası əsasında müəyyən olunan alıcıların ödəməyə hazır olduqları ən yüksək qiymət və satıcıların qəbul etdiyi ən aşağı qiymət (və ya bu qiymətlər arasındakı fərq).

- **Alıcının bazarı**
  Buyer's market

Təklifin tələbi xeyli üstələməsi nəticəsində alıcı üçün faydalı olan konyunkturanın yarandığı bazar. Bəzən yumşaq bazar da adlandırılır. Satıcı bazarının əksidir.

- **Alıcının qiyməti**
  Bid price

Qiymətli kağız və digər maliyyə alətləri almaq üçün alıcıların ödəməyə hazır olduqları (təklif etdikləri) ən yüksək qiymət, başqa sözlə, market-meykerlərin qiyməti.

- **Alış üzrə təklif (sifariş)**
  Bid

Müvafiq bazarda qiymətli kağızlar, valyuta və depozit alınması üzrə təklif (sifariş) verilməsi.

- **Alqı-satqı dəhlizi (diapazonu)**
  Trading band

Hökumətin və ya Mərkəzi Bankın öz ölkəsinin pul vahidinin müdaxilə olmadan mübadilə əməliyyatlarına daxil olmasına icazə verdiyi formal mübadilə məzənnəsi hədləri. Müdaxilə dəhlizi (diapazonu) kimi də tanınır. Bəzən bu siyasət sabit məzənnənin tədrici artırılması və ya azaldılması sistemi ilə də əlaqələndirilir.

- **Alqı-satqı kotirovkası**
  Bid-ask quote

Alıcıların və satıcıların təklif etdikləri qiymətlərin qarşılaşdırılması əsasında qiymətlərin müəyyənləşdirilməsi. Hər hansısa qiymətli kağızın alış və satış qiymətini bir arada əks etdirir.

- **Alqı-satqı spredi**
  Bid-ask spread

Alış və satış qiymətləri arasında fərq. Məsələn, əgər alış qiyməti 20 ABŞ dolları, satış qiyməti isə 21 ABŞ dollarına bərabərdirsə, alqı-satqı spredi 21-20=1 ABŞ dollarına bərabər olar.

Satıcı və alıcı qiyməti arasındakı fərqin az olması, qiymətli kağızın likvid olması deməkdir.

- **Allonj**
  Allonge

Vekselə (və ya dövriyyədə olan digər qiymətli kağızlara) birləşdirilmiş əlavə vərəq. Bu vərəqdə vekselin arxa tərəfinə sığışmayan imzalar (indossamentlər) həkk olunur. Həmin imzalar elə həkk olunur ki, onların başlanğıcı vekselin, sonu isə allonjun üzərində yerləşmiş olsun. Bununla yanaşı, allonjun üzərində ötürücü qeydlər və aval da həkk oluna bilər.

- **Alman Birja İndeksi (DAX)**
  Deutsche Aktien Index
  (German Stock Exchange DAX)

Frankfurt fond birjası (Deutsche Boerse) tərəfindən hesablanan indeks. XETRA elektron ticarət sistemində səhmləri ticarətdə olan şirkətləri əhatə edir.

- **Alpari (nominal dəyər üzrə, paritet üzrə)**
  At par

Qiymətli kağızın (səhmin, istiqrazın, vekselin və s.-nin) və ya valyutanın bazar dəyərinin nominal dəyərilə bərabər olması. Əksər hallarda bu anlayış istiqrazlara münasibətində istifadə edilir. Alpari ilə ticarət olunan istiqrazın

gəlirliliyi kuponlar üzrə ödəmələrə bərabərdir. Faiz dərəcələri davamlı şəkildə dəyişdiyindən, demək olar ki, maliyyə alətləri heç zaman bazarda nominal dəyərilə tam bərabər olan dəyər ilə ticarət olunmur. Aydındır ki, faiz dərəcəsi istiqrazın kupon dərəcəsindən yüksək və ya aşağı olduqda bu istiqraz Alpari ilə ticarət olunmayacaq.

- **Alternativ xərclər**
  Opportunity cost

1) Müəyyən fəaliyyəti davam etdirmək üçün imtina edilməli olan alternativin dəyəri. Başqa sözlə, imtina edilmiş alternativ fəaliyyətin seçilməsi halında əldə oluna biləcək əlavə gəlir;

2) Seçilmiş və imtina edilmiş investisiya qoyuluşu imkanları arasındakı gəlirlilikdəki fərq. Məsələn, səhmə investisiya qoymaqla illik bu investisiyanın 2%-i məbləğində gəlir əldə edilmişdir, lakin bu vəsait illik 6% gəlir gətirən risksiz (etibarlı) dövlət istiqrazı kimi digər aktivə də yönəldilə bilərdi. Bu halda, itirilmiş imkanın dəyəri 4% olur (yəni 6% - 2%).

- **Amerika Fond Birjası**
  American Stock Exchange (AMEX)

Əhəmiyyətinə görə ABŞ-ın Nyu-York Fond Birjasından sonra ikinci böyük fond birjası olmaqla kiçik və orta (əksəriyyəti neft və qaz sahəsinə aid olan) şirkətlərin qiymətli kağızlarının və Nyu-York birjasında dövriyyədə olan səhmlərə opsionların tədavülü üzrə ixtisaslaşmışdır. Burada bəzi birjadankənar səhmlərin dövriyyəsi də həyata keçirilir. Alıcı və satıcılara rəqabət aparmaq imkanı verən mərkəzləşdirilmiş açıq auksion bazarı kimi fəaliyyət göstərir. 1908-ci ildə Nyu-York Birjadankənar Agentliyi adı ilə yaradılsa da, "Küçə birjası" adı ilə məşhur olmuşdur. 1953-cü ildən indiki adı ilə tanınır.

- **Amerikan Depozitar Qəbzi (ADQ)**
  American Depositary Receipt (ADR)

Xarici şirkətlərin səhmləri üzrə mülkiyyət hüququnu təsbit edən sərbəst dövriyyəli maliyyə aləti. Bu qəbzlər vasitəsilə ABŞ investorları xarici əməliyyatlar aparmadan xarici şirkətlərin səhmlərini (xarici qiymətli kağızlar portfelinin bir hissəsini) ala bilirlər ki, bu da həm şirkət, həm də investorlar üçün administrativ və ticarət xərclərini azaltmağa imkan verir. Bu qəbzlərin nominalı və onlar üzrə dividentlər ABŞ dollarında ifadə olunur. ADQ-lər amerikan depozitar bankları və investisiya bankları tərəfindən buraxılır. İlk ADQ 1927-ci ildə JPMorgan tərəfindən Selfridges&Co ingilis şirkəti üçün buraxılmışdır.

- **Amerikan tipli opsion**
  American option
  (American-style option)

Kontrakt dövrü ərzində onu təqdim edən və ya alan tərəfin təşəbbüsü ilə istənilən anda istifadə oluna bilən opsion. Bu xüsusiyyət Amerikan opsionunu Avropa opsionundan fərqləndirir və onun yüksək likvidliliyini təmin edir.

- **Amortizasiya dəyəri**
  Amortization cost(s)

Aktivin dəyərinin müəyyən dövrün xərclərinə aid olunan hissəsi. Əsas vəsaitlərin amortizasiya dəyəri onların ilkin dəyərləri ilə ləğv olunma dəyərləri arasındakı fərq kimi hesablanır.

- **Amortizasiya**
  Amortization

1) Əsas fondların, yəni binaların, avadanlıqların, qurğuların və s. bu kimi qiymətlilərin tədricən köhnələrək öz dəyərini hissə-hissə istehsal olunan məhsulun üzərinə keçirməsi;

2) Müəssisə tərəfindən pul vəsaitinin yığılması və köhnəlmiş əsas fondların yeniləri ilə əvəz edilməsi. Hazırda bir sıra ölkələrdə sürətli amortizasiya tətbiq edilir ki, bu da bir tərəfdən, vergiyə cəlb olunan mənfəətin həcmini azaldır, digər tərəfdən, müəssisənin yeni texnika və avadanlıqlarla təchiz edilməsinə şərait yaradır;

3) Dövri olaraq borca görə faiz ödənişlərinin və hissə-hissə əsas borc məbləğinin ödənilməsi yolu ilə borcun ödənilməsi;

4) Borc öhdəliyini təsdiq edən sənədin itməsi və ya oğurlanması səbəbindən həmin borc öhdəliyinin qismən və ya bütünlüklə ləğv edilməsi (etibarsız sayılması).

- **Analitik (təhlilçi, təhlil üzrə mütəxəssis)**
  Analyst

Bankın, broker firmasının və ya bu kimi digər təşkilatların təhlil üzrə mütəxəssisi. Bu mütəxəssisin vəzifəsi əlaqədar iqtisadi, statistik və maliyyə, eləcə də müəyyən sahəyə aid şirkətlərin vəziyyəti üzrə məlumatları təhlil edərək müvafiq sahədə proqnozlar, məsləhətlər və tövsiyələr verməkdən ibarətdir.

- **Anderrayter**
  Underwriter

Emitentlə investorlar arasında vasitəsi kimi çıxış edən, qiymətli kağızlar buraxılışının ilkin yerləşdirilməsinə və satışına zəmanət verən və onu təşkil edən şirkət və ya digər qurum. Anderrayter emissiya edən şirkətlər üçün qiymətli kağızların buraxılış qiymətini müəyyənləşdirir, qiymətli kağızları emitentdən alaraq investorlara satışını həyata keçirir. Adətən, anderrayter rolunda investisiya bankları, birja brokerləri

və ya onların sindikatları çıxış edirlər.

- **Anderlainq**
  Underlying

Alqı-satqı hüququ opsion müqaviləsinin şərtlərindən asılı olan qiymətli kağızlar.

- **Anderraytinq (qiymətli kağızlar üzrə)**
  Securities underwriting

İnvestisiya banklarının və ya digər ixtisaslaşmış maliyyə qurumunun emitentin (səhmdar cəmiyyətlər və ya dövlətlər) adından çıxış edərək investorları cəlb etməsi və emitentin buraxdığı qiymətli kağızları bazarda yerləşdirməsi prosesi. Qiymətli kağızların anderraytinqini öz üzərinə götürməklə müvafiq qurum (anderrayter) bu qiymətli kağızların satılması öhdəliyini götürür və bu risk müqabilində "anderraytinq spredi" (investorlara satışdan əldə olunan gəlir ilə emitentə ödənilən vəsait arasındakı fərq) qazanır.

- **Annuitet (maliyyə rentası)**
  Annuity

Müəyyən dövr ərzində eyni məbləğdə ödənişlərlə əlaqədar pul axınlarını ifadə edir. Əsasən aşağıdakı formalarda təzahür edir:

1) Bərabər zaman müddətində bərabər məbləğli ödəniş. Bu cür ödənişə dövri olaraq bərabər zaman müddətində və bərabər məbləğdə həm əsas, həm də faiz ödənişləri həyata keçirilən kreditlər, amortizasiya fonduna ayırmalar, ipoteka ödənişləri, sığorta haqları üzrə ödənişlər və s. bu kimi pul axınları aiddir;

2) Kreditora il ərzində bir dəfə həm əsas məbləğin müəyyən hissəsini, həm də faiz ödənişlərini almağa imkan verən uzunmüddətli dövlət borcu.

- **Antisipasiya**
  Anticipation

1) Borc öhdəliyinin vaxtından öncə icra edilməsi, o cümlədən borc məbləğinin vaxtından öncə qaytarılması;

2) Verginin vaxtından öncə yığılması (tutulması).

- **Aparıcı menecer**
  Lead manager/underwriter

Qiymətli kağızların buraxılışının (emissiyasının) təşkili üzrə əsas məsuliyyəti üzərinə götürmüş investisiya bankı və ya hər hansı maliyyə institutu. Məsələn, qiymətli kağızlar buraxılışının yerləşdirilməsi zamanı anderraytinq prosesində iştirak edən anderrayterlər qrupunun (sindikatının) rəhbəri.

- **Aport**
  Apportionment

Səhmdar cəmiyyətə təsisçilər tərəfindən səhmlərin dəyərinin

ödənişi əvəzində təqdim edilən (verilən) əmlak. Təsisçilər adətən aport formasında öz əmlaklarını yüksək qiymətlə təqdim edirlər və bu onlara daha çox səhm əldə etməyə imkan verir.

- **Ap-tik (qiymətin qalxması, canlanma)**
  Uptick (up tick, plus tick)

Eyni qiymətli kağız üçün əvvəl qeydə alınmış qiymətə nisbətən daha yüksək qiymətə əqdlərin bağlanması. Belə bir əqdin qiyməti displeydə plyus işarəsi ilə göstərilir.

- **Aralıq divident**
  Interim dividend

Bir il üçün dividentin ümumi məbləği elan edilməmişdən əvvəl maliyyə ilinin bir hissəsi üçün (məsələn: rüb və ya birinci yarımillik üçün) avansla ödənilə bilən divident

- **Aralıq maliyyə**
  Mezzanine finance

Digər borclardan daha aşağı, adi səhmdən isə daha yuxarı üstünlüyə malik borc. Adətən, kredit hesabına alış əməliyyatlarında istifadə olunur.

- **Aralıq maliyyələşdirmə**
  Mezzanine financing

Mövcud şirkətin genişlənməsi məqsədilə istifadə olunan səhm və istiqraz qarışığından ibarət olan maliyyələşmə. Adətən, istiqrazlar buraxılır və sonra borcun ödənilməsi mümkün olmasa, qiymətli kağız sahibi əlindəki istiqrazları səhmlərə çevirir.

Adətən, daha yüksək riskə malik olduğu və girovsuz olduğu üçün tələb olunan gəlirlik yüksək – 20-30% səviyyəsində olur.

- **Aralıq ofis**
  Middle office

Maliyyə qurumunun əsasən müştərilərlə birbaşa ünsiyyətdə olan ön bölməsi (ön ofis) ilə sıx əlaqədə işləyən və ticarət əqdlərinin və ticarət mövqelərinin yoxlanılması və qeydiyyatının aparılması ilə məşğul olan idarəetmə bölməsidir.

- **Arbitraj**
  Arbitrage

Qiymət fərqinə əsaslanaraq mənfəət əldə olunması və ya ziyandan qaçılması əməliyyatı. Məsələn, eyni qiymətli kağızlar müxtəlif birjalarda eyni vaxtda fərqli qiymətlərə satılır. Bu zaman alış və satış qiymətləri arasında mövcud olan fərq bir birjaya nisbətdə digərində əlavə mənfəət qazanmaq və ya ziyandan yayınmaq imkanı yaradır. Arbitraj bazarda səmərəliliyin aşağı olması nəticəsində meydana çıxır və arbitraj nəticəsində müxtəlif bazarlarda qiymət uyğunsuzluğu aradan götürülür.

- **Arbitraj sövdələşməsi**
  Arbitrage transaction

Müxtəlif birjalarda, müxtəlif çatdırılma müddətlərində və müxtəlif ödəniş vaxtlarında qiymət fərqlərinə əsaslanan birja sövdələşməsi. Arbitraj sövdələşmələrinin aşağıdakı növlərinə rast gəlinir:

1) valyuta arbitraj sövdələşmələri müəyyən məqamda valyuta məzənnələrində yaranan fərqə əsaslanır. Sadə valyuta arbitraj sövdələşmələri eyni valyutanın məzənnələrindəki fərqə, mürəkkəb arbitraj sövdələşməsi isə bir neçə valyutanın məzənnələrindəki fərqə əsaslanır;

2) faiz arbitraj sövdələşmələri – kapital bazarlarındakı faiz dərəcələrində olan fərqə əsaslanır;

3) əmtəə arbitraj sövdələşmələri – əmtəə bazarlarındakı qiymətlərdə yaranan fərqə əsaslanır;

4) fond arbitraj sövdələşmələri – müxtəlif məzənnələr üzrə qiymətli kağızların eyni vaxtda alqı-satqısı, birja və birjadankənar bazarlarda, müxtəlif ölkələrin, regionların birja bazarlarında sövdələşmələrin, eləcə də zaman (coğrafi) qurşaqlarının müxtəlifliyindən birja məzənnələri arasındakı fərqləri nəzərə alan sövdələşmələrin eyni zamanda bağlanması;

5) eyni qiymətli kağızların abunəsi hüququnun alınması və ya eyni vaxtda satışı ilə onların konvertasiyası.

Arbitrajın alınma növlərinə görə arbitraj sövdələşmələri divident və diskont arbitraj sövdələşmələrinə ayrılır.

- **Arxa ofis (əməliyyat şöbəsi)**
  Back office

Maliyyə institutunda inzibati və köməkçi işləri yerinə yetirən bölmə. Bu bölmələr tənzimləmə, hesablaşma və mühasibatlıq kimi funksiyaları yerinə yetirirlər.

- **Artım səhmləri (artan səhmlər)**
  Growth stock

Gələcəkdə mənfəətinin artması üçün yaxşı potensiala malik olan şirkətlərin səhmləridir. Ya bu səhmlər üzrə gəlirlər kəskin artmış, ya da ki, belə artım gözlənilir. İnvestorlar belə səhmlərdən dividentlər hesabına deyil, onların məzənnələrinin artması hesabına daha çox gəlir əldə etməyi gözləyirlər.

- **Artım sürəti**
  Growth rate

Nisbi statistik göstərici olub müəyyən bir göstəricinin müəyyən dövr ərzində dəyişməsinin intensivliyini göstərir və həmin göstəricinin hesablama aparılan dövr (hesabat, plan, proqnoz dövrü) üçün mütləq qiymətinin müqayisə aparılan dövrdəki (baxılan dövrdən əvvəlki dövr, baza dövrü) mütləq

qiymətinə nisbəti kimi hesablanır. Artım sürəti göstəricinin müqayisə olunan dövrdəki səviyyəsini "1" götürdükdə əmsalla, "100" götürdükdə isə faizlə ifadə olunur. İki dövrdən (məsələn, iki ildən) çox dövr üçün artım sürəti baza dövrünə (başlanğıc ilə) və özündən əvvəlki dövrlərə (özündən əvvəlki illərə) nəzərən hesablana bilər. Birinci halda hesablama aparılan hər bir dövr üçün müqayisə aparılan dövr kimi baza dövrü (başlanğıc il), ikinci halda isə özündən əvvəlki dövr (özündən əvvəlki il) götürülür.

- **Artma ("buğa) meyli/ azalma("ayı") meyli**
  Uptrend/Downtrend

Maliyyə bazarları üzrə texniki təhlildə həm artma, həm də azalma meyllərinin eyni zamanda təsvir edilməsi. Bunun üçün qrafikdə ən azı dörd nöqtənin birləşdirilməsi zəruridir.

- **Aşağı axın**
  Downstream

Ana şirkətdən törəmə şirkətlərə maliyyə vəsaitlərinin axını (məsələn, kredit verilməsi).

- **Aşağı keyfiyyətli (keyfiyyətsiz) istiqraz**
  Junk bond

Yüksək riskli, qeyri-investisiya səviyyəli, kredit reytinqi BB və daha aşağı olan istiqraz. Bu istiqrazların riski yüksək olduğuna görə gəlirlikləri yüksək olur.

- **Aşağı həddi (limit)**
  Limit down

Bir ticarət günü ərzində əmtəə fyuçersləri müqaviləsinin qiymətinin geriləyərək düşə biləcəyi ən aşağı həddi. Qiymət aşağı həddə çatdıqda bəzi bazarlarda ticarət dayandırılır. Bəzi bazarlarda qiymət aşağı həddən qayıtdıqda ticarət təkrar başladılır. Əmtəənin qiymətinə əhəmiyyətli dərəcədə təsir edəcək bir xəbər olduqda, fyuçers müqaviləsinin qiymətinin bu xəbəri əks etdirməsi bir neçə gün çəkə bilər və nəticədə bazar bir neçə ticarət günü aşağı hədd səviyyəsinə çata və bu günlər ərzində ticarət baş verməyə bilər.

- **Aşağı qiymətləndirilmiş**
  Undervalued

Aktivlərin, qiymətli kağızların və ya valyutanın fundamental amillərə nəzərən malik olduğu dəyərindən ucuz qiymətləndirilməsi halı.

- **Aşağı salmaq (endirmək)**
  Downgrade

Qiymətli kağızın reytinqinin aşağı salınması. Bu hal təhlil nəticəsində müəssisənin cari və ya gələcək fəaliyyətində və ya müəssisənin fəaliyyət göstərdiyi sektor-

da zəifləmələrin müəyyən olunması zamanı baş verir.

- **Aşağıdan yuxarıya**
  Bottom up

İqtisadi və bazar gəlişmələrini nəzərə almadan fərdi səhmlərin təhlilinə əsaslanan investisiya strategiyası. Bu strategiyaya əsasən investor iqtisadiyyatın sektorlarına deyil, spesifik şirkətlərə fokuslaşır.

- **Auditor hesabatı**
  Auditor's report

Şirkətlərin mühasibat hesabatlarının qanunvericiliyə uyğunluğunu və maliyyə vəziyyətini tədqiq və təsdiq etmək məqsədi ilə auditorlar tərəfindən hazırlanan sənəd. Bu hər il hazırlanmalı və müvafiq tənzimləyici orqana (təftiş edilmiş maliyyə hesabatları ilə birlikdə) verilməlidir.

- **Auditor**
  Auditor

Qanunvericiliklə müəyyən edilmiş qaydada ölkə ərazisində auditor xidməti göstərən fiziki və ya hüquqi şəxs.

- **Auksion (hərrac)**
  Auction

Alıcıların müsabiqəsi əsasında malların və qiymətli kağızların müəyyən vaxtda və müəyyən edilmiş yerdə satışı. Eyni keyfiyyətli əmtəələr partiyalar (lotlar) şəklində, keyfiyyətcə oxşar lotlar isə daha iri partiyalar (strinqlər) şəklində qruplaşdırılır. Hərrac vaxtı satışa çıxarılmış lotların və strinqlərin nömrələri elan edilir. Hərraca çıxarılan əmtəə və qiymətli kağızlar ona ən yüksək qiyməti təklif edən alıcıya satılır. Hərraclar, adətən, alıcı və satıcı tərəflərin tapşırığı ilə komissiya şərtləri əsasında malların və qiymətli kağızların ticarəti ilə məşğul olan ixtisaslaşmış broker firmaları tərəfindən təşkil olunur. Ənənəvi hərraclar zamanı satıcı minimum qiymət təyin edir, alıcılar isə qiyməti artırmaqla lot uğrunda mübarizə aparırlar (bu, ingilis auksionudur). Holland auksionunda hərrac çox yüksək qiymətdən başlanır və elan edilmiş qiymətə razı olan alıcı tapılana qədər qiymət azaldılır.

- **Auksion bazarı (ikitərəfli auksion)**
  Auction market

Eyni zamanda həm alıcıların və həm də satıcıların rəqabətli təkliflərlə iştirak etdiyi bazar. Burada formalaşan qiymət alıcının ödəməyə hazır olduğu ən yüksək qiymətlə satıcının satmağa razı olduğu ən aşağı qiyməti təmsil edir. Alış və satış təkliflərindən üst-üstə düşən olarsa, onda onlar bir yerə toplanılır və sifarişlər yerinə yetirilir.

- **Autrayt**
  Outright

1) Tərəflərin ciddi şəkildə müəyyənləşdirdiyi müddət ərzində forvard kursu üzrə ödənişi nəzərdə tutan müddətli sadə valyuta sövdələşməsi;

2) Mükafat və ya güzəşt nəzərdə tutulan banklararası müddətli valyuta sövdələşmələrində valyuta kursu.

- **Autsayder**
  Outsider

1) Birjada hərdən iştirak edən şəxs, yaxud qeyri-peşəkar birja möhtəkiri;

2) Birjanın rəsmi üzvü olmayan, lakin birjanın ticarət zalında təsbit olunmuş qaydalar çərçivəsində fəaliyyət göstərməyə icazəsi olan broker;

3) Fəaliyyət göstərdiyi istehsal və ya xidmət sahəsində rəqiblərindən, yəni digər müəssisələrdən bir sıra əsas göstəricilərə görə geri qalan müəssisə, şirkət və s.

- **Aut-treyd**
  Outtrade

Hər hansı qarşılıqlı anlaşılmamazlıq və ya səhv nəticəsində uğursuzluğa düçar olan birja sövdələşməsi və ya əməliyyatı.

- **Avadanlığın kreditləşdirilməsi sertifikatı**
  Equipment trust certificate

Adətən, yeni avadanlıqların haqqının ödənilməsi məqsədi ilə buraxılan və həmin avadanlıqlarla təmin olunmuş borc qiymətli kağızı. Borc tam ödənilənə qədər avadanlıqlar üzərində mülkiyyət hüququ etibarlı şəxsdə (adətən bankda) qalır. Bu qiymətli kağızlardan çox vaxt nəqliyyat şirkətləri istifadə edirlər.

- **Aval**
  Aval (allonge, bank guarantee, surety; collateral acceptance, collateral guarantee, collateral security)

Üçüncü şəxs tərəfindən vekselin üz və ya arxa, yaxud da vekselə əlavə olunmuş vərəqdə (allonjda) imza ilə təsbit etdiyi, vekselin ödənilməsinə görə cavabdehliyi təsdiq edən zəmanət. Bu zaman, əksər hallarda üçüncü tərəf qismində bank çıxış edir. Aval vekselin dəyərinin tam, yaxud qismən hissəsinə aid ola bilər. Aval vekselə olan etibarın yüksəlməsini təmin edən amil kimi çıxış edir.

- **Avro STOXX**
  Euro STOXX

"Dow Jones" tərəfindən təqdim olunan Avropanın 16 fond bazarını əhatə edən 200-dən yuxarı indekslərdən biri olan Dow Jones Evro STOXX50-nin şərti işarəsi. Avro STOXX Avropa səhm bazarını izləmək üçün istifadə olunan baza göstəricidir. O, Avropa birjalarında 50 birinci dərəcəli səhmlərə əsaslanır.

- **Avrobor**
  Eurobor

Avropa Birliyinin pul bazarında bankların bir birindən borclanmasının faiz dərəcəsi. Başqa sözlə, Avropa Birliyində olan bank digər bir banka bu faiz dərəcəsində borc verəcəkdir. Avrobor həmçinin qısa müddətli faiz dərəcələri üçün baza rolunu oynayır.

- **Avroçek**
  Eurocheque

1968-ci ildə yaradılan və 40-dan artıq ölkəni əhatə edən "Avroçek" Avropa bank sisteminin iştirakçısı olan ölkələrin hamısında banklar tərəfindən ödənilməsi qəbul edilən standartlaşmış beynəlxalq çek. Avroçek yalnız zəmanətli Avropa çek kartları ilə istifadə olunur ki, burada bir Avroçekin bank tərəfindən maksimum zəmanət verilən məbləği göstərilmişdir. Bu məbləğ əmtəə və xidmətlərin əldə edilməsi zamanı nağdsız hesablaşmalar üçün, eləcə də nağd pulun alınması üçün istifadə olunur. Avroçeki ödəyən bank buna görə komisyon rüsumu tutur.

- **Avrodollar**
  Eurodollar

ABŞ-dan kənar ölkədə qeyri-ABŞ təşkilatı və ya ABŞ banklarının xarici filialları tərəfindən saxlanan ABŞ dolları.

- **Avroistiqraz (Avrobond)**
  Eurobond

Emitentin öz ölkəsindən kənarda öz valyutasından başqa bir valyutada buraxdığı istiqrazlar. Adətən, qeyri-avropa şirkətləri tərəfindən Avropada buraxılan istiqrazlar nəzərdə tutulur.

Bununla yanaşı, başqa hallar da mövcud ola bilər. Məsələn, Yaponiyada Avstraliya şirkəti tərəfindən ABŞ dollarında buraxılmış avrodollar istiqrazları.

- **Avrokart**
  Eurocard

Avropa Bank Sisteminə üzv olan ölkələrin ərazisində istifadə olunan beynəlxalq kredit kartı.

- **Avroklir**
  Euroclear

Kompüterləşdirilmiş daxil etmə sistemi vasitəsi ilə qiymətli kağızların və fondların klirinqini/hesablaşmasını və borclanmasını/kreditləşməsini həyata keçirən beynəlxalq klirinq təşkilatı. Sistem həm istiqrazları və səhmləri əhatə edir və həm də 80-dən çox ölkədə əsas maliyyə təşkilatlarına xidmət göstərir.

- **Avrokredit**
  Eurocredit

Avropa valyuta bazarı resursları hesabına iri kommersiya bankları və ya onların sindikatları tərəfindən,

bir qayda olaraq, uzun müddətə faiz dərəcələri ilə korporativ və hökumət qurumlarına təqdim edilən beynəlxalq kreditlərdir.

- **Avropa tipli opsion**
  European option

Yalnız kontraktın bitmə günündə istifadə oluna bilən opsion. Avropa opsionu ilə müqayisədə Amerika opsionu kontrakt dövrünün sonuna qədər hər hansı zamanda istifadə oluna bilər.

- **Avrovalyuta**
  Eurocurrency

Mənşə ölkəsindən kənarda əhəmiyyətli miqyasda depozitdə saxlanılan və müxtəlif əməliyyatlarda istifadə olunan ayrı-ayrı ölkələrin milli valyutası. Ən çox istifadə olunan Avrovalyuta avrodollardır.

- **Avtomatlaşdırılmış Fond Birjası Kotirovka Sistemi**
  Stock Exchange Automated Quotations (SEAQ)

London Fond Birjasında qiymətlər haqqında elektron məlumat sistemi. Birja üzvləri alıcı və satıcının qiymət sisteminə daxil olurlar, məlumatlar displeydə əks olunur və bazarın bütün iştirakçılarına açıqdır. Mahiyyət etibarı ilə bu sistem amerikan sistemi olan NASDAQ sisteminin analoqudur.

- **Avuar**
  Asset (holding)

1) Geniş mənada müxtəlif ödənişləri həyata keçirməyə, borc öhdəliklərini qaytarmağa və s.-yə imkan verən istənilən növdə pul, pul vəsaiti (nağd və nağdsız formada), qiymətli kağızlar (səhmlər, istiqrazlar, akkreditivlər, veksellər, çeklər və s.), eləcə də şəxsin bankdakı hesabı;

2) Bankın, onun tapşırıqları əsasında müxtəlif maliyyə əməliyyatları həyata keçirən xarici müxbirbankda olan pul vəsaiti. Əksər hallarda bu pul vəsaiti xarici valyutada olur.

- **"Ayı" bazarı**
  Bear market

Qiymətlərin uzun müddət ərzində aşağı düşməsi müşahidə olunan bazar.

Ümumilikdə fond indekslərinin iki ay ərzində 20 faiz geriləməsi ayı bazarının başlanmasının göstəricisidir.

- **"Ayılar"**
  Bear

Bazarda müəyyən qiymətli kağızların qiymətlərinin və ya ümumilikdə qiymətlərin düşəcəyinə inanan və bundan yararlanmağa çalışan bazar iştirakçıları (oyunçuları)

- **Ayrılma**
  Carve out

Ana şirkətin öz törəmə şirkətlərinin səhmlərini qismən satması.

- **Azalma (gəlirliliyin)**
  Dilution

Yeni səhmlərin buraxılması və ya konvertasiya oluna bilən istiqrazların adi səhmlərə konvertasiyası nəticəsində hər bir səhm üzrə gəlirliliyin azalması.

Hər bir səhm üzrə gəlirlərin azalmasının səbəbi isə yeni səhmlərin buraxılması nəticəsində dövriyyədə olan səhmlərin sayının çoxaldılmasıdır. Səhmlərin sayı çoxaldıqca, hər bir səhmin dəyəri azalır.

- **Azalma meyli (qiymətlərin düşməsi meyli)**
  Downtrend

Ümumilikdə bu termin qiymətlərin azalma meyilini ifadə edir və bu terminin ifadə etdiyi azalma meyili, əsasən, texniki təhlil zamanı qurulan qrafiklərdə dəqiqliklə müşahidə olunur.

- **Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK)**
  State Committee for Securities of the Republic of Azerbaijan (SCS)

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarında dövlət siyasətini və qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. Komitənin əsas fəaliyyət istiqamətlərinə aşağıdakılar daxildir: qiymətli kağızlar bazarında vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata kecirilməsini, habelə qiymətli kağızlar bazarının və onun infrastrukturunun inkişafını təmin edir və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

QKDK öz fəaliyyət istiqamətlərinə uyğun olaraq, qiymətli kağızlar bazarının tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların emissiyası və tədavülü, qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarı, müvafiq fəaliyyət növlərinin lisenziyalaşdırılmasının həyata keçirilməsi, lotereyaların təşkili və keçirilməsi, qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar bazarının iştirakçılarının hüquqlarının müdafiəsi, sağlam rəqabət mühitinin yaradılması üzrə dövlət tənzimlənməsini və nəzarətini həyata keçirir.

- **Bağlanış alışı**
  Closing purchase

Əməliyyat nəticəsi olaraq, satıcının məqsədi verilən seriya opsionlarda uzun mövqeni aşağı salmaq və ya istisna etmək.

- **Bağlanma müddəti**
  Lock up period
  (Lock-up period)

Anderrayter tərəfindən şirkətdaxili səhm sahiblərinin səhmlərinin satılmasına qadağa qoyduğu müəyyən müddət.

- **Bağlanmış (dondurulmuş)**
  Locked in

1) Sabit faiz dərəcəli qiymətli kağız almaqla gəlirin sabit bir kəmiyyətə bağlanması;

2) Kapitalın artmasına görə əlavə vergi ödəməkdən çəkinməyə görə qiymətli kağızların satışının mümkün olmaması və ya arzuolunmaz olması;

3) Müəyyən növ qiymətli kağızlar üzrə ticarətin dayandırılması (məsələn, fyuçers bazarında qiymət dəyişmələrinin qoyulmuş həddi keçməsi ilə əlaqədar olaraq) ehtimalına görə investorun həmin növ qiymətli kağızı sata bilməməsi (satdığı halda zərərə düşəcək).

- **Bahalaşdırma**
  (qiymət əlavəsi, marja)
  Markup

1) Bazarda vəziyyətin dəyişməsinə cavab olaraq bazar iştirakçılarının qiymətləri artırması nəticəsində bahalaşma baş verməsi;

2) Pərakəndə satış qiyməti ilə topdansatış qiyməti arasındakı fərq;

3) Dilerlər arasında ən aşağı cari təklif qiyməti ilə dilerin müştəri üçün müəyyən etdiyi qiymət arasında fərq;

Ucuzlaşdırma termininin əksi.

- **“Baket-şop” (Köşk)**
  Bucket shop

Qeyri-qanuni və ya lisenziyasız fəaliyyət göstərən və fond birjasının üzvü olmayan broker firması.

- **Balans (balans hesabatı, balans cədvəli)**
  Balance sheet

Bir-birini tamamlayan iki hissədən ibarət, müəyyən zaman müddətində hər hansı hadisə və ya fəaliyyətlə bağlı tarazlığı və nisbəti xarakterizə edən göstəricilər sistemi. Balansın bir tərəfi pulun və ya əmtəənin daxil olmasını (gəlirini, idxalını və s.), digər tərəfi isə həmin

kəmiyyətdə pulun və ya əmtəənin xaric olmasını (ödənilməsini, ixracını və s.) ifadə edir. Bütün hallarda balansın tərəfləri kəmiyyətcə bərabər olur. Balans göstəriciləri həm natural formada, həm də pul formasında əks oluna bilər. İqtisadiyyatın bu və ya digər sahələrində müxtəlif məzmunlu balanslardan istifadə olunur. Məsələn, tədiyyə balansı, dövlətin gəlir və xərclər balansı (dövlət büdcəsi), mühasibat balansı, sahələrarası balans və s. Şirkətlər üçün əsas balans mühasibat balansıdır. Mühasibat balansı müəyyən zaman müddətində (aylıq, rüblük, illik) müəssisənin maliyyə fəaliyyəti haqqında məlumatları ümumiləşdirilmiş pul ifadəsində əks etdirən mühasibat sənədidir. Formasına görə mühasibat balansı iki hissədən (bölmədən) ibarət cədvəldir. Birinci, yəni sol hissə aktiv, ikinci, yəni sağ hissə passiv adlanır. Mühasibat balansının aktivi maliyyə-təsərrüfat vəsaitlərinin tərkibi və yerləşdirilməsini, passivi isə həmin vəsaitlərin yaranma mənbələrini və məqsədli istiqamətlərini əks etdirir.

- **Balans (hesabaalma) dəyəri**
  Book value (balance sheet value, book cost, carrying value, carrying amount)

Müəssisəyə, təşkilata və s.-yə məxsus əsas vəsaitlərin, uzunmüddətli aktivlərin və s.-nin müəssisənin balansında əks olunduğu dəyər. Müəssisənin, təşkilatın və s.-nin balans dəyəri onun şəxsi kapitalı və xalis aktivlərinin məcmusu kimi hesablanır. Xalis aktivlər məcmu aktivlərin dəyəri ilə borc öhdəliklərinin ümumi həcminin (dəyər ölçüsündə) fərqinə bərabərdir.

Səhmin hesabaalma dəyəri, şirkətin bütün aktivlərini toplayıb, hər hansı imtiyazlı qiymətli kağızın ödəmə qiyməti daxil olmaqla, bütün borc və öhdəliklərini çıxaraq müəyyən edilir. Alınan məbləği dövriyyədə olan səhmlərin miqdarına bölərək, hər bir sadə səhmin hesabaalma dəyəri əldə edilir. Şirkətin aktivlərinin və yaxud qiymətli kağızın hesabaalma dəyəri bazar qiymətindən fərqlənə bilər.

- **Balansarxası hesab**
  Off balance sheet

Saldosu mühasibat balansına daxil olmayan mühasibat hesabı. Balansarxası hesabda uçot ikili yazı tətbiq edilmədən aparılır. Bu hesablar öz aralarında və ya balans hesabları ilə müxabirləşir.

- **Balanslaşdırılmış (tarazlaşdırılmış) portfel**
  Matched book

Maliyyə qurumunun aktivlərinin portfeli ilə öhdəliklərinin (passıvlərinin) portfelinin strukturlarının müddətlərinə görə üst-üstə

düşdüyü vəziyyət. Məsələn, bankın aktivlərinin və öhdəliklərinin məbləğlərinə və müddətlərinə görə uzlaşdırılması.

- **Balanslaşdırma (tutuşdurma)**
  Matching

1) Aktivlərin və öhdəliklərin məbləğləri və müddətləri üzrə uzlaşdırılması yolu ilə qiymət və faiz risklərinin neytrallaşdırılması üsulu;

2) Hər gün birjada həyata keçirilmiş bütün alqı və satqı əməliyyatlarının tutuşdurularaq yoxlanması və hər bir sövdələşmədə bağlanmış müqavilələrin sayı və qiyməti üzrə alıcı və satıcılardan təsdiq alınması;

3) Xərclərin onlarla əlaqədar gəlirlərlə məbləğləri və müddətləri üzrə tutuşdurulması prosesi.

- **"Balıq"**
  (səhm buraxılışı
  üçün ilkin prospekt)
  Red herring
  (red herring prospectus)

Səhm buraxılışı üçün ilkin prospekt. Belə prospektdə bu sənədin satış təklifi yox, yalnız buraxılış haqqında ilkin məlumatlandırma olduğunu göstərən qırmızı işarə (nişanə, qeyd) olur. Bu prospekt potensial investorların maraqlarını öyrənmək üçün istifadə olunur və burada göstərilən şərtlər sonradan dəyişdirilə bilər.

- **Bank aksepti**
  (bank tərəfindən
  akseptləşdirmə)
  Bankers' acceptances (BA)

Qeyri-maliyyə təşkilatlarının qısa-müddətli kreditlərinə bank tərəfindən zəmanət verilməsidir. Bank aksepti xəzinə notlarına çox oxşayır və pul bazarı fondlarında tez-tez istifadə edilir.

- **Bank bileti**
  Bank bill

1) Mərkəzi banklar tərəfindən tədavülə buraxılan pul nişanı, əskinas;

2) Bank tərəfindən emissiya edilən tədiyyə vasitəsi.

- **Bank çeki**
  Bank check

Bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

- **Bank diversifikasiyası**
  Bank diversification

Bank aktivlərinin borc alanların mümkün böyük dairəsi arasında: a) kredit riskinin azaldılması (borc alanların ödəmə qabiliyyəti olmamasına görə itki ehtimalı); b) ssuda portfellərinin qəbul edilən səviyyədə saxlanılması məqsədilə yerləşdirilməsidir.

- **Bank holdinq şirkəti (bank holdinqi)**
  Bank holding company

Bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisinin yerləşdiyi ölkənin bankları (tənzimləyən orqanları) tərəfindən tənzimlənən və nəzarət olunan şirkətdir.

- **Bank investisiyası**
  Banking capital

İqtisadiyyatın müxtəlif sahələrinə birbaşa investisiyalar şəklində, qiymətli kağızlara portfel investisiya şəklində yatırılan bank vəsaitləri (resursları). İEÖ-lərdə geniş yayılan bank investisiyası keçid iqtisadiyyatlı ölkələrdə, o cümlədən Azərbaycanda da iqtisadiyyatın investisiya təminatı baxımından çox mühüm rola malikdir.

- **Bank işi (əməliyyatları)**
  Banking

İqtisadi subyektlərin sərbəst pul vəsaitlərinin müvəqqəti cəlb edilməsi, kreditlərin yerləşdirilməsi, hesablaşmaların aparılması, eləcə də, müxtəlif bank xidmətlərinin göstərilməsi istiqamətində bank tərəfindən aparılan irili-xırdalı bütün əməliyyatlar. Bank işi aşağıdakı kimi əməliyyatları ehtiva edir:

1) Aktiv bank əməliyyatları – kreditin təqdim edilməsi, qiymətli kağızların alınması və s., yəni sərbəst vəsaitlərin yerləşdirilməsi üzrə aparılan bank əməliyyatları.

2) Məsləhətləşmə (konsaltinq) əməliyyatları – bankın müxtəlif maliyyə məsələləri ilə bağlı müştərisinə göstərdiyi məsləhət (konsaltinq) xidmətləri.

3) Vasitəçilik (komisyon) əməliyyatları – iqtisadi subyektlər arasında vasitəçilik xidmətləri, verilən tapşırıqların icrası və s. ilə bağlı bank əməliyyatları.

- **Bank konsorsiumu**
  Bank consortium

İrimiqyaslı kredit, investisiya, zəmanət, yaxud digər bank əməliyyatlarının (adətən beynəlxalq maliyyə bazarlarında) həyata keçirilməsi məqsədilə bankların müvəqqəti birləşməsi, birgə fəaliyyəti.

- **Bank sindikatı**
  Bank syndicate

İxtisaslaşmış və səhmdarları bərabər paylarla digər banklar olan iri bank. Bir qayda olaraq, belə banklar Avropa bazarlarında irimiqyaslı maliyyə əməliyyatlarının aparılması üçün yaradılır.

- **Bank krediti**
  Bank credit

Bank tərəfindən, bağlanmış müqaviləyə uyğun olaraq, qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (ko-

misyon haqqı) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə yanaşı, pul vəsaitinin verilməsi haqqında götürülmüş başqa hər hansı öhdəlik, təminat, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquqlar da kredit münasibətlərinə aiddir.

- **Bank lisenziyası**
  Banking licence
  (Licence of bank)

Ölkənin mərkəzi bankı tərəfindən kommersiya banklarına bank fəaliyyəti göstərməklə bağlı verilən rəsmi icazə, lisenziya.

- **Bank olmayan kredit təşkilatı**
  Non-bank credit organization

Öz vəsaiti (və ya depozitlər istisna olmaqla cəlb edilmiş vəsait) hesabına yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir.

- **Bank riski**
  Bank risk

Ölkədə iqtisadi vəziyyətin pisləşməsi, verilmiş kreditlərin ödənilməməsi, qiymətli kağızların kotirovkasının dəyişməsi, balans arxası əməliyyatlar üzrə ödənişlərin həyata keçirilməsi, resurs bazasının azaldılması və s. nəticəsində zərərlərin yaranması və mənfəətin itki ehtimalı qeyri-müəyyənliyi ilə ifadə olunan və kredit idarələri tərəfindən həyata keçirilən bank əməliyyatlarının səciyyəvi xüsusiyyətlərindən irəli gələn risklərdir. Bank riski iki formada olur: xarici (sığorta, valyuta, forsmajor hallarında risklər) və daxili (kredit, portfel, bank əməliyyatları riskləri). Bank risklərinin səviyyəsinə bank əməliyyatlarının (forfeter, hedcirləmə və s.) və ya onların sığortalanmasının köməyilə nəzarət olunur.

- **Bank sertifikatı**
  Bank certificate

1) Bank müştərisinin hesabının saldosunu göstərən sənəd.

2) Bankda pul vəsaitinin deponentləşdirilməsini təsdiq edən sənəd.

Əsas etibarilə bu sənəd müştəri tərəfindən banka yatırılmış depozit məbləğinin götürülməsi üçün istifadə olunur.

- **Bank zəmanəti**
  Bank guarantee

1) Kreditor qarşısında borclunun pul öhdəliklərinin yerinə yetirilməsi üzrə bank zəmanətidir. Bu o deməkdir ki, əgər müştəri göstərilən müddətdə borcunu ödəyə bilməsə, bank bu öhdəliyi öz üzərinə götürərək ödəməni öz hesabına icra edəcəkdir;

2) Bankın belə öhdəlik götürməsini təsdiq edən sənəd.

Bank zəmanəti zamin tərəfindən geri çağırıla bilməz. Bank zəmanəti təkcə ölkə daxilində hesablaşma və kredit əməliyyatlarının aparılması zamanı yox, həm də beynəlxalq hesablaşmalar və kreditləşmələr zamanı da tətbiq olunur. Bu cür zəmanətlər ya bankın zəmanət məktubu formasında, ya da vekseldə onun yazısı (aval) formasında tərtib oluna bilər.

- **Bank**
  Bank

İqtisadi subyektlərin pul vəsaitlərini müvəqqəti cəlb edən, sərəncamında olan pul vəsaitlərini (xüsusi və cəlb etdiyi pul vəsaitlərini) müddətlilik, qaytarılmaqlıq, ödənclilik və təminatlılıq şərti ilə öz hesabına və öz adından yerləşdirən, fiziki və hüquqi şəxslər üçün hesablar açan, bu hesablarla bağlı əməliyyatlar aparan, iqtisadi subyektlərə müxtəlif maliyyə xidmətləri göstərən müstəsna hüquqa malik maliyyə-kredit institutu.

- **Bankın əlaqəli (afilə edilmiş) şəxsləri**
  Affiliated persons of bank

Bankın inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (ər/arvad, valideyn, o cümlədən ərin/arvadın valideynləri, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülənlər, qardaşı və bacısı); bankda mühüm iştirak payı olan hər hansı şəxs və ya bankın mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri.

- **Bankın filialı**
  Bank branch (branch of a bank)

Ölkənin mərkəzi bankı tərəfindən təqdim olunan lisenziya çərçivəsində kommersiya bankının funksiyalarının tam, yaxud bir hissəsini onun yerləşdiyi fiziki məkandan kənarda həyata keçirən qeyri-müstəqil qurum, ana bankın struktur bölməsi.

- **Bankın məcmu kapitalı (öz vəsaiti)**
  Total capital of bank

Prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, ölkənin Mərkəzi Bankının normativ xarakterli aktları ilə müəyyən etdiyi birinci dərəcəli və ikinci dərəcəli kapitala daxil olan elementlərin cəmi və onlardan tutulmaların fərqidir.

- **Bankın nümayəndəliyi**
  Representative office

Hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir.

- **Bankın şöbəsi**
  Bank department

Hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, onun ölkə ərazisində depozitlər cəlb edən və ya köçürmə, hesablaşma-kassa əməliyyatları aparan ayrıca bölməsidir.

- **Banklararası tələblər**
  Interbank requests (needs)

Müəyyən müddətə və ya tələb olunanadək bir bank tərəfindən digər bankda yerləşdirilmiş depozitlər və ya "nostro"müxbir hesab qalıqları.

- **Banko**
  Banko

Bank tərəfindən alqı-satqısı həyata keçirilən qiymətli kağızların alış və ya satış kursu.

- **Baş (çərçivə) sazişi**
  Master agreement

Hər hansı bir fəaliyyət üzrə ən ümumi şərtlərin razılaşdırıldığı çərçivə sənədi.

- **Baydaun**
  Buydown

Proqressiv faiz dərəcəsinə malik borc (kredit). Baydaunda faiz dərəcələri əvvəlcə aşağı olur, sonra isə getdikcə artır. Məs, baydaunda kredit dərəcəsi birinci ay 2%, ikinci ay 2,5%, üçüncü ay 3% və s. ola bilər. Bəzən baydaun artan faizli borc kimi də adlandırılır.

- **Baza (bazis) dövrü**
  Base period

İqtisadi parametrlərin dəyişmə indeksi hesablanarkən müqayisə (hesabat) bazası seçilmiş dövrdür. Adətən, parametrlərin qiymətinin baza dövrünə olan səviyyəsi 100 faiz götürülür. Məsələn, parametrin qiymətinin baza dövrünə nisbətən 8% artımı 108% təşkil edir.

- **Baza (ehtiyat) valyutası**
  Reserve currency

Mərkəzi banklar və digər maliyyə institutlarında saxlanılan xarici valyuta. Ehtiyat valyutası beynəlxalq borc öhdəliklərinin ödənilməsi və ya daxili valyuta məzənnəsinə təsir etmək üçün istifadə olunur.

- **Baza aktivi**
  Underlying asset

Fyuçers və opsion müqavilələrinin əsasını təşkil edən aktiv. Baza aktivi adətən qiymətli kağız və əmtəə qismində olur.

- **Baza dərəcəsi**
  (baza dəyişmə bəndi)
  Basis point

Hər hansı bir göstəricinin kəmiyyət ölçüsünün (və ya onun dəyişməsinin) bir faiz bəndinin yüzdə bir hissəsi. Maliyyə bazarlarında, əsasən, maliyyə alətlərinin gəlirliliyini və faiz dərəcələrini (və ya onların dəyişməsini ölçmək üçün istifadə edilən standart baza ölçüsü. 1 baza bəndi 0,01 faizə bərabərdir.

- **Baza dərəcəsi**
  Prime rate

Bankın ən yaxşı müştərilərindən borca görə tələb olunan faiz dərəcəsi.

- **Baza riski**
  Basis risk

Fond birjasında müddətli sövdələşmə zamanı fyuçerslərlə hedcinqin qeyri-mükəmməl olması şəraitində cari qiymətlə fyuçers qiyməti arasında nisbətin arzuolunmaz dəyişməsi ehtimalı ilə şərtlənən risk.

- **Baza səviyyəsi**
  Baseline

Hər hansı bir göstəricinin kəmiyyət ölçüsünün (və ya onun dəyişməsinin) baza dövrünə olan səviyyəsi. Müəyyən dövrdə göstəricilərin kəmiyyət ölçülərinin dəyişməsi baza səviyyəsi ilə müqayisədə qiymətləndirilir.

- **Baza tarifi**
  Single tariff

Kommersiya banklarının krediti vaxtında ödəyən və əməkdaşlıq etdikləri böyük müştərilərinə təyin etdikləri ən aşağı faiz dərəcəsi.

- **Baza ticarəti**
  Basis trading

Aktiv üzrə eyni vaxtda nağd uzun mövqenin və bu aktiv üzrə fyuçers üzrə qısa mövqenin götürüldüyü arbitraj əməliyyatı. Aktivin cari qiyməti və onun saxlanma və sığorta xərclərinin cəmi fyuçersdən gələn gəlirdən az olduğu müddətdə treyder mənfəət əldə edir.

- **Baza valyutası**
  Base currency

Valyuta bazarında valyuta cütlüyünün birinci tərəfi. Məsələn, Avro/ABŞ dolları katirovkasında Avro baza valyutası, ABŞ dolları isə istinad valyutası hesab olunur. Burada baza valyutasının bir mislini almaq üçün tələb olunan istinad valyutasının həcmi ifadə olunur.

- **Bazar dəyəri**
  Market value

Qiymətli kağızın ən son elan olunmuş qiyməti və ya cari alqı-satqı qiyməti. Şirkətin bazar

dəyəri şirkətin səhmlərinin sayı ilə bir səhmin cari bazar qiymətinin hasilinə bərabərdir

bax. Market capitalization.

- **Bazar kapitalizasiyası (kapitalı)**
  Market capitalization

Bazar kapitallaşması şirkətin bütöv bazar dəyərini ifadə edir və şirkət tərəfindən buraxılmış səhmlərin cari bazar qiyməti ilə dəyərlərinin cəminə bərabərdir. Şirkətin kapitallaşması şirkətin bütün səhmlərinin sayının bir səhmin bazar qiymətinə vurulması yolu ilə hesablanır.

- **Bazar qiyməti (birja qiyməti, birja məzənnəsi)**
  Market price

Bazarda tələb və təklif əsasında formalaşan qiymət. İqtisadi nəzəriyyəyə görə mal və ya xidmətin bazar qiyməti tələb ilə təklifin kəsişdiyi nöqtədə müəyyən olunur. Odur ki, tələb və ya təklifin həcmində ani dəyişiklik bazar qiymətinin kəskin dəyişməsi ilə nəticələnə bilər.

Qiymətli kağızlar bazarında qiymətin ən son ticarət olunduğu qiymət bazar qiyməti sayılır.

- **Bazar qiymətində sifariş (bazar sifarişi)**
  Market order

Brokerə qiymətli kağızın alqı-satqısını bazarda formalaşan sərfəli qiymətə həyata keçirmək üzrə verilən sifariş növüdür.

Bazar sifarişi, sifarişin yerinə yetirilməsinə zəmanət verir. Lakin, günlük ticarət həcmi aşağı olan səhmlər üçün bazar sifarişi cari qiymətdən çox yüksək qiymətdə alış ilə nəticələnə bilər. Buna görə də, bazar sifarişini günlük yüksək ticarət həcminə malik səhmlər üzrə etmək daha məqsədəuyğun hesab olunur.

- **Bazar qiymətləndirməsi**
  Mark to market (MTM)

1) Aktiv və öhdəliklər kimi müəyyən dövr ərzində dəyişə bilən hesabların ədalətli dəyərinin ölçülməsi. Bazar qiymətləndirməsinin məqsədi təşkilatın və ya şirkətin cari maliyyə vəziyyətinə dair real qiymətləndirmənin aparılmasıdır.

2) Qiymətli kağızların, portfelin və ya hesabın uçot dəyərinin deyil, cari bazar dəyərinin və ya qiymətinin qeyd olunması üçün aparılan mühasibatlıq əməliyyatı.

3) Birgə fondun xalis aktiv dəyərinin (XAD) ən son bazar qiymətləndirməsi əsasında müəyyən edilməsi.

- **Bazar meyilləri (bazarın inkişaf meyilləri)**
  Market trend

Bazarda qiymətin ümumi istiqaməti. Bazar meyilləri qısa, orta və uzun müddətli ola bilər. İn-

vestor meyilləri düzgün müəyyən edə bildikdə yaxşı mənfəət əldə edə bilər. Bazar oyunçuları adətən bazar meyilləri istiqamətində ticarət etməyi düzgün hesab edirlər.

- **Bazar riski**
  Market risk

İnvestisiyanın dəyərinin ümumi bazar faktorlarında dəyişikliklərlə əlaqədar azalma riski.

Səhmin bazar riskini ölçmək üçün beta əmsalından istifadə olunur.

Bax: Sistem riski.

- **Bazar sektoru**
  Market sector

Bazarda müəyyən parametrlərinin ümumiliyi ilə səciyyələnən və rəqabət aparan əmtəə, xidmət və qiymətli kağızlar toplusu.

Əmtəə və xidmətlər bazarında bazar sektoru terminindən bir-birləri ilə birbaşa rəqabətdə olan oxşar əmtəə və xidmətlər alan və satan biznes strukturlarının fəaliyyətini təsvir etmək üçün istifadə olunur. Təhlilçilər bir-birləri ilə birbaşa rəqabətdə olan şirkətlərin səhmlərinin siyahıda yanaşı durması üçün səhm bazarında bölgü aparırlar.

İstiqraz bazarında bu termin emitentlərin növünə görə bazarın bölüşdürülməsini nəzərdə tutur. Məsələn, dövlət, korporativ və ya kommunal istiqrazlar.

Marketinq sahəsində, həmçinin, reklam kampaniyalarında bu termindən xüsusi olaraq hədəfə alınan bazar sektorlarını göstərmək üçün istifadə edilir və bu zaman onlar daha çox bazar seqmenti adlandırılır.

- **Bazar vaxtı**
  Market timing

1) Adətən, texniki göstəricilərdən və ya iqtisadi məlumatlardan istifadə etməklə bazarın gələcək konyukturunun müəyyən edilməsi cəhdi.

2) Bazar konyukturunda baş verən dəyişiklər fonunda mənfəət əldə etmək məqsədilə fond aktivləri sinifləri arasında aparılan əvəzləmələr.

- **Bazar likvidliyi**
  Market liquidity

Aktivin qısa zaman ərzində dəyərində əhəmiyyətli itkiyə yol verilmədən alınıb-satılma imkanına malik olma qiymətləri.

- **Bazarlararası Ticarət Sistemi**
  Intermarket Trading System (ITS)

Səkkiz Amerika birjasını və eləcə də, birja bazarlarından kənarda eyni qiymətli kağızlarla ticarət edən bir neçə dilerləri birləşdirən kompüter sistemi.

- **Bazis**
  Basis

Fyuçers qiyməti ilə cari qiymət arasındakı fərq. Qiymətli kağızlara münasibətdə bu termin qiymətli kağızın spot qiyməti ilə fyuçers bazarındakı qiyməti arasındakı fərqi ifadə edir. Adətən, cari qiymətlərlə fyuçers qiymətləri arasında yüksək korrelyasiya mövcud olur, lakin, buna baxmayaraq, bazis sabit qalmır.

- **Bençmark (müqayisə bazası)**
  Benchmark

Müqayisə üçün istifadə olunan standart. Bençmark qiymətli kağız, adətən, digər qiymətli kağızların dəyərləndirilməsində istifadə olunur. Yüksək likvidliyə malik olmaqla yanaşı, nisbətən yaxın zamanda və böyük həcmdə buraxılmış olması önəmlidir.

- **Benefisiar (faydalanan şəxs)**
  Beneficiary

1) Xeyrinə ödəniş edilmiş, gəlir, mənfəət, güzəştlə əlaqədar pul vəsaiti və s. əldə etmiş şəxs, o cümlədən kreditor;
2) Borcluya (prinsipal) tələb hüququ olan şəxs.

- **Bessa**
  Baisse

Maliyyə bazarında, o cümlədən birjada qiymətli kağızların, eləcə də, digər maliyyə alətlərinin məzənnəsinin aşağı düşməsi.

- **Beta əmsalı**
  Beta

Fond bazarında qiymətli kağızın kursunun dəyişməsi ilə ümumi bazar kursunun dəyişməsi arasında kəmiyyət nisbətini ifadə edən göstərici. Beta əmsalı AK&M agentliyi tərəfindən hesablanır. Əgər Beta əmsalı müsbətdirsə, onda bu qiymətli kağızın səmərəliliyi bazarın səmərəliliyinə uyğundur. Mənfi beta əmsalı zamanı həmin qiymətli kağızın səmərəliliyi bazarın səmərəliliyi artdıqca azalacaqdır. Beta əmsalını, həmçinin, qiymətli kağızlara investisiya riskinin ölçüsü hesab etmək olar. Beta əmsalının böyük olması zamanı investisiyaların risk dərəcəsi orta hesabla bazara görə yüksəkdir. Beta əmsalının kiçik olması zamanı investisiyaların risk dərəcəsi aşağı olur.

- **Beynəlxalq kredit**
  International credit

Borc kapitalının ölkələr arasında hərəkəti və fəaliyyəti ilə müşayiət olunan kredit növüdür. Kreditor və borc alan rolunda banklar, iri şirkətlər, xüsusi sahibkarlar, dövlət idarələri, hökumət, həmçinin beynəlxalq və regional təşkilatlar çıxış edə bilərlər.

- **Beynəlxalq reytinq agentliyi Moody's**
  Moody's

Beynəlxalq reytinq agentliyidir. Moody's reytinqləri risk səviyyəsi və alıcının borc üzrə ödənişləri vaxtında edə bilməsi əsasında müəyyən edir. Reytinqlər aşağıda göstərilmişdir

Aaa - ən yüksək reytinq, aşağı risk
A
Baa – orta qiymət, orta risk
Ba
B
Caa – aşağı qiymət, yüksək risk
Ca
C

- **Bələdiyyə istiqrazları**
  Municipal bonds (muni)

Yerli özünüidarəetmə təşkilatları (bələdiyyələr) tərəfindən buraxılan istiqrazlar. Adətən belə istiqrazlar müəyyən investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə emissiya edilir və onlar üzrə gəlirlilik və əsas borc vəsaiti həmin investisiya layihəsinin həyata keçirilməsindən yaranan gəlirlərdən tutularaq ödənilir.

- **Bələdiyyə istiqrazlarının sığortalanması**
  Municipal bond insurance

Bələdiyyə istiqrazlarına investisiya qoyan investorların yerli hakimiyyət orqanlarının öz öhdəliklərini yerinə yetirməməsi risklərindən sığortalanması. Adətən, bu alət kredit reytinqinin yüksəldilməsi məqsədilə istifadə olunur. Bələdiyyə istiqrazlarının sığortalanması ideyası 1971-ci ildə Amerika sığorta istiqrazları korporasiyası (hazırda Amerika bələdiyyə istiqrazlarının sığortalanması və zəmanəti korporasiyası) tərəfindən irəli sürülmüşdür.

- **Bələdiyyə qiymətli kağızları**
  Municipal securities

Bələdiyyə qiymətli kağızları bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlar. Bu alətlə əldə olunan gəlirdə vergi güzəştləri olunur.

- **BİBOR**
  BİBOR

Bəhreyn "ofşor" pul bazarında iştirakçı banklar tərəfindən müəyyən edilən banklararası depozitlərin (xarici valyutada olan) faiz dərəcəsi.

- **Binomial model**
  Binomial model

Amerika tipli opsionların ilkin dəyərini hesablamaq üçün Koks, Roslar, Rubinstein və Şarp tərəfindən təklif edilmiş opsion qiymətləndirməsi modeli.

- **Bir günlük sifariş**
  One-day order

Qiymətli kağızların alqı-satqısı üzrə müştəri tərəfindən brokerə verilən və verildiyi gün yerinə yetirilməli olan sifariş. Belə sifariş həmin gün icra edilmədiyi halda, avtomatik olaraq qüvvəsini itirir.

- **Bir səhmə düşən mənfəət**
  Earnings per share (EPS)

Şirkətin xalis mənfəətinin səhmlərin sayına (il ərzində orta say) nisbəti. Bir səhmə düşən mənfəət şirkəti üçün önəmli gəlirlilik göstəricisidir.

- **Birbaşa xarici investisiyalar**
  Foreign direct investment (FDI)

Xarici sahibkar kapitalının ölkədə uzunmüddətli kapital qoyuluşunu təmsil edən investisiya forması. Belə investisiyalar xarici investorların öz ölkələrindən kənarda müəssisə yaratması imkanını və onların fəaliyyəti üzərində nəzarətini təmin edir. Xarici müəssisələrin əldə etdiyi bütün gəlirlərin investor tərəfindən idarə olunmasına imkan yaradır.

- **Birbaşa ilkin təklif**
  Direct public offering

Şirkət, anderrayter olmadan, qiymətli kağızları özü birbaşa investorlara satdığı hal. Həmin investorlar şirkətin müştəriləri, işçiləri, podratçıları, distribyutorları və s. ola bilər.

- **Birinci sinif bank**
  Prime bank

Ən yüksək reytinqə və ən çox aktivə malik olan banklar sırasında olan bank.

- **Birja bankı**
  Exchange bank

Birja sövdələşmələri ilə bağlı kredit və depozit əməliyyatlarını həyata keçirən, müxtəlif istiqamətli maliyyə xidmətləri göstərən ixtisaslaşmış bank. Birja bankı birja vasitəçilərinin fəaliyyətinin yüksəlməsinə bilavasitə təsir göstərir.

- **Birja çökəkliyi (çalası)**
  Exchange hole

Birjanın əməliyyat zalında, adətən, döşəmə səviyyəsindən aşağıda yerləşən dairəvi və ya çoxbucaqlı formasında meydança. Pillələrdə yerləşən brokerlərə bir-birini yaxşı görməyə imkan verir. İri birjalarda adətən bir neçə çökəklik olur.

- **Birja dövriyyəsi**
  Exchange circulation

Müəyyən zaman müddətində birjada əmtəələrin, qiymətli kağızların, valyutanın və s.-nin alqı-satqısının ümumi həcmi. Birja dövriyyəsi birjada reallaşdırılmış əmtəələrin, qiymətli kağızların və s.-nin pul ifadəsində həcmi kimi hesablanır.

- **Birja əqdi**
  Exchange transaction

Birja sövdələşmələri gedişində birja əmtəəsi üzrə birja ticarətinin iştirakçıları arasında (öz adlarından və ya üçüncü şəxslərin tapşırığı ilə) bağlanan və müəyyənləşdirilmiş qaydada qeydiyyatdan keçmiş müqavilədir (sazişdir).

- **Birja müdaxiləsi**
  Exchange intervention

Güclü bazar subyektlərinin, yəni dövlətin, iri bank və ya şirkətlərin fond birjasında qiymətli kağızların kurslarına məqsədli şəkildə müdaxiləsi. Əsas etibarilə B.m. Hökumət tərəfindən həyata keçirilir. Bu zaman hökumət yerləşdirdiyi dövlət qiymətli kağızlarını daha ucuz qiymətlə geri almaq imkanını əldə etmiş olur.

- **Birja komitəsi**
  Exchange committee

Birjanın daim fəaliyyətdə olan nəzarət – sərəncamverici idarəetmə orqanı. Onun tərkibindən rəyasət heyəti və idarə heyəti formalaşır. Birja komitəsinin funksiyaları səhmdar cəmiyyətinin müşahidə şurasının funksiyaları ilə oxşardır.

- **Birja qiyməti (bazar qiyməti)**
  Exchange price (market price)

Ayrı-ayrı birjalar tərəfindən müstəqil surətdə təyin olunur. Birjalarda təyin edilən qiymətlər, keyfiyyəti, həcmi və göndərmə müddəti vahid şəklə salınmış şəraitdə həyata keçirilən real müqavilələrin qiymətləridir.

Birja fondunda tədavüldə olan qiymətli kağızların dəyəridir. Birja kursu qiymətli kağızların gəlirlilik səviyyəsi ilə ssuda faizi səviyyəsi arasındakı nisbətlə təyin olunur.

- **Birja möhtəkirliyi**
  Exchange speculation

Qiymətli kağızların alqı-satqısı üzrə birja sövdələşməsinin (əməliyyatının) bir növüdür. Birja sövdələşməsi kimi birja möhtəkirliyinin də məqsədi alınan və satılan qiymətli kağızların qiymətlərindəki fərqdən mənfəət əldə etməkdir. Birja möhtəkirliyinin funksiyasına perspektivdə satın alınmış qiymətli kağızlardan gəlir (divident) alınması yox, yalnız onların alındığı qiymətdən yuxarı satışı daxildir. Bu mənada birja möhtəkirliyi normal birja fəaliyyətinin ayrılmaz və tamamilə təbii elementidir, bunun da mahiyyəti son nəticədə əmtəələrin istehsalından yox, onların təkrar satışından mənfəət əldə etməkdən ibarətdir.

- **Birja rüsumu**
  Exchange duty

Birja üzvlərinin və iştirakçılarının birja əməliyyatları aparmaq hüququna görə xüsusi birja komitəsinə ödədikləri haqq, rüsum.

- **Birja səhmli investisiya fondu**
  Exchange-traded fund (ETF)

Fond birjasında alınıb-satıla bilən (səhmlər kimi) müxtəlif növ aktivlərə (səhm, istiqraz, əmtəə) malik olan fond. ETF-lərin çoxu indeksləri (S&P 500, Dou Cons kimi) izləyir və kiçik investorlara imkan verir ki, daha az xərclərlə diversifikasiya edə bilsinlər.

- **Birja və Qiymətli Kağızlar üzrə Komissiya (SEC)**
  Securities and Exchange Commission (SEC)

ABŞ fond birjalarını, qiymətli kağızların buraxılışını və alqı-satqısını tənzimləmək məqsədi ilə 1934-cü ildə yaradılmış dövlət agentliyi.

- **Birja yığıncağı**
  Exchange meeting

Birja üzvlərinin yığıncağı. Burada həmin birjada kotirovka edilən əmtəələrin tələb və təklifinin həcmi aşkar edilir və yığıncaq iştirakçıları arasında sövdələşmə bağlanır. Birja yığıncağı, bir qayda olaraq, birja komitəsinin qərarlarına uyğun olaraq iş günlərində müəyyən saatlarda həftədə bir neçə dəfə keçirilir.

- **Birja**
  Exchange

Eyni növ əmtəələrin, qiymətli kağızların və valyutanın topdansatış ticarəti ilə bağlı həyata keçirilən iqtisadi münasibətlərin məcmusu. Birja topdansatış ticarət münasibətlərinin tərəfləri arasında vasitəçi rolunu oynayır. Alqı-satqı predmetinin növündən asılı olaraq birjalar aşağıdakı kimi sadalanır: Fond birjası (qiymətli kağızlar üzrə ticarət bazarı), əmtəə birjası (material qiymətlilər üzrə ticarət bazarı), valyuta birjası (valyutalar üzrə ticarət bazarı), əmək birjası (iş qüvvəsi bazarı) və s.

- **Birjada oyun**
  Gambling

Birjada əmtəələrin, valyutaların və qiymətli kağızların qiymətlərində (kotirovkalarında) dəyişmə meyillərinin proqnozlaşdırılması hesabına mənfəət əldə edilməsi məqsədilə, eləcə də, müxtəlif əmtəə və fond birjalarında kotirovkaların və məzənnələrin fərqi hesabına aparılan möhtəkirlik əməliyyatları. Birjada məzənnənin yüksəldilməsinə görə oyun (bu cür oyunçuları "öküzlər" adlandırırlar) və məzənnənin azaldılmasına görə oyun (bu cür oyunçuları "ayılar" adlandırırlar) fərqləndirilir. Birjada hər bir müştəri öz hesabına, öz riskinə və öz mənafeyi üçün oynayır.

- **Birjadankənar**
  Over-the-counter
  (over the counter, OTC)

1) Rəsmi fond birjasında listinqdən keçməyən və/və ya kotirovka olunmayan birjadankənar bazarda alınıb-satılan qiymətli kağızlar;

2) Qiymətli kağızlar üzrə ticarətin birjada deyil, tərəflər (məs. dilerlər) arasında telefon və ya kompüter şəbəkəsi vasitəsilə birbaşa olaraq həyata keçirildiyi bazar.

- **Birjadankənar əməliyyatlar**
  Off-board

Birjadankənar bazarda həyata keçirilən əməliyyatlar, başqa sözlə: (i) coğrafi baxımından müxtəlif yerlərdə yerləşən tərəflər (məsələn, dilerlər) arasında telefon və ya kompüter şəbəkəsi vasitəsilə həyata keçirilən əməliyyatlar; (ii) birjada kotirovkaya daxil olmayan qiymətli kağızlarla əməliyyatlar.

- **Birləşdirilmiş informasiya sistemi (birləşdirilmiş məlumat lenti, tiker)**
  Consolidated tape

Milli və regional fond birjalarında, NASDAQ və İnstitusional Şəbəkə Korporasiyası sistemində bağlanmış əqdlər üzrə qiymətli kağızın simvolunu, əqdin həcmini, son əqdin qiymətini və əqdin gəldiyi birja haqqında məlumatları əks etdirən və ictimaiyyəti məlumatlandırma məqsədi daşıyan informasiya sistemi.

- **Birləşmə üzrə arbitraj**
  Merger arbitrage

Risksiz mənfəət yaratmaq üçün iki birləşən şirkətin səhmlərinin eyni vaxtda alınması və satılması əməliyyatlarını əhatə edən hedc fond strategiyası.

- **Birləşmə və udulma**
  Mergers and acquisitions (M&A)

İki şirkətin birləşməsini və ya bir şirkətin digərini satın almasını əks etdirən anlayış.

- **Birləşmə**
  Fusion (merger)

Kapitalın, eləcə də digər iqtisadi imkanların birləşdirilməsi əsasında mənfəətin artırılması məqsədi ilə iqtisadi subyektlərin, xüsusilə səhmdar cəmiyyətlərin birləşməsi.

- **Blank (etimad) krediti**
  Blank credit

Banklar tərəfindən mal-material qiymətliləri, ehtiyatları, debitor öhdəliyi, qiymətli kağızlar və s. ilə təminat olmadan təqdim olunan kreditdir. Başqa sözlə, kredit verənin yalnız şəxsi etibarına əsaslanan maddi təminatsız kreditdir, yəni blank kreditində kreditor borc alandan heç bir təminat, yəni qiymətli kağız, əmlak, dövlət zəmanəti və s. tələb etmədən verir. Blank krediti bir qayda olaraq yüksək etibara malik və ödəniş qabiliyyətli şəxslərə təqdim edilir. Uyğun olaraq, yüksək risk səviyyəsi ilə əlaqədardır. Kreditin bu növü təminatlı maliyyə vəziyyətində olan

müştərilərə, "birinci dərəcəli" kreditorlara (borc alanlara) təqdim edilir ki, bank onlarla da uzunmüddətli qarşılıqlı münasibətlərə malik olur. Çevik ödəniş qabiliyyəti prinsipi – bank krediti təqdim edilməsi zamanı əsasdır. Maddi təminata malik olmayan sövdələşmə riskini nəzərə alaraq, belə istiqraz (borc) üzrə faiz təminata malik olan kreditə nisbətən daha yüksək ola bilər. Blank krediti qısa müddətə, 90 günə qədər, məhsul və xidmət istehsalı və reallaşması prosesində yaranan pula tələbatı ödəmək məqsədilə təqdim olunur. Blank kreditini əldə etmək üçün borc alan banka zəmanət ərizəsini özünün firma blankında təqdim edir. Bu zaman bank lazım olan ssudanın əsaslı olub-olmadığını yoxlamır. Blank krediti təqdim edilməsi haqqında qərar borc alanın maliyyə hesabatlarının təhlili əsasında qəbul edilir. Blank krediti vəsaitin hesablaşma hesabına istiqamətlənməsi və ya təqdim edilən tədiyyə sənədlərinin ödənilməsi yolu ilə verilə bilər.

- **Blank**
  Blank

1) Sənədin doldurulmamış, yəni tələb olunan (zəruri) məlumatların yazılmamış maketi (forması);

2) İdarənin, təşkilatın və s.-nin adı, nişanı həkk olunmuş, zəruri məlumatların qeyd olunması üçün hazırlanmış sənəd forması.

- **Blanko-veksel**
  Blanko-bill

Veksel sahibinin imzası, vekselin verilmə tarixi, ödəniş məbləği və s. bu kimi bir s;ra əsas məlumatların əlyazma formasında yazılması üçün boş qrafaların da ayrıldığı veksel blankı. Həm daxili, həm də beynəlxalq ticarət əməliyyatlarında blanko-vekseldən əsas etibarilə aksept kreditləri zamanı geniş istifadə olunur.

- **Blank-vauçer**
  Blank-voucher

Hər hansı kommersiya əməliyyatı haqqında ümumi məlumatların əks olunduğu blank. Əsas etibarilə blank-vauçerdə əməliyyatın obyekti, tarixi, iştirakçıları, məbləği və digər əsas göstəricilər yer alır.

- **Blek-Şulz modeli**
  Black & Scholes model

Avropa tipli opsionların qiymətləndirilməsində geniş istifadə olunan opsion modeli. 1973-cü ildə Fişer Blek və Myron Şulz tərəfindən təklif edilmişdir.

- **Bonifikasiya**
  Bonification

1) Mövcud kredit dərəcələrini tənzimləmək məqsədi ilə iqtisadiyyatın müəyyən sahələrinin və ya müəyyən qrup kreditə ehtiyacı olan subyektlərin subsidiyalaşdırıl-

ması (məqsədli, əvəzsiz vəsaitlərin verilməsi);

2) Əmtəənin keyfiyyətinin, eləcə də digər göstəricilərinin müqavilədə nəzərdə tutulandan üstün olmasına görə satış qiymətinin artırılması. Əmtəənin keyfiyyət göstəricilərinin müqavilədə nəzərdə tutulan səviyyədən aşağı olduğu təqdirdə əmtəənin qiyməti aşağı salınır və bu, əks bonifikasiya adlanır;

3) Əmtəənin və xidmətin ölkədən ixracı zamanı daxili bazarda ona hesablanan vergilərin geri ödənilməsi, qaytarılması. Bu proses dünya bazarında həmin əmtəə və ya xidmətin rəqabət qabiliyyətinin artırılması məqsədinə xidmət edir.

- **Bonus emissiyası**
  Free issue

Şirkət öz ehtiyatlarından əsas vəsaitinə pul köçürdüyü zaman, o mövcud səhmdarlar üçün ödənişsiz səhmlər buraxır. Yeni səhmlər onların mövcud paylarına mütənasib olaraq paylanır. Bu cür emissiya kapitallaşma emissiyası və ya bonus emissiyası kimi tanınır.

- **Bonus**
  Bonus

1) Müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrinə görə işçilərə ödənilən əlavə mükafat. Daimi xarakter daşımır və bir qayda olaraq, əməyin ödənilməsi və şəraiti xüsusi sazişlərdə nəzərdə tutulmur. Ödənişin bu növü ilə "səhmlərin bonus emissiyası" - (səhmdarlar arasında pulsuz proporsional bölgü üçün yeni səhmlərin buraxılışı) bir-biri ilə əlaqədardır. Mənfəətin və ya ehtiyatların kapitallaşmasıdır. Əgər işçilər öz müəssisələrinin səhmdarlarıdırsa, onda bu cür səhmlərin bölgüsü onlara şamil edilir;

2) Sövdələşmə və ya konkret saziş şərtlərinə uyğun olaraq satıcının alıcıya verdiyi əlavə güzəştdir. Bir qayda olaraq əgər daimi alıcılar müəyyən dövr ərzində şərtlənmiş miqdarda əmtəələr alarsa, bonus güzəştləri bu alıcılara verilir;

3) Komisyon mükafat. Əmtəə bazarında bonus bir qayda olaraq, satılan (mübadilə olunan və ya satın alınan) əmtəənin dəyərinə görə faizlə müəyyən olunur və əmtəənin vəziyyətindən, ona olan tələbdən (onun qıtlığından), satış kanallarından (mağaza vasitəsilə və ya birbaşa), satışın həcmindən asılı olaraq dəyişir, eləcə də xidmətə olan tələb və təklifin nisbətindən, potensial, komissionerlər arasında rəqabətin səviyyəsindən asılıdır. Bonus komissiyon sazişlərdə razılaşdırılır;

4) oxşar obyektlərin digər sığortalılarla müqayisədə daha az risk ehtimalı yaranan sığortanın təqdim etdiyi sığorta tarifinin və ya sığorta haqqının məbləğindən güzəştdir. Davranışı və ya vəziyyəti yüksək risk yaradan sığortalı üçün sığorta haqqına və ya tarifinə əlavə (güzəşt) malus

adlanır. Buna görə də diversifikasiya olunmuş güzəşt və ya əlavələrin tətbiqi ilə bütün tarifləşmə sistemi "bonus-malus" adlanır.

- **Borc**
  Debt

Pul vəsaiti və yaxud natural formada alınan aktiv, habelə hər hansı iqtisadi subyekt qarşısında icra olunmamış öhdəlik.

- **Borc kapitalı**
  Loanable funds

Borc öhdəliyi əsasında cəlb edilən kapital. Borc kapitalı mal-material, pul vəsaiti və maliyyə aktivləri şəklində ola bilər. Borc öhdəlikli qiymətli kağızların (istiqrazların, veksellərin və s.) yerləşdirilməsi, satılması yaxud bank və digər kredit təşkilatlarından, eləcə də müxtəlif iqtisadi subyektlərdən birbaşa kreditlərin əldə olunması yolu ilə borc kapitalı cəlb edilir. Borc kapitalını təqdim edən tərəf kreditor, alan tərəf isə borc alan, yaxud benefisiar adlanır.

- **Borc öhdəlikləri (alətləri)**
  Debt instruments

Müqavilənin şərtlərinə uyğun olaraq kreditora borcu qaytarmağı vəd etməklə, emitentə kapitalı artırmağa imkan verən kağız və ya elektron istiqraz. Borc alətlərinin növlərinə kreditor və debitor arasındakı veksel, istiqraz, sertifikat (istiqraz bileti), ipoteka, icarə və s kimi razılaşmalar daxildir.

- **Borc öhdəlikləri ilə təmin olunmuş istiqraz**
  Collateralized debt obligation (CDO)

Təminatlı istiqrazların bir növü olub dəyəri və ödənişləri sabitgəlirli baza aktivlərindən gələn vəsaitlər hesabına formalaşan qiymətli kağız. Borc öhdəlikləri ilə təmin olunmuş istiqraz müxtəlif risk profilli hissələrə (tranşlara) bölünməklə müxtəlif tipli investorların marağını ödəmiş olur.

- **Borc-kapital nisbəti**
  Debt-equity ratio

Şirkətin borcunun şirkətin məcmu kapitalına olan nisbəti. Şirkətin borcunun məcmu kapitalına bölünməsi üsulu ilə hesablanır.

- **Borcla alma**
  Leveraged buyout (LBO)

Şirkətdə üstünlük təşkil edə biləcək payların borc alınan məbləğlə (kredit və ya istiqraz yolu ilə) əldə edilməsi. LBO zamanı adətən alınan şirkətin (bəzən alan şirkətin) aktivləri borc almaq məqsədilə girov qoyulur. İstifadə olunan borc (istiqraz və ya digər formada) adətən investisiya reytinqindən aşağı reytinqdə hesab olunurlar.

- **Borcla maliyyələşdirmə**
  Debt financing

İstiqraz, veksel və ya not kimi borc alətlərini satmaqla kapitalı artırmaq.

- **Borc-səhm svopu**
  Debt-equity swap

Adətən, iqtisadi problemlər ilə üzləşən və ya kredit reytinqi aşağı düşən debitor ölkənin yerli valyutadan istifadə etməklə bazar şərtlərinə uyğun olaraq xarici borcu güzəştli qiymətlə geri alması. Sonra isə, kreditorlar müvafiq yerli valyutadan istifadə etməklə debitor ölkədə fəaliyyət göstərən şirkətlərə investisiya yatırırlar və bununla da, borcu səhmə çevirirlər. Bu, debitor ölkənin öz borcunu təminatlı alətə çevirmiş olur. Bu termin, həmçinin, şirkət borclarını qaytara bilmədikdə onu müəssisənin səhmləri ilə əvəz etməsi zamanı da istifadə edilir.

- **Bölüşdürülməmiş mənfəət**
  Retained earnings

Yenidən biznesə qaytarılan və ya mövcud borcun ödənilməsinə istifadə olunan mənfəət.

- **"Böyük tablo"**
  Big board

ABŞ-ın əsas fond birjası olan Nyu-York fond birjası (New York Stock Exchange, NYSE). Dünyanın ən iri birjası olub Dou Cons və NYSE Composite indekslərini müəyyənləşdirir. "Böyük tablo" termini təkcə bu birjanın çox böyük elektron tabloya malik olmasını deyil, həm də burada bütün iri şirkətlərin səhmlərinin dövr etdiyini və onun aparıcı mövqe tutmasını ifadə edir.

Birja 1972-ci il 17 may tarixində yaranmışdır. 1975-ci ildə 1336 üzvdən ibarət sərbəst qeyri-kommersiya təşkilatına çevrilmişdir. Üzvlük yerləri satıla bilir. 2006-ci ildə NYSE elektron Archipelago Holdings birjası ilə birləşdi. Artıq, NYSE Groupun öz səhmləri də birja dövriyyəsindədir. Birjada 1.5 mindən çox şirkətin minlərlə səhm və digər qiymətli kağızlarının dövriyyəsi baş verir və müxtəlif əməliyyatlar aparılır.

- **Broker**
  Broker

Bazarda tərəflər arasında vasitəçilik funksiyasını həyata keçirən hüquqi və ya fiziki şəxs, vasitəçi. Göstərdiyi xidmətinə görə broker tərəf-müqabillərin birindən, yaxud hər ikisindən komissiya haqqı alır. Broker fəaliyyəti daha çox fond bazarına aid olduğu üçün bu termin əsas etibarilə qiymətli kağızlar bazarında vasitəçilik mənasını ifadə edir. Azərbaycan Respublikasının Mülki Məcəlləsində broker fəaliyyətinə aşağıdakı kimi tərif verilir: Broker fəaliyyəti müştərinin hesabına tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyon-

çu kimi fəaliyyət göstərən, həmin müştərinin mənafeyi üçün qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir.

- **Broker assosiasiyası**
  Association of broker

Birgə fəaliyyət məqsədi ilə brokerlərin (həm hüquqi, həm də fiziki şəxs qismində) birləşdiyi təşkilat. Broker assosiasiyası müvafiq birja tərəfindən rəsmiləşdirilir. Broker assosiasiyasının yaradılmasında əsas məqsəd imkanları birləşdirmək yolu ilə vasitəçilik xidmətini gücləndirmək və bununla əlaqədar olaraq mənfəəti, gəliri artırmaqdır.

- **Broker borcu (ssudası)**
  Brokers' loans

Banklardan brokerlər tərəfindən götürülmüş pul, fondun mütəxəssislərinin inventarizasiyasını, korporativ və bələdiyyə qiymətli kağızlarının yeni emissiyalarının zəmanətini və müştəri marja hesablarını maliyyələşdirmək kimi məqsədlər üçün istifadə edilir.

- **Broker haqqı (brokerçilik)**
  Brokerage

1) Brokerin fond birjasında vasitəçilik fəaliyyətinə görə verilən haqq, mükafat. Adətən, broker haqqı həm alıcı, həm də satıcı tərəfindən verilir. Broker haqqının həcmi fond birjasında öncədən müəyyən olunmaqla, yaxud tərəflərin razılaşmalarına görə müəyyən olunur.

2) Broker fəaliyyəti, broker işi, ümumilikdə broker fəaliyyəti ilə məşğul olanlar (ABŞ).

- **Bum**
  Boom

1) Bir qayda olaraq, ekzogen amillərin dəyişməsi nəticəsində əmtəələrinin dəyərinin və qiymətli kağızların məzənnəsinin dəyişməsi, birja möhtəkirliyinin baş alıb getməsi ilə müşayiət olunan istehsalın həcminin qısa müddətli süni canlanması;

2) Təklifin qısa müddətli dövrdə, məsələn, birjada həcminin təhrik edici şəkildə artımı.

- **Buraxılış (emissiya) qiyməti**
  Issue price

Qiymətli kağızların bir ədədinin buraxılış (emissiya) qiyməti.

- **Buraxılış (emissiya) tarixi**
  Issue date

Vəsaitlərin cəlb olunması məqsədilə qiymətli kağızların buraxılışı (emissiyası) tarixi.

- **Buraxılış (emissiya)**
  Issuance

Vəsaitlərin cəlb olunması məqsədilə qiymətli kağızların buraxılması (emissiyası).

- **Buraxılışa icazəli səhmdar kapital (səhmlər)**
  Authorized capital (authorized capital stock, authorized stock, authorized shares)

Səhmdar cəmiyyətin (şirkətin) nizamnaməsinə uyğun olaraq emissiyasına (buraxılışına) icazəli olduğu səhmlərin maksimal sayı. Şirkətin faktiki buraxdığı səhmlərin sayı bu saydan az da ola bilər və şirkət buraxdığı səhmlərinin, real olaraq, bir hissəsini yerləşdirə bilir (bir hissəsi ehtiyatda saxlanılır, bir hissəsi başqa məqsədlər üçün istifadə olunur, bir hissəsi yerləşdirilməyə də bilər). Əgər hər hansı bir şirkət buraxılışa icazəli səhmlərdən əlavə səhmlər buraxmaq istəyərsə, onda bu şirkət nizamnaməsində qeyd olunmuş buraxılışına icazəli olduğu səhmlərin sayının artırılması haqqında qərar qəbul etməli və onun icrası üçün zəruri olan müvafiq tədbirləri görməlidir.

- **Büdcə ili**
  Fiscal year

Təsdiq olunmuş büdcənin müvafiq qanunvericiliyə uyğun icrası müddəti, dövrü. Əksər ölkələrdə, o cümlədən Azərbaycanda büdcə ili təqvim ili ilə üst-üstə düşür. Lakin, İtaliya, İsveç, ABŞ və s.-də büdcə ili iyulun 1-dən iyunun 30-dək, Yaponiya, Böyük Britaniyada isə aprelin 1-dən martın 31-dək davam edir.

- **Bütün hüquqlarla**
  Cum all

Səhmlərin alıcının onlarla bağlı bütün hüquqlara (yeni buraxılmış səhmlərdə üstünlük, divident və s.) malik olması şərti ilə satışı (satış qiyməti).

- **Bütün hüquqlar istisna olmaqla**
  Ex-all

Səhmlərin alıcının onlarla bağlı bütün hüquqlar və imtiyazlardan məhrum olması şərti ilə satışı (satış) qiyməti.

- **CAC 40 indeksi**
  CAC 40 index

Paris Fond Birjasında listinqdə olan 100 ən böyük şirkətdən 40 şirkətin adi səhmləri üzrə hesablanan fond indeksi.

- **Canlanma**
  Rally

Bütünlükdə bazarın və ya hər hansı bir sektorun tənəzzüldən sonra bərpa olunması (dirçəlməsi) və yaxud dar ticarət çərçivəsindən çıxması.

- **Cari aktivlər**
  Current assets

Nağd pullar, qiymətli kağızlar, bank depozitləri və nağd pula asanlıqla və tez çevrilə bilən digər aktivlər.

- **Cari borclar (passivlər)**
  Current liabilities

Şirkətin bir il ərzində ödəməli olduğu borcları. Tərkibinə qısamüddətli (bir ilə qədər ödəmə vaxtı olan) xarakterə malik öhdəliklər daxildir. Cari passivlərin tərkibinə aşağıdakı əməliyyatların elementləri daxildir: (i) alınmış kredit, (ii) kreditor borcları üzrə əmtəələrin və xidmətin çatdırılması/göstərilməsi, (iii) avanslar və depozitlər, (iv) hesablanmış borclar (əmək haqqı, vergilər, ödənişlər və faizlər üzrə hesablanmış, lakin ödənilməmiş borc).

- **Cari dəyər**
  Present value (PV)

Gələcək pul axınlarının diskontlaşdırılmış cari dəyəri. Cari dəyər aşağıdakı düsturla hesablanır:

Cari Dəyər = (Pul axını)/(1+r)t

r - diskont faiz dərəcəsidir (tələb olunan gəlirlik).

- **Cari əməliyyatlar üzrə pul axını**
  Operating cash flow (OCF)

Müəyyən dövr ərzində şirkətin cari fəaliyyəti (istehsal və satış) ilə əlaqədar daxil olan və ödənilən pul vəsaitləri. Cari əməliyyatlar üzrə xalis pul axınları daxil olan ümumi pul vəsaitlərindən bütün əməliyyat xərcləri çıxılmaqla müəyyənləşdirilir.

Cari əməliyyatlar üzrə daxil olmuş və ödənilmiş pul vəsaitləri şirkətin dövriyyə vəsaitləri balansında əks olunur.

- **Cari gəlirlilik**
  Current yield

İstiqrazlar və digər sabit gəlirli qiymətli kağızlar üzrə illik

pul axınlarının (faiz, kupon və ya divident ödəmələri) bazar qiymətinə nisbəti.

Bu göstərici istiqrazın bazar qiymətini nəzərə almaqla, investorun hal hazırda istiqrazı alaraq ilin sonuna kimi saxlamasından əldə edəcəyi gəliri əks etdirir.

- **Cari hesablaşma**
  Rolling settlement

Əksər fond birjalarının sövdələşmə üzrə hesablaşmanı ticarət müqaviləsi bağlandıqdan sonra razılaşdırılmış sayda gün ərzində həyata keçirmək təcrübəsini ifadə edir.

- **Cari kuponlu istiqraz**
  Current coupon bond

Kupon dərəcəsi faiz dərəcəsinin cari bazar səviyyəsindən +/-0,5% -dən artıq kənarlaşmayan istiqraz.

- **Cari likvidlik əmsalı**
  Current ratio

Dövriyyə kapitalının (cari aktivlərin) qısamüddətli öhdəliklərə (cari passivlərə) olan nisbəti. Adətən, 2:1 nisbəti kifayətlilik həddi kimi qəbul edilir.

- **Cari (işçi) nəzarət**
  Working control

Şirkətə onun səs hüququna malik səhmlərinin 51%-dən az hissəsinə sahib olan səhmdar və ya səhmdarlar tərəfindən nəzarət olunması. Belə nəzarət yalnız şirkət səhmlərinin geniş şəkildə səpələndiyi halda mümkün olur.

- **Cari ödəmə müddəti**
  Current maturity

Borcun son ödəniş tarixinə qalmış vaxt. Bu istiqrazların qiymətləndirməsində vacib amildir.

- **Cari valyuta əməliyyatları**
  Current currency transactions

1) malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə hesablaşmaların, eləcə də ixrac-idxal əməliyyatlarının 180 gündən artıq olmayan müddətə kreditləşdirilməsi ilə əlaqədar hesablaşmaların həyata keçirilməsi üçün xarici valyutanın ölkəyə və ölkədən köçürülməsi;

2) 180 gündən artıq olmayan müddətə maliyyə kreditlərinin alınması və verilməsi;

3) əmanətlər, investisiyalar, kreditlər və kapitalın hərəkəti ilə bağlı başqa əməliyyatlar üzrə faizlərin, dividentlərin və digər gəlirlərin ölkəyə və ölkədən köçürülməsi;

4) ölkəyə və ölkədən qeyri-ticarət xarakterli köçürmələr, o cümlədən, əmək haqqı, təqaüd, aliment və miras üzrə məbləğlərin köçürülməsi, eləcə də digər bu kimi əməliyyatlar.

- **Cəldlik əmsalı**
  Quick ratio

Şirkətin qısa müddətli likvidliyini əks etdirən göstərici. Cəldlik əmsalı şirkətin ən likvid aktivləri vasitəsilə qısamüddətli öhdəliklərini qarşılama imkanını əks etdirir.

Cəldlik əmsalı=(Cari Aktivlər – İnventarlar)/(Cari Öhdəliklər).

- **Cəmi aktivlər üzrə rentabellik (gəlirlilik)**
  Return on total assets (ROA)

Şirkətin məcmu aktivləri müqabilində gəlirliyinin göstəricisi:
ROA = (Xalis gəlir)/(Məcmuaktivlər).

- **Cərimə qiyməti**
  Penalty bid

İlkin yerləşdirilən qiymətli kağızların tezliklə satılmasının qarşısını almaq məqsədilə bəzi brokerlərin qadağa qoyduğu müddətdə qiymətli kağızları satanlara tətbiq olunan qiymət.

- **Cirinq**
  Gearing

Iqtisadi subyektin borc kapitalı ilə şəxsi kapitalı arasındakı nisbəti ifadə edən anlayış:

C=bk / şk

Burada: c-cirinq əmsalı; bk-məcmu borc kapitalının həcmi; şk-məcmu şəxsi kapitalının həcmi.

Əsas etibarilə Böyük Britaniyada işlənilən bu anlayış ABŞ-da leveric kimi adlandırılır. Bu göstəricidən müəssisənin maliyyə durumunu, eləcə də istehsal imkanlarının məhsuldarlığının qiymətləndirilməsi zamanı istifadə olunur. Adətən cirinqin aşağı olması müəssisə üçün müsbət göstərici hesab olunur. Çünki, borc kapitalının çoxluq təşkil etməsi müəssisə mənfəətinin daha çox hissəsinin faiz ödənişlərinə sərf olunmasına, bu da sərəncamda qalan mənfəətin həcminin azalmasına gətirib çıxarır.

- **"Clearstream" klirinq sistemi**
  Clearstream

Qiymətli kağızların klirinqi, tənzimləməsi və mühafizəsi üçün beynəlxalq sistem. Cedel İnternational və Deutsche Borse Clearing şirkətlərinin birləşməsi nəticəsində 2000-ci ildə yaradılıb.

- **Çarpaz məzənnə**
  Cross rate (cross-course, cross currency pairs)

İki ölkənin valyutasının üçüncü bir valyutaya (adətən, ABŞ dollarına) nəzərən hesablanmış mübadilə məzənnələrinin nisbəti əsasında hesablanan mübadilə məzənnəsi.

Məsələn:
1 USD = 0.8 AZN
1 USD = 31 RUR
olarsa. çarpaz məzənnəyə görə:
0.8 AZN = 31 RUR.

- **Çatdırılma qiyməti**
  Delivery price

Fyuçers kontraktının müddətinin bitmə zamanı baza aktivlərinin çatdırılma qiyməti. Adətən, klirinq evi tərəfindən müəyyənləşdirilən hesablaşma qiymətini göstərir.

Baza aktivinin qiyməti gün ərzində hərəkətdə olduğu üçün çatdırılma qiyməti klirinq evləri tərəfindən müəyyən olunur.

- **Çatdırılma tarixi**
  Prompt date

Kontraktı icra etmək üçün məhsulun çatdırılmalı olduğu tarix.

- **Çek**
  Check (cheque)

1) Bankda və ya digər kredit təşkilatlarında hesabı olan şəxsin həmin banka, yaxud kredit təşkilatına onun hesabında olan pul vəsaitinin bir hissəsinin və ya bütünlüklə başqa şəxsin hesabına köçürülməsi, eləcə də, nağd ödəniş şəklində başqa şəxsə, yaxud özünə verilməsi barəsində tapşırığın əks olunduğu qiymətli kağız. Qiymətli kağızın bir növü kimi çek özündə aşağıdakı məlumatları əks edir: (i) sənədin üzərində onun çek olduğunu təsdiq edən "çek" sözü. (ii) ödənişi həyata keçirən subyektin (bankın və s.-nin) və hesabın adı; (iii) ödənişi barəsində tapşırıq verilmiş pul vəsaitinin məbləği; (iv) çeki təqdim edən tərəfin rəsmi tapşırığını təsdiq edən imza; (v) ödənişin aparıldığı valyuta və s. Çek məhdud zaman müddətində (adətən 10 gün müddətində) qüvvədə olur. Yəni, tapşırıq alan tərəf çekin icrasını həmin müddət ərzində həyata keçirməlidir.

2) Alqı-satqı münasibətləri zamanı kassa mədaxilini təsdiq edən sənəd. Burada çek alqı-satqı münasibətlərinin həqiqiliyini sübuta yetirir və maliyyə, o cümlədən vergi nəzarətinin bir aləti kimi çıxış edir.

- **Çek İnvestisiya Fondu (ÇİF)**
  Cheque Investment Found

Müvafiq qanunvericilik və normativlər əsasında əhalidən özəlləşdirmə çeklərini qəbul edən, əvəzində

özəlləşdirilən müəssisənin səhmlərini təqdim edən investisiya fondu, ixtisaslaşmış maliyyə institutu. Fond göstərilən fəaliyyət nəticəsində yerləşdirdiyi səhmlərə görə müvafiq səhmdar cəmiyyətdən divident əldə edir.

- **Çek-kaunter**
  Check-counter

Bankın öz müştərisinin hesabında olan pul vəsaitlərini bu və ya digər məqsədlər üçün istifadə etdiyi halda onlara təqdim etdiyi qəbz, çek.

- **Çevrilmiş gəlirlilik əyrisi**
  Inverted yield curve
  (negative yield curve)

Qısamüddətli aktivlərin uzunmüddətli aktivlərlə müqayisədə daha yüksək gəlirliliyi olduğu vəziyyəti əks etdirən əyri.

- **Çəkisiz/çəkili indekslər**
  Unweighted/weighted indices

Birja indeksləri iki üsulla – ya çəkili, ya da ki, çəkisiz üsulla hesablanır. Çəkisiz indekslər ədədi və ya həndəsi orta əsasında hesablanırlarsa, çəkili indekslərdə müəyyən qiymətli kağızların adətən öz bazar dəyərinə və ya başqa göstəriciyə görə hesablanmış çəkiləri nəzərə alınır.

- **Çəkmək**
  Weighting

İndeks və ya iqtisadi göstəricinin müxtəlif formalaşdırıcı komponentlərinə verilən əhəmiyyətdir.

- **Çıxarış haqqı**
  Back-end load

İnvestorun qarşılıqlı investisiya fondundan və ya digər investisiya layihəsindən çıxdıqda (payını və ya səhmini satdıqda, pulunu götürdükdə) ondan tutulan birdəfəlik komissiya haqqı. Bu haqq iştirak müddəti nə qədər uzun olsa, bir o qədər az olur.

- **Çıxış istiqrazı**
  Exit bond

Alıcıya istənilən növbəti təkrar maliyyələşdirmədə iştirak etməkdən azad olma hüququ verən və əsasən az inkişaf etmiş ölkələr tərəfindən buraxılan aşağı faizli uzun müddətli istiqraz.

- **Çikaqo Əmtəə Birjası**
  Chicago Mercantile Exchange
  (CME)

ABŞ-ın Çikaqo şəhərində yerləşən və müxtəlif əmtəə, valyuta və maliyyə alətlərinin ticarət olunduğu birja.

- **Çikaqo Opsion Birjası**
  Chicago Board Options
  Exchange (CBOE)

Çikaqo opsion birjası səhmlərlə opsion sövdələşmələri üzrə ixtisaslaşmış birja. 1973-cü ildə yaradılmışdır və hazırda bu sahədə dünyanın ən böyük bazarıdır.

- **Çin səddi**
  Chinese wall

Maliyyə qurumlarının (İnvestisiya evi, İnvestisiya bankı, Broker şirkəti və s.) müxtəlif bölmələri arasında funksiyaların və məlumat axınlarının kəsişməməsi baxımından bölgüsünün aparılması və sərhədlənməsi. Müxtəlif bölmələr arasında maraq konfliktini əngəlləmək və qiymətlərə təsir edə biləcək məlumatın (məsələn, insayder informasiyasının) sızmasının qarşısını almaq məqsədi daşıyır. Məsələn, investisiya bankında "İnvestisiya məsləhəti" və "Broker fəaliyyəti" departamentləri arasında Çin divarı mövcuddur.

- **Çoxalan istiqraz**
  Multiplier bond

Bax: "Dovşan" istiqrazı.

- **Çoxmilli şirkət**
  Multinational

Təsis olunduğu ölkədən başqa ölkələrdə də fəaliyyət göstərən şirkət. Bu tip şirkətlər əsasən Amerika, Yaponiya və ya Qərbi Avropa şirkətləri olub kiçik ölkələrin çoxundan daha yüksək büdcəyə malikdirlər. Məsələn, Koka-kola, BMW, Nike.

- **Daxili gəlirlilik (rentabellik) səviyyəsi (norması)**
  Internal rate of return

İnvestisiya layihələrinin qiymətləndirilməsi zamanı istifadə olunan smeta gəlirliliyinin göstəricisidir.

- **Daxili xəbərdarlıq**
  House call

Müştərinin həyata keçirdiyi əməliyyatları davam etdirməsi üçün hesabında yetərincə vəsait olmaması haqqında broker tərəfindən xəbərdarlıq edilməsi.

- **Daxili idarəetmə alışı**
  Management buyout (MBO)

Şirkətin rəhbərliyinin və /və ya icraçı direktorlarının mövcud səhmdarlardan şirkət üzrə nəzarət paketini alması.

- **Damno**
  Damno

1) Pulun real dəyəri ilə (əmtəə ekvivalenti ilə ölçülən) məzənnə dəyəri (xarici valyuta ilə müqayisədə) arasındakı mənfi fərq. Bu zaman pulun məzənnəsi onun real dəyərindən aşağı olur;

2) İnvestor tərəfindən ikinci bazarda qiymətli kağızın aşağı məzənnə ilə satılması. Bu əməliyyat nəticəsində investor ziyana uğramış olur;

3) Bankın, yaxud digər kredit təşkilatının inkassasiya əməliyyatları ilə bağlı xərcləri;

4) Vekselin inkassaya götürülməsi ilə bağlı bankın müştəridən aldığı xüsusi haqq, ödəniş.

- **Daşınar əmlak**
  Movable property

Bir fiziki məkandan (yerdən) başqa fiziki məkana (yerə) sərbəst daşına bilən, daşınmaz əmlakdan fərqli olaraq torpağa birbaşa birləşməyən əmlak. Məsələn, nağd pul vəsaiti, pul sənədi, qiymətli kağız, əşya, ləvazimat və s.

- **Daşınmaz əmlak üzrə investisiya fondu**
  Real estate investment trust (REIT)

Fəaliyyətinin müstəsna predmeti kimi daşınmaz əmlakın alqısı, satqısı, təmiri və s. olan investisiya fondu.

- **Daşınmaz əmlak**
  Real property

Bir fiziki məkandan (yerdən) başqa fiziki məkana (yerə) sərbəst daşına bilinməyən, torpaq və bilavasitə torpağa birləşmiş əmlak. Məs, bina, tikili və s.

- **Data-veksel**
  Data-bill

Verildiyi, təqdim edildiyi zaman üzərində konkret ödəniş müddəti göstərilən veksel.

- **"Daun-tik" ("mənfi-tik", düşmə, enmə)**
  Down tick (downtick)

Eyni qiymətli kağız üçün özündən əvvəlki əqd üzrə qeydə alınmış qiymətə nisbətən aşağı qiymətə əqd bağlanması. Belə əqdin qiyməti displeydə minus işarəsi ilə göstərilir.

- **"Dayan" sifarişi**
  Stop order

Müəyyən qiymətə çatdıqda qiymətli kağızın alqısına və ya satqısına dair brokerə verilən sifariş. Bu əməliyyat investora qiymətli kağızları sataraq itkilərini məhdudlaşdırmaq və ya bu kağızları alaraq gələcək qiymət artımından gəlir əldə etmək imkanı yaradır.

- **Dayandırmaq**
  Lay off

Bu termin əsasən şirkətin əlavə səhm buraxaraq şirkətin səhmdarları arasında yerləşdirməsi zamanı işlədilir və yerləşdirmə zamanı riskin aşağı salınması məqsədilə prosesin müvəqqəti dayandırılmasını ifadə edir.

- **“Dayan-zərər” sifarişi (“dayan” əmri, “dayan-itki” sifarişi)**
  Stop-loss order (S/L)

Qiymətli kağızın alışı və ya satışını bazar qiyməti müəyyən qiymətə çatdıqdan sonra həyata keçirmək haqqında brokerə verilən sifariş. Qiymət müvafiq həddə çatdıqdan sonra alış və ya satışı həyata keçirmək üçün əlavə təsdiq tələb olunmur və müvafiq qiymətdə sifariş tez-tez yerinə yetirilir. Bu əməliyyat investorun qiymətli kağızlar üzrə itkilərini məhdudlaşdırmaq məqsədi güdür.

- **Debet**
  Debit

İkitərəfli cədvəl formasında olan mühasibat hesabının sol tərəfidir. Pul vəsaitlərinin, əmtəə-material sərvətləri (məsələn, hazır məhsul, bitməmiş istehsal, material, yanacaq və sair) ehtiyatlarının vəziyyətini və hərəkətlərini qeyd etmək üçün istifadə olunan hesablarda debetdə hər ayın əvvəli üçün nəzərə alınan mövcud sərvətlər və ay ərzində onların daxil olması göstərilir.

- **Debet qalığı (balansı)**
  Debit balance

Müştərinin broker qarşısındakı borcunu göstərən marja hesabındakı məbləğ. Kreditin təminatçısı kimi onun vasitəsi ilə alınmış və broker tərəfindən saxlanan qiymətli kağızlar çıxış edir. Debet saldosuna faiz stavkaya görə müəyyən edilir.

- **Deflyasiya**
  Deflation

1) Əmtəə və xidmətlərin cari ilə qiymətlərinin bazis ili kimi görülmüş ilin qiymətlərinə yenidən hesablanması prosedurası (məsələn, ümumi milli məhsulun deflyatoru);

2) İnflyasiyanın azaldılması üçün tətbiq edilən və əsasən tədavüldən artıq pul kütləsinin müəyyən hissəsinin çıxarılmasına yönəldilmiş dövlət tədbirləri kompleksidir: qiymətli kağızların buraxılması, nağd pulun cəlb edilməsi üçün banklarda faiz dərəcələrinin artırılması, vergi vasitələri və pul islahatlarına və pul mübadiləsinə (denominasiya) qədər sair vasitələr. Belə ki, kreditlərin ödənişinin məhdudlaşılması (uçot dərəcəsinin qaldırılması nəticəsində) kapital qoyuluşlarının azaldılmasına gətirib çıxardığından deflyasiya son nəticədə işsizliyin genişlənməsinə səbəb olur;

3) İqtisadiyyatda qiymətlərin ümumi səviyyəsinin azalması (inflyasiyaya əks olaraq), adətən 2-ci bənddə sadalanan tədbirlər nəticəsində makroiqtisadi tarazlığın pozulması, o cümlədən iqtisadiyyatda məcmu tələb səviyyəsinin aşağı düşməsi nəticəsində qiymətlərin azalması və bundan asılı olaraq istehsalın azalması ilə iqtisadi

böhranın müşahidə olunması. Bu zaman iqtisadiyyatda inflyasiyanın əksi olan proses baş verir. Deflyasiya zamanı qiymətlərin ümumi səviyyəsi aşağı düşür, pulun alıcılıq qabiliyyəti artır (əks inflyasiya). Dövlət deflyasiya sindromunu aradan qaldırmaq üçün müxtəlif vasitələrlə antideflyasiya tədbirlərini həyata keçirir.

- **Defolt**
  Default

Borclar üzrə faiz və ya əsas məbləğin ödənilməsinə dair öhdəliyin yerinə yetirilə bilinməməsi. Bu zaman iqtisadi subyekt tərəfindən pul və borc öhdəliklərindən qismən, yaxud tam imtina edilir. Adətən ağır maliyyə böhranları səbəbindən iqtisadi subyektlər, xüsusilə dövlət defolta əl atır. Aşağı inkişaf səviyyəli ölkələr fiskal imkanların məhdudluğu üzündən daxili borc öhdəlikli maliyyə alətlərinin geri alınmasından, eləcə də xarici borc öhdəliklərindən qismən, yaxud tam imtina etmiş olur ki, bu da dövlət borcunun defoltu adlanır.

- **Defolter**
  Defaulter

Pul, yaxud borc öhdəliklərindən qismən və ya tam şəkildə imtina edən, yəni defolt həyata keçirən iqtisadi subyekt.

- **Dekholder**
  Deck holder

Birjada brokerlə müştəri arasında vasitəçilik xidməti göstərən şəxs. Dekholder müştərinin birja əməliyyatları ilə bağlı tapşırığını brokerə çatdırır.

- **Delistinq**
  Delisting

Fond birjasında təminatsız, yaxud aşağı təminatlı qiymətli kağızların listinqdən (alqı-satqı siyahısından) çıxarılması.

- **Delta hedcinq**
  Delta hedging

Opsion mövqeyinin deltasına mütənasib şəkildə əsas alətlərin alışı və ya satışı ilə riskləri sığortalamaq üçün opsion sahibi tərəfindən istifadə edilən metoddur. Adətən, ticarətçilər hər hansı bir bazarda neytral qalmağa çalışırlar.

- **Delta**
  Delta

Baza aktivinin qiymətinin dəyişməsi nəticəsində derivativ alətinin qiymətinin nə qədər dəyişəcəyini əks etdirən göstərici.

Məsələn, deltası 0,7 olan "Koll" opsiona nəzər salsaq görərik ki, baza aktivinin qiyməti hər dəfə 1 ABŞ dolları artdıqda, "Koll" opsionunun qiyməti 0,70 ABŞ dolları artım nümayiş etdirir.

- **Depo hesabı**
  Custody account

Depozitarda qiymətli kağızların uçotunun aparıldığı hesab.

- **Deponent**
  Deponent

1) Bankın depozitinə qiymətli əşya qoyan fiziki və ya hüquqi şəxs;
2) Müəssisənin və ya təşkilatın sərəncamında müvəqqəti olan pul məbləğinin məxsus olduğu fiziki və ya hüquqi şəxs;
3) Qiymətli kağızların qorunub saxlanması və ya qiymətli kağızlara olan hüquqların uçotu üzrə depozitariyanın xidmətlərindən istifadə edən, pul və ya qiymətli kağızları banka qorunmaq üçün verən fiziki və ya hüquqi şəxs.

Deponent həmçinin əmək haqqını vaxtında almayan işçilər və ayrı-ayrı təşkilatlar və şəxslərdir. Deponent edilmiş məbləğ şəxslərə onların tələbi ilə ödənilir, yaxud müəssisə və təşkilatlara keçirilir

- **Deport**
  Deport

1) Qiymətli kağızın, yaxud valyutanın məzənnə üzrə dəyəri ilə qarşılıqlı razılaşma əsasında vaxtından öncə ödəniş edilən dəyəri arasında fərq;
2) Birja möhtəkirləri tərəfindən qiymətli kağızlar bazarında məzənnə mənfəəti əldə etmək məqsədi ilə qiymətli kağız məzənnələrinin aşağı salınması istiqamətində aparılan birja əməliyyatı.

- **Depozit (əmanət) bankı**
  Deposit bank (bank of deposit)

Əhalidən əmanətləri qəbul edən bank. Belə banklar, əsasən, cəlb edilmiş depozitlər hesabına hesablaşma krediti və etibara (vəkalətə) əsaslanan əməliyyatları həyata keçirirlər. Başqa sözlə, bir qayda olaraq, belə banklar xüsusi şəxslərin, müəssisələrin, dövlət təşkilatlarının müvəqqəti sərbəst pul vəsaitlərinin cəlb edilməsi, bu vəsaitlər hesabına uzun olmayan müddətə ssudaların verilməsi və qısa müddətli kommersiya vekselləri ilə uçot əməliyyatları üzrə ixtisaslaşır və etibara (vəkalətə) əsaslanan müxtəlif əməliyyatları həyata keçirirlər.

- **Depozit sertifikatı**
  Certificate of deposit (CD)

Bank və ya digər maliyyə institutuna depozit (əmanət) qoyuluşuna görə qoyulmuş vəsaitin geri ödəniləcəyi tarixi və faiz dərəcəsini göstərən müqavilə üzrə müştəriyə təqdim olunan sənəd (qəbz). Kommersiya bankları və ya əmanət institutları tərəfindən buraxılan qısa və ya orta müddətli borc alətidir.

- **Depozit**
  Deposit

1) Hüquqi və fiziki şəxslərin, eləcə də digər iqtisadi subyektlərin banka qoyduqları pul vəsaiti. Azərbaycanda rəsmi terminologiya üzrə fiziki şəxslərin depozitləri əmanət adlanır;

2) Kredit təşkilatına saxlanca verilən qiymətli kağızlar;

3) Müştərinin banka tələb formasında müraciətini təsdiq edən bank kitabçasındakı yazılış;

Gömrük rüsumları və ödənişlərinin təminatı formasında gömrük orqanına edilən ödənişlər.

- **Depozitar**
  Depositary

1) Depozit qoyulan, yəni depoziti qəbul edən tərəf. Başqa sözlə, pul vəsaitlərini və ya digər qiymətliləri müvəqqəti cəlb edən və buna görə qarşı tərəfə haqq ödəyən şəxs (bank, kredit təşkilatı və s.);

2) Qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması xidmətini göstərən peşəkar fond bazarı iştirakçısı;

3) Beynəlxalq müqavilələri təsdiq edən hüquqi sənədi saxlayan, qoruyan beynəlxalq qurum, dövlət.

- **Depozitar fəaliyyət**
  Depositary activity

Qiymətli kağızların saxlanması və onlara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlərin göstərilməsi üzrə peşəkar fəaliyyətdir.

- **Depozitar sistemi**
  Depositary system

Bir-biri ilə "depo" hesabları açmaq vasitəsi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən depozitarların vahid sistemidir.

- **Depozitar Trast Şirkəti**
  Depository Trust Company (DTC)

Bu cür şirkətlər qiymətli kağızların təhlükəsiz saxlanılması və bu kağızlar üzrə klirinq əməliyyatının aparılması ilə məşquldur.

- **Depozitlərin sığortalanması**
  Deposit insurance

Banklar tərəfindən həyata keçirilən sığorta növüdür və bankların iflas elan olunması zamanı əmanətçilərin əmanətlərinin qaytarılmasına onlar tərəfindən zəmanət verilir. Adətən, iqtisadi tənəzzüllər və böhranlar dövründə geniş ölçüyə malik olur. Əmanətlərin sığortalanması ABŞ-da xüsusilə geniş yayılmışdır. Belə ki, əmanətlərin sığortalanması burada 1933-cü ildə yaradılmış kreditlərin Federal sığorta korporasiyası tərəfindən həyata keçirilir. Federal Rezerv Sisteminin üzvü olan banklar üçün məhdud hədlərdə depozitlərin icbari sığortalanması qəbul edilmişdir (1981-

ci ildən hər bir əmanətçi üçün 100 min ABŞ dolları). Bütün banklar depozitlərin könüllü sığortasını həyata keçirirlər.

- **Depressiya**
  Depression

İqtisadi tənəzzül prosesidir. İqtisadi tsikl dörd fazanı: eniş (böhran), depressiya (durğunluq), canlanma və yüksəlişi əhatə edir. Yüksəliş iqtisadi inkişaf əyrisinin yüksək nöqtəsi depressiya isə onun aşağı həddidir. Bununla belə qeyd olunmalıdır ki, depressiya iqtisadiyyat üçün gərəkli ola bilər. Belə vəziyyət iqtisadi sistemi daha səmərəli və canlı işləməyə vadar edir. Vurğulanmalıdır ki, depressiya yeni iqtisadi tsiklin başlanğıcıdır.

- **Derivativlər**
  (törəmə qiymətli kağızlar)
  Derivatives

Baza aktivindən (qiymətli kağız, əmtəə və s.) törəyən və ya baza aktivinin qiymətinə bağlı olan qiymətli kağızlar.

Əsasən hedcinq və spekulyasiya məqsədilə istifadə olunur. Adətən yüksək leverecə malikdir və nəticədə baza aktivinin qiymətinin azacıq dəyişməsi derivativ alətin qiymətində böyük dəyişikliklərə səbəb ola bilər. Əsas növləri fyuçerslər, forvardlar, opsionlar, svoplardır.

- **Devalvasiya**
  Devalvation

Milli valyuta məzənnəsinin xarici valyutaya nisbətdə, yaxud milli pul nişanlarının real qızıl tutumunun (tərkibinin) aşağı düşməsi. Devalvasiya ölkə iqtisadiyyatında baş verən müxtəlif maliyyə böhranları, yaxud qeyri-tarazlığı, o cümlədən inflyasiya, tədiyyə balansında uzun müddət davam edən kəsrli vəziyyətin nəticəsi kimi baş verir. Devalvasiya prosesi dövlətin bu prosesə müdaxiləsi baxımından 2 qrupa ayrılır: açıq devalvasiya, qapalı devalvasiya.

Açıq devalvasiya – dövlət tərəfindən milli valyutanın əhəmiyyətli həcmdə dövriyyədən yığılması, yaxud dəyərdən düşmüş milli pul nişanələrinin yeniləri ilə əvəz edilməsi yolu ilə milli valyuta məzənnəsinin qaldırılması.

Qapalı devalvasiya – dövlətin məqsədli müdaxiləsindən kənar ölkə iqtisadiyyatında baş verən devalvasiya prosesi. Bu zaman köhnə pul nişanələrinin yeniləri ilə əvəz olunması, yaxud dövriyyədən zəruri miqdarda milli valyutanın yığılması həyata keçirilmir.

Bunlarla yanaşı, rəqabət devalvasiyasına da rast gəlinir. Bu, dünya bazarında milli məhsulların rəqabət qabiliyyətini artırmaq, beləliklə də milli ixracı stimullaşdırmaq üçün dövlət tərəfindən məqsədli şəkildə həyata keçirilən devalvasiyadır. Bu

zaman xarici valyutaya nisbətdə milli valyuta məzənnəsi ucuzlaşır və ölkə daxilində istehsal olunmuş məhsul dünya bazarında daha aşağı qiymətə malik olur. Beləliklə, qiymət amilinə görə bu məhsullar dünya bazarında yüksək rəqabət qabiliyyəti qazanır.

- **Dezintermediasiya**
  Disintermediation

1) Qiymətli kağızlar bazarında faiz dərəcələrinin artdığı şəraitdə fiziki və hüquqi şəxslər tərəfindən bank depozitlərinin geri götürülməsi;

2) Kredit vəsaitlərinin xaricə axını, hərəkəti nəticəsində pul-kredit resurslarının milli bank kredit sistemindən ayrılması, çıxması;

3) Bankların, yaxud digər kredit təşkilatlarının birbaşa emitentə çevrildikcə qiymətli kağızlar bazarında vasitəçilik fəaliyyətindən imtina etməsi, uzaqlaşması;

4) Yerli maliyyə institutlarının vasitəçilik funksiyalarından müxtəlif səbəblər üzündən imtina etməsi.

- **Dərəcə (bənd)**
  Point

Qiymətli kağızların və valyuta məzənnələrinin və indekslərin kəmiyyətlərinin dəyişmələrini ölçmək üçün istifadə edilən ölçü vahidləri.

Kreditin bir faiz dəyəri. Səhmin bir ABŞ dolları dəyəri. İstiqrazın nominal dəyərinin 1 faizi.

- **Dəyər**
  Value (cost)

1) Hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti.

2) İstehsal olunmuş aktivin məcmu xərclərini özündə əhatə edən ödənilmiş və ya razılaşdırılmış qiyməti.

3) İstehsal olunmuş əmtəəyə sərf olunan ictimai əmək.

Açıq bazar əməliyyatlarında qiymətli kağızların formalaşan dəyəri onların bazar dəyəri adlanır.

Qiymətli kağızın pul ifadəsində üzərində göstərilən dəyəri onun nominal dəyəri adlanır.

- **Dəyər, sığorta və fraxt (SİF)**
  Cost, insurance and freight (CIF)

Satıcının əmtəənin çatdırılma nöqtəsinə qədər bütün xərclərini (sığorta və gəmi xərcləri daxil olmaqla) ödəməli olduğunu ifadə edən ticarət termini. Əmtəələrin dəniz ticarətində istifadə olunur.

- **Dəyərin azalmasına görə zərər**
  Impairment loss

Aktivin balans dəyərinin onun bərpa dəyərindən artıq olduğu məbləğ.

- **Dəyişən ödəniş dəyərli istiqraz**
  Bond variable redemption

Ödəniş dəyəri ABŞ dolları/Yaponiya yeni, ABŞ Xəzinədarlığının istiqrazının vəziyyəti, birja indeksi və

ya qızılın qiyməti kimi dəyişənlərlə əlaqədar olan istiqraz.

- **Dəyişkən dərəcə**
  Variable rate

Sabit olmayan (artım, faiz və s.) dərəcə.

- **Dəyişkənlik indeksi (qeyri-sabitlik indeksi)**
  Volatility index

Texniki təhlildə istifadə edilir. Hər bir verilmiş zaman müddətində orta qiymətin dinamikasını ölçən bir trendə riayət edən təhlildir.

- **Diler**
  Dealer

1) Birjada vasitəçilik funksiyasını həyata keçirən, o cümlədən şəxsi maliyyə vəsaitlərindən istifadə etməklə qiymətli kağızların, valyutaların, eləcə də digər qiymətlilərin öz adından və öz hesabına alqı-satqısını həyata keçirən peşəkar iştirakçı;

2) Öz adından və öz hesabına məhsul istehsalçısından topdansatış formasında məhsul əldə edən və onu pərakəndə formada reallaşdıran kommersiya subyekti, hüquqi və ya fiziki şəxs.

- **Dilerlərarası broker**
  Inter-dealer broker

İstiqraz və ya birjadankənar törəmə qiymətli kağızları bazarında fəaliyyət göstərən və dilerlərarası ticarəti təmin etmək üçün əsas dilerlər arasında vasitəçi rolunu oynayan broker.

- **Diplomlu maliyyə analitiki**
  Chartered financial analyst (CFA)

Diplomlu Maliyyə Analitikləri İnstitutunun (1990-cı ildən etibarən İnvestisiya menecmenti və tədqiqatları Assosiasiyası) diplomuna almış mütəxəssis. Müvafiq diplomu almaq üçün namizədlər 3 mərhələdən ibarət olan imtahanlardan keçməlidirlər və qiymətli kağızlara investisiya qoyuluşları, portfelin idarə edilməsi, uçot, maliyyə təhlili, etik davranış qaydaları və s. bu kimi sahələr üzrə zəruri biliklərə malik olduqlarını nümayiş etdirməlidirlər.

- **Direktorlar şurası (İdarə heyəti)**
  Board of directors

Səhmdar cəmiyyətinin kollegial idarəetmə orqanı. Bu orqanın üzvləri səhmdarların ümumi yığıncağında seçilir. Direktorlar Şurası ingilis-sakson dilli ölkələrdə yaradılır ki, burada səhmdar cəmiyyətlərin idarə edilməsinin "bir səviyyəli" strukturu fəaliyyət göstərir. Baxmayaraq ki, Direktorlar Şurası ayrı-ayrı şirkətlərin spesifik milli şərtlərini və xüsusiyyətlərini əks etdirir, onların hamısı oxşar funksiyalara və səlahiyyətlərə malikdir: onlar ümumi strateji rəhbərliyi həyata keçi-

rir, administrasiyanın fəaliyyətini təşkil edir, istiqamətləndirir və nəzarət edir, illik və perspektiv planları və hesabları təsdiq edir, səhmdar cəmiyyətinin siyasətinin əsas istiqamətlərinin işlənib hazırlanmasında, rəhbərliyin təyin olunmasında və dəyişdirilməsində (əvəz olunmasında) iştirak edir. Direktorlar Şurasının tərkibinə səhmdar cəmiyyətinin ali idarə edənlərindən (rəhbərlərindən) savayı, bu şirkətdən asılı olmayan xarici üzvlər də daxil olur. "Səhmdar cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununa əsasən Direktorlar Şurası funksiyasını İdarə heyəti yerinə yetirir.

- **Diskont (endirim)**
  Discount

Ümumilikdə nəyinsə adi qiymətindən ucuz satışını ifadə edir. Aktivin diskontlu satışı onun dəyərinin bazar qiymətindən yüksək olmasını ifadə edir.

- **Diskont dərəcəsi**
  Discount rate

1) Mərkəzi Bank tərəfindən kommersiya banklarına verilən qısa müddətli borcun faiz dərəcəsi. Bu cürə borclanmaq limitli olduğu üçün kommersiya bankları adətən digər borclanma mexanizmlərindən istifadə edirlər;

2) Gələcək pul axınlarının cari dəyərinin hesablanmasında istifadə olunan faiz dərəcəsi.

- **Diskont gəlirliliyi**
  Discount yield

Diskontlu borc qiymətli kağızların gəlirliliyi.

- **Diskont pəncərəsi**
  Discount window

Kommersiya banklarının Mərkəzi Bankdan borclanma mexanizmi. Mərkəzi Bank bu mexanizm vasitəsilə kommersiya banklarına qısa müddətli borc verərək onların likvidlik problemini aradan qaldırır. Bu mexanizmdən istifadə edən banklar Mərkəzi Banka diskont dərəcəsi həcmində faiz ödəyirlər.

- **Diskontlaşdırılmış pul axını**
  Discounted cash flow

İnvestisiya imkanlarının gəlirli olub olmamasını ölçən qiymətləndirmə metodu. İnvestisiyanın dəyərinin müəyyənləşdirilməsi məqsədilə investisiyadan gələcəkdə gözlənilən pul axınlarının diskont faiz dərəcəsi istifadə olunmaqla cari dəyəri hesablanır. Əgər diskontlaşdırılmış pul axını üsulu ilə əldə olunmuş dəyər qiymətləndirilən investisiya imkanlarının xərcindən yüksəkdirsə, investisiya məqsədəuyğun sayıla bilər.

Diskontlaşdırılmış pul axını metodu həmçinin şirkətin dəyərinin hesablanması zamanı istifadə olunur.

- **Diskresion (ixtiyar) hesab**
  Discretionary account

Müştəri ilə razılaşdırmadan əməliyyatlar aparıla biləcək müştəri hesabı.

- **Diskresion (ixtiyar) sifariş**
  Discretionary order

Brokerə əməliyyatı nə vaxt və hansı qiymətə yerinə yetirməsi seçimini etmək hüququnu verən sifariş.

- **Diversifikasiya**
  Diversification

Portfelin ümumi riskini azaltmaq məqsədilə investisiyanı fərqli tipli qiymətli kağızlar və müxtəlif sahələrdə olan şirkətlər arasında yaymaq strategiyası.

- **Divident daxil olmaqla**
  Cum dividend

Alıcının səhm üzrə elan olunmuş, lakin ödənilməmiş dividenti almaq hüququna malik olması.

Səhm dividentdənkənar satış gününə qədər divident daxil olmaqla, həmən gündən başlayaraq isə divident hüquqları nəzərə alınmadan ticarət olunur.

- **Divident diskontlaşdırma modeli**
  Dividend discount model

Şirkətin səhminin qiymətinin gələcəkdə gözlənilən dividentlərin diskont faiz dərəcəsi istifadə etməklə cari dəyərinin hesablanması üsulu. Divident Diskontlaşdırma Modelinə əsasən bu model nəticəsində əldə olunan dəyər şirkətin səhminin cari dəyərindən çox olarsa, səhmin dəyəri normaldan aşağıdır.

Bu dəyərləndirmə metodu divident ödəməyən şirkətlər üçün yararsızdır.

- **Divident**
  Dividend

Ümumi yığıncağın qərarı ilə şirkətin gəlirinin səhmdarlara paylanılan hissəsi. Dividentlər nəğd pul, səhm və əmtəə formasında ola bilər.

- **Dividentin gəlirliliyi**
  Dividend yield

İllik dividentlərin səhmin qiymətinə olan nisbətidir. Çox zaman divident gəlirliliyindən səhm üzrə əldə olunan gəlirin həcmini müəyyən etmək üçün istifadə edilir. Yüksək gəlirlilik yüksək divident və ya şirkətin bazar reytinqinin aşağı olmasına baxmayaraq, səhmlərin qiymətinin azalması ilə nisbətin cəlbedici görünməsi deməkdir. Aşağı gəlirlilik sürətli artım gözləntiləri fonunda şirkətin səhmlərinin qiymətinin yüksək olması və ya şirkətin gəlirlərinin əksər hissəsinin bölüşdürməməsi, onları yenidən biznesə yatırmaq üçün nağd formada saxlamağa üstünlük verməsi deməkdir.

- **Dividentin ödəniş günü**
  Pay date

Dividentin səhm sahibinə ödənilməli olduğu gün.

- **Dividentin ödənməsi**
  Dividend cover

Şirkətin vergi ödənişlərindən sonra yerdə qalan gəlirlərinin elan olunmuş dividentlərinə və ya faizlərinə nisbəti.

- **Dividentin ötürülməsi**
  Passing the dividend

Səhmdarlara səhmlər üzrə gəlirlərin bu və ya digər səbəbdən ödənilməməsi. Termin müəssisənin elan edilmiş və ya gözlənilən dividenti ödəyə bilməməsini ifadə edir. Müəssisənin vəsaitləri olmaya, yaxud o, bərpa mərhələsində ola bilər, buna görə də nağd pulu bilavasitə müəssisənin inkişafına investisiya edə bilər.

- **Dividentlərin avtomatik təkrar (yenidən) investisiyası planı**
  Dividend reinvestment plan (DRIP)

Fondun səhmdarları və mülkiyyətçiləri tərəfindən divident ödəyicisinin ödədiyi dividentlərin avtomatik olaraq həmin şirkətin səhmlərinin alınmasına yönəldilməsi sxemidir.

- **Dividentlərin ayrılması**
  Dividend stripping

Normaldan daha çox dividentlərin ödənilməsi fikri ilə dividentlərin ödənilməsi vaxtından bir az əvvəl səhmlərin alınmasını təcəssüm etdirən möhtəkirlik strategiyası.

- **Dizajio**
  Disagio

1) qiymətli kağızların (pulun, faizli kağızların, veksellərin) birja sövdələşməsi zamanı onların məzənnəsinin nominaldan aşağı kənarlaşması;

2) nağd əmtəənin qiyməti ilə müddətli sövdələşmə üzrə əmtəənin qiyməti arasında mənfi fərq.

- **Dolama**
  Churning

Broker tərəfindən özünün komissiya haqqını artırmaq məqsədi ilə müştərinin hesabına həddindən artıq fəal sövdələşmələr (olduqca qısamüddətli) aparılması. Bu müştərinin hesabında mövqelərin tez-tez açılması və bağlanması ilə müşayiət olunur və birja qaydalarına görə qadağandır.

- **Dolayı kotirovka**
  Indirect quotation

Daxili valyutanın bir vahidinin mübadilə olunduğu xarici valyuta vahidinin miqdarını göstərən

terminidir. Məsələn, ABŞ-da dolayı kotirovkaya ən sadə misal kimi funt sterlinq/dollar məzənnəsini göstərmək olar. ABŞ bankları beynəlxalq əməliyyatlarında dolayı kotirovkadan, daxili əməliyyatlarında isə birbaşa kotirovkadan istifadə edirlər.

- **Dollar dəyərinin ortalanması**
  Dollar cost averaging

Qiymətli kağızların dövrü olaraq müəyyən olunmuş dollar dəyəri ilə alınması sistemi. Bu sistem çərçivəsində investorlar alış zamanı səhmlərin sayını deyil, daha çox dollar dəyərini nəzərə alırlar. Hər bir investor eyni miqdarda dollara malik olduğu təqdirdə, qiymət aşağı olduqda ödənişlər vasitəsilə daha çox səhm alınır, qiymət qalxdıqda isə əksinə, daha az səhm alınır. Beləliklə də, investorlar əlverişli və əlverişsiz vaxtlardan asılı olmayaraq, dövrü alışları davam etdirdikdə və səhmlərin satıldığı qiymət onların orta dəyərindən yüksək olduqda qiymətlərdə müşahidə olunan müvəqqəti enişlər investorlar üçün faydalı olacaqdır. Dollar dəyərinin ortalanması mənfəəti təmin etmir və enişli bazarlarda itkilərdən müdafiə etmir. Dollar dəyərinin ortalanması qiymətli kağızların qiymətində müşahidə edilən təlatümlərdən asılı olmayaraq, onlar üzrə davamlı investisiya qoyuluşlarını təmin etdiyi üçün investorlar qiymətlərin aşağı düşdüyü vaxtda alışları davam etdirmək üçün maliyyə potensialını nəzərdən keçirməli olurlar.

- **Dollarlaşma**
  Dollarization

Ölkəni əhalisinin milli valyuta ilə yanaşı və ya əvəzinə digər ölkənin valyutasından istifadəsi. Dollarizasiyanın əsas səbəbi digər ölkələrin valyutasının milli valyutaya nisbətdə daha stabil olmasıdır.

Dollarizasiyanın mənfi cəhəti isə digər ölkənin valyutasını qəbul etməklə ölkənin monetar siyasəti həyata keçirə bilməməsidir.

- **Domisilləşmə**
  Domiciliation

Bank hesabına malik olan şəxsin banka onun vekselləri üzrə tədiyyəni tənzimləmək hüququ verməsi əməliyyatı. Kommersiya vekseli üzrə tədiyyənin həyata keçirildiyi yer – tədiyyənin domisilidir (yaşayış yeridir). Domisilləşmə təcrübəsi: (i) uçot əməliyyatlarının həyata keçirilməsi zamanı daha əlverişli vergiqoyma və ən yaxşı şərtləri alaraq bankla işə üstünlük verən vekseli təqdim edən üçün; (ii) öz vəsaitlərini banka qoyan və tədiyyənin həyata keçirilməsi üçün onların tutulmasına ehtiyacı olmayan köçürmə vekseli üzrə tədiyyəçi üçün; (iii) bankir üçün (belə ki, o, tədiyyə qaydalarının

sadələşdirilməsinə nail olur və öz müştərilərinin işləri haqqında ən yaxşı təsəvvürə malik olur); (iv) bütövlükdə iqtisadiyyat üçün (belə ki, tədavül xərcləri azalır – az nağd pul tələb olunur) fayda təmin edir.

- **Dou nəzəriyyəsi**
  Dow theory

Çarlz Dou tərəfindən irəli sürülən fond bazarının konyukturasının səhmlərin qiymətlərinin (sənaye və nəqliyyat üzrə Dou-Cons indekslərinin) dəyişməsi əsasında təhlili nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, indekslərin əvvəllər qeydə alınmış maksimal hədləri keçməsi bazarın yüksəlişə meyilli olmasına, əksinə, indekslərin əvvəllər qeydə alınmış minimal hədlərdən aşağı düşməsi isə bazar enişə meyilli olmasına dəlalət edir.

- **Dou-Cons Sənaye (Səhmləri) İndeksi**
  Dow Jones Industrial Average (DJIA)

ABŞ səhm bazarlarının ən qədim barometrlərdən biridir. DCSİ və ya Dou Cons həm dünyanın ən böyük fond birjalarında səhm qiymətləri üçün bençmark olduğuna görə və həmdə ABŞ iqtisadiyyatının dünyadakı əhəmiyyətinə görə bütün dünyada investorlar tərəfindən izlənilir. İndeks özünə yalnız NYFB-na daxil olan 30 ən böyük ABŞ səhmini daxil edir. Bu indeks iştirakçı səhmlərin qiymətlərinin sadə ədədi ortası kimi hesablanır. Üzv şirkətlərin bazar kapitallaşmasında heç bir çəkisi yoxdur, belə ki, ən böyük və ən kiçik iştirakçının qiymətində baş verən eyni faiz dəyişikliyi indeksdə eyni effektə malik olur.

- **"Dovşan" istiqrazı**
  Bunny bond

Sahibinə alacağı faiz ödənişlərini həmin növdən olan əlavə istiqrazlara dəyişmək imkanı verən istiqraz.

- **Dönərli**
  Negotiable

1) Maliyyə alətinin ödəniş vasitəsi kimi digər tərəfə verilmə və ya satılma imkanı. Dönərli maliyyə aləti səlahiyyətin verilməsi və ya çatdırılma vasitəsilə transfer oluna bilən sayılır. Dönərli maliyyə alətinə misal olaraq bank çekini göstərmək olar. Çünki, ödənişin aparılması üçün onu yazmaq və ya ödəniş üçün digər şəxsə transfer etmək olar.

2) Müqavilənin və ya razılaşmanın dəyərini və ya digər şərtlərini uyğunlaşdırmaq imkanı. Məsələn, qiymət üzrə danışıq aparmaq mümkün olduqda bu o deməkdir ki, satıcı qiyməti aşağı sala bilər.

- **Dönərli imtiyazlı səhmlər**
  Convertible preference share

Təsbit edilmiş konversiya qiyməti ilə adi səhmlərə çevrilə bilən

imtiyazlı səhm. İmtiyazlı və ya üstün tutulan səhmlər sahibinə şirkət tərəfindən adi səhmlər üzrə ödənişlər edilməzdən öncə hər hansı bir dividentə görə öncədən iddia hüququ verir.

- **Dönərli istiqraz**
  Convertible bond

Şirkətin göstərilən müddət ərzində əvvəlcədən müəyyən olunmuş sayda səhminə dəyişdiriləbilən istiqraz.

Bu tip istiqrazın dəyəri ekvivalent adi istiqrazın dəyərindən yüksək olur. Səhmin qiyməti müəyyən səviyyədən yuxarı qalxdıqda investor istiqrazı konvertasiya etməkdə maraqlı olur.

- **Dönmə (keçid) nöqtəsi**
  Break-point

Açıq investisiya şirkətinin səhmlərinin əldə edilməsində investora güzəşt imkanı verən investisiya məbləği.

- **Dördüncü dərəcəli bazar**
  Fourth market

İnstitusional investorlar arasında kompüter şəbəkəsi üzərindən iri həcmli qiymətli kağızların alqı-satqı bazarı.

- **Dövlət bankı**
  National/state bank

Dövlətin mülkiyyətində olan və dövlət orqanları tərəfindən idarə olunan bank. Bu cür banklara hər şeydən əvvəl ölkənin Mərkəzi bankı aiddir. Lakin kommersiya bankları, eləcə də digər xüsusi kredit idarələri dövlət bankları ola bilər.

- **Dövlət borcu**
  National/government/public debt

Dövlətin hər hansı bir orqanının malik olduğu borc. Dövlət gəlirlərinin çoxunu əhalidən alınan vergilər təşkil etdiyi üçün dövlət borcu həm də vergi dolayı yolla ödəyicilərinin borcu sayılır. Dövlət adətən dövlət istiqrazlarının buraxılışı yolu ilə borclanır və bu istiqrazlar yerli və ya xarici valyutada ola bilərlər.

- **Dövlət istiqrazları**
  Government bonds

Dövlət tərəfindən buraxılan borc qiymətli kağızları. Dövlət istiqrazları dövlətin əsas borclanma mexanizmlərindən biri olub, hər hansı bir fövqəladə hadisə ilə əlaqədar tələb olunan xərclərin (məsələn, hərbi xərclər) qarşılanması və ya bu və ya digər tədbirlərin həyata keçirilməsi üçün çatışmayan vəsaitin əldə olunması məqsədi güdür. Bu zaman borcalan kimi dövlət çıxış edir. Bir qayda olaraq, dövlət istiqrazının yerləşdirilməsi borcverənlər tərəfindən bu istiqrazların alınması yolu ilə həyata keçirilir ki, bu zaman borcverən borcalandan təqdim edilən pul vəsaitinə

və ya digər əmlaka görə müəyyən edilmiş faiz gəlirləri və ya dövlət istiqrazının tədavülə buraxılma şərtləri ilə nəzərdə tutulmuş digər hüquqları əldə etmiş olur.

- **Dövlət krediti**
  State credit

Dövlətin kreditor, borcalan və ya zəmanətçi kimi çıxış etdiyi kredit münasibətidir və bu zaman borcverən və ya borcalan rolunda dövlət özü çıxış edir.

- **Dövlət ortamüddətli istiqrazları (xəzinə notu)**
  Treasury note

Öhdəlik müddəti 2 ildən 10 ilədək olan dövlət borc qiymətli kağızları.

- **Dövlət zəmanəti**
  State guarantee

Əsas borcalan öz öhdəliklərini yerinə yetirmədikdə onun zəmanət verilmiş öhdəliyi üzrə borcunun tam məbləğdə və ya qismən ödənilməsinə dair dövlət öhdəliyi.

- **Dövri səhmlər**
  Cyclical stock

Bazar dəyəri iqtisadi dövrlərdən asılı olan (məsələn: avadanlıq istehsalı sahəsi, metallurgiya və digər baza sənaye sahələri) səhmlər. Belə səhmlərin bazar dəyərinin hərəkəti işgüzar dövrə uyğun olur. Dövrün yüksəliş mərhələsində artır, tənəzzül mərhələsində isə azalır.

- **Dövriyyə (pul) vəsaitləri balansı**
  Cash flow statement

Müəyyən müddət ərzində müəssisəyə daxil olan pul vəsaitləri ilə müəssisənin xərcləri arasındakı nisbəti ifadə edən maliyyə cədvəli (balans).

- **Dövriyyə kapitalı**
  Working capital

1) Məhsuldar kapitalın bir hissəsi olmaqla dəyəri istehsal olunmuş məhsulun üzərinə tam keçən və məhsulun reallaşmasından sonra pul və ya dəyər formasında geri qayıdan, başqa sözlə, istehsal prosesi zamanı birbaşa istehsal olunmuş məhsulun, göstərilən xidmətin, görülən işin üzərinə qoyulan kapital;

2) Şirkətin öz sabit əməliyyatlarının maliyyələşdirilməsinə imkan verən və tez bir zamanda pula çevrilə bilən aktivlər. Dövriyyə kapitalı pul vəsaitlərindən, asan reallaşan qiymətli kağızlardan, debitor borclarından, material-istehsal ehtiyatlarından, hazır məhsuldan, bitməmiş istehsaldan, materiallardan, dəst məmulatlardan və gələcək dövrün xərclərindən formalaşır. Dövriyyə kapitalı likvidlik meyarına – müəssisənin vəsaitlərinin nağd pula çevrilməsi qabiliyyətlərinə

görə qiymətləndirilir və şirkətin maliyyə vəziyyətinin sabitliyinin vəziyyətini göstərir.

- **Dövriyyə vəsaitləri (aktivləri)**
  Working assets
  (circulating assets)

Bir il ərzində, yaxud adi (normal) əməliyyat dövründə (bu dövr bir ildən çox olmamaqla) istehsal, tədavül və istehlak sahələrində iştirakı nəzərdə tutulan pul vəsaitləri və digər aktivlərdir (kassada və bankda olan pul vəsaitləri, tez satılan qiymətli kağızlar, debitor borcları, mal ehtiyatları, xammal, materiallar, bitməmiş istehsalat, hazır məhsul, gələcək dövrün xərclərinin cari hissəsidir)

- **Düşmüş mələklər**
  Fallen angels

Buraxılış zamanı investisiya dərəcəsindən yüksək reytinqə malik olan, lakin sonradan reytinqi əhəmiyyətli dərəcədə düşən istiqrazlar.

- **Effektiv faiz dərəcəsi**
  Effective interest rate

Maliyyə alətinin gözlənilən ömrü və ya uyğun olan zaman, daha qısa dövr ərzində qiymətləndirilmiş gələcək nağd pul ödəmələrini və ya daxilolmalarını maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin xalis balans dəyərinə qədər diskontlaşdıran faiz dərəcəsidir. Effektiv faiz dərəcəsini hesablayan zaman müəssisə, maliyyə alətinin (məsələn, avans ödəmələr, alıcı opsionu və oxşar opsionlar) bütün müqavilə şərtlərini nəzərə almaqla pul vəsaitləri daxilolmalarını qiymətləndirməli, lakin gələcək kredit zərərlərini nəzərə almamalıdır. Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin tərkib hissələri olan, müqavilənin tərəfləri arasında ödənilmiş və qəbul edilmiş bütün haqlar və digər məbləğlər, əməliyyat məsrəfləri və bütün digər mükafat və ya güzəştlər daxil edilir. Pul vəsaitləri axını və oxşar maliyyə alətləri qrupunun gözlənilən ömrünün etibarlı qiymətləndirilə bilməsi haqqında fərziyyə mövcuddur. Buna baxmayaraq, pul vəsaitləri axını və ya

maliyyə alətinin (maliyyə alətləri qrupunun) gözlənilən ömrünün etibarlı qiymətləndirilməsinin mümkün olmadığı nadir hallarda, müəssisə maliyyə alətinin (maliyyə alətləri qrupunun) müqavilə şərtləri üzrə olan pul vəsaitləri axınını bütün müqavilə müddətinə tətbiq etməlidir.

- **Effektiv faiz metodu**
  Effective interest method

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin (və ya maliyyə aktivləri və ya maliyyə öhdəlikləri qrupunun) amortizasiya edilmiş dəyərinin hesablanması və faiz gəliri və ya faiz xərclərinin aid olduqları dövrlər üzrə bölüşdürülməsi metodudur.

- **Effektiv valyuta məzənnəsi**
  Effective exchange rate

Müəyyən ölkənin valyutasının ticarət və kapitalın hərəkəti üzrə əsas tərəfdaş ölkələrinin valyutalarının daxil olduğu valyuta səbətinə nəzərən hesablanmış orta çəkili məzənnəsi. Effektiv valyuta məzənnəsi göstərilən səbətə daxil olan valyutalarla ikitərəfli məzənnələrinin müvafiq ölkələrin ticarət və kapitalın hərəkəti üzrə dövriyyəsində malik olduğu paya uyğun orta çəkili indeksi kimi hesabanır.

- **Ehtiyat fondu**
  Reserve fund

Kommersiya banklarının məcburi qaydada yaradılan və bir qayda olaraq müəyyən edilmiş normativlər əsasında il ərzində, yaxud illik mühasibat hesabatı bankın təsisçilərinin (payçılarının) ümumi yığıncağı tərəfindən təsdiq edildikdən sonra mənfəətdən ayırmalar hesabına yaranan fonddur. Bankın təsis sənədlərinə əsasən bankın payçılarının birdəfəlik ödənişlərinin ehtiyat fonduna köçürülməsi nəzərdə tutulmuş olarsa, bu cür köçürmələrə də yol verilir. Ehtiyat fondu üçün ayırmalar bankın nizamnaməsində nəzərdə tutulan həcmdə aparılır. Azərbaycan Respublikasının qanunvericiliyinə görə əhali arasında işləyən banklar üçün ehtiyat fondunun həcmi bankın nizamnamə fondunun 10%-dən az ola bilməz.

Ehtiyat fondunun vəsaitləri bankın planlarında nəzərdə tutulmayan əməliyyatlar üzrə xərclərin və yarana biləcək zərərlərin ödənilməsi üçün nəzərdə tutulmuşdur. Ehtiyat fondunun vəsaitləri həm də bankın ödənilmiş nizamnamə kapitalının 10%-dən artıq məbləğdə bankın nizamnamə kapitalının artırılmasına yönəldilə bilər. Xüsusi kapitalın kafilik normativləri hesablanarkən ehtiyat fondunun vəsaitləri birinci səviyyəli kapitala aid edilir.

Səhmdar cəmiyyətində ehtiyat kapital (fond) qüvvədə olan qanunvericiliyə müvafiq qaydada yaradılır və zərərlərin ödənilməsi üçün, eləcə də səhmdar cəmiyyətinin istiqrazlarının ödə-

nilməsi və başqa vəsaitlər olmadıqda onun səhmlərinin girovdan çıxarılması üçün nəzərdə tutulmuşdur. Səhmdar cəmiyyətində ehtiyat fondunun həcmi təşkilatın nizamnaməsi ilə müəyyən edilir, lakin o, nizamnamə kapitalının 15%-dən az ola bilməz. Başqa təşkilatlarda ehtiyat kapitaldan istifadə edilməsi qaydası onların nizamnamələri ilə müəyyən edilir. Ehtiyat fondunun vəsaitləri cəmiyyətin nizamnaməsində müəyyən edilmiş məbləğə çatana qədər bu fonda illik ayırmaların həcmi xalis mənfəətin 5%-dən az ola bilməz. Qanunvericiliyə əsasən ehtiyat fondunun yaradılması nəzərdə tutulmayan təşkilatlarda bu fond xalis mənfəət hesabına yaradıla bilər.

Kommersiya bankları da qiymətli kağızların qiymətdən düşdüyü halda onların məzənnəsinin azalması nəticəsində yaranan zərərləri ödəmək məqsədilə ehtiyat fondu yaradır, bankın məsrəflərinə aid edilən və ssudalar üzrə yarana biləcək itkiləri ödəmək üçün ssudalar üzrə ehtiyatlar, eləcə də bankın inkişafı – bank üçün avadanlıq, daşınmaz əmlak alınması və başqa məqsədlər üçün nəzərdə tutulan iqtisadi inkişaf fondları yaradırlar.

- **Ehtiyat tələbləri**
  Reserve requirements

Banklara qoyulmuş depozitlərin müəyyən bir hissəsinin bu bankların Mərkəzi Bankdakı hesablarında saxlanması tələbi. Mərkəzi Bank ehtiyat tələblərini artırıb-azaltmaqla ölkədə pul təklifini tənzimləyir

- **Eks-divident**
  (“Dividentdən kənar” səhm)
  Ex-dividend (Ex-dividend stock)

Divident almaq hüququ olmadan alınmış səhm. Səhm satıldıqda elan olunmuş divident üzrə hüququn səhmin satıcısında qalması.

- **Eksponensial sürüşən orta**
  Exponential moving average

Son vaxtlardakı qiymət hərəkətinə daha çox çəki verən sürüşən orta çəki.

- **Ekstra divident**
  Extra dividend

Şirkətin ödədiyi adi dividentə səhm və ya nağd pul formasında əlavə olunan divident.

- **Ekstrapolyasiya**
  Extrapolation

Faiz dərəcələri və ya digər dəyişənlərin məlum qiymətləri üzrə zaman sıralarına əsasən dəyişmə meyillərinin müəyyən edilməsi prosesi.

- **Ekzotik (qeyri-adi)**
  Exotic

Qeyri-adi və ya mürəkkəb maliyyə alətlərini təsvir etmək

üçün istifadə edilən termin. 'Vanil' alətlərinin əksi. Xarici valyuta bazarlarında ekzotik terminindən yeni formalaşan bazar ölkələrinin valyutalarını təsvir etmək üçün istifadə edilir.

- **Ekzotik valyuta**
  Exotic currency

Məhdud hallarda istifadə olunan xarici valyuta. Məsələn, Azərbaycanda Küveyt dinarı və ya Kanada dolları ekzotik valyuta kimi qəbul olunur.

- **Elektron ticarət**
  Screen trading

Elektron sistemdə aparılan ticarət.

- **E-menecer (elektron menecer)**
  E-manager

Həm internetdən interaktiv alqı-satqı xidmətləri göstərən, həm də ilkin yerləşdirmə anderraytinq proseslərində iştirak edən brokerlər.

- **Emissiya**
  Issue

Bütün növ pul nişanlarının və qiymətli kağızların dövriyyəyə buraxılması. Pul nişanlarının emissiyası, bir qayda olaraq, dövlətə məxsusdur. Pulun emissiyasını ölkənin Mərkəzi Bankı həyata keçirir. Qiymətli kağızların emissiyası isə həm dövlət orqanları, həm də qeyri-dövlət qurumları tərəfindən həyata keçirilə bilər. Məhz, bu cəhətinə görə, qiymətli kağızlar 2 qrupda təsnifləşdirilir: dövlət və qeyri-dövlət qiymətli kağızları.

- **Emissiya edildikdə**
  When issued (W/I)

Emissiyasına icazə verilmiş, lakin buraxılışı faktiki olaraq həyata keçirilməmiş qiymətli kağızlar üzrə bağlanan əqdlər. Belə əqdlər sözügedən qiymətli kağızlar faktiki olaraq buraxıldıqdan sonra qanuni hesab olunur və yerinə yetirilir.

- **Emissiya prospekti**
  Prospectus

Müəyyən qiymətli kağızın yeni buraxılışı zamanı qiymətli kağızlar bazarının buraxılışının tənzimləməsi üzrə səlahiyyətli quruma təqdim edilən, emitent və buraxılan qiymətli kağız haqqında məlumatlar əks olunan sənəd.

- **Emitent**
  Issuer

Qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən qurum (müvafiq dövlət orqanı, bələdiyyə və ya şirkət).

- **Endirim (ucuzlaşdırma)**
  Markdown

1) Tələbi stimullaşdırmaq və ya rəqibləri bazardan sıxışdırıb çıxar-

maq üçün malların və qiymətli kağızların satış qiymətinin müvəqqəti olaraq aşağı salınması. Aşağı satış səviyyəsinə malik malların və ya qiymətli kağızların ehtiyatdan çıxarılması üçün daimi ucuzlaşmalardan istifadə olunur.

2) Bazarın vəziyyətinin dəyişməsinə cavab olaraq bazar iştirakçılarının tənzimləyici vasitə kimi tətbiq etdikləri ucuzlaşmalar.

- **Enib-qalxma (fluktuasiya)**
  Fluctuation

1) Bazarda (o cümlədən qiymətli kağızlar bazarında) qiymətlərin və tələbin dövrü olaraq dəyişməsi (dayanıqsızlıq);

2) Valyutanın mübadilə məzənnəsinin dövrü olaraq dəyişməsi (tərəddüdü).

- **Etibarlı istiqraz**
  Gilt-edged bond

Birinci dərəcəli və zəmanətli istiqrazlar (əsasən, dövlət istiqrazları və çox yüksək kredit reytinqinə malik olan və "Mavi fişka" adlanan şirkətlər tərəfindən buraxılan istiqrazlar).

- **Etibarnamə (etibarlı şəxs)**
  Proxy

1) Başqasını təmsil etmək hüququ verən sənəd –etibarnamə;

2) Başqasını təmsil etməyə səlahiyyət verilmiş şəxs. Məsələn, səhmdarların illik ümumi yığıncağında iştirak etmək istəməyən səhmdarlar, öz səsvermə hüquqlarını başqa şəxsə verə bilərlər - səhmdarı təmsil edən etibarlı şəxs.

- **Eyniləşdirmə (identifikasiya)**
  Identification

Şəxsi nömrə, imza, kod, göstərici vasitəsilə bankın, bank müştərilərinin, müəssisənin, vergi ödəyicilərinin, sığorta olunan subyektin və s.-nin fərqləndirilməsi.

- **Ədalətli dəyər**
  Fair value

Aktivin bazar qiymətinin rasional və qərəzsiz formada hesablanması.

- **Əks istiqamətli investor (“qəribə” investor)**
  Contrarian (contrain investor)

Müəyyən şəraitdə əksər investorların əksinə hərəkət edən investor.

- **Əks-REPO müqaviləsi**
  Reverse-repo contract

Müştərilər tərəfindən qiymətli kağızların emitentə satışı (REPO-nun açılması) və eyni zamanda emitent tərəfindən həmin qiymətli kağızları müştərilərə satmaq, müştərilərin isə onları emitentdən geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən müqavilə.

- **Əqd limiti**
  Deal limit

Hər bir əqd üzrə treyderlərin maksimal ticarət məbləği

- **Əlaqəli (aidiyyəti, afilə edilmiş) şəxslər**
  Affiliated persons (control persons)

Şirkətin fəaliyyətinə təsir imkanı olan şəxslər. Bura direktorlar, icraçı direktorlar (rəhbərlər), səhmdarlar, mühüm iştirak payına malik olan şəxslər və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (ər/arvad, valideyn, o cümlədən ərin/arvadın valideynləri, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülənlər, qardaşı və bacısı) kimi şəxslər daxildir.

- **Əlavə olunmuş iqtisadi dəyər**
  Economic value added

Şirkətin mənfəətliliyini ölçmək üçün geniş istifadə edilən göstəricilərdən biri olmaqla, vergi ödənişlərindən sonra əməliyyat mənfəətindən kapitalın ümumi dəyərinin çıxılması yolu ilə hesablanır.

- **Əlavə vəsait tələbi**
  Maintenance call

Birjanın müəyyənləşdirdiyi səviyyədən aşağı düşdükdə marja hesabına əlavə vəsaitlər qoyulması haqqında tələb.
Bax: Daxili xəbərdarlıq.

- **Əməliyyat gəlirləri**
  Operating profit

Şirkətin əsas biznes əməliyyatlarından əldə olunan gəlir. Bu məblə-

ğə firmanın investisiyalarından əldə olunan gəlirlər, faiz və vergi ödənişləri təsir etmir.

Həmçinin, "Vergi və Faiz Xərclərindən Öncəki Gəlir" kimi də tanınır. Aşağıdakı kimi hesablanır:

Əməliyyat gəlirləri =
Əməliyyatlardan gələn ümumi gəlir – Əməliyyat xərcləri.

- **Əməliyyat xərcləri**
  Transaction costs

1) Hər hansı bir əməliyyat üzrə tərəf-müqabil axtarılması, danışıqlar aparılması, müqavilə bağlanması və onun həyata keçirilməsinin təmin olunması ilə əlaqədar xərclər. Bəzən əməliyyat xərclərinə təşkilat daxilində müvafiq əməliyyat üzrə idarəetmə mexanizmlərinin qurulması xərcləri də aid edilir;

2) Qiymətli kağızların və ya digər maliyyə alətlərinin alqı-satqısı ilə əlaqədar yaranan xərclər. Bu xərclərə, ilk növbədə broker və digər bu kimi xidmətlər üzrə ödənilən komissiya haqqları, vergilər, yığımlar və bu kimi digər xərclər daxildir.

Bax: Əməliyyata görə əlavə ödənişlər.

- **Əməliyyat mənfəəti marjası**
  Operating profit margin
  (operating margin)

Müəyyən dövr ərzində şirkətin cari əməliyyatlarından əldə olunmuş gəlirlərinin həmin dövr üzrə ümumi gəlirlərinə olan nisbəti. Bu göstərici şirkətin normal biznes fəaliyyəti ilə əlaqədar xərclərin və məsrəflərin səmərəliliyini müəyyənləşdirmək baxımında əhəmiyyətlidir.

- **Əməliyyata görə əlavə ödənişlər**
  Transaction fees

Hər hansı bir əməliyyatın aparılmasına görə edilən ödənişlər. Məsələn, əqdin bağlanmasına görə peşəkar iştirakçılara ödənilən komissiya haqqı, kredit kartı ilə əməliyyatlar zamanı müvafiq maliyyə qurumu tərəfindən alınan komissiya haqqı və s.

- **Əmlak**
  Property

Hüquqi və fiziki şəxslərin sərəncamında, mülkiyyətində olan material qiymətlilər, aktivlər.

- **Əmtəə Birjası**
  Commodity Exchange
  (COMEX)

Müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını təşkil etmək məqsədi güdən hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilat. Əmtəə

birjasının fərqli cəhətləri kimi ticarətin mütəmadiliyi və onun müəyyən yerdə həyata keçirilməsi, əmtəələrin keyfiyyətinə, göndərmə şərtlərinə və müddətlərinə əsas tələblərə uyğunlaşması, ticarətin alıcı və satıcının qarşılıqlı təkliflərinə uyğun aparılması, əmtəənin göndərilməsi üzrə kontraktların (müqavilələrin) həyata keçirilməsi, malların anbarlardan, eləcə də gələcəkdə göndərilməsi haqqında sövdələrin bağlanılması çıxış edir.

Əmtəə birjası bir qayda olaraq, təşkilati cəhətdən korporasiyalarda nəinki mənfəət qazanmaq, həmçinin alqı-satışı ucuzlaşdırmaq və asanlaşdırmaq məqsədi güdən korporasiyada birləşən xüsusi şəxslər birliyi şəklində təşkil olunur. Əmtəə birjası açıq və qapalı xarakterdə olur. Qapalı xarakterli birjada (onlar əksəriyyət təşkil edir) birja vasitəçiləri (brokerlər) fəaliyyət göstərirlər, açıq xarakterli birjada isə onlardan əlavə sövdələşmələrdə bura gələnlər də iştirak edirlər. Real mallar üzrə və müəyyən əmtəəsiz sövdələşmələr aparan birjalar birbirindən fərqləndirilir.

- **Əmtəələr**
  Commodities

Keyfiyyət xüsusiyyətləri eyni olan və qiyməti bazarda müəyyən olunan əşya. Bura, əsasən yeyinti və ya istehsalda istifadə olunan təbii resurslar və ya onlardan düzəldilmiş müəyyən məhsullar aiddir. Məsələn. Neft, qaz, əlvan və qara metallar, çay, kofe və s. Əmtəə birjasında ticarət zamanı əmtəənin spesifik keyfiyyəti və həcmi göstərilən fyuçers müqavilələrindən istifadə olunur. Əmtəə birjasından kənarda isə forvardlardan istifadə olunur.

- **Əmtəəli ödəniş**
  Payment in-kind (PIK)

Əmtəə verməklə və ya xidmət göstərməklə edilən ödəniş.

- **Ən yaxşı qiymətlə**
  At best

Alış və satış əməliyyatlarını bazarda mövcud olan ən yaxşı cari qiymətlə icra etmək barəsində brokerə verilmiş sərəncam. Bu sərəncam bazarın vəziyyəti nəzərə alınmadan dərhal yerinə yetirilməlidir.

- **"Ən yaxşı səylər" prinsipi üzrə təklif**
  Best efforts offering

Agent olaraq çıxış edən anderrayterin təklif olunan qiymətli kağızın yerləşdirilməsinə bütün gücünü sərf edəcəyi (maksimum səy göstərəcəyi) barədə razılıq verdiyi, lakin satılmamış qiymətli kağızları alacağı barədə öhdəlik götürmədiyi anderraytinq prosesidir.

Əsas (aparıcı) göstəricilər (indiqatorlar)
Key indicators
(leading indicators)

İqtisadiyyatın gələcək inkişaf meyillərini müəyyənləşdirməyə imkan yaradan statistik göstəricilər.

- **Əsas diler**
  Primary dealer

Dövlət qiymətli kağızlarının buraxılışına nəzarət edən orqan tərəfindən (məsələn, Mərkəzi Bank və ya Maliyyə Nazirliyi) dövlət qiymətli kağızlarının ilkin bazarında dilerlik hüququ verilən maliyyə vasitəçisi. Əsas dilerlər ilkin bazarda dilerlikdən əlavə, təkrar bazarda market-meykerlik vəzifəsi də daşıyırlar.

- **Əsas kapital (əsas vəsaitlər (fondlar), uzunmüddətli maddi aktivlər)**
  Capital assets

İstehsal potensialını təyin edən mühüm göstərici kimi, əmək vasitələrinin dəyərində əks olunur. Milli sərvətin çox dəyərli hissəsini təşkil edən əsas fondlar, həm də ümumi təkrar istehsal prosesinin həlledici şərti, əmək məhsuldarlığını, istehsalın səmərəliliyini, iqtisadi qüdrəti artıran mühüm amil kimi də çıxış edir. Onun spesifik əlaməti müəyyən istehsal tsikli ərzində aşınma ölçüsünə istinadən dəyərini tədricən hazır məhsulun üzərinə köçürülməsindədir. Bu çox dəyərli proses nəticəsində nizamnamə kapitalı avanslaşdırılır, əsas kapitalın pula, onun da yenidən əsas kapitala çevrilməsi reallaşır.

Azərbaycanda qanunvericiliyə uyğun olaraq istifadə müddəti bir ildən çox olan və dəyəri 100 manatdan çox olaraq amortizasiya edilməli olan maddi aktivlər.

- **Əsas vəsaitlər**
  Fixed assets (Permanent assets)

Torpaq, binalar, fabriklər, maşın və avadanlıqlar, mebellər.

- **Faiz bəndi**
  Percentage point

Faizlə ifadə olunmuş hər hansı bir kəmiyyətin (faiz dərəcələrinin, qiymət və gəlirlilik indekslərinin və s.) baza dövrünə görə faiz ifadəsində dəyişməsini ölçmək üçün istifadə edilən ölçü vahidi. Məsələn faiz dərəcəsi keçən il 10%, bu il isə 12% təşkil etmişdirsə deyirlər ki, faiz dərəcəsi 2 faiz bəndi artmışdır (hansı ki, faiz ifadəsində bu artım 20% təşkil edir).

- **Faiz dərəcəsi**
  Interest rate

Borc alətlərindən istifadə etmələri üçün borcalanlara, borcverən tərəfindən borcun məbləğinə faiz nisbəti kimi hesablanmış xidmət haqqı.

- **Faiz dərəcəsinin diferensialı (faiz dərəcəsində fərq)**
  Interest rate differential

Ssudalar və borcların qaytarılması mənbəyi olan cəlb olunmuş depozitlər üzrə faizlər arasındakı fərq.

- **Faiz xərcləri**
  Interest cost

Debitor tərəfindən kredit üzrə ödənmiş faiz məbləğinin kumulyativ miqdarı. Poyntlərin əslində əvvəlcədən ödənmiş faiz olması səbəbindən, ssudada faizini azaltmaq məqsədi ilə ödənilən hər bir poynt bu məbləğə daxil edilməlidir. Eyni zamanda, kreditor tərəfindən debitora ödənmiş hər hansı mənfi poyntlər və ya ödənən güzəştlər əslində debitorun ssuda üzrə gələcək faizə görə ödəyəcəyi ödənişlər olduğu üçün faiz xərcindən çıxılmalıdırlar.

- **Faiz riski**
  Interest rate risk

Faiz dərəcələrinin dəyişməsi nəticəsində investisiyaların dəyərdən düşməsi və gəlirliyin azalması riski.

- **Faiz**
  Percent (percentage, rate)

1) Ədədin yüzdə bir hissəsi;
2) Kreditorun borc alan subyektdən təqdim etdiyi borc vəsaitinə (pul vəsaiti və ya natural şəkildə) görə aldığı əlavə haqq, yaxud həmin haqqın əsas borca nisbətdə faiz ifadəsi.

- **Faizin kapitallaşdırılması**
  Capitalization of interest

Müqaviləyə əsasən ödənilmə vaxtı çatmış faizlərin ödənilməmiş

hissəsinin kreditin qalıq məbləğinə əlavə olunması. Kapitallaşdırılmış faizə müddəti uzadılmış, yaxud yeni kredit kimi rəsmiləşdirilmiş faizlər də aiddir.

- **Faizli svop**
  Interest rate swap

İki borc aləti emitenti arasında əvvəlcədən müəyyən olunmuş eyni məbləğdə borc üçün sabit faiz dərəcəsi ilə dəyişkən faiz dərəcələri üzrə ödəmələrin dəyişdirilməsi haqqında saziş.

İki tərəf arasında gələcək faiz ödənişlərinin mübadiləsinə şərait yaradan törəmə alət. Adətən, tərəflər arasında sabit faiz ödəmələri və üzən faiz ödəmələri mübadilə edilir. Şirkətlərin faiz dərəcəsi svoplarından istifadə etməkdə başlıca məqsədləri faiz dərəcəsinin dəyişməsindən irəli gələn risklərdən özlərini qorumaqdır.

- **Faizli**
  Interest bearing

Nominal məbləğ üzrə faiz ödənişləri həyata keçirən maliyyə alətini təsvir edən anlayış.

- **Faktor-bank**
  Factor(ing)-bank

Faktorinq əməliyyatı həyata keçirən bank. Faktorinq əməliyyatında faktor-bank müştəridən onun üçüncü şəxsdən ödəniş almaq, yaxud borcu geri almaq hüququnu təsdiq edən pul sənədini əldə edərək öncə ödəniş (borc) məbləğinin 70-90%-ni (adətən 2-3 gün ərzində), borc müddəti bitdikdən sonra, yəni ödəniş məbləğini üçüncü şəxsdən aldıqdan sonra isə (adətən 90 gün ərzində) qalan hissəsini müştəriyə ödəyir. Faktor-bank göstərdiyi faktorinq xidmətinə görə müştəridən adətən ümumi məbləğin 0,5-1,5%-i həcmində haqq alır.

- **Faktor-firma**
  Factor(ing)-company

Faktorinq fəaliyyəti ilə məşğul olan firma, müəssisə. Adətən, faktor-firma faktorinq əməliyyatlarını faktor-bank vasitəsilə həyata keçirir.

- **Federal Rezerv Sistemi**
  Federal Reserve System

Federal Rezerv Sistemi 1913-cü ildə yaranmış ABŞ dövlətinin mərkəzi bankı funksiyalarını yerinə yetirən müstəqil qurumdur. Federal Rezerv Sisteminin idarə heyəti ABŞ prezidenti tərəfindən seçilir. Federal Rezerv Sistemi İdarə Heyətindən, 12 Federal Rezerv Bankından və onların 24 filialından və Sistemə üzv olan bütün federal və ştat banklarından ibarətdir.

- **Federal fondlar**
  Fed funds

1) ABŞ-da Federal Rezerv Sisteminə üzv olan kommersiya bank-

larının federal rezerv banklarının birində saxladıqları sərbəsat ehtiyatlar. Bu ehtiyatlar banklararası qısamüddətli ssudalar üçün istifadə olunur;

2) Federal Rezerv Sistemi tərəfindən dövlət qiymətli kağızlarının alınmasına ödənilən vəsaitlər.

- **Federal fondların uçot faiz dərəcəsi (qısamüddətli kreditlər üzrə)**
  Federal funds rate

ABŞ kommersiya banklarının Federal Rezerv Sistemindəki ehtiyatlarından digər banklara verilən qısamüddətli (adətən, 1 gecəlik) borcların faiz dərəcəsi.

- **FİBOR**
  Frankfurt Interbank Offered Rate (FIBOR)

Almaniyanın Frankfurt şəhərinin banklararası depozit bazarında hər gün saat 11^{00}-da 12 bank tərəfindən təsbit edilən təklif dərəcəsi. FİBOR – 1985-ci ildən təsbit olunur.

- **Fiksinq**
  Fixing

1) Hər hansı müqavilənin dəyərinin, qiymətinin təsbit edilməsi;

2) Banklararası valyuta kursu əsasında valyuta kotirovkasının həyata keçirilməsi. Valyuta birjasının rəsmi bülletenində valyutaların alış və satış kursları fiksinqə əsasən göstərilir;

3) Əmtəə birjasında müəyyən zaman müddətində qiymət kotirovkasının həyata keçirilməsi.

- **Fiktiv kapital**
  Artificial capital,
  Fictitious capital

Sahiblərinə müntəzəm gəlir gətirən və qiymətli kağızlar bazarında real kapitaldan fərqli olaraq müstəqil hərəkət edən qiymətli kağızlarda (səhmlərdə, istiqrazlarda və s.) təqdim edilmiş kapital. Başqa sözlə, real kapitaldan (pul və ya avadanlıq formasında olan) fərqli olaraq dəyər deyil, yalnız gəlir almaq hüququnu ifadə edən kapitaldır. Fiktiv kapital sənaye kapitalının hərəkəti prosesində heç bir funksiyanı yerinə yetirməyərək, dəyərin və izafi dəyərin yaradılması prosesində iştirak etməyərək, sahibinə izafi dəyər əldə etmək hüququ verir. Beləliklə, fiktiv kapitalın hərəkəti fond bazarının fəaliyyət göstərməsinin əsasında durur. Tarixi baxımdan fiktiv kapital istehsaldan borc kapitalının təcrid edilməsi ilə və kredit sistemini təşkil edən xüsusi təsisatların əmələ gəlməsi zəminində yaranmışdır. Fiktiv kapitalın real kapitaldan ayrılması borc kapitalı əsasında baş verir, bunun nəticəsində borc kapitalı sahibinin əlində mülkiyyət titulu qalır, real olaraq isə bu kapitala fəaliyyətdə olan sahibkar sərəncam verir.

- **Filyera**
  Filiere

Ticarət münasibətləri zamanı satıcı tərəfindən alıcı tərəfə göndərilən, əmtəənin müəyyən edilmiş müqaviləyə uyğun olaraq qəbul edilməsini təklif edən veksel, ticarət sənədi. Adi vekseldən fərqli olaraq filyera borc öhdəliyini təsdiq edən sənəd kimi deyil, müqaviləni təsdiq edən sənəd kimi təqdim edilir. Əmtəənin alınması üçüncü şəxsə ötürüldükdə filyera da üçüncü şəxsə təqdim olunur. Faiz hesablanmır.

- **"Financial Times 100" fond indeksi (Futsi)**
  FTSE 100 (FTSE, Footsie)

London Fond Birjasında listinqdə olan 100 ən böyük şirkətin səhmlərini əhatə edən indeks. Bu indeks Futsi (Footsie) də adlanır.

- **Flipper**
  "Flipper"

Fond birjasında möhtəkir fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxs. Flipperin başlıca məqsədi əldə etdiyi səhmləri qısa müddətdə reallaşdırmaqla, yəni qısamüddətli maliyyə əməliyyatları vasitəsi ilə möhtəkir mənfəəti əldə etməkdir.

- **Flout**
  Float

1) Şirkətin, təşkilatın kassasında olan banknot və monetlər.

2) Çekin banka daxil olması ilə ödənişi arasındakı müddət.

3) Şirkətin fond bazarında tədavülə buraxılan səhmlərinin sayı.

- **FOB**
  Free on board (FOB)

Satıcının əmtəənin gəmiyə yüklənməsinə qədər bütün xərclərini ödəməli olduğunu ifadə edən ticarət termini. Əmtəələrin dəniz ticarətində istifadə olunur. Gəmiyə çatdırıldıqdan sonrakı bütün risklər alıcıya aiddir.

- **Fond birjası**
  Stock exchange

Hüquqi şəxs formasında yaradılan, öz üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısı. Eyni zamanda, fond birjası üzvlərinin qiymətli kağızların alqı və satqısını həyata keçirdiyi ticarət məkanıdır.

- **Fond indeksi üzrə fond**
  Stock index fund

Səhm bazarı indekslərinə investisiya edən fond.

- **Fond indeksi üzrə fyuçers**
  Stock index futures

Səhm indeksi üzrə fyuçers kontraktı.

- **Fond indeksi üzrə opsion**
  Stock index option

Səhm indeksinin "Koll" və ya "Put" opsionu.

- **Fond indeksi**
  Stock index

Seçilmiş bir qrup səhmlərin qiymətlərindəki dəyişiklikləri əks etdirən göstərici.

- **Fond**
  Fund

1) Bu və ya digər məqsədlər üçün toplanmış (alınmış, səfərbər edilmiş) pul vəsaiti. Vəsaitlərin istifadə istiqamətlərindən asılı olaraq ehtiyat fondu, sosial fond, istehlak fondu, yığım fondu və s. kimi fondlar mövcuddur;

2) Müəyyən qrup insanların məqsədli şəkildə birləşməsindən formalaşaraq bu və ya digər fəaliyyətlə məşğul olan qurum, təşkilat, birlik və s.;

3) Kapital, ehtiyyat, yığım, istehsal vasitəsi və s.

- **Fondlaşdırılmış borc**
  Funded debt

Şirkətin bir ildən və ya bir biznes siklindən daha çox müddətə ödəniş vaxtı olan istiqrazlar, uzun müddətli veksel borcları və ya borc iltizamları kimi borcudur. Kredit şərtləri üzrə debitor firma tərəfindən edilən faiz ödənişləri ilə təmin olunduğu üçün bu növ borc təminatlı borc sayılır.

- **Fondlaşdırılmış gəlir**
  Funded income

Əmlaka (daşınmaz əmlak, qiymətli kağızlar) sahiblikdən əldə edilən gəlirdir. Fondlaşdırılmış gəlirin əsas formaları – renta və faizlərdir. Ancaq fondlaşdırılmış gəlir əldə edən şəxs rantye adlanır.

- **Fondlaşdırma**
  Funding

1) Gələcək ödənişlərin reallaşdırılması məqsədi ilə ehtiyyat pul vəsaiti fondlarının yaradılması;

2) Qısamüddətli borcların uzunmüddətli borclarla əvəz edilməsi. Fondlaşdırmadan dövlət borcunun idarə edilməsində də geniş istifadə olunur. Adətən, hökumət dövlət büdcəsi gəlirlərinin aşağı düşdüyü şəraitdə borc öhdəlikli dövlət qiymətli kağızlarının ödənişini reallaşdıra bilmədikdə həmin maliyyə alətlərini daha uzunmüddətli borc alətləri ilə əvəz edir. Beləliklə, dövlət əlavə borc müddəti əldə etmiş olur.

- **Forfeyter**
  Forfeiter

Forfeytinq əməliyyatları üzrə kreditləşmə zamanı vekseli və ya veksel paketini alan hüquqi və yaxud fiziki şəxs.

- **Forfeytinq**
  Forfeiting

Bank və ya maliyyə şirkəti tərəfindən alıcının ticarət əməliyyatları üzrə borc öhdəliklərinin satıcılardan alması yolu ilə ticarət əməliyyatlarının kreditləşdirilməsi forması. Forfeytinqdən xarici ticarət əməliyyatlarının kreditləşdirilməsində geniş istifadə olunur. Belə kreditləşdirmə müvafiq maliyyə agentinin idxal edən tərəfindən akseptləşmiş veksellərin ixrac edəndən satın alınması formasında həyata keçirilir. Forfeytinqin şərtlərinə uyğun olaraq satıcı özünün alıcıya qarşı tələblərini konkret maliyyə agentinə güzəştə gedir. Bu halda satıcı faizlər çıxılmaqla veksellərin bütün məbləğini dərhal alır. Borclu (əmtəələrin alıcısı) isə özünün öhdəliklərini bir qayda olaraq yarım illik ödəniş yolu ilə ləğv edir. Forfeytinq veksellərin kommersiya bankları tərəfindən aparılan adi uçotundan onunla fərqlənir ki, bu halda borc öhdəliyi üzrə bütün risklərin həmin öhdəliyin alıcısına – forfeytora keçməsinə yol verilir. Bununla əlaqədar forfeytor alıcının fəaliyyət göstərdiyi ölkədəki elit bankın təminatlarının təqdim edilməsi barədə tələb irəli sürmək vəzifəsi yaranır. Forfeytinq satıcının debitor borcunu azaltmağa, balansın strukturunu təkmilləşdirməyə, kapital dövriyyələrinin sayını artırmağa imkan verir. Forfeytinqin üstünlükləri – kreditvermə dərəcələrinin sabitliyi, veksellərin və digər borc tələbnamələrinin təkrar alışının rəsmiləşdirilməsinin sadəliyi. Adətən forfeytinq bank kreditindən baha başa gəlir.

Ödəniş müddəti üçün uzun müddətə (1 ildən 7 ilə qədər) nəzərdə tutulan iri məbləğdə maşın və avadanlıqlar satışında çox vaxt forfeytinqdən istifadə edilir. Forfeytor ödəniş müddəti çatana qədər sənədləri özündə saxlaya bilər, yaxud dövriyyə etməmək əsasında başqa forfeytinq firmasına verə bilər. Ödəniş müddəti çatdıqda bu sənədlərin son saxlayıcısı onları ödəniş üçün banka təqdim edir.

- **Forvard**
  Forwards

Aktivi gələcəkdə müəyyən tarixdə və müəyyən qiymətə almaq və ya satmaq öhdəliyini əks etdirən müqavilə. Forvard müqaviləsi bağlanıldıqda heç bir maliyyə vəsaiti tələb olunmur. Forvardlar, əsas xüsusiyyətlərinə görə fyuçerslərə bənzəsə də, aralarında müəyyən fərqlər var. Forvardların fyuçerslərdən əsas fərqi iki tərəf arasında razılıq əsasında formalaşdırılması, birjadankənar ticarət olunması və marja(ehtiyat vəsait) tələblərinin olmamasıdır.

Forvardlar əsasən hedcinq və spekulyasiya üçün istifadə olunur.

- **Forward bazarı**
  Forward market

Forvard kontraktlarının alqı satqısının həyata keçirildiyi birjadankənar bazar.

- **Forvard marjası**
  Forward margin

Əmtəənin nağd (hazırki) qiyməti ilə müəyyən tarixdəki gələcək qiyməti arasındakı fərq.

- **Fundamental (əsaslı) tədqiqatlar**
  Fundamental research

Konkret tətbiqi məsələlərin həlli məqsədilə deyil, ümumilikdə bəşəriyyətin biliklərinin artırılması məqsədi ilə aparılan tədqiqatlar

Bax: Fundamental (əsaslı) təhlillər.

- **Fundamental (əsaslı) təhlillər**
  Fundamental analysis

Şirkətin durumu ilə yanaşı, tələb və təklif, iqtisadi statistika, dövlət siyasətləri və müəssisələrin maliyyə hesabatları kimi əsas iqtisadi, siyasi, sosial və ekoloji amillər üzrə aparılan tədqiqatlar əsasında qiymətlərin proqnozlaşdırılması üsuludur. Texniki təhlillərdən fərqli olaraq, fundamental təhlillər qiymətlərə keçmişdə nə olduğunun yox, onlara gələcəkdə nə olacağının üzərində dayanır.

- **Fyuçers müqaviləsi**
  Futures contract

Aktivi gələcəkdə müəyyən tarixdə və müəyyən qiymətə almaq və ya satmaq öhdəliyini əks etdirən standartlaşdırılmış müqavilə. Fyuçerslər törəmə qiymətli kağızların bir növü olub birjada alqı-satqı olunurlar. Əsasən əmtəələrin ticarətində istifadə olunur. Ticarət riskini azaltmaq məqsədilə fyuçers ticarətində iştirak edən treyderlərdən fyuçers müqaviləsinin 5-15%-i miqdarında marja (ehtiyat vəsait) tələb olunur. Konsepsiya baxımından forvardlara bənzəsə də, aralarında müəyyən fərqlər var. Fyuçerslərin forvardlardan əsas fərqi standartlaşdırılmış olması, birjada ticarət olunması və marja tələblərinin olmasıdır. Fyuçerslər əsasən hedcinq və alqı-satqı üçün istifadə olunur.

- **Fyuçers**
  Futures

Fyuçers müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyi təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağızdır.

- **Geri almaq (bay-bek)**
  Buy back

1) Əvvəllər satılmış əmlakı geri satın almaq;

2) Dilerdən əvvəllər ona satılmış malları müəyyən şərtlərlə geri almaq;

3) Satılmış avadanlığın haqqının tam şəkildə və ya bir hissəsinin həmin avadanlıqda istehsal olunmuş məhsullarla ödənilməsini təmin edən qarşılıqlı ticarət əməliyyatı;

4) Qısa mövqeni bağlamaq üçün qiymətli kağızların alınması;

5) İstiqrazlarla əlaqədar borcu vaxtından əvvəl bağlamaq üçün investorlardan öz səhmlərinin və ya istiqrazlarının satın alınması.

- **Geri çağırıla bilən qiymətli kağız**
  Callable security

Emitent tərəfindən dövriyyə müddəti bitənədək geri çağırıla bilən qiymətli kağız. Adətən, istiqrazlar və ya imtiyazlı səhmlər belə qiymətli kağızlar rolunda çıxış edirlər. Bu növ qiymətli kağızların yaranmasının əsas səbəbi faiz dərəcələrinin azaltmaq istəyidir. Emitent yüksək faizli kağızları geri çağıraraq daha aşağı faizli qiymətli kağızlar buraxır.

- **Geri çağırılan borc**
  Call loan

Girov kimi qiymətli kağızları girov qoymaqla brokerə marja hesablarını maliyyələşdirmək üçün kommersiya bankı tərəfindən verilən borc. Borc verən tələb etdiyi zaman qaytarılmalı olan borc.

- **Geri çağırılmayan istiqraz**
  Non-callable bond

Dövriyyə müddəti bitməmişdən əvvəl ödənilə bilməyən (geri çağırıla bilinməyən) istiqraz.

- **Geri çağırma**
  Call

Emitent tərəfindən qiymətli kağızların dövriyyə müddəti bitmə vaxtından əvvəl müəyyən vaxtda və müəyyən edilmiş məbləğdə ödənilməsi. İstiqrazı geri qaytarma hüququ.

bax. Call Option.

- **Geriyə split**
  (səhmlərin geriyə spliti)
  Reverse split
  (reverse stock split)

Dövriyyədə olan səhmlərin sayının azaldılması və bir səhmin nominal dəyərinin artırılması. Mə-

sələn şirkət 2-nin 1-ə geriyə split həyata keçirərkən səhmlərinin sayını 2 dəfə azaldaraq hər bir səhmin dəyərini 2 dəfə artırır. Yəni iki səhmi geri çağıraraq əvəzində onların dəyərini özündə əks etdirən 1 səhmlə əvəz edir. Adətən, geriyə "split" edərkən şirkətin məqsədi heç bir şey dəyişmədən səhmlərinin bazar qiymətini artırmaqdır.

- **Gələcək dəyər**
  Future value

Ödənişin gələcəkdə müəyyən vaxtda dəyəri.

- **Gələcək faiz dərəcəsi haqqında razılaşma**
  Forward rate agreement (FRA)

Gələcək faiz dərəcəsi haqqında müqavilə. Bu müqavilə faiz riskindən müdafiə aləti olmaqla, faiz dərəcələrinin dəyişməsinin qarşılıqlı kompensasiyası haqqında banklararası razılaşmanı əks etdirir.

- **Gəlir istiqrazları**
  Income bond

Əsas məbləğini tam qaytaran, faiz gəlirini isə ancaq mənfəət olduğu halda ödəyən istiqraz. Bəzi hallarda gəlir istiqrazları üzrə ödənilməmiş faiz şirkətə qarşı iddiaya səbəb ola bilər.

- **Gəlir səhmləri**
  Income shares (Income stocks)

Nisbətən yüksək, adətən də, müntəzəm olaraq artan cari gəlirlər (faizlər, dividentlər) ödənilən, lakin sahibinə kapitalın artımından gəlir əldə etmək hüququ verməyən səhmlər.

- **Gəlir**
  Revenue

İnvestorlara səhm və istiqraz investisiyalarından qayıdan əlavə pul məbləği.

- **Gəlirlik (qiymətli kağızların gəlirliliyi)**
  Yield

Müəyyən dövr ərzində qiymətli kağızlardan əldə olunan gəlirlərin məbləğinin həmin qiymətli kağızların nominal və ya bazar dəyərinə faiz nisbəti.

- **Gəlirlik əyrisi**
  Yield curve

Müxtəlif öhdəlik müddəti olan istiqrazlar ilə onların gəlirlikləri arasında əlaqəni əks edən əyri. Ən çox izlənən gəlirlik əyrisi müxtəlif öhdəlik müddəti olan dövlət istiqrazları ilə onların gəlirlikləri arasında əlaqəni əks edən dövlət istiqrazlarının gəlirlik əyrisidir. Dövlət istiqrazlarının gəlirlik əyrisi bazardakı digər borc qiymətli kağızları üçün müqayisə bazası funksiyasını yerinə yetirir.

- **Gəlirlik hesabatı**
  Earnings report

Şirkətin rüblük fəaliyyətini əks edən maliyyə hesabatları.

Gəlirlik hesabatları hər rübün sonunda buraxılaraq investorlara şirkətin fəaliyyəti və gəlirlik nəticələri haqqında məlumat verir.

- **Gəlirlilik səviyyəsi (dərəcəsi)**
  Rate of return

İnvestisiyanın gəlirliliyi. Müəssisə üçün bu, xalis mənfəətin istifadə edilən orta kapitala faiz nisbəti kimi hesablanır.

- **Girov kağızı**
  Mortgaging certificate

Girovqoyanla, o borclu deyilsə, həm də borclu ilə girovsaxlayan arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən adlı qiymətli kağız.

- **Girov**
  Collateral

Borc və ya krediti sığortalamaq məqsədilə debitor tərəfindən girov qoyulan və borcu qaytaracağına zəmanət verən qiymətli kağızlar və ya digər əmlak şəkilində qoyulmuş girov. Defolt halında girov üzrə hüquqlar kreditora keçir.

- **Girovdan imtina (“mənfi girov”) şərti**
  Negative pledge clause

Kredit (və ya istiqraz) müqaviləsinin borcalanın (istiqrazın emitentinin) öz aktivlərini girov qoymaqla bu müqavilə əsasında cəlb olunan kreditlərdən (yerləşdirilən istiqrazlardan) daha üstün təminatla yeni kreditlər götürməsinə (istiqrazlar yerləşdirməsinə) imkan verməyən şərti.

- **Göndərən (adresant)**
  Addressant (addresser)

Hər hansı göndərişi, o cümlədən maliyyə və pul sənədini göndərən tərəf.

- **Göy qurşağı**
  Rainbow

Valyuta risklərindən müdafiəni nəzərdə tutan istiqrazlar başa düşülür.

- **Gün ərzində**
  Intraday

Bir gün ərzində ticarət sessiyasında baş verənlər.

- **Günbəgün**
  Day to day

Aparıcı anderrayterin yetərincə sifarişləri olmadığı halda ilkin yerləşdirmə təklif təqvimində günə gün olaraq göstərilir.

- **Günlük qiymət limiti (həddi)**
  Daily price limit

Bir gün ərzində xammal, fyuçers və opsion bazarlarında qiymətlərin maksimum yol verilə bilən artımı və ya enişidir. Birjalar adətən hər müqaviləyə görə gündəlik limit təyin edirlər.

- **Günlük limit**
  Intraday limit

Əməliyyat günü ərzində valyuta əməliyyatları üzrə dilerlərə qoyulmuş limit (ümumilikdə və hər valyuta üzrə ayrı-ayrılıqda).

- **Günlük sifariş**
  Day order

Bir gün müddətində yerinə yetirilməli olan alqı və ya satqı sifarişi.

- **Günlük treyderlər**
  Day traders

Gün ərzində öz hesabına qiymətli kağızların qısa müddətli alqı-satqı əməliyyatlarını həyata keçirən treyderlər. Bu treyderlər adətən ticarət günün sonunadək bütün mövqeləri bağlayırlar.

- **Hanq Senq İndeksi**
  Hang Seng Index (HSI)

HSİ indeksi Honkonq Fond Birjası üçün istinad edilən əsas fond indeksidir. İndeks Honkonq birjasının 70 faiz kapitallaşmasını təmsil edən 33 mavi fişka səhminə əsaslanır.

- **Hedc fondu**
  Hedge fund

Səciyyəvi olaraq, çox gəlirli mövqeləri götürməklə və qısa alış, svop, derivativlər, proqram ticarəti və arbitraj kimi aqressiv strategiyalardan istifadə etməklə qəfil və qısamüddətli bazar dəyişikliklərindən yüksək gəlir əldə etməyə can atan özəl investisiya fondudur.

Adətən maliyyə təşkilatlarına və varlı adamlara məhdudiyyət qoyulur.

- **Hedc qeyd-şərti**
  Hedge clause

İnvestisiya məsələlərinə dair hesabatlarda müəllifin bütün məlumatın dürüstlüyünə dair məsuliyyət daşımadığını nəzərdə tutan qeyd-şərt.

- **Hedc**
  Hedge

Arzu olunmaz qiymət dəyişikliyindən qorunmaq üçün edilən investisiya. Alıcı və ya satıcı tərəfindən özlərinin bizneslərini, yaxud ödəniş vasitələrini bazarda qiymət (məzənnə) dəyişməsi nəticəsində maliyyə itkisindən sığortalamaq (qorumaq) məqsədilə aparılan forvard əməliyyatı. Hedc əməliyyatı möhtəkirlik xarakteri daşımır. Məsələn, satıcı subyekt bir neçə müddət sonra dəyəri ödəniləcək əmtəəni (kommersiya krediti formasında) alıcı subyektə göndərir. Bu halda satıcı subyekt ödəniş günü alacağı xarici valyutanın mümkün mübadilə məzənnəsi riskindən qorunmaq məqsədilə həmin məbləği banka satır. Beləliklə, satıcı ilə bank arasında yaranan münasibət hedc adlanır.

- **Hedcer**
  Hedger

Hedc əməliyyatını həyata keçirən subyekt (şirkət, bank və s.).

- **Hedcinq aləti**
  Hedging instrument

İnvestorların malik olduqları digər investisiyalar vasitəsi ilə baş verə biləcək hər hansı kapital itkisi riskini tənzimləmək məqsədi ilə istifadə etdikləri alətdir. Məsələn: opsionlar, fyuçerslər və s.

- **Hedcinq**
  Hedging

Riskin minimallaşdırılmasına yönəldilmiş tədbir və ya ticarət strategiyası. Hedcinq bir bazarda olan ticarət mövqeyindəki qiymət dəyişməsinə qarşı sığortalanmaq məqsədilə digər bazarda əks mövqeyin açılmasıdır.

- **Hedcinqin effektivliyi**
  Hedge effectiveness

Hedcinq predmetinin dəyəri və ya pul vəsaitləri axınında hedcinq edilən riskə aid edilə bilən dəyişikliklərin hedcinq alətinin dəyəri və ya pul vəsaitləri axınındakı dəyişikliklər ilə tam qarşılandığı səviyyə.

- **Hesab kitabı (mühasibat kitabı)**
  Book

Verilmiş qiymətli kağızlar üzrə ticarət mütəxəssisi tərəfindən nəzarət edilən alış və satış sifarişlərinin qeydiyyatı. Peşəkar treyderlərin ifadəsində bu məcazi ad bütün ticarət əməliyyatlarının müxabirləşdirilməsini ifadə edir.

- **Hesablaşma qiyməti**
  Settlement price

Ticarət günü ərzində törəmə qiymətli kağızları üçün ödənilən son məbləğ.

- **Hesablaşma riski**
  Settlement risk

Hesablaşma zamanı tərəflərdən birinin müqavilə üzrə öhdəliyini yerinə yetirməməsi riski.

- **Hesablaşma tarixi**
  Settlement date

Əmtəə və ya qiymətli kağızın alıcı və satıcı arasında mübadilə tarixi. Səhm və istiqrazlar üzrə hesablaşma adətən ticarət günündən 3 gün sonra baş verir.

- **Hesablaşma**
  Settlement

Əmtəə və ya qiymətli kağızın satıcısı və alıcısı arasında hesablaşma.

- **Həcm**
  Volume

Müəyyən müddət ərzində bütün bazarda reallaşan (həyata keçirilən) əqdlərin və ya səhmlərin miqdarı. Həcm adətən gündəlik baza əsasında müəyyən edilir.

Qiymətli kağızlar bazarında ticarət olunan qiymətli kağızların sayı.

- **Həddən artıq alış/satış**
  Overbought & oversold

Bu və ya digər istiqamət üzrə qiymətlərin nə zaman və hansı sürətlə dəyişdiyini müəyyən etməyə çalışan texniki təhlil alətidir. Bu, adətən, müəyyən vaxt kəsiyində artan və azalan buraxılışların (emissiyaların) sayı arasındakı fərqin sürüşən ortasına əsaslanaraq hesablanır.

- **Həddən çox yazılma**
  Oversubscribed

Sifarişin sayı mövcud səhmlərdən daha çox olduğu hal.

- **"Hər şey və ya heç nə" prinsipi ilə sifariş (sərəncam) ("ol or nan" sifarişi (sərəncamı))**
  All-or-none order

Müştərinin brokerə verdiyi icrası tam həcmdə mütləq yerinə yetirilməli olan sifariş, əks halda, belə sifariş ləğv olunur.

- **"Hər şey və ya heç nə" prinsipi ilə təklif ("ol or nan" təklifi)**
  All-or-none offering

Anderrayterin təklif olunan bütün səhmləri sata bilmədiyi halda emitentin təklifi ləğv etmə hüququ.

- **Həyata keçirilmə qiyməti**
  Strike price

Opsion sahibinin bu opsion üzrə baza aktivini (qiymətli kağızı) ala və sata bildiyi qiymət.

- **Hibrid qiymətli kağızlar**
  Hybrid securities

İki və daha çox maliyyə alətinin xüsusiyyətlərinə malik olan qiy-

mətli kağızlar (məsələn, kupon faizi müəyyən əmtəənin qiymətindən asılı olan istiqrazlar).

Adətən, hibrid qiymətli kağızlar həm pay, həm də borc qiymətli kağızların xüsusiyyətlərinə malik olurlar (məsələn, dönərli istiqraz, varrantlı istiqraz).

- **Holdinq şirkəti**
  Holding company

Digər şirkətlərin nəzarət səhm paketlərinə sahib olmaqla onlar üzərində nəzarət hüququna malik olan şirkət. Adətən, holdinq şirkətləri ana şirkətlərdən fərqli olaraq, özləri istehsal prosesi ilə deyil, maliyyə menecmenti və marketinq kimi sahələrlə məşğul olurlar.

- **Holland hərracı**
  Dutch auction

Hərracı aparanın daha yüksək qiymətlə başladığı və qiymətin hər hansı bir iştirakçı tərəfindən qəbul olunana qədər aşağı salındığı hərrac. Holland hərracında, adətən, rezerv qiymətdən (satıcının qəbul edəcəyi ən aşağı qiymət) heç bir iştirakçı yüksək təklif irəli sürmədikdə hərrac dayandırılır.

- **Hüquqlar istisna olmaqla**
  Ex-rights

Səhmlərin onlar üzrə bütün hüquq və imtiyazların satıcıda qalması şərti ilə ticarəti.

- **Xalis aktivlər**
  (xalis aktivlərin dəyəri)
  Net assets (net asset value, NAV, net worth)

Şəxsin və ya şirkətin cəmi aktivləri çıxılsın cəmi passivləri (öhdəlikləri).

Şirkətlər üçün xüsusi kapital və ya xalis kapital kimi də adlandırılır.

Korporativ qiymətləndirmə nöqteyi-nəzərindən xalis aktivlərin dəyəri aşağıdakı kimi hesablanır: Aktivlərin dəyəri çıxılsın passivlər bərabərdi xalis aktivlərin dəyəri.

- **Xalis aktivlərin rentabelliliyi**
  Return on net assets

Şirkətin əməliyyatlardan xalis mənfəətinin dövr ərzində xalis aktivlərin orta həcminə nisbəti.

- **Xalis cari dəyər**
  Net present value (NPV)

Pul mədaxilinin cari dəyəri ilə pul məxaricinin cari dəyəri arasındakı fərq. Xalis cari dəyər uzun müddətli investisiya layihələrinin gəlirliyinin hesablaması üçün istifadə olunur.

$$NPV = \sum_{t=1}^{T} \frac{C_t}{(1+r)^t} - C_0$$

C_t = t tarixində gözlənilən pul axını
C_0 = ilkin investisiyanın məbləği
r = diskont faiz dərəcəsi

İnvestisiya layihəsinin xalis cari dəyəri müsbət olduğu təqdirdə investisiya qoyuluşu məqsədəuyğun hesab edilir. Xalis cari dəyər mənfi olduqda isə investisiya qoyuluşu məqsədəuyğun hesab edilmir.

- **Xalis dəyişmə(fərq)**
  Net change

Qiymətli kağızın bir gün öncəki son qiyməti ilə bu günün son qiyməti arasındakı fərq. Bu qiymət, adətən, səhmlərin dəyər cədvəlində son rəqəm kimi göstərilir.

- **Xalis gəlir**
  Net income

1) Məcmu gəlirlərin bu gəlirlərin əldə olunması üçün çəkilən bütün xərclər çıxıldıqdan sonra qalan hissəsi.

2) Fiziki şəxsin ümumi gəlirinin vergi çıxıldıqdan sonra yerdə qalan hissəsi.

- **Xalis qazanc**
  Net earnings

Məcmu şəxsi gəlirlərin vergilər, icbari ödənişlər (üzvlük haqları, sosial müdafiə fondlarına ödənişlər və s.) və bu kimi digər xərclər çıxıldıqdan sonra qalan hissəsidir.

- **Xalis mənfəət**
  Net profit

Mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət.

- **Xalis mövqe**
  Net position

Treyderlərin müəyyən maliyyə aləti üzrə uzun və qısa mövqeləri arasındakı fərqi. Müəyyən aktiv üzrə xalis mövqe uzun olduqda uzun xalis mövqe, əks halda isə qısa xalis mövqe adlanır.

- **Xalis pul axını**
  Net cash flow

Müəyyən dövr ərzində şirkətə daxil olan və onun ödədiyi pul vəsaitlərinin fərqi.

- **Xam qiymətli kağızlar**
  Unseasoned securities

Bazarda dövriyyədə kifayət qədər möhkəmlənməmiş yeni qiymətli kağızlar. Bu kağızlar bazarda yeni olduqlarından onların qiymətlərinin dəyişməsi meyillərini də müəyyən etmək çətindir və buna görə də onların təkrar bazarı da fəal deyildir.

- **Xarici istiqraz**
  Foreign bond

Xarici borcalan tərəfindən daxili maliyyə bazarında buraxılmış və yerli valyutaya denominasiya edil-

miş istiqraz. Emissiya valyutasından asılı olaraq bu istiqrazların müxtəlif adları var, məsələn, Funt sterlinq üçün - Buldoq istiqrazı, Yen üçün - Samuray istiqrazı, ABŞ dolları üçün - Yanki istiqrazı və s.

- **Xarici valyuta bazarı (valyuta bazarı)**
  Foreign exchange market (FOREX market, FX market)

Xarici valyutalarla əməliyyatlar aparılan bazar. Valyuta ticarəti vahid bir məkanda (birjada) deyil, birjadan kənar elektron şəbəkə, telefon və s. vasitəsilə həyata keçirilir.

- **Xarici valyuta**
  Foreign currency (foreign exchange)

1) Müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları. Məsələn, avro, dollar, rubl, lirə və s. Azərbaycan üçün xarici valyutadır;

2) Beynəlxalq hesablaşma əməliyyatlarında istifadə edilən ödəniş və kredit vasitələri. Məsələn, xarici valyutada olan veksellər, çeklər, eləcə də beynəlxalq səviyyədə banklararası köçürmələr və s.

- **Xəbərdarlığın birinci günü**
  First notice day

Fyuçers kontraktı satıcısına həmin fyuçers kontraktı üzrə faktiki maliyyə alətlərinin və ya fiziki əmtəələrin çatdırılması barədə niyyət xəbərdarlığını etmək üçün icazənin verildiyi ilk tarixdir.

- **Xəbərdarlığın son günü**
  Last notice day

Fyuçers müqaviləsi üzrə çatdırılma haqqında niyyət xəbərdarlığının verilməsi üçün son gün.

- **Xərc (məsrəf) əmsalı**
  Expense ratio

Qarşılıqlı fondun əməliyyat xərclərini qarşılamaq üçün sərf etdiyi orta xalis aktivlərinin faiz nisbəti.

- **Xərcini ödəmə (qaytarma)**
  Payback

1) İnvestisiya layihəsinin öz xərcini ödəməsi;

2) Kreditin və digər borcların qaytarılması, borcun ödənilməsi.

- **Xərcini ödəmə (qaytarma) müddəti**
  Payback period

1) İnvestisiya layihəsinin öz xərcini ödəməsi müddəti;

2) Kreditin və digər borcların qaytarılması müddəti, borcun ödənilməsi müddəti.

- **Xəzinə kağızları**
  Treasuries

Bütün növ dövlət borc qiymətli kağızlarını əks etdirən ümumi ifadə.

- **Xəzinə səhmi**
  Treasury stock

Emitent tərəfindən geri alınmış səhm. Şirkətin özünə məxsus olan və dövriyyədə olmayan səhmləri. Xəzinə səhmləri şirkətin dövriyyədə olan səhmlərini investorlardan geriyə alması nəticəsində və ya öncədən dövriyyəyə buraxılmaması nəticəsində formalaşır. Bu səhmlər divident ödəmir və səs hüququ vermir.

- **Xəzinə vekseli (Dövlət qısamüddətli istiqrazı, DQİ)**
  Treasury bill

T'ədavül müddəti 1 ilədək olan dövlət borc qiymətli kağızları.

Xəzinə vekseli dövlət büdcəsindən ödənilməli olan vəsaitlərin məbləğini təsbit edən və ya qısa müddətə (1 ildən az) şəxslərdən sərbəst pul vəsaitlərinin cəlb edilməsi məqsədi ilə buraxılmış sadə vekseldir.

- **Xırda alverçi (skalper)**
  Scalper

Çox da böyük olmayan mənfəət əldə etmək məqsədilə birjada qısa müddətli möhtəkir (spekulyativ) əməliyyatlar aparan şəxs. Adətən, bu tip alverçilər öz mövqelərini gün ərzində açıb və bağlayırlar.

- **Xırda əməliyyat**
  Scalp

Qısa müddət ərzində aparılan və çox da böyük gəlirlə nəticələnməyən möhtəkir (spekulyativ) birja əməliyyatı.

- **Xırda nominallı (qəpik) səhmlər**
  Penny Stocks

Bazarda 1 ABŞ dollarından (bəzi hallarda 5 ABŞ dollarından) daha az məbləğə satılan qiymətli kağızlar.

- **Xüsusi (daxili) volatillik**
  Implied volatility

Səhmin qiymətində nəzərdə tutulmuş valetlilik. Bu bazarın verilmiş məlum səhm qiymətinin nə qədər dəyişəcəyini göstərən ölçü vahididir. Bu gözlənilən dəyişikliyin istiqamətini deyil ölçüsünü göstərir. Valetlilik illik faiz kimi ifadə olunur.

- **Xüsusi Borc Alma Hüququ (SDR)**
  Special Drawing Rights (SDR)

Beynəlxalq Valyuta Fondunun (BVF) buraxdığı və dövlətlərarası nağdsız hesablaşmalar üçün və hesablaşma vahidi kimi istifadə olunan beynəlxalq tədiyyə və ehtiyat vəsaitləridir. SDR-nin yara-

dılma məqsədi – dünya ticarətinin yüksək artım sürəti ilə əlaqədar kifayət qədər qiymətləndirilməyən beynəlxalq likvidlilik səviyyəsinin yüksəldilməsidir.

SDR sistemi 1970-ci ildən fəaliyyət göstərməyə başlamışdır. BVF-də xüsusi borc alma hesabı yaradılmışdır ki, bunun vasitəsi ilə SDR-dən istifadə etməklə əməliyyatlar həyata keçirilir.

- **Xüsusi ehtiyatlar fondu**
  Special reserve fund

Aktivlər üzrə zərərin ödənilməsi üçün "adi ehtiyatlar"a və "məqsədli ehtiyatiar"a bölünür. Xüsusi ehtiyatlar konkret bir və ya bir qrup aktivlə əlaqədar mümkün zərərin ödənilməsi üçün istifadə olunur.

- **İcmal maliyyə hesabatları**
  Consolidated (summarized) financial statements

Yalnız iqtisadi subyektin fəaliyyətinin nəticələrinə və maliyyə vəziyyətinə dair əsas göstəricilərlə maraqlı istifadəçi qruplarını məlumatlandırmaq məqsədini daşıyan və yoxlanılmış illik maliyyə hesabatlarının ümumiləşdirilmiş forması kimi tərtib olunan maliyyə hesabatı.

- **İcmal mühasibat balansı**
  Consolidated balance sheet

Şirkətin və onun törəmə müəssisələrinin maliyyə vəziyyətini (aktivlərinin və öhdəliklərinin vəziyyətini) ümumiləşdirilmiş şəkildə əks etdirən mühasibat balansı.

- **İcra edilən kredit**
  Performing loan

Faiz və əsas məbləğin qaytarılması üzrə ödənişləri, əvvəlcədən nəzərdə tutulmuş qrafikə uyğun olaraq, vaxtında (və ya cüzi gecikmələrlə) ödənilən kredit.

- **İdarə Heyətinin Sədri (Baş icraçı direktor)**
  Chief executive officer (CEO)

Şirkətdə əsas korporativ qərarların verilməsi, yüksək səviyyəli strategiyalarının müəyyən olunması və icrası, ümumi əməliyyatların idarə olunmasına cavabdeh olan şəxs. İdarə heyətinin sədri şirkətdə ən yüksək vəzifə hesab olunur.

- **İflas**
  Crash

1) böhran hadisəsini, xüsusilə müəssisənin, firmanın müflis olmasını, yoxsullaşmasını ifadə edən termin;

2) tam uğursuzluq, müvəffəqiyyətsizlik.

Birja iflası və əməliyyat iflası fərqləndirilir. Birja iflası – bazar iştirakçılarının və investorların xeyli itkilərinə gətirib çıxaran birja konyukturasının kəskin azalmasıdır. Əməliyyat iflası – fond birjasının elə halıdır ki, bu zaman onun iştirakçıları əməliyyatların artan həcmini həyata keçirə bilmirlər, bəzi broker firmaları ilə alqının, satqının baş verməsinin və ölçüsünün seçimi zamanı, eləcə də bağlanmış sövdələr üzrə nağd hesablaşmalarla qiymətli kağızların daşınması zamanı səhvlər edirlər.

- **İkiqat təminatlı istiqraz**
  Double-barreled bond

Bələdiyyə tərəfindən buraxılan və iki müxtəlif maliyyə mənbəyi ilə təmin edilən istiqraz (misal üçün, belə istiqrazlar üzrə ödənişlər maliyyələşdirilən investisiya layihəsinin gəlirləri hesabına və yuxarı hakimiyyət orqanının zəmanəti əsasında həyata keçirilə bilər).

- **İkili (ikiyaruslu) valyuta bazarı**
  Double currency market

Ikili məzənnə mövcud olan valyuta bazarı. Bu zaman valyuta məzənnələri bir yarusda sərbəst bazar qanunları ilə, digər yarusda isə dövlətin valyuta tənzimlənməsi vasitəsilə formalaşır.

- **İkili məzənnə**
  Double rate

Dövlət tərəfindən valyuta əməliyyatlarının tənzimlənməsi məqsədilə milli valyuta üzrə iki müxtəlif məzənnənin müəyyən edilməsi. Adətən, maliyyə əməliyyatları üçün bir, kommersiya əməliyyatları üçün isə başqa məzənnə müəyyənləşdirilir.

- **İkinci dərəcəli borc**
  Subordinated debt

Üstün hüquqa malik olmayan borc. Bu cür borc aləti ya təminatsız olur və ya digər borcverənlərə nisbətən şirkətin aktivlərinə ikinci dərəcəli iddiaçı hüququ verir. Müflisləşmə halında ikinci dərəcəli borc öhdəlikləri daha üstün borc öhdəliklərindən sonra ödənilir.

- **İkitərəfli agent (çarpaz agent, dual agent)**
  Agency cross
  (dual agency, put through)

Hərrac zamanı eyni brokerin həm alıcı, həm də satıcı üçün agent fəaliyyəti göstərməsi. Belə hallar broker şirkətinin eyni zamanda iki müxtəlif müştəridən eyni səhmlərin müvafiq miqdarda alqı və satqı sifarişini qəbul etdikdə baş verir.

- **İkitərəfli bazar**
  Two-way market

Dilerlərin fəal surətdə həm alış, həm də satış məzənnələrini təyin etdiyi bazar.

- **İkivalyutalı istiqraz**
  Dual currency bond

Bir valyuta ilə kupon ödənilən, lakin müəyyən onlunmuş məbləğdə digər valyuta, çox vaxt, dollar ilə əvəzi ödənilən istiqraz. Adətən, investorlar yuxarı-bazar kuponu alırlar, lakin, bu zaman, hazırkı misal çərçivəsində dolların məzənnəsi məbləğin müəyyən edildiyi dövrdə olan göstəricidən aşağı düşdükdə onlar risk ilə üzləşirlər. Bu istiqrazlar alış valyutası ilə əməliyyat aparan borcgötürənlər üçün sərfəlidir. Çünki, onlar uzunmüddətli məzənnə riski ilə qarşılaşmayacaqlar. Digər borcgötürənlər üçün isə alternativ variant kimi təminatlı məzənnədən istifadə oluna bilər (məsələn, emissiya valyutasında öhdəliklərə malik korporasiyalar ilə).

- **İqtisadi "barometr"**
  Economic barometer

İqtisadi konyunkturanı xarakterizə edən göstəricilər və ya göstəricilər sistemi. Məsələn, qiymət səviyyəsi, işsizlik səviyyəsi, müxtəlif makroiqtisadi göstəricilərin artım dinamikası və s.

- **İqtisadi göstəricilər (indiqatorlar)**
  Economic indicators

Ölkədə iqtisadi vəziyyəti əks etdirən və maliyyə və iqtisadi meyilləri təhlil etmək, qiymətləndirmək və proqnozlaşdırmaq üçün istifadə olunan statistik göstəricilər. Məsələn ÜDM-in artım sürəti, İstehlak qiymətləri indeksi, Tədiyyə balansının saldosu, İşsizlik səviyyəsi və s.

- **İqtisadi risk**
  Economic risk

İqtisadi subyektlərin gözləntiləri ilə müqyisədə gəlirlərinin xeyli az və ya xərclərinin daha çox ola bilməsi riski. Əsas səbəbləri xammalın qiymətlərinin yüksəlməsi, rəqabətin güclənməsi, valyuta məzənnəsinin dəyişməsi və siyasi rejimin dəyişməsi ola bilər.

- **İlkin kütləvi təklif**
  Initial public offering **(IPO)**

Şirkət tərəfindən səhmlərinin ilk dəfə olaraq kütləvi təklif olunması, başqa sözlə, yeni açıq səhmdar cəmiyyəti və ya qapalı səhmdar cəmiyyəti formasından açıq səhmdar cəmiyyəti formasına keçən şirkətin öz səhmlərini ilkin bazarda açıq satışa buraxması. Bu zaman istənilən investor şirkətin səhmlərini əldə edə bilər.

- **İlkin qiymətli kağızlar bazarı**
  Primary security market

Yeni buraxılmış qiymətli kağızların alqı-satqısı həyata keçirilən bazar. İlkin bazarda qiymətli kağızlar birbaşa olaraq emitentdən alınır. Bu, ikin bazarı təkrar bazardan fərqləndirir.

- **İlkin marja**
  Initial margin

Ticarət əməliyyatının açılması üçün tələb edilən ilkin məbləğdir. Öhdəliklərin icrası üçün təminat rolunda çıxış edir.

- **İlkin prospekt**
  Preliminary prospectus

İnvestorlar üçün, anderrayter tərəfindən çap olunan, səhmlərin buraxılması haqqında ilkin sənəddir.

- **İlkin təqdimat**
  Road show

İnvestorlarla emitentin və anderrayterin ilkin yerləşdirmədən öncə keçirdikləri görüşlər.

- **İlkin yerləşdirmə qiyməti**
  Public offering price

Qiymətli kağızın yeni buraxılışı üzrə anderrayter tərəfindən qoyulan qiymət. Anderrayter ilkin yerləşdirmə qiymətini müəyyən edərkən şirkətin maliyyə vəziyyəti, artım templəri, sektordakı vəziyyət kimi faktorlara baxır.

- **İlkin yerləşdirmə**
  Primary distribution

Müəssisə tərəfindən buraxılan qiymətli kağızın yeni buraxılışının ilkin satışı.

- **İllik göstərici (səviyyə, dərəcə)**
  Annual rate

Hər hansı bir göstəricinin qiymətinin bir il ərzində çatdığı səviyyəni ifadə edir. Məsələn, satış həcminin illik səviyyəsi, investisiya qoyuluşunun illik səviyyəsi və s. Bəzi göstəricilərin qiymətlərinin illər üzrə müqayisəsi onların orta illik səviyyələrinin müqayisəsi əsasında aparılır. Hər hansı bir göstəricinin orta illik səviyyəsi ilin müəyyən dövrləri (aylar, rüblər) üzrə toplanan yekun illik səviyyənin həmin dövrlər üzrə orta kəmiyyəti

əsasında müəyyən olunur. Orta illik səviyyə və ya dərəcə üzrə müqayisənin üstün cəhəti ondan ibarətdir ki, bu halda ilin müxtəlif dövrlərindəki mövsümi xarakterli dəyişmələrin təsirindən yaranan kənarlaşmalar istisna olunur ki, bu da ümumi meyili daha dəqiq müəyyənləşdirməyə kömək edir. Məsələn: əvvəlki ilin orta inflyasiya dərəcəsi ilə cari ilin orta inflyasiya dərəcəsi müqayisə olunduqda, artıq mövsümi xarakterli dəyişikliklərin təsiri kənarlaşdırılmış olur.

- **İllik hesabat**
  Annual report

Şirkətin hər təqvim ili və ya maliyyə ilinin sonunda müəyyən olunmuş formada hazırladığı və həmin dövrdəki fəaliyyətinin nəticələrini və cari vəziyyətini əks etdirən hesabat. İllik ümumi yığıncaqdan əvvəl səhmdarların nəzərdən keçirmələri üçün onlar arasında yayılır. Bununla yanaşı, bu hesabat müvafiq dövlət qurumlarına, kreditorlara və digər bu kimi maraqlı tərəflərə də təqdim olunur.

- **İllik hesablı faiz dərəcəsi**
  Annualized interest rate

Faiz dərəcəsinin ilin müəyyən dövrünə aid qiyməti əsasında hesablanan illik səviyyəsi.

Bax: *İllik hesablı səviyyə (dərəcə).*

- **İllik hesablı səviyyə (dərəcə)**
  Annualized rate

Hər hansı bir göstəricinin ilin müəyyən dövrünə aid qiyməti əsasında hesablanan illik səviyyəsi. Məsələn, aylıq (rüblük) gəlir səviyyəsi və ya faiz dərəcəsi əsasında illik gəlir səviyyəsi və ya faiz dərəcəsinin hesablanması. Əgər həmin göstəricilərin ilin digər aylarında da (rüblərində də) eyni olması gözlənilirsə, onda illik hesablı gəlir səviyyəsini və ya faiz dərəcəsini müəyyənləşdirmək üçün bir aylıq (rüblük) göstərici 12-yə (4-ə) vurulur. Əgər göstəricinin ilin dövrləri üzrə səviyyəsi dəyişkəndirsə, onda illik hesablı səviyyənin hesablanması üçün onun müvafiq dövrlər üzrə orta səviyyəsindən (dərəcəsindən) və ya müvafiq riyazi hesablamalardan, əsasən də, ekstrapolyasiya üsulundan istifadə olunur.

- **İmtina**
  Give up (give-up)

1) Müqavilə bağlamaqdan imtina etmək və ya başqasına güzəştə getmək;

2) Fyuçers bazarında birjanın bir üzvü ilə bağlanmış müqaviləni birjanın digər üzvünə vermək (bütün komissiya haqllarını güzəştə getməklə);

3) Fond birjasının bir üzvünün sifarişi ilə müqavilə bağlayan digər üzvünün onun adını açıqlaması

(bu halda alıcı və satıcı arasında müqavilə birbaşa, vasitəçisiz rəsmiləşdirilir);

4) Bir birja brokeri vasitəsi ilə sifarişi yerləşdirmək, lakin hesablaşmanın digər birja brokeri vasitəsi ilə aparılmasını tələb etmək;

5) Yüksək gəlirlilikli qiymətli kağızların satılması və həmin məbləğdə daha aşağı gəlirliliyə malik qiymətli kağızların alınması nəticəsində gəlirdə itirmək.

- **"İmtinaya qədər" sifarişi (sərəncamı, əmri)**
  Good til canceled (GTC)

Müştəri tərəfindən dayandırılana qədər və ya icra olunana qədər olan alqı-satqı sifarişləri.

- **İmtiyazlı iştirak**
  Participating preferred

Müəyyən edilmiş dividentə və ya ümumi səhm üzrə dividentlərin ödənilməsindən sonra müəyyən edilmiş şərtlər əsasında əlavə dividentlərə malik imtiyazlı səhm.

- **İmtiyazlı səhm**
  Preferred (chartered, privileged) share

Emitentin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, sahibinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində divident almasına təminat verən, emitentin ləğvindən sonra onun qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququ, habelə, səhmlərin buraxılış şərtlərində və emitentin nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən səhm növüdür. İmtiyazlı səhmlər üzrə müəyyən olunmuş divident adi səhmdarlara hər hansı bir ödəmə edilməmişdən əvvəl ödənilir.

Yuxarıda sadalanan üstünlüklərinə baxmayaraq, bu cür səhmlər səsvermə hüququna malik olmurlar və mənfəət artanda, adi səhmdarlardan fərqli olaraq, imtiyazlı səhmdarların divident gəlirləri artmır.

- **İmtiyazlı yazılış hüququ**
  Subscription right (subscription privelege)

Kənar investorlara təklifdən qabaq, şirkətin qiymətli kağızların yeni buraxılışı zamanı öz səhmdarlarına verdiyi üstünlükdür. Adətən, yazılış qiyməti bazar qiymətindən aşağı olur.

- **İndeks fondları**
  Index funds

Portfelinin strukturu müəyyən fond indeksinin (Məsələn, Standard & Poor's 500 İndeksi kimi) strukturuna uyğunlaşdırılan (bağlanan) qarşılıqlı investisiya fondu.

İndeks qarşılıqlı fondu daha yüksək gəlir əldə etməkdən çox, gəlirliliyi seçilmiş indeksə uyğun

təmin etməyi qarşısına məqsəd qoyur.

- **İndeks**
  Index

İqtisadiyyatda və ya bazarda baş verən dəyişiklikləri ölçmək üçün istifadə edilən kəmiyyət göstəricisi. Adətən, indekslər müəyyən bir sahəni və ya onun altsahələrini təmsil edən müəyyən sayda qiymətli kağızların dəyərini və ya iqtisadi indiqatorların qiymətlərini ifadə edir.

- **İndekslə əlaqələndirilmiş istiqrazlar**
  Index-linked bonds

Kuponları pərakəndə satış və ya istehlakçı qiymət indeksləri ilə əlaqələndirilmiş istiqrazlar.

- **İndeksləşdirmə**
  Indexing

1) İnvestisiya portfelinin müəyyən fond indeksinin (məs., S&P 500 kimi) təmsil etdiyi qiymətli kağızlar və bu indeksin qiymətində onların çəkilərinə uyğun şəkildə formalaşdırıldığı passiv investisiya strategiyası. Başqa sözlə, investisiya portfelinin müəyyən fond indeksinə bağlanması (investisiyanın bu indeksin hesablanmasında nəzərə alınan qiymətli kağızlara qoyulması);

2) Əmək haqqı, pensiya, sosial yardımlar, kredit məbləğləri, faiz dərəcələri və s. bu kimi gəlirlərin (və ya xərclərin) inflyasiyadan müdafiə olunması üçün onların qiymət indeksləri ilə əlaqələndirilməsi.

- **İndiqator (göstərici)**
  Indicator

Hər hansı prosesin müəyyən dövr ərzində gedişatını xarakterizə edən mütləq və ya nisbi göstərici.

Fond birjasının indiqatoru isə qiymətli kağızlar bazarında müəyyən dövr ərzində aparılan əməliyyatların həcminin, maliyyə alətlərinin gəlirliliyinin, o cümlədən faiz dərəcələrinin dinamikasının, alqı-satqı əməliyyatlarının həcminin öncədən qiymətləndirilməsi məqsədi ilə istifadə edilən göstəricidir. Fond birjasının indiqatoru birja mütəxəssisləri tərəfindən istifadə olunur.

- **İndossament**
  Endorsement

1) Vekselin, çekin, konosamentin və digər qiymətli kağızın əks tərəfində ötürücü yazıdır ki, buna uyğun olaraq qiymətli kağıza dair bütün hüquqlar bir şəxsdən digərinə keçir. İndossamenti həyata keçirən şəxs indossant adlanır;

2) Sığorta polisində hər hansı bir düzəlişdir və ya sığorta şərtlərinin dəyişməsi ilə əlaqədar sığorta haqqında müvəqqəti şəhadətnamədir. Qiymətli kağızı saxlayan hər hansı bir qanuni şəxs kağızın özünün mətnində onun ötürülməsinə qa-

dağanı düzəliş etmək hüququna malikdir, bununla əlaqədar indossament qüvvəsini itirir.

Ötürücü hüquqlar veksel və ya çek üzrə tədiyyənin, konosament üzrə tədiyyənin alınması ilə bitmir, vekselin köçürülməsi hüququna, akseptin ödənilməsi tələbini, vekselin və digər qiymətli kağızların etiraz edilməsini ehtiva edir. İndossament hər hansı bir şəxsin (indossantın) və ya vekselə münasibətdə təqdim edənin xeyrinə – eləcə də, vekselə və vekselverənə görə tədiyyəçinin özünün xeyrinə indossant tərəfindən edilə bilər. Əgər ötürücü yazıda indossamenti edənin xeyrinə, onun adı yoxdursa, onda o, blank indossamenti (təqdim edənə) adlanır. Sonradan qiymətli kağızın sahibi beləliklə ötürücü yazını adlı edərək, adı bu ötürücü yazıda yaza bilər. Ötürücü yazı qiymətli kağız üzrə bütün borc məbləği qədər sənədin özündə, yer olmadığı halda – sənədə birləşdirilən kağızda edilir.

Ötürücü funksiyadan savayı indossament vekseldə və ya çekdə həmçinin zəmanət funksiyasını yerinə yetirir: veksel üzrə hər bir indossant akseptə görə tədiyyəyə görə, çek üzrə indossant isə – tədiyyəyə görə cavabdehdir. İndossant veksel verənlə (çek saxlayanla), avalçı ilə, ödəyici ilə birgə həmrəylik məsuliyyəti daşıyır (baxmayaraq ki, "dövriyyəsiz" düzəlişi ilə indossament vasitəsi ilə öz üzərindən bu məsuliyyəti götürə bilər).

- **İndossant**
  Endorser

Orderli qiymətli kağız üzrə hüququ verən şəxsdir. İndossantın qiymətli kağızda icra edilmiş indossamenti qiymətli kağızla təsdiqlənmiş bütün hüquqların keçməsi üçün əsasdır.

- **İndossat**
  Endorsee

Xeyrinə indossament təqdim olunmuş, yəni maliyyə, yaxud pul sənədləri ilə bağlı hüquq almış (təqdim edənin hüququ əsasında) hüquqi və ya fiziki şəxs.

- **İnflyasiya**
  Inflation

Müəyyən müddət ərzində əmtəə və xidmətlərin keyfiyyəti yüksəlmədən qiymətlərinin artması nəticəsində pulun dəyərdən düşməsi, dəyərsizləşməsi. Başqa sözlə, inflyasiya pul tədavülü kanallarının əlavə (artıq) pul kütləsi ilə dolması, yaxud pul tədavülü kanallarının tələbatından artıq həcmdə pul kütləsinin dövriyyəyə buraxılması nəticəsində pulun dəyərsizləşməsi prosesidir. İnflyasiya iqtisadi tarazlığı pozduğundan və iqtisadi böhrana səbəb olduğundan dövlət bu və ya digər iqtisadi-maliyyə alətləri (tədbirləri) vasitəsilə bu prosesin qarşısını almağa çalışır ki, bu da anti-inflyasiya siyasəti ad-

lanır. İqtisadiyyatda inflyasiyanın səviyyəsini qiymət indeksi müəyyən edir. Yaranma səbəbinə görə inflyasiya iki qrupa bölünür: *tələb inflyasiyası və təklif inflyasiyası.* İqtisadiyyatda tələbin artması cəmiyyətin istehsal imkanlarını xeyli geridə qoyaraq qiymətlərin yüksəlməsinə, yəni inflyasiyaya gətirib çıxarır. Təklif inflyasiyası (xərc inflyasiyası) zamanı isə qiymətləri tələb deyil istehsal xərcləri artırır. Belə ki, məhsul vahidinin istehsal xərclərini artıran amillər həm də inflyasiyanı törədən amillər kimi çıxış edir. Eyni zamanda, ölkə iqtisadiyyatında əmək haqqı səviyyəsinin yüksəldilməsi ilə bağlı olan inflyasiya istehsal məsrəflərinin artması ilə yaranan inflyasiyanın tərkib hissəsidir. Tempinə görə inflyasiya, əsasən, 4 cür fərqləndirilir: *normal* (illik 4%-ə qədər), *sürünən* (4-20%), *yüksək* (20-200%) və *hiperinflyasiya* (200%-dən yüksək). Yaranma səbəblərindən irəli gələrək inflyasiya gözlənilən və gözlənilməz olur. Birincisi, adətən, hökumətin həyata keçirdiyi iqtisadi tədbirlərin nəticəsi kimi, ikincisi isə makro-iqtisadi səviyyədə baş verən gözlənilməz dəyişmələrin nəticəsi kimi meydana çıxır.

- **İnformasiya manipulyasiyası**
  Spinning

Anderrayterlər tərəfindən yüksək tələbə malik olan səhmlərin ilkin yerləşdirilməsini seçilmiş şirkətlərə təklif olunması.

Bu kimi təklif gələcəkdə bu seçilmiş şirkətlər üçün investisiya bankı xidmətlərini göstərmək imkanını əldə etmək məqsədilə həyata keçirilir.

- **İnformasiya resursları**
  Information resources

Müxtəlif sənədlər, sənədlər massivi, informasiya sistemlərində sənədlər və sənədlər massividir. Kitabxanalar, arxivlər, fondlar, bank məlumatları və digər informasiya sistemləri). İnformasiya resursları mülkiyyət obyekti olurlar. Onlar dövlət və qeyri-dövlət formasında ola bilərlər.

- **İnformasiya sistemi**
  Information system

Informasiya proseslərini reallaşdıran informasiya massivləri və informasiya texnologiyaları toplusudur.

- **İnformasiya texnologiyaları (İT)**
  Information technology (IT)

İnformasiya yığılması, saxlanması, emalı və yayılması məqsədilə proseslər, proseduralar, reqlamentlər texniki- aparat, riyazi və linqvistik vasitələr toplusudur.

- **İnformasiya təhlükəsizliyi**
  Information security

Təşkilati-texniki tədbirlər kompleksi nəticəsində informasiyanın tamlığı və konfidensiallığının təmin edilməsi, informasiya sisteminin təhlükəsizliyinin göstəricisidir. Ayrı-ayrı fəaliyyət sferaları (dövlət idarəetmə sistemləri, banklar, informasiya şəbəkələri və s.) Xüsusi informasiya təhlükəsizliyi tədbirlərinin tətbiqini tələb edir.

- **İnformasiya toplusu (massivi)**
  Information collection

Saxlanma və istifadə üçün yığılan, qeydə alınan və müvafiq qaydada sistemləşdirilən informasiya toplusu (nəşrlər, elmi və digər hesabatlar, elektron qeydlər).

- **İnfrastruktur**
  Infrastructure

Hər hansı istehsal və xidmət prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrinin kompleksi. Başlıca istehsal infrastrukturları nəqliyyat, enerji təchizatı, rabitə, təhsil, səhiyyə və iaşə sahələri hesab olunur. Bazar iqtisadiyyatı şəraitində bazar mexanizmlərinin normal fəaliyyətinə yardımçı olan bütün növ təsisatlar da infrasrukturun tərkib hissəsi sayılır və bazar infrastrukturu adlanır. Əmtəə bazarının infrastrukturu dedikdə əmtəə birjaları, topdan və pərakəndə ticarət şirkətləri, auksionlar və s. başa düşülür. Banklar, maliyyə-kredit institutları, fond birjaları, valyuta birjaları, sığorta şirkətləri, broker və diler müəssisələri, auditor şirkətləri və s. maliyyə bazarının infrastrukturu hesab olunur. Eyni qayda ilə, əmək birjaları, əmək bazarında vasitəçi şirkətlər və digərlər bu kimi təsisatlar əmək bazarının infrastrukturunu təşkil edirlər. Bununla yanaşı, bazar münasibətləri şəraitində dövlətin tənzimləyici siyasətini həyata keçirən vasitəçi idarələr, firmalar və digər dövlət təsisatları da bazar infrastrukturunun tərkib hissələri kimi fəaliyyət göstərirlər. Məsələn, antiinhisar və qiymət tənzimlənməsi üzrə dövlət qurumları və s.

- **İnkişaf istiqrazı**
  Development bond

Yerli bələdiyyə orqanları tərəfindən buraxılan və müəyyən regionun inkişafı üçün nəzərdə tutulmuş istiqrazlar. Adətən belə istiqrazlar vergidən azad olurlar.

- **İnkoterms (Beynəlxalq Kommersiya Şərtləri)**
  Incoterms (International Commercial Terms)

Beynəlxalq ticarət praktikasında müqavilə şərtlərinin və qaydalarının toplusudur. Daşıma üsuluna görə inkotermlər aşağıdakı hissələrə bölünür:

1) EXW, FCA, CPT, CİP, DAF, DDU, DDP. Bütün nəqliyyat növləri (yəni kombinələşmiş nəqliyyat).

2) FAS, FOB, CFR, CİF, DES, DEQ. Yalnız limandan limana dənizlə daşıma.

- **İnnovasiya**
  Innovation

1) Elmi-texniki tərəqqi nəticəsində yeni texnika və texnologiyanın kəşfi;

2) Biznes fəaliyyətinə yeni texnika və texnologiyanın tətbiqi əsasında iqtisadiyyata kapital qoyuluşu.

Mənfəətin artırılması, xərclərin azaldılması, riskin aşağı salınması məqsədi ilə yeni maliyyə alətlərinin yaradılması, yeni maliyyə əməliyyatlarının aparılması, yeni hesablaşma formalarının tətbiqi və s. ilə əlaqədar innovasiya maliyyə innovasiyası adlanır.

- **İnsayder əməliyyatları (insayder ticarəti)**
  Insider dealings (insider tradings)

Geniş ictimaiyyətə çatdırılmayan emitent şirkətin fəaliyyəti haqqında informasiyadan istifadə edilməklə qiymətli kağızlarla qanunsuz əməliyyatlar. Bu informasiyaya malik olan şəxs insayder adlanır.

- **İnsayder informasiyası**
  Insider information

Geniş ictimaiyyətə çatdırılmayan müəssisə və ya sahibkarın fəaliyyəti haqqında məxfi məlumat. İnsayder informasiyasına malik olan şəxslər afilə olunmuş şəxslər adlanır.

- **İnsayder krediti**
  Insider loan

Bankın əlaqəli (afilə olunmuş) şəxsinə verilmiş kreditdir.

- **İnsayder**
  Insider

Vəzifəsi və ya qohumluq əlaqələrinə görə şirkətin məxfi məlumatlarına daxil olmaq imkanı olan əməkdaşıdır, xidməti məlumat ümumi qaydada əldə edilə bilməyən, qiymətli kağızlar bazarının iştirakçısı olan təşkilatlarda, yaxud müvafiq dövlət orqanlarında tutduğu vəzifə ilə əlaqədar olaraq əldə edilən və ya emitentlə bağlanmış müqaviləyə əsasən, qiymətli kağızlar bazarının subyektləri, qiymətli kağızlar, onlarla əməliyyatlar, qiymətlər və digər xüsusiyyətlər üzrə açıqlanmamalı olan və istifadə edildikdə məlumat sahibinə qiymətli kağızlarla əməliyyatların aparılmasında digər iştirakçılardan daha üstün mövqe təmin edən məlumata malik şəxsdir. Məsələn, şirkətin

idarə heyəti və yüksək vəzifəli əməkdaşları insayder sayılır. Şirkət barəsində investorlara məlum olmayan, ictimaiyyətə açıqlanmamış dəyərli məlumata malik və ya bu məlumatlara çıxışı olan şirkət işçisi olmayan vəzifəli və ya digər şəxslər də insayder sayılır.

- **İnstitusional investor**
  Institutional investor

Müştərilərinin adından maliyyə bazarı alətlərinə böyük həcmdə investisiya edən maliyyə institutları. Məsələn, pensiya fondları, investisiya fondları.

- **İnteqrasiya**
  Integration

Bu və ya digər səviyyədə birləşmə, yaxud ayrı-ayrılıqda elementlərin tam şəkildə birləşməsi.

Dövlətin üzərinə düşən daxili və xarici iqtisadi siyasətin bu və ya digər formada istiqamətləndirilməsi məqsədilə maliyyə münasibətləri və maliyyə alətlərinin qarşılıqlı əlaqələndirilməsi prosesi maliyyə inteqrasiyası adlanır. Məsələn, ölkənin mərkəzi bankı tərəfindən yerli kredit institutlarının fəaliyyətinin tənzimlənməsi, büdcə sisteminin təşkili və s. Maliyyə inteqrasiyası milli iqtisadiyyatın vahid mexanizm kimi formalaşmasının ən ümdə şərtlərindən biridir.

- **İnterpolyasiya**
  Interpolation

Sıranın qiyməti məlum olan elementləri əsasında digər elementlərinin qiymətinin hesablanması üsulu. Xətti və eksponensial interpolyasiyadan daha geniş istifadə olunur.

- **İntersessiya**
  Intercession

Bu və ya digər maliyyə-borc münasibətlərində hər hansı tərəfin borc öhdəliklərini qismən, yaxud tam öz üzərinə götürməsi.

- **İnvestisiya "barometri"**
  Investment barometer

Qiymətli kağızlar bazarında səhmlərin, istiqrazların və digər maliyyə alətlərinin məzənnə dəyişmələrini əks etdirən göstəricilər və ya göstəricilər sistemi.

- **İnvestisiya bankı**
  Investment bank

Uzunmüddətli borc kapitalını səfərbərliyə alan və onu qiymətli kağızlara qoyuluş formasında borc alanlara (dövlətə və şirkətlərə) verən, onların emissiyasını və yerləşməsini, eləcə də, birjada və birjadan kənarda qiymətli kağızların alqı-satqısını təşkil edən bank. Başqa sözlə, investisiya bankı, əsasən, yeni əsas fondların yaradılması sferasında uzunmüddətli kapital

qoyuluşları ilə əməliyyatlarda ixtisaslaşan maliyyə idarəsidir.

- **İnvestisiya bankiri**
  Investment banker

İnvestisiya bank işi ilə məşğul olan şəxs.

- **İnvestisiya dərəcəsi**
  Investment grade

Müflisləşmə riskinin aşağı olmasını əks etdirən reytinq dərəcəsi.

- **İnvestisiya etmək**
  Investing

Gələcəkdə mənfəət əldə etmək üçün qiymətli kağızlara və digər aktivlərə vəsait qoyuluşu.

- **İnvestisiya fəaliyyəti**
  Investing activities (investment operations, investment activity)

Maddi qiymətlilərin, o cümlədən pul vəsaitinin, əmlakın, qiymətli kağızların və s.-nin mənfəət əldə etmək məqsədi ilə biznes fəaliyyəti obyektinə yönəldilməsi, yatırılması ilə bağlı iqtisadi fəaliyyət. Bilavasitə investisiya fəaliyyətini həyata keçirən şəxs investor adlanır.

- **İnvestisiya fondu**
  Investment fund

Qiymətli kağızlarını investorlar arasında yerləşdirərək cəlb etdiyi sərbəst vəsaitləri dövlət və korporativ qiymətli kağızlara investisiya edən, banklara depozit kimi yatıran, eləcə də digər investisiya istiqamətlərinə yönəldən investisiya institutu. Hüquqi təşkilati formasına görə investisiya fondu səhmdar cəmiyyət kimi fəaliyyət göstərir ki, bunlar da açıq tipli investisiya fondu və qapalı tipli investisiya fondlarına bölünür. Birincisi özünün qiymətli kağızlarını yeni investorlar arasında yerləşdirdiyi halda, ikincisi qiymətli kağız buraxılışını (emissiyasını) bir dəfə və təsbit olunmuş həcmdə həyata keçirir. Səhmin yeni alıcısı, yəni investorlar bu qiymətli kağızları yalnız bazar qiymətləri ilə ilkin sahibindən əldə edə bilər.

- **İnvestisiya formulası**
  Formula investing

İnvestorun müəyyən bazar göstəricilərinin dəyişməsindən asılı olaraq vəsaitlərini müxtəlif investisiya maliyyə alətləri arasında yenidən bölüşdürməsinə əsaslanan investisiya strategiyası.

- **İnvestisiya institutu**
  Investment institute

İnvestisiya münasibətləri, xüsusilə qiymətli kağızlarla bağlı vasitəçilik xidməti göstərən konsaltinq fəaliyyəti üzrə ixtisaslaşan maliyyə qurumu. Göstərdiyi xidmət növlərindən asılı olaraq investisiya şirkətləri, investisiya fondları, investisiya vasitəçiləri, investisiya

məsləhətçiləri kimi investisiya institutları mövcuddur.

- **İnvestisiya qiymətli kağızları**
  Investment securities

Buraxılışlarla yerləşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlar.

- **İnvestisiya meneceri**
  Fund manager

Öz hesabı üçün və ya başqalarının adından investisiya fondlarına cəlb olunmuş şəxs və ya təşkilat.

- **İnvestisiya məsləhətçisi (konsultantı)**
  Investment counsel

İnvestisiya fəaliyyəti ilə bağlı, xüsusilə qiymətli kağızlar bazarında məsləhət (konsultasiya) xidmətləri üzrə ixtisaslaşan investisiya institutu. İnvestisiya bazarı, o cümlədən qiymətli kağızlar bazarının tədqiqi ilə bağlı məhsulların satılması investisiya məsləhətçisinin fəaliyyətinin əsasını təşkil edir.

- **İnvestisiya mövqeyinin saxlanması xərcləri**
  Cost of carry

İnvestisiya mövqeyinin alınması və saxlanmasına görə ortaya çıxan xərclər.

Bu xərclərə, istiqrazların alınmasında istifadə olunan borca görə ödənilən faiz xərcləri kim maliyyə xərcləri ilə yanaşı, bu vəsaitin risksiz aktivə qoyulması nəticəsində əldə oluna biləcək imkan xərcləri də daxildir.

- **İnvestisiya portfeli (qiymətli kağızlar portfeli)**
  Investment portfolio (securities portfolio, holding of securities)

Şəxs və ya müəssisənin sahib olduğu müxtəlif qiymətli kağızlar.

- **İnvestisiya sertifikatı**
  Investment certificate

1) Bir səhmdən az olmayan gəliri təmin edən, lakin səhmdar cəmiyyətinin ümumi yığıncağında səs hüquqi verməyən qiymətli kağız. Səhmlərin bölgüsü, ona verilən hüquqların xırdalanması, yalnız dividentlərə, bölünməyən mənfəətə və ləğv edilən qalığa şamil olunan əmlak hüququnun qiymətli kağızların sahibində qalması nəticəsidir. Sertifikat səhmdən fərqli olaraq müəyyən minimum gəlirə zəmanət verir;

2) təsbit olunmuş məbləğin investisiyası kimi sığorta haqqının eyni vaxtda ödənilməsi ilə həyat sığortası polisi. Faizin ödənilməsi razılaşdırılmış dərəcə üzrə aparılır və investisiyalaşma dövrünün sonunda artımla geri qayıdır.

- **İnvestisiya səviyyəli istiqraz**
  Investment grade bond

Kredit reytinqi "Moody"s" agentliyinin Baa və "Standard & Poor's" şirkətinin BBB reytinqindən aşağı olmayan nisbətən daha etibarlı olan istiqrazlar.

- **İnvestisiya şirkəti**
  Investment company

Ölkə daxilində, yaxud beynəlxalq səviyyədə investisiya fəaliyyətinin həyata keçirilməsi üzrə ixtisaslaşan maliyyə-kredit institutu. Bu şirkət özünəməxsus qiymətli kağızları investorların arasında yerləşdirərək fərdi investorların sərbəst pul vəsaitlərini cəlb edir və həmin vəsaitlərlə həm birbaşa investisiya şəklində, həm də müxtəlif müəssisələrin səhmlərinin əldə edilməsi yolu ilə kapital qoyuluşunu həyata keçirir. Bunlar açıq və qapalı tipli olurlar.

- **İnvestisiya trast fondu**
  Investment trust fund

Qiymətli kağızların saxlayıcısı və əmanətçisi olan maliyyə-kredit müəssisəsidir. Bir qayda olaraq, xırda investorların qiymətli kağızlarının etimad əsasında birləşdirilməsi yolu ilə onların pul vəsaitlərini səfərbər etmək məqsədilə yaradılır.

İnvestisiya trast-fondu institusional investordur, yəni trastın təsisisçilərinin çoxsaylı qiymətli kağızlarını idarə edir. O, konyunktura bələd olduğuna görə qiymətli kağızlar müxtəlif şirkətlərin investisiya planlarına sərmayə qoyur. Bu cür sərmayə qoyuluşlarından yaranan gəlirlər və zərərlər tam həcmdə səhmdarların hesabına aid edilir və trast-fondun səhmlərinin bazar qiymətlərində öz əksini tapır. İnvestisiya trast-fondu ona etibar edilmiş kapitalın məhdud hissəsini (5%-dən 20%-ə qədər) səhmlər alınmasına sərf etmək hüququna malikdir.

Göstərilən əməliyyat növləri investisiya trast-fondun müstəsna fəaliyyət növləridir, onun başqa fəaliyyət növləri ilə məşğul olması qadağan edilmişdir.

Bir qayda olaraq investisiya trast-fondu kreditoru olduğu şirkətin uzunmüddətli inkişaf perspektivlərinə təsir göstərmək və onun idarə olunmasına müdaxilə etmək imkanına malik olmur. Bu cür məhdudiyyətlər antitrest (antiinhisar) qanunvericilik tədbirləri qisminə aiddir.

Müasir dövrdə investisiya trast-fondu dividentlərin təkrar investisiya proqramlarında fəal iştirak edirlər. Bu halda trast fondun təsisçiləri ilə əvvəlcədən əldə edilmiş razılaşmaya əsasən onun idarə heyəti kreditoru həmin trast fond olan şirkət tərəfindən ödənilən dividentlərin müqabilində əlavə səhmlər alır. Beləliklə, fondun etibar edilmiş kapitalı, yəni təsisçilərin

mülkiyyəti artır. Xırda səhm saxlayıcılarının səhmlərinin idarə edilməsi ilə məşğul olan investisiya trast-fondu, xüsusən, ABŞ-da geniş yayılmışdır. ABŞ-ın maliyyə fondları arasında investisiya və pensiya trastları mühüm yer tutur. Bu fondlar Nyu-York fond birjasının iştirakçısı olan şirkətlərin səhmlərinin təqribən 50%-ə malikdirlər.

- **İnvestisiya**
  Investment

Mənfəət, və ya başqa bir formada sosial-iqtisadi səmərə əldə etmək məqsədi, pul vəsaitlərinin, qiymətli kağızların, əmlakın, intellektual mülkiyyətin, eləcə də digər maddi qiymətlilərin biznes fəaliyyətinə cəlb edilməsi, yatırılması, qoyulması. Dəyərinin həcmindən asılı olmayaraq istənilən məbləğdə pul vəsaitinin, maliyyə alətinin, yaxud digər qiymətlilərin istehsala və ya müxtəlif biznes sahəsinə yönəldilməsi *i.* hesab olunur. İnvestisiya fəaliyyətinə başlamamışdan öncə investisiya layihəsinin qiymətləndirilməsi aparılır. İnvestisiya layihəsinin qiymətləndirilməsi maliyyə imkanlarının təhlili, investisiyanın sosial-iqtisadi effektivliyinin hesablanması, investisiya riskinin qiymətləndirilməsi, eləcə də investisiya layihəsinin digər üstünlük və çatışmazlıqlarının araşdırılmasını tələb edir. İnvestisiya prosesinin idarə edilməsi biznes fəaliyyətinə yönəldilən maliyyə vəsaitləri, eləcə də digər maddi qiymətlilərin hərəkətini tənzimləmək, onların iqtisadi-sosial səmərəyə çevrilən amilləri düzgün inkişaf etdirməkdən ibarətdir. İnvestisiya istər makro, istərsə də mikro səviyyədə iqtisadi artımın ilkin şərtidir.

- **İnvestor**
  Investor

Mənfəət əldə etmək məqsədi ilə şəxsi və ya cəlb etdiyi maddi qiymətliləri – pul vəsaitlərini, qiymətli kağızları, əmlakı, mülkiyyəti və s.-ni investisiya layihələrinə yönəldən hüquqi və ya fiziki şəxsdir. İnvestorlar investisiya qoyuluşundan mənfəət əldə etməklə yanaşı, bu və ya digər sahələrin investisiya ehtiyacını da qarşılayırlar və bununla da iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayırlar. İnvestor investisiya qoyuluşu riskini minimuma endirmək və yüksək gəlirliliyi təmin etmək maraqlarını rəhbər tutaraq qiymətli kağızlar alırlar. İnvestisiya layihələrini reallaşmasını büdcədən maliyyələşdirən dövlət, dövlətin subyektləri, peşəkar və institusional investorlar adlanan maliyyə-kredit idarələri də investor ola bilərlər. İnvestorlar, bir qayda olaraq vergi və digər güzəştlərdən istifadə edir.

Nisbətən yüksək risk dərəcəsi zamanı qiymətli kağızların yüksək

gəlirliliyinə üstünlük verən investorlar aqressiv investorlar adlanır.

Öz ölkəsinin hüdudlarından kənarda investisiya yatırımı həyata keçirən investorlar xarici investorlar adlanır. Xarici dövlət, xarici şirkət, xarici fiziki şəxs, beynəlxalq maliyyə-kredit institutu xarici investor kimi çıxış edə bilər. Xarici investorun investisiya fəaliyyəti kapital yatırımı həyata keçirdiyi ölkənin müvafiq qanunvericiliyi ilə tənzimlənir. Xarici investor xarici kapitalı ölkə iqtisadiyyatına gətirməklə yerli iqtisadi potensialı artırır ki, buna görə də dövlət adətən xarici investorların investisiya fəaliyyətinə müxtəlif səviyyələrdə stimullaşdırıcı siyasət, o cümlədən səmərəli vergi güzəştləri tətbiq edir.

Rəsmi olaraq qiymətli kağızın sahibi sayılan (qeydiyyata alınan), lakin faktiki olaraq ondan istifadə hüququna malik olmayan, yəni həmin maliyyə alətindən bilavasitə əldə etməyən investor nominal investor adlanır. Məsələn, bank öz adından qiymətli kağız cəlb edir, lakin onun istifadəçisi kimi müştəri çıxış edir. Burada bank nominal investora çevrilir.

- **İnzibatçı (administrator)**
  Administrator

1) Məhkəmənin qərarı və ya şəxsi razılaşma əsasında digər şəxsin əmlakını idarə etmək üçün təyin olunmuş şəxs.

2) Qanunvericiliyə görə müəyyən təşkilatlarda müəyyən vəzifələri tutan şəxslər. Məsələn, rəsmi qanunvericiliyə əsasən, bankın müşahidə şurasının, audit komitəsinin və idarə heyətinin üzvləri, habelə bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, bank filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri və baş mühasibləri inzibatçı hesab olunurlar.

- **İpoteka (girov) təminatlı qiymətli kağızlar**
  Mortgage-backed security (MBS)

Təminatı ipotekaya (girova) əsaslanan qiymətli kağızlar.

Aktivlərlə təmin edilmiş istiqrazların bir növü olub daşınmaz əmlakın maliyyələşməsində istifadə olunur.

- **İpoteka (girov)**
  Hypothecation

Borca zəmanət kimi müəyyən aktivlərin, o cümlədən qiymətli kağızların girov qoyulması.

- **İpoteka bankı**
  Mortgage bank

Daşınmaz əmlakın girovu kimi uzunmüddətli ssudalar verən ixtisaslaşmış bank. Əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir: ssudalara görə dərəcələr borc alınan maliyyə vəziyyətindən asılıdır; borcun vaxtında qaytarılmaması

əmlakın itirilməsinə səbəb olur; ipoteka krediti, ipotekaların yenidən satışı, müxtəlif texniki xidmətlərə ixtisaslaşan qeyri-depozit institutudur; investor tərəfindən yenidən satış üçün ipoteka mənbəyidir; daşınmaz əmlakın girovu ilə təmin olunan girov kağızı buraxır.

- **İpoteka bazarı**
  Mortgage market

Daşınmaz əmlakın girov qoyulması nəticəsində verilən ssuda kapitalı bazarının bir hissəsidir. Onlara dövlət və özəl maliyyə-kredit təşkilatları, sığorta şirkətləri, ssuda əmanət assosiasiyaları, ipoteka, kommersiya və əmanət bankları aiddir. Burada alət kimi ticarət-sənaye şirkətləri tərəfindən buraxılan ipoteka istiqrazları istifadə olunur. Bu istiqrazlar isə maliyyə-kredit institutları tərəfindən alınır.

- **İpoteka hüququ**
  Mortgage interests

Borclu əsas öhdəliyi icra etmədikdə, ipoteka saxlayanın ipoteka predmetinə tutmanın yönəldilməsi hüququdur.

- **İpoteka ilə təmin olunmuş istiqrazlar**
  Collateralized mortgage obligations (CMO)

Dəyəri və ödənişləri ipoteka borclarının girov qoyulması hesabına təmin olunan istiqraz. CMO-lar, adətən, onları formalaşdıran institutun balansında deyil, ayrıca fəaliyyət göstərir.

Bu istiqrazlar şirkətin, emitentin, müəyyən əmlakın zərərdən müdafiə üstünlüyünə malikdirlər. Şirkətin ləğvi zamanı bu cür istiqraz sahibləri başqa kreditorlar kimi girov aktivlərinə iddialı olurlar.

- **İpoteka istiqrazı**
  Mortgage bond

İpoteka girovu qoyulmuş istiqrazlar. İpoteka örtüyü ilə (ipoteka hovuzunun girov qoyulması ilə) təmin olunan istiqraz. Defolt halında istiqraz sahibləri örtüyə sahiblik hüququna malikdir və örtükdəki əmlakın satılması yolu ilə kompensasiya edilə bilərlər.

- **İpoteka kağızı**
  Mortgage deed

İpoteka hüququnu təsbit edən adlı qiymətli kağız.

- **İpoteka krediti**
  Mortgage credit

Əmlakın girov qoyulması əsasında verilən kreditdir. Kredit verənlərin mənafeyini təmin etmək məqsədilə girov qoyulmuş əmlakın, alınmış borc ödənilənə qədər, satılmasına qadağan qoyulur və bu haqda ipoteka kitabında qeydiyyat aparılır. Alınmış borc və onun faizi

vaxtında ödənilməzsə, girov qoyulmuş əmlak üzərində mülkiyyət hüququ kreditora keçir.

- **İpoteka qoyan**
  Mortgagor

Ipoteka predmeti olan əşyanı girov qoyan şəxsdir. İpoteka qoyan həm borclu, həm də üçüncü şəxs ola bilər.

- **İpoteka müqaviləsi**
  Mortgage contract

Əsas öhdəliyin icrasının təmin edilməsi üçün ipoteka saxlayan və ipoteka qoyan arasında bağlanılan əqddir.

- **İpoteka portfeli (hovuzu)**
  Mortgage pool

Fərdi ipotekaların bir yerə toplanılması yolu ilə formalaşan hovuz. Adətən, ipoteka təminatlı qiymətli kağızların buraxılışı zamanı girov kimi istifadə olunur.

- **İpoteka saxlayan**
  Mortgagee

Ipoteka hüququ olan və ipoteka qoyanın digər kreditorlarına nisbətən üstün qaydada ipoteka predmeti hesabına əsas öhdəliyin icrasını tələb etmək hüququ olan şəxs, o cümlədən, ipoteka kağızının qanuni sahibidir.

- **İpoteka şəhadətnaməsi**
  Mortgage certificate

İpoteka şəhadətnaməsi qanuni sahibinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağız.

- **İrad məktubu**
  Deficiency letter

Qiymətli kağızlar üzrə tənzimləyici orqanın yeni buraxılış etməyə hazırlaşan emitentə təqdim etdiyi və qeydiyyata verilmiş emissiya prospektində müəyyən boşluq, yanlışlıq və çatışmamazlıqların olduğunu bildirən yazılı xəbərdarlıq məktubu.

- **ISE NATIONAL-100 indeksi**
  ISE NATIONAL-100

İstanbul Fond Birjası tərəfindən hesablanan indeksdir. Yalnız yerli şirkətləri əhatə edir (investisiya şirkətləri istisna olmaqla) və Türkiyə iqtisadiyyatının əsas göstəricilərindən biridir.

- **İstehlakçı (istehlak) qiymət indeksi (İQİ)**
  Consumer price index (CPI)

İstehlak mal və xidmətlərinin qiymət səviyyəsinin göstəricisi.

Müəyyən məhsul və xidmətlərdən yaradılmış sabit bazar səbətinin qiymətinin dəyişməsini göstərir. İndeksin faiz dəyişməsi inflyasiyanın göstəricisi kimi istifadə olunur.

- **İstehsalçı qiymət indeksi**
  Producer price index (PPI)

İstehsalçıların satdıqları mal və xidmətləri üzrə qiymətlərin dəyişməsini göstərən indeks.

- **İstifadə (icra) etmək**
  Exercise

Opsion alıcısının opsion hüququndan istifadə etməsi. Opsion istifadə edildikdə opsion satıcısı alıcıya qarşı olan öhdəliyini yerinə yetirmək məcburiyyətindədir.

- **İstifadə (icra) qiyməti**
  Exercise price Exercise prise/ Strike price

Opsion istifadə olunduqda opsion alıcısının baza aktivini ala ("Koll" opsion olduqda) və ya sata ("Put" opsion olduqda) biləcəyi qiymət.

İstifadə (icra) qiyməti opsion kontraktının hazırlanması zamanı müəyyən olunur.

- **İstiqraz emissiyası müqaviləsi**
  Bond indenture

İstiqraz buraxılışı zamanı emitentin və investorların (alıcıların) hüquq və öhdəliklərini, o cümlədən buraxılan istiqrazın ödəniş tarixini, vaxtından əvvəl ödənilə bilmə imkanını, faiz dərəcəsini, faiz ödənişlərinin dövrülüyünü və digər bu kimi şərtləri əks etdirən yazılı razılaşma. Başqa sözlə, istiqraz buraxılışının bütün şərtlərini özündə əks etdirən müqavilə.

- **İstiqraz**
  Obligation (bond, loan securities)

Borc qiymətli kağızlarının bir növü olmaqla, sahibinin müəyyən olunmuş müddətdə emitentdən həmin kağızın nominal dəyərini (əmlak ekvivalentini) və nominaldan faiz və ya diskont şəklində təsbit olunmuş gəlir əldə etmək hüququna təminat verən sənəddir (müqavilədir). Faiz ödənişlərini nəzərdə tutmayan istiqraz faizsiz istiqraz hesab olunur.

Dövlət orqanları tərəfindən büdcə kəsirini örtmək üçün və səhmdar cəmiyyətlər tərəfindən kapital toplamaq məqsədilə buraxılır. Səhmlərdən fərqli olaraq istiqrazlarda onun ödənilməsi vaxtı göstərilir. Nəzəri baxımdan istiqrazlar adi səhmlərdən daha təhlükəsizdir. Çünki onlar təsbit olunmuş ödəniş müddətinə malikdir və səhmdara hər hansı ödəniş edilməzdən əvvəl qaytarılır (ödənilir). Lakin şirkət müflis olduqda, onun istiqraz sahibləri səhmdarları qədər itkiyə məruz qala bilərlər.

- **İstiqraz-barometr**
  Bellwether bond

Davranışı vasitəsilə istiqraz bazarını bütövlükdə istiqamətləndirmək və eyni zamanda, qiymətinə başqa istiqrazların qiymətlərinin istinad etməsi üçün nəzərdə tutulmuş dövlət istiqrazı.

- **İstiqrazların yuyulması**
  Bond washing

Faiz gəlirini kapital artımına çevirmək üçün kupon ödənişindən sonra istiqrazın lazımi faizlə satışı və yenidən satın alınması. Bəzi investorlar üçün bu vergidən yayınmağın bir yoludur.

- **İstismar xərcləri (cari xərclər)**
  Operating expenses

Şirkətin öz biznesini normal davam etdirməsi üçün zəruri olan işgüzar əməliyyatların yerinə yetirməsi nəticəsində məruz qaldığı xərclər. Şirkətin öz rəqibləri ilə rəqabət aparma qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərmədən cari əməliyyat xərclərini mümkün qədər azaldılması menecment qarşısında duran əsas vəzifələrdən biridir.

- **İstisna etməklə**
  Ex

İstisna edilmiş, çıxılmış, deməkdir. Bunlara eks-kapitallaşma, eks-divident, eks-hüquqlar daxildir. Eks, payların alıcısının cari kapitallaşma buraxılışını, cari dividentləri və ya cari səhmlərin emissiyalarını almamasını göstərir. Bu cum dividentin əksidir.

- **İzləyici səhm**
  Tracking stock (share)

Dividenti şirkətin müəyyən bölməsinin (və ya törəmə müəssisəsinin) fəaliyyətinin nəticələrinə bağlanmış adi və ya imtiyazlı səhm.

- **Kağız bareli**
  Paper barrel

Neft və ya neft məhsulları üzrə fyuçers, forvard və ya opsion müqaviləsidir.

- **Kambio**
  Cambio

Borc öhdəlikli maliyyə sənədi, veksel, istiqraz və s.

- **Kambist**
  Cambist

Veksellərlə əməliyyat aparan hüquqi və ya fiziki şəxs. Bəzi hallarda xarici valyutalarla əməliyyat aparan şəxslərə də bu ifadə şamil edilir.

- **Kapital (investisiya) qoyuluşlarının diversifikasiyası**
  Diversification of investments

İnvestisiyaların mümkün istiqamətlər üzrə şaxələndirilməsi. Bu zaman müəyyən bazar göstəricilərinə əsaslanaraq müxtəlif maliyyə alətləri arasında investisiyanın yenidən bölgüsü də nəzərdə tutulur.

- **Kapital bazarı**
  Capital market

Uzunmüddətli maliyyə alətlərinin ticarətinin aparıldığı bazar sistemidir.

- **Kapital xərcləri**
  Capital expenditure

Uzun müddətli aktivin əldə edilməsi üçün çəkilən xərclər.

- **Kapital qoyuluşu üzərində nəzarət barədə qanunvericilik**
  Blue sky laws

İnvestorları dələduz və ya prinsipsiz sövdələşmələrə cəlb olunmaqdan qorumaq məqsədi ilə qiymətli kağızların satışını və qarşılıqlı fondların fəaliyyətini tənzimləyən qanunvericilik aktları və qaydalar toplusu.

- **Kapital zərəri**
  Capital loss

Qiymətli kağızların və ya ümumilikdə aktivlərin ilkin xərcindən aşağı qiymətə satılması və ya ötürülməsi nəticəsində yaranan zərər.

Kapital artımından yaranan zərərlər aktivlər satılmayana qədər tanınmır.

- **Kapital**
  Capital

1) gəlir gətirmək qabiliyyəti olan hər şey və ya əmtəə xidmətlərin is-

tehsalı üçün insanların yaratdığı resurslar;

2) istehsal vasitələri formasında hər hansı bir işə qoyulan fəaliyyətdə olan mənbə;

3) izafi dəyər, gətirən dəyər özünə artan dəyərdir;

4) investorun, yaxud digər payçıların, şirkətin, müəssisənin aktivində öhdəliklər çıxılmaqla, pul ifadəsində payı;

5) fiziki və hüquqi şəxsin xalis aktivlərinin məcmusu, yəni öhdəlikləri çıxılmaqla ümumi aktivlərin məcmusu;

6) əsas istehsal amilindən biri (əmək, torpaq, sahibkarlıq qabiliyyəti və kapital). Burada kapital anlayışı özündə maşın və avadanlıqları, istehsal binasını, eləcə də, pul və maliyyə aktivləri şəklində olan, istehsala qoyulmaqla onun bir amilinə çevrilən vəsaitlər nəzərdə tutur.

- **Kapitalın adekvatlıq əmsalları**
  Capital adequacy ratios

Birinci dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda risk dərəcəsi üzrə ölçülmüş aktivlərə olan nisbəti.

- **Kapitalın adekvatlığı (kapitalın kafilik norması)**
  Capital adequacy

Maliyyə təşkilatları üçün müvafiq Nəzarət orqanı tərəfindən təsdiq edilən normativ. Maliyyə təşkilatının xüsusi vəsaitlərinin (kapitalının) kontragentlərin riski nəzərə alınmaqla təshih edilmiş aktivlərin ümumi məbləğinə nisbətinin yolverilən həddi kimi müəyyən edilir.

- **Kapitalın artımından gəlirlər**
  Capital gain

Qiymətli kağızların və ya ümumilikdə aktivlərin ilkin xərcindən yuxarı qiymətə satılması və ya ötürülməsi nəticəsində yaranan mənfəət.

Kapital artımından yaranan gəlirlər aktivlər satılmayana qədər tanınmır.

- **Kapitalın hibrid elementləri**
  Hybrid elements of capital

Səhmlərin və borc öhdəliklərinin xüsusiyyətlərini özündə birləşdirən maliyyə alətləri, o cümlədən qeyri—kumulyativ müddətsiz imtiyazlı səhmlər, kumulyativ müddətsiz imtiyazlı səhmlər, subordinasiya borc öhdəlikləri və ya oxşar digər qiymətli kağızlar.

- **Kapitalın orta çəkili dəyəri**
  Weighted average cost of capital (WACC)

Şirkətin kapital cəlb etməsi üçün buraxacağı qiymətli kağızların sahiblərinə ödəməli olduğu orta çəkili faiz dərəcəsi.

- **Kapitallaşma**
  Capitalization

1) izafi dəyərin, mənfəətin, gəlirin kapitala çevrilməsi, onun genişlənməsi üçün istifadə edilməsidir;

2) orta borc faizi kimi sahibkarlıq fəaliyyətindən gələn gəlir nəzərə alınmaqla müəssisənin dəyərinin qiymətləndirilməsi metodudur;

3) xalis cari dəyərə gələcək xalis mənfəətin əlavə edilməsi yolu ilə iqtisadi dəyərin qiymətləndirilməsidir.

4) Şirkətin ümumi səhm kapitalının bazar dəyəridir. Səhmin bazar qiymətinin səhmlərin ümumi sayına hasili formasında hesablanır.

- **Kastodian**
  Custodian

Qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması xidmətini göstərən hüquqi şəxs. Adətən, kastodian funksiyasını banklar, bəzi hallarda isə broker şirkətləri daşıyır.

- **Kerb**
  Kerb

Birja bağlandıqdan, alqı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları.

- **Kəmiyyət təhlili**
  Quantitative analysis

Maliyyə bazarlarında dəyişikliklərin mürəkkəb riyazi və statistik modellərdən istifadə edərək araşdırılması üçün maliyyə təhlili metodologiyası.

- **Kənar satış**
  Selling away

Broker şirkətinin işçisi tərəfindən müştərilərə öz şirkətlərində olmayan fond bazarı məhsullarının alınması üzrə məsləhətin verilməsidir. Bu cür praktika ağılsız və etik normalarına uyğun gəlməyən hərəkət kimi qiymətləndirilir.

- **Kənarlaşma**
  Deviation

Statistik ölçü aləti olmaqla hər hansı bir təsadüfi kəmiyyətin müəyyən bir qiymətinin həmin kəmiyyətin orta qiyməti kimi təsbit olunmuş qiymətdən nə qədər kənarlaşmasını göstərir. Maliyyə bazarlarının təhlillərində daha çox standart kənarlaşmadan istifadə olunur. Standart kənarlaşma təsadüfi kəmiyyətin orta qiymətindən ortalama kənarlaşmasını səciyyələndirir və dispersiyadan kvadrat kök almaqla hesablanır. Dispersiyadan fərqli olaraq, təsadüfi kəmiyyətlə eyni tərtibli ölçüyə malik olur. Standart kənarlaşmadan təsadüfi gəlir gətirən investisiyaların riskliliyinin (standart kənarlaşmanın qiyməti nə qədər böyük olarsa, investisiyaların riskliliyinin də bir o qədər böyük olduğunu söyləmək olar) və maliyyə alətlərinin məzənnələrinin volatilliliyinin qiymətləndirilməsində geniş istifadə olunur.

- **“Kəpənək” spredi**
  Butterfly spread

İstifadə müddəti və istifadə qiyməti eyni olan “Koll” və “Put” opsionlarının satışı (“At The Money Straddle” şərti) və istifadə müddəti eyni, lakin istifadə qiyməti müxtəlif olan (“Koll” opsionunun istifadə qiymətinin “Put” opsionun istifadə qiymətindən yüksək olması nəzərdə tutulmaqla) “Koll” və “Put” opsionlarının alışı (“Out Of The Money Strangle” şərtilə) proseslərinin eyni vaxtda apaılmasını əhatə edən opsion strategiyasının tətbiqi zamanı yaranan spred. Opsionun əsaslandığı aktivlərin bazar dəyəri sabit qaldıqda potensial gəlir əldə etmək mümkündür və aktivlərin dəyərində ciddi dəyişiklik olduqda isə risklər minimum səviyyədə olur.

- **Kəsmə**
  Haircut

Qiymətli kağızlar üzrə REPO sazişində brokerin öz xidmət haqqını almaq üçün saxladığı əlavə vəsait.

- **Kiçik kapitallaşma**
  Small cap

Müəyyən bazarda kapitallaşma səviyyəsi nisbətən kiçik olan şirkət və ya belə şirkətin səhmləri.

- **Kiçik metallar**
  Minor metals

Kobalt, tantal, volfram, antimoni, civə və molibden kimi metallar.

- **“Kiu” planı**
  Keogh plan

Özlərinin gələcək pensiya təminatı üçün kiçik firmalar və fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaradılan pensiya planı.

- **Klassik fond birjası**
  Classical stock exchange

Treyderlər arasında şifahi təlimatların mübadiləsi vasitəsilə ticarət aparılan birja. Ən iri klassik fond birjası – Nyu-York Fond birjasıdır. Bu cür birjalar dünyanın 60-dan çox ölkəsində fəaliyyət göstərir.

- **Klassik qiymətli kağızlar**
  Classic equity securities

Səhmdar cəmiyyətlər və dövlət tərəfindən buraxılan istiqrazlar və səhmlər.

- **Klauzula**
  Clausula

Hər hansı müqavilədə (xüsusilə, beynəlxalq müqavilələrdə və mövcud şəraitin dəyişməsi ehtimalı böyük olan hallarla bağlı müqavilələrdə, məsələn, sığorta müqaviləsində) edilən müəyyən qeyd-şərt-

lər və düzəlişlər. Bu qeyd-şərtlərə, əsasən, müqavilənin bağlandığı andakı vəziyyətin dəyişməməsi halında müqavilənin qüvvədə olması şərti, müəyyən hallar baş verdikdə müqavilə öhdəliklərindən azad olma şərtləri və bu kimi digər şərtlər aiddir.

- **Klirinq**
  Clearing

Öhdəliklərin qarşılıqlı əvəz edilməsi, ləğv edilməsi əsasında aparılan nağdsız hesablaşma sistemi. Bu zaman əmtəə və xidmətləri, qiymətli kağızları və s. aktivləri alan tərəf həmin məbləğ müqabilində satıcı tərəfin ona qarşı olan öhdəliyini ləğv edir.

Beynəlxalq ticarət və ya maliyyə-kredit münasibətlərində dəyərin öhdəliklərin ləğvi ilə əvəz edilməsi, yaxud öhdəliklərin qarşılıqlı əvəz edilməsi əsasında hökumətlərarası razılaşmaya valyuta klirinqi deyilir.

- **Klirinq bankı**
  Clearing bank

Fəaliyyəti öhdəliklərin qarşılıqlı əvəz edilməsi üzrə aparılan hesablaşma sistemi əsasında formalaşan kommersiya bankı. Klirinq bankı alıcı ilə satıcı arasında klirinq münasibətləri üzrə hesablaşma xidməti həyata keçirir.

- **Klirinq evi**
  Clearing house

Fyuçers və ya fond bazarlarında bağlanmış müqavilələrə əsasında maliyyə əməliyyatları üzrə qarşılıqlı əvəzləmə və hesablaşma xidmətlərini göstərən və bu müqavilələrin icrasına nəzarət edən maliyyə institutu. Klirinq evi birjanın bir qurumu kimi və ya müstəqil təşkilat kimi fəaliyyət göstərə bilər.

Klirinq evi inzibati mərkəz kimi çıxış etməklə alıcı və satıcılar arasında müqavilə üzrə öhdəliklərin vaxtında və tam həcmdə yerinə yetirilməsinə kömək etməklə onların işini asanlaşdırır və risklərini azaltmış olur.

- **Klirinq fəaliyyəti**
  Clearing activity

Klirinq fəaliyyəti qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (məlumatların toplanması, yoxlanması, üzləşdirilməsi, mühasibat sənədlərinin hazırlanması), hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyətdir.

- **Klirinq sistemi**
  Clearing system

Qiymətli kağızların alqı-satqısı üzrə hesablaşmalar aparılması, onlara sahiblik hüququnun ötürülməsi, onların saxlanması, çeklər üzrə hesablaşmalar kimi əməliyyatların həyata keçirilməsi məqsədilə bir qrup maliyyə təşkilatları tərəfindən yaradılan sistem.

- **Kollektiv iddia**
  Class action suit

Eyni tələb ilə çıxış edən bir qrupun adından bir və ya daha çox şəxs tərəfindən qaldırılan iddia. Məsələn, müəyyən məsələ ilə əlaqədar olaraq səhmdarların adından şirkətə qarşı irəli sürülən iddia.

- **Komissiya brokeri**
  Commission broker

Qiymətli kağızların və ya əmtəələrin satışı üçün əhalinin sifarişlərini yerinə yetirən agent.

- **Komissiya müqaviləsi**
  Contract of commission

Komissiya müqaviləsinə görə bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə müəyyən haqq müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür.Komisyonçunun üçüncü şəxslə bağladığı əqd üzrə hüquqları, əqddə komitent adlandırılmış olduqda və ya əqdin icrası üzrə üçüncü şəxslə bilavasitə münasibətlərə girdikdə belə, komisyonçu əldə edir və komisyonçu mükəlləfiyyətli olur.

- **Komissiya**
  Commission

Komissiya - vasitəçiliyə, agent əməliyyatlarına və s. xidmətlərə görə razılaşma məbləği ilə birgə alınan ödənişdir

Brokerlərin göstərdikləri xidmət müqabilində aldıqları məbləğ.

- **Komissiyasız fond**
  No-load (no-load fund)

Səhmlərin komissiyasız və əlavə satış xərci olmadan satıldığı qarşılıqlı fond. Bunun səbəbi səhmlərin ikinci tərəfə keçmədən birbaşa olaraq investisiya şirkəti tərəfindən satılmasıdır. Bu səhmin alışı zamanı, onun satışı zamanı və ya "level load" kimi investorun səhmi saxladığı müddətdən asılı olaraq komissiyaların tutulduğu "load fund"un tərsidir.

- **Kommersiya sənədi (vərəqəsi)**
  Commercial paper

Korporasiya tərəfindən debitor borcların, mal-materialların və qısa müddətli öhdəliklərin maliyyələşdirilməsi məqsədi ilə buraxılan təminatsız qısa müddətli borc aləti.

- **Konqlomerat**
  Conglomerate

Konqlomerat (biznesin bir biri ilə əlaqəsi olmayan müxtəlif sahələrində fəaliyyət göstərən müxtəlif şirkətlərə nəzarət edir (tənzimləyir)).

- **Konsali**
  Consaly

Böyük Britaniyada dövlət uzunmüddətli istiqrazların növlərindən birinin qısaldılmış adı.

- **Konsorsium**
  Consortium

Bu və ya digər sahədə ortaq maraqların birgə təmin edilməsi məqsədilə iqtisadi subyektlərin müvəqqəti rəsmi ittifaqı. Konsorsium ittifaq üzvlərinin arasında qarşılıqlı razılaşmalarla rəsmiləşdirilir və hər bir üzv qəbul olunan fəaliyyət prinsiplərinə tabe olmalıdır.

Bank konsorsiumu – iri miqyaslı kredit, investisiya, zəmanət, yaxud digər bank əməliyyatlarının (adətən beynəlxalq maliyyə bazarlarında) həyata keçirilməsi məqsədilə bankların müvəqqəti birləşməsi, birgə fəaliyyəti. Çox zaman bank konsorsiumlarına konsorsiumun lideri kimi çıxış edən bir bank başçılıq edir.

Maliyyə konsorsiumu – iri miqyaslı maliyyə əməliyyatlarının aparılması məqsədilə maliyyə institutlarının (banklar, investisiya institutları və s.) müvəqqəti birgə fəaliyyəti.

- **Kontanqo**
  Contango

1) Qiymətli kağızlar bazarında satın alınmış səhmlərin dəyərinin ödənişinin növbəti hesablaşma dövrünə qədər təxirə salınması imkanı;

2) Qiymətli kağızlar bazarında iştirakçı subyektlərin mükafatlandırılması.

- **Konto**
  Conto

Bank hesabı.

- **Kontragent (tərəf-müqabil)**
  Counterpart (counteragent, cosignatory)

Müqavilə şərtlərinə görə üzərinə bilavasitə müəyyən öhdəliklər götürən hüquqi və ya fiziki şəxs.

- **Kontrakt ayı**
  Contract month

Fyuçers müqaviləsinin müddətinin sona yetmə və ya fyuçers müqaviləsi üzrə aktivin çatdırılma ayı.

- **Konvergensiya**
  Convergence

Baza aktivi üzrə fyuçers qiymətinin nağd qiymətə yaxınlaşması. Fyuçers kontraktının son günündə baza aktivinin fyuçers qiyməti ilə nağd qiyməti təqribən bərabərləşir.

- **Konversiya**
  Conversion

İqtisadi münasibətlərdə hər hansı razılaşma üzrə şərtlərin dəyişdirilməsi. Bu üsuldan maliyyə sahəsində də istifadə olunur:

1) Dövlət borcu münasibətləri zamanı kredit şərtlərinin, o cümlədən borc faizinin və ya borc müddətinin dəyişdirilməsi. Borc faizlərinin dəyişdirilməsi möhkəmləndirmə,

faizlərin dəyişdirilməsi isə əvəzetmə adlanır;

2) Səhmdar cəmiyyət tərəfindən tədavülə buraxılan istiqraz vərəqələrinin müəyyən olunmuş dəyər nisbəti əsasında həmin müəssisənin səhmləri ilə dəyişdirilməsi, əvəzləşdirilməsi;

3) İmtiyazlı səhmlərin adi səhmlərlə əvəzləşdirilməsi;

4) Eyni bazar dəyərinə malik iki müxtəlif müəssisələrin səhmlərinin dəyişdirilməsi;

5) Satıcı opsionunun alıcı opsionuna çevrilməsi;

6) Cari valyuta məzənnəsi ilə bir valyutanın digəri ilə mübadilə edilməsi.

- **Konvertasiya (konversiya) əmsalı**
  Conversion ratio
  (conversion rate)

Bir imtiyazlı səhmə və ya istiqraza konvertə olunan adi səhmlərin sayı.

- **Korner**
  Korner

Bazar iştirakçısı tərəfindən bazarda mövcud vəziyyətə nəzarət etmək, lazımi şəraitdə qiymət səviyyəsini öz maraqlarına uyğun səviyyədə qaldırmaq, bununla da mənfəət əldə etmək məqsədilə təklif olunan bütün müvafiq malları, aktivlərin alınması cəhdi. Bu ifadə daha çox qiymətli kağızlar bazarına aid olunur. Bu halda qiymətli kağızlar bazarında maliyyə aktivi almaq istəyən şəxslər, adətən forvard kontraktları bağlamış və onları yerinə yetirmək üçün müəyyən sayda qiymətli kağız almalı olan fond iştirakçıları daha yüksək qiymət ödəməyə məcbur olurlar. Bu vəziyyət adətən fond bazarında inhisarçılıq kimi də adlanır.

- **Korporasiya**
  Corporation

Payçılıq prinsipi əsasında fəaliyyət göstərən hüquqi şəxs statusuna malik sahibkarlıq fəaliyyəti üzrə təşkilat forması.Korporasiya həm dövlət, həm də özəl mülkiyyətə malik ola bilər.

Maliyyə bazarında vasitəçilik fəaliyyəti ilə məşğul olan, yaxud başlıca fəaliyyəti maliyyə münasibətlərindən ibarət olan müəssisə, təşkilat maliyyə korporasiya adlanır.

Beynəlxalq səviyyədə korporasiyaya misal kimi Beynəlxalq Maliyyə Korporasiyasını (BMK) göstərmək olar. BMK üzv ölkələrin sənaye sahələrinə investisiya qoyuluşunu stimullaşdırmaq, eləcə də həmin ölkələrdə özəl sektoru möhkəmləndirmək və genişləndirmək məqsədilə 1956-cı ildə Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının filialı kimi yaradılan beynəlxalq maliyyə-kredit institutudur. BYİB-in əsas fəaliyyətindən fərqli olaraq, BMK üzv ölkələrə

yönəltdiyi kreditlər üçün hökumət zəmanəti tələb etmir, beləcə bütün kredit riskini öz üzərinə götürür. BMK-nın BYİB-dən daha bir fərqi ondadır ki, bu maliyyə qurumunun kreditləşdirdiyi sahələr içərisində sənaye əsas yer tutur. Bu maliyyə institutu tərəfindən təqdim olunan kreditlərin orta müddəti 7-8 il, maksimal müddəti isə 15 ildir. Hazırda 170-dən çox ölkə bu qurumun üzvlüyünə daxildir. BMK BYİB ilə vahid rəhbərlik altında birləşməmişdir.

- **Korporativ səhmlər**
  Corporate stocks

1) Şirkətlər tərəfindən buraxılan səhmlər.

2) Kommunal xidmətlərdən istifadə hüququna dair şəhadətnamə (istiqrazlar). Kommunal xidmətlərə görə gələcək ödənişlərin əvvəlcədən yığılması məqsədilə müvafiq təşkilatlar tərəfindən buraxılır.

- **Kotirovka olunan valyuta**
  Quoted currency

Foreksdə valyuta cütlüyündə kotirovka olunan ikinci valyuta. Birbaşa kotirovkada kotirovka olunan valyuta xarici valyutadır. Dolayı kotirovkada isə kotirovka olunan valyuta daxili valyutadır.

Həmçinin "ikinci dərəcəli valyuta" və ya "əks valyuta" kimi də tanınır.

- **Kotirovka**
  Quotation (quota)

Birjada faktiki vəziyyətdən asılı olaraq, qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin/məzənnələrinin müəyyən edilməsi. Məsələn, səhmin bazar qiymətinin müəyyən edilməsi üçün fond birjasında satıcı və alıcıların qiymət təkliflərinin qarşılaşdırılması səhmin kotirovkası adlanır.

- **Kotirovkada olan səhm**
  Listed stock

Fond birjalarında listinqindən keçərək birjada ticarət edilən səhm.

Şirkətlər adətən səhmlərinin yüksək likvidliyini təmin etmək üçün əsas birjalarda listinqdən keçməyə çalışırlar. Listinq qaydalarına əməl etməyən şirkətlərin səhmləri listinqdən çıxarılır.

- **Kotirovkaya əsaslanan**
  Quote driven

Alış və satış həcmlərinin və onlara uyğun maksimum qiymət həddlərinin təklif olunması əsasında qeydiyyatdan keçmiş market meykerlər və iri dilerlər tərəfindən qiymətlərin müəyyən olunduğu bazar. Başqa sözlə, belə bazarda qiymətlər qeydiyyatdan keçmiş market meykerlər və iri dilerlərin təşkil etdiyi kotirovka əsasında müəyyən olunur.

- **Köçürmə (transfer) agenti**
  Transfer agent

1) Emitentin tapşırığı ilə onun qiymətli kağızlarının qeydiyyatının aparılması, qiymətli kağızların sertifikatlarının buraxılması və ödənilməsi, itmiş və məhv olmuş sertifikatlarla əlaqədar problemlərin tənzimlənməsi və qiymətli kağızlara mülkiyyət hüququnun keçməsi ilə əlaqədar digər işləri yerinə yetirən bank və ya digər şəxs;

2) Şirkət və ya qarşılıqlı-ümumi fond tərəfindən onun qiymətli kağızlarının və onların sahiblərinin qeydiyyatının aparılması məqsəd ilə işə götürülmüş şəxs.

- **Köhnə buraxılış**
  Off-the-run issue

Periodik emissiya olunan qiymətli kağızın (əsasən, istiqraz) keçmiş (ən son buraxılış olmayan) seriyası. Adətən, likvidliyi daha aşağı olduğu üçün son buraxılmış seriyaya nəzərən diskontla satılır.

- **Köhnəlmə (qiymətdən düşmə, dəyər itirmə)**
  Depreciation

1) Zaman keçdikcə və istifadə olunduqca aktivlərin fiziki və ya mənəvi köhnəlməsi və bunun nəticəsində dəyərini itirməsi (bax: amortizasiya);

2) Açıq bazarda tələb və təklif arasında yaranan nisbətin təsiri nəticəsində valyutanın, əmtəənin, maliyyə alətlərinin və digər qiymətlilərin dəyərini itirməsi.

- **Köməkçi menecer**
  Co-manager

Qiymətli kağızların bazara təklif olunması zamanı anderraytinqdə iştirak edən anderrayter şirkətlərdən biri aparıcı, digərləri isə köməkçi menecer olur.

- **Köpürdülmüş (fırıldaqçı) müəssisə ("sabun köpüyü", qondarma müəssisə)**
  Bubble

1) Uğursuz, baş tutmamış maliyyə əməliyyatı;

2) Müflis olmuş müəssisə;

3) Maliyyə fırıldaqları aparmaq məqsədi ilə yaradılan qondarma müəssisə.

- **Kredit (borc) marjası**
  Lending margin

Banka cəlb olunmuş vəsaitlərin dəyəri və verilmiş kreditlərdən daxil olan gəlirlər arasındakı fərq.

- **Kredit dayağı**
  Leverage

İnvestisiyanın gəlirliyini artırmaq məqsədilə borcdan istifadə olunması. Leverec adi maliyyə borcundan başqa törəmə qiymətli kağızlar, qiymətli kağızların marja ilə ticarəti və başqa formalarda ola

bilər. Leverec gəlirliyi artırmaqla yanaşı, investisiyanın riskini də artırır.

- **Kredit derivativləri**
  Credit derivatives

Bir və ya bir neçə kredit müqaviləsi üzrə kreditlərin riskdən müdafiəsi məqsədilə istifadə olunan törəmə maliyyə aləti. Bu alət debitorun kredit riskini ümumi bazar riskindən ayırmaq üçün yaradılmışdır. İstiqrazın alıcısı istiqrazın debitor defoltu riskini qarşılamaq üçün kredit derivativini alır. Kredit derivativinin satıcısı defolta qarşı effektiv sığorta siyasətini həyata keçirir. Kredit derivativləri xəzinə istiqrazının gəlirlilik fərqinin qəfil genişlənməsinə, qiymət diskontunun dərinləşməsinə, iflasa, müflisləşməyə və defolta qarşı mühafizəni təmin edə bilir.

- **Kredit dəyəri**
  Loan value

Borc verənin borc alana vermək istədiyi maksimum kredit məbləği.

- **Kredit ittifaqı**
  Credit union

Kredit ittifaqı mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və (və ya) kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatı. Kredit ittifaqında toplanan pul vəsaitləri üzvlərinin təsərrüfat və sosial ehtiyaclarının ödənilməsi üçün qısa və uzun müddətli kreditlər verilməsinə sərf olunur. Kredit ittifaqı öz əmlakına malikdir, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə edə bilər, məhkəmədə iddiaçı və cavabdeh ola bilər.

- **Kredit qıtlığı (sıxıntısı)**
  Credit squeeze (crunch)

Pul təchizatının tələblə ayaqlaşmaması faizlərin qalxmasına və borclanmanın kəskinləşməsinə gətirib çıxarır ki, bu da kreditin məhdudlaşdırılmasının baş verməsinə səbəb olur.

- **Kredit nəzarəti**
  Credit watch

Kredit reytinqi agentliyi tərəfindən elanlarda istifadə olunan bu termin onu göstərir ki, agentlik adı çəkilən borc götürənin müəyyən məsələlərlə əlaqədar olaraq (məsələn, həmin borc götürən üçün arzuolunmaz hadisənin baş verməsi) kredit reytinqini artırmaq və ya azaltmaq istiqamətində yenidən nəzərdən keçirməyə başlamışdır.

- **Kredit reytinqi**
  Credit rating

Borclunun (fərd, şirkət və ya dövlət) borcunu geri ödəmə qabiliyyətini ölçən mexanizm. Daha

yüksək reytinqə malik şirkətlər daha ucuz borcalma qabiliyyətinə malikdirlər. Şirkət və dövlətlərə kredit reytinqi verən əsas şirkətlər Moody's, Standart&Poors və Fitch Ratings şirkətləridir.

- **Kredit riski**
  Credit risk

Borclunun borc müqabilində ödəniş edə bilməməsi və ya likvidasiya riski. Kredit riski borc alan şəxsin ümumi ödəmə qabiliyyəti əsasında hesablanır. Kredit riski artdıqca investorların borc müqabilində tələb etdikləri gəlir faizi də artır.

- **Kredit zərəri ehtiyatı**
  Loan loss provisions

Borc götürənlər tərəfindən kreditin ödənə bilinməməsi nəticəsində yarana biləcək zərərin qarşısını almaq məqsədi ilə xüsusi ehtiyat hesabında saxlanan vəsait. Vəsaitin ölçüsü verilmiş kreditlərin həcmindən asılıdır və özündə kredit portfelindən müəyyən faiz saxlayır. Ehtiyat vəsaiti kredit zərərini bağlamaq üzrə faktiki bank təcrübəsi, potensial kredit zərəri üzrə rəhbərliyin gözləntiləri və həmçinin gözlənilən iqtisadi şərtlər kimi faktorlar əsasında cari gəlirlərdən tutulmalar hesabına formalaşır.

- **Kredit**
  Credit

Pul və ya natural formada verilən borc. Pulun meydana gəlməsindən sonra kredit münasibətlərinin yaranması iqtisadi münasibətlər sisteminin daha da inkişafına səbəb olmuşdur. Bəşəriyyətin bütün dövrlərində maliyyə resursları iqtisadi subyektlər arasında qeyri-bərabər bölünmüşdür. Belə ki, bir qisim insanların, müəssisələrin və ya dövlətin sərəncamında sərbəst vəsait toplanır, digər subyektlər isə bu vəsaitlərin qıtlığı ilə qarşılaşır. Kredit münasibətləri bu iki qütb arasında körpü rolunu oynayaraq, sərbəst pul vəsaitlərinin, eləcə mal və xidmətlərin bölgüsünü həyata keçirir. Kredit münasibətlərində yaranan bu bölgü kreditin əsas prinsiplərinə uyğun olaraq müvəqqəti xarakter daşıyır. Kredit adətən qaytarmaqlıq, müddətlilik, təminatlılıq və ödəniclilik şərti ilə verilir. Lakin, həmin şərtlərin hər hansı biri təmin edilmədiyi halda da kredit münasibətləri yarana bilər. Məs, faizsiz kreditdə ödənclilik, girovsuz kreditdə təminatlılıq, davamlı (əbədi) kreditdə müddətlilik şərti mövcud olmur. Sərbəst resurslara malik kreditorlar onların borc alanlara müvəqqəti verilməsi vasitəsilə əlavə pul vəsaitini əldə etməyə nail olurlar. Kreditdən ən iri müəssisə və birliklər ilə yanaşı, xırda istehsalçılar və tacirlər; dövlət və hökumət ilə yanaşı, müxtəlif vətəndaşlar da geniş istifadə edirlər. Müddətinə görə kreditlər 3 qrupa bölünür: qısamüddətli (1 ilə qədər); ortamüddətli (1 ildən 5 ilə qədər);

uzunmüddətli (5 ildən yuxarı). Kredit münasibətləri müxtəlif əlamətlərinə görə təsnifləşdirilir və bunun əsasında kredit aşağıdakı növləri fərqləndirilir: dövlət krediti, bank krediti, vətəndaş krediti, beynəlxalq kredit, portfel krediti, kommersiya krediti, vergi krediti, ipoteka krediti və s.

Bundan əlavə, mühasibat uçotu hesabının sağ tərəfi də kredit termini ilə ifadə olunur.

- **Kreditin ümumi dəyəri**
  Total amount of credit

Kreditin "qeyd olunmuş dəyər"i ilə bu kredit üzrə bütün hesablanıb alınmamış faizlər, komissiyon haqları və digər ödənişlər daxil olmaqla ödənilməmiş məbləğlərin cəmidir.

- **Krek-spred ("neft-neft məhsulları" spredi)**
  Crack spread

Əmtəə bazarında xam neft fyuçersləri ilə, neft məhsulları fyuçerslərinin (benzin və s.) qiymətləri arasında fərq.

Neft məhsulları emal edən şirkətlər hedcinq üçün istifadə edirlər.

- **Kross-listinq (ikitərəfli listinq)**
  Cross-listing (dual listing)

Şirkətin qiymətli kağızlarının iki və ya daha çox birjada listinqdə olması. Bu kimi hal müvafiq qiymətli kağızların likvidliyini artırmaqla yanaşı, investorlara qiymətli kağızlarla ticarəti bir neçə məkanda, o cümlədən xarici ölkələrdə də həyata keçirmək üçün əlavə imkanlar yaradır. Nəzərə alınmalıdır ki, digər ölkələrin birjalarında listinqində olmaq üçün şirkət həmin ölkələrin qanunvericiliyində nəzərdə tutulmuş və müvafiq birjalar tərəfindən qoyulmuş tələblərə cavab verməlidir.

- **Kumulyativ (toplanan) illik artım tempi**
  Compound annual growth rate (CAGR)

Müəyyən vaxt ərzində investisiyanın dəyərinin və ya gəlirin həcminin orta illik artım sürətini xarakterizə edən göstərici.

- **Kumulyativ imtiyazlı səhmlər**
  Cumulative preference shares (Cumulative preferred stocks)

Emissiya şərtlərinə görə, vəsait çatışmazlığı halında dividentləri toplanan və sonrakı dövrlərdə qeyri-kumulyativ müddətsiz imtiyazlı və adi səhmlərin dividentləri ödənilməzdən əvvəl ödənilən, habelə emitentə dividentlərin ödənilməsi vaxtının müəyyən müddətə təxirə salma hüququ verən imtiyazlı səhmlər.

- **Kumulyativ səsvermə**
  Cumulative voting

Şirkətin direktorlarının seçilməsində istifadə olunan səsvermə

metodlardan biri olub hər bir səhmdarın hər səhmə görə seçiləcək direktorların sayı qədər səsi olduğunu göstərir. Məsələn, 3 direktorun seçiləcəyi halda, 100 səhmi olan səhmdar 300 səsə malik olur. Bu səhmdarlara imkan verir ki, bütün səslərini bir şəxsə versinlər.

- **Kumulyativ**
  Cumulative

İmtiyazlı səhmlərə və istiqrazlara görə keçmiş dövrlər üzrə hesablanmış, lakin ödənilməmiş divident və faiz məbləğlərinin toplanması.

- **Kupon**
  Coupon

İstiqraz üzrə ödənilən faiz. İstiqrazın nominalının faizi formasında ifadə olunur.

Məsələn, nominal dəyəri 1000 manat, illik kupon faizi 5% olan istiqraz ildə 50 manat gəlir gətirir.

- **Kupon gəliri**
  Coupon yield

İstiqrazlarda və digər borc alətlərində illik faiz məbləğinin qiymətli kağızın nominal dəyərinə nisbətidir.

- **Kuponların ayrılması**
  Coupon stripping

İstiqrazlarınəsasməbləğlərindən kuponlarının ayrılması yolu ilə onların kuponsuz istiqraza çevrilməsi və həmin istiqrazların və onların kuponlarının müstəqil qiymətli kağızlar kimi ayrılıqda satılması.

- **Kuponlu istiqraz**
  Coupon bond

Kupon ödəyən borc qiymətli kağızları (istiqraz). Kuponlar adətən ildə bir və ya iki dəfə ödənilir. İstiqrazın kupon ödəmələri onun nominal dəyərindən hesablanır.

Məsələn, nominal dəyəri 1000 manat, illik kupon faizi 5% olan istiqrazın illik kupon ödəməsi 50 manatdır.

- **Küçə adı**
  Street name

Bu termin investorun sahibi olduğu qiymətli kağızlarının onun öz adına deyil, broker firması, bank və ya bu kimi digər nominal saxlayıcının (sahibin) adına qeydiyyata alındığı halı göstərir.

- **Küçə ticarəti (qara bazar, qeyri-rəsmi birja)**
  Kerb market

Rəsmi birjalardan kənarda ticarət əməliyyatlarının aparıldığı yer.

- **Kvantos**
  Quanto

Forvard valyuta müqaviləsi üzrə opsionun bir növü. Bu zaman müqavilənin məbləği məzənnənin dəyişməsindən asılı olaraq dəyişir

və opsion mükafatı isə forvard məzənnəsinə daxil olur.

- **Kvazi pul**
  Quasi-money (near money)

Qanuni ödəniş vasitəsi kimi istifadə oluna bilinməyən, yalnız maliyyə öhdəliklərinin icrası üçün istifadə oluna bilən yüksək likvidli maliyyə aktivləri. Kvazi pulun təyin edilməsi üzrə müxtəlif metodologiyalar mövcuddur. Əksər beynəlxalq maliyyə institutlarının metodologiyalarına görə bankın müddətli və yığım hesabları, eləcə də daha likvid xarakterə malik maliyyə alətləri kvazi pul hesab olunur. Kvazi pul ölkədə tədavüldə olan pul kütləsinin əsas hissəsini təşkil edir.

- **Konosament**
  Bill of lading
  (letter of consignment)

Sahibinə yüklənmiş mallar üzərində mülkiyyət hüququ verən qiymətli kağız. Dəniz nəqliyyatı üzrə yükdaşımalarda konosament gəmi kapitanı, onun köməkçisi və ya gəmi yükdaşımaları üzrə şirkət tərəfindən imzalanır və malların nəql olunmaq məqsədilə qəbul edildiyini, təyinat yerinə çatdırılacağını, eləcə də yükdaşıma üzrə digər şərtləri təsdiq edir.

- **Qabaqlayıcı sövdələşmə**
  Front running

Bazar sui-istifadələrinin bir növüdür. Mənfəət əldə etmək məqsədi ilə müvafiq əmtəələr üzrə potensial böyük sövdələşməyə dair elan olunmamış məlumat əsasında opsion müqavilələrinin bağlanması. Qabaqlayıcı opsion sövdələşməsi opsion bazarında potensial sövdələşmənin yerinə yetirilməsi qiyməti müəyyənləşdikdə bağlanır.

- **Qabarıqlıq (konveksiya)**
  Convexity

Kuponlu istiqrazın qiymətinin faiz dərəcələrinin dəyişməsinə olan həssaslığının göstəricisi.

Qabarıqlıq yüksək olduqda, istiqrazın qiyməti faiz dərəcələrinin dəyişməsinə daha az həssas olur. Riskin idarəolunması aləti kimi istifadə olunur və istiqrazlar portfelinin bazar riskinin dəyərləndirilməsinə kömək edir.

- **Qabarma**
  Bulge

Bazarda qiymətlərin qəfil qalxmasını izah etmək üçün istifadə edilən jarqon termindir.

- **Qamma**
  Gamma

Baza aktivinin bir vahid dəyişməsi nəticəsində bu aktiv üzrə opsionun deltasının nə qədər dəyişəcəyini göstərən əmsal.

- **Qanuni siyahı**
  Legal list

Əmanət bankları və trast fondları üçün qanuni investisiya qoyuluşlarının siyahısı.

- **Qapalı fond (qapalı tipli fond)**
  Closed end fund
  (closed-end fund)

Müəyyən olunmuş sayda səhm buraxan, başqa sözlə, xüsusi kapitalını təsbit edən investisiya fondu. Belə fondların səhmləri fond birjasında dövriyyəyə buraxıla bilər. Səhmlərin qiyməti tələb və təklif əsasında müəyyən edilir.

- **Qapalı səhmdar cəmiyyəti**
  Close corporation

Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyət.

- **Qapalı yerləşdirmə**
  Closed distribution (private placement)

Qiymətli kağızların əvvəlcədən müəyyənləşdirilmiş məhdud investorlar dairəsinə birbaşa təklifi(satışı). Başqa sözlə, qiymətli kağızların hər kəsə açıq şəkildə deyil, az sayda investora satılması.

Adətən, qapalı yerləşdirmə institusional investorlar (bank, qarşılıqlı-ümumi fond, sığorta şirkəti, pensiya fondu və s.) arasında aparılır.

- **Qapanış məzənnəsi (son məzənnə)**
  Closing rate

Balans hesabatı tarixinə spot mübadilə məzənnəsidir.

- **"Qara cəngavər"**
  Black knight

Müəyyən şirkətin udulması haqqında həmin şirkətin özü üçün arzuolunmaz təkliflə çıxış edən hüquqi və ya fiziki şəxs.

- **Qarşılıqlı /müştərək/ümumi fond**
  Mutual fund/Unit trust

İnvestorlardan vəsait cəlb edib səhm, istiqraz və digər qiymətli kağızlara investisiya edən kollektiv investisiya fondu. Fond menecer tərəfindən idarə olunur və gəlir və ya xərclər adətən ilin sonunda investorlar arasında paylanılır. Qarşılıqlı fond qapalı və açıq tipli ola bilər. Digər səhmlər kimi, qapalı tipli fondların səhmləri açıq bazarda alınıb və ya satıla bilərlər. Bu cür fondlar investorlar tərəfindən yeni

yerləşdirilən kapitalı qəbul etmirlər və ancaq əldə edilən gəliri portfelə yenidən investisiya edirlər. Açıq tipli fondlar yeni şəxsi səhmlərini investorlara satırlar, keçmiş səhmlərini yenidən almağa hazırdırlar və fond birjasında listinqə düşmürlər. Tələb artdıqca daha çox səhmlər buraxılır.

- **Qarşılıqlı əvəzlənə bilən**
  Fungible

Bu termin bir alətin digəri ilə eyni xüsusiyyətlərə malik olduğunu və digəri ilə əvəz oluna bilindiyini təsvir etmək üçün istifadə olunur. Məsələn, yeni buraxılan istiqrazın əvvəl buraxılan mövcud istiqrazla qarşılıqlı əvəzlənə bilən olması üçün onun qiymətindən başqa digər bütün xüsusiyyətləri mövcud istiqrazın xüsusiyyətləri ilə eyni olmalıdır. Əgər istiqraz qarşılıqlı əvəzlənə biləndirsə, bu eyni xüsusiyyətlərə malik mövcud istiqraza mübadilə edilə bilər.

- **Qarşılıqlı kredit fondu**
  Mutual loan fund

Bax: Qarşılıqlı fond.

- **Qarşılıqlı-ümumi fond əlavəsi**
  Load

Qarşılıqlı-ümumi fondların səhmlərinin alınmasına və ya satılmasına görə alınan ticarət əlavəsidir.

- **Qarşı-veksel (əks-iddia, rekambio)**
  Cross-bill (recambio)

1) Veksel üzrə ödəniş etmiş şəxs tərəfindən veksel üzrə öhdəlik daşıyan digər subyektlərə protest elan etməklə ona faizlər, cərimələr və çəkdiyi digər xərclərlə birlikdə ödədiyi məbləğin qaytarılması ilə bağlı irəli sürülən rəsmi tələb (əks-iddia), yaxud bu tələbə görə təqdim olunan qarşı-veksel adlanan rəsmi sənəd;

2) Veksel üzrə öhdəliyin vaxtında yerinə yetirilməməsinə görə tətbiq edilən cərimə;

3) Bank tərəfindən inkasso yolu ilə qəbul etdiyi veksele protest edilməsi ilə əlaqədar çəkdiyi xərclərin ödənilməsi üzrə müştəriyə təqdim olunan hesab.

- **Qeydiyyat kitabı (jurnalı)**
  Blotter

Birjada baş verən hadisələr və həyata keçirilən əməliyyatlar üzrə ilkin məlumatların qeyd olunduğu kitab (jurnal). Sonradan bu məlumatlar sistemləşdirilir və təhlil olunur.

- **Qeydiyyat aparan (qeydçi)**
  Book runner

Yeni buraxılmış qiymətli kağızların yerləşdirilməsi ilə əlaqədar bütün əməliyyatların qeydiyyatına cavabdeh olan anderrayter. Qey-

diyyat aparan şirkət başqalarını yazılışa abunə olmağa dəvət etmək və qiymətli kağızları abunəçilərə paylamaq kimi vəzifələri də həyata keçirir.

- **Qeydiyyat ərizəsi**
  Registration statement

Yeni buraxılışa hazırlıq zamanı şirkət tərəfindən Qiymətli kağızlar üzrə tənzimləyici quruma göndərilən sənəd. Bu sənəddə emitent şirkət, borclanmanın məqsədi və şərtləri haqqında məlumatlar əks olunur.

- **Qeydiyyat tarixi**
  Record date

1) Emitentin növbəti dividentləri almaq hüququ olan səhm saxlayıcılarının və qeydiyyatda olan səhm sahiblərinin siyahısını tərtib etmək üçün təyin etdiyi gün;

2) Səhmdarların ümumi iclasında səs vermə və yeni buraxılışa yazılış məqsədilə səhm saxlayıcılarının qeydiyyatdan keçməsi üçün təyin edilmiş son tarix.

- **Qeydiyyata alınmış market-meyker (bazar iştirakçısı)**
  Registered competitive market maker

Mövcud qaydalara uyğun olaraq, birjada rəsmi qeydiyyatdan keçmiş market-meyker (bazar iştirakçısı).

- **Qeydiyyata alınmış nümayəndə**
  Registered representative

İnvestisiya şirkətinin müştərilərə investisiya barədə məsləhətlər vermək səlahiyyəti olan əməkdaşı.

- **Qeyri-diskresion hesab**
  Nondiscretionary account

Brokerin müştərisinin tam ixtiyarında olan hesab; bu halda, müştəri apardığı əməliyyatlara görə birbaşa özü məsuliyyət daşıyır.

- **Qeyri-işlək kredit**
  Non-performing loan

Faizinin hesablanması dayandırılmış, yaxud əsas məbləğinin və ya faizinin ödənişi müqavilədə nəzərdə tutulmuş müddətlərdən 90 gün və ya daha çox gecikdirilmiş, faizi kapitallaşdırılmış və ya yeni kredit kimi rəsmiləşdirilmiş, yaxud faizinin ödəniş müddəti uzadılmış kreditlər, habelə faizinin ödəniş müddəti 90 gün və ya daha çox gecikdirilmiş overdraftlar.

- **Qeyri-işlək kreditin məbləği**
  Non-performing loan amount

Ödənilməmiş faiz məbləği istisna olmaqla kreditin əsas məbləğinin ödənilməmiş qalığı.

- **Qeyri-kumulyativ imtiyazlı səhmlər**
  Noncumulative preference share

Emissiya şərtlərində geri alınma tarixi olmayan, sahibinin tələbi ilə ödənilməyən, ona gələcəkdə bu hüquqları verməyən, emitentə səhm sahiblərinə dividentlərin verilməməsi barədə qərar qəbul etmək hüququ verən, habelə səhm sahiblərinə əvvəlki ödənilməmiş dividentlər üzrə ödənişlərin alınmasını tələb etmək hüququnu verməyən imtiyazlı səhmlər. Emissiya şərtlərində dividentlərinin məbləği bazar şəraitindən və emitentin maliyyə vəziyyətindən asılı olaraq dəyişilməsi nəzərdə tutulursa, bu səhmlər qeyri—kumulyativ müddətsiz imtiyazlı səhmlərə aid edilmir.

- **Qeyri-kumulyativ**
  Noncumulative

Sahibinə ödənilməmiş və ya ötürülmüş (buraxılmış) dividentə görə heç bir haqq ödəməyən imtiyazlı səhmin bir növüdür. Əgər şirkət dividentləri verilən ildə ödəməmək qərarına gələrsə, gələcəkdə investorun həmin imtina olunmuş dividentlərin heç birini tələb etmək hüququ yoxdur.

- **Qeyri-likvid**
  Illiquid

Aktivin nəğd pula asanlıqla dəyişdirilə və ya satıla bilməməsi.

- **Qeyri-maddi aktivlər**
  Intangible assets

Maddi ifadəsi olmayan, lakin sahibinə gəlir gətirə bilən aktivlər. Məsələn: qudvil (firmanın işgüzar reputasiyası), rəqabət üstünlükləri, ticarət nişanı, icarə müqavilələri, françayzları, patent və müəlliflik hüququ kimi aktivlər.

- **Qeyri-məhdud məsuliyyət**
  Unlimited liability

Müəssisədə sahibin itkilərinin üzərinə heç bir məhdudiyyət qoyulmaması halı. Qanunvericilikdə sahiblər və ya səhmdarların itkilərinin sərmayə olaraq qoyduqları kapitalla məhdudlaşdırıldığı məhdud məsuliyyət anlayışının mənaca əksidir.

- **Qeyri-normal əqd**
  Odd lot

100 səhmdən az sayda qiymətli kağız üzrə əqdlərin bağlanması.

Fond birjasında hər hansı qiymətli kağız üzrə qəbul olunmuş standard əqdlərin sayından az sayda əqdlərin bağlanması.

- **Qeyri-rezident bank**
  Non-resident bank

Bir ölkənin ərazisindən kənarında yerləşməklə xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq bank və ya digər kredit təşkilatı olan qeyri-rezident – hüquqi şəxsdir.

- **Qeyri-rezidentlər**
  Non-residents

1) Müəyyən ölkəyə münasibətdə onun hüdudlarından kənarda daimi yaşayış yeri olan, o cümlədən bu ölkədə müvəqqəti qalan fiziki şəxslər;

2) Müəyyən ölkəyə münasibətdə xarici dövlətlərin qanunvericiliyinə müvafiq surətdə yaradılmış və bu ölkənin hüdudlarından kənarda yerləşən hüquqi şəxslər və hüquqi şəxs olmayan müəssisə və təşkilatlar;

3) Ölkədə yerləşən xarici diplomatik və digər rəsmi nümayəndəliklər, habelə beynəlxalq təşkilatlar, onların nümayəndəlikləri və filialları;

4) Müəyyən ölkəyə münasibətdə qeyri-rezidentlərin bu ölkədə yerləşən filialları və nümayəndəlikləri (büro və agentlikləri).

- **Qeyri-rəqabətli sifariş**
  Noncompetitive bid

İlkin yerləşdirmənin orta çəkili qiyməti ilə sifarişdə göstərilən pul vəsaiti məbləğində qiymətli kağızların alqı-satqısı müqaviləsinin bağlanması barədə investorun emitentə etdiyi təklifdir.

- **Qeyri-subordinasiya borc öhdəlikləri**
  Non-subordinated debenture

Qanunla müəyyən olunmuş qaydada və növbəliliklə subordinasiya borc öhdəliklərindən əvvəl ödənilən cəlb edilmiş borclar (məsələn, banklararası kreditlər).

- **Qəbul edən (adresat)**
  Addressat (addressee)

Hər hansı göndərişi, o c ümlədən maliyyə və pul sənədini qəbul edən (alan) tərəf.

- **Qəbz**
  Quittance (receipt)

Pulun, sənədin, habelə digər qiymətlilərin qəbul edilməsini, təhvil alınmasını təsdiq edən sənəd.

- **Qərəzli təklif**
  Hostile bid

Şirkətə başqa bir şirkət və ya şəxs tərəfindən edilən və idarə heyəti tərəfindən dəstəklənməyən qərəzli alış təklifi.

- **Qəti alış**
  Outright purchase

Tam alış qiymətinin nəğd ödənməsi.

- **Qısa hedc**
  Short hedge

Gələcəkdə satılacaq əmtəə və ya qiymətli kağızın qiymətinin düşməsinə qarşı sığortalanmaq məqsədilə bu əmtəə və ya qiymətli kağızlar üzrə törəmə alətlərin satışı.

- **Qısa marja hesabı**
  Short margin account

"Qısa" satışlara cəlb olunan investorların onlardan tələb olunan marja depozitlərini qoyduqları hesab.

- **Qısa mövqe**
  Short position

1) Qiymətli kağızların qiymətinin düşəcəyini guman edərək bu qiymətli kağızların borca götürülərək satılması.

2) Opsion və fyuçers kontekstində baza aktivinin gələcəkdə müəyyən qiymətə satılması.

- **Qısa ödəmə (bağlama)**
  ***S**hort covering (short cover)*

Öncədən borca götürülərək satılmış qiymətli kağızların geri qaytarılması üçün bazardan alınması.

Qısa ticarət pozisiyasını bağlamaq üçün əvvəllər satılmış istiqrazın və ya aktivin geriyə alınması. "Ayı" bağlaması adı ilə də məşhurdur.

- **Qısa satış**
  Short sale

İnvestorun sahib olmadığı və ya borca aldığı qiymətli kağızın satışı. Bu proses müəyyən qiymətli kağızların qiymətinin düşəcəyini güman edərək bu qiymətli kağızları borca götürülərək satılması və qiymət düşdükdən sonra isə satış qiymətindən daha ucuz alaraq sahibinə qaytarılması. Borca alınmış qiymətli kağızı yüksək qiymətə sataraq sonradan onu ucuz qiymətə geri almaqla gəlir əldə olunur.

- **Qısamüddətli borclanma**
  Short-term borrowing

Borc alanın 12 ay ərzində geri ödəməli olduğu borc (kredit).

- **Qısamüddətli istiqraz**
  Short term bonds

Dövriyyə müddəti 1 ilədək olan istiqrazlar.

- **Qismən ödəmə**
  Paydown

Ödənilməmiş kredit balansına görə edilmiş qismən ödəniş.

- **Qismən təminatlı kredit**
  Partly secured credit

Bazar dəyəri kreditin ödənilməmiş məbləğindən aşağı olan girovla və ya digər təminatla təmin edilmiş kreditdir.

- **Qiymət göstəriciləri (indiqatorları)**
  Price indicators

Texniki analizdə istifadə olunan qiymət göstəriciləri. Bunlara satış həcmləri, təklifin və tələbin dəyişməsi və s. bu kimi göstəricilər aiddir.

- **Qiymət uçurumu**
  Gap

Birja qiymətlərinin kəskin şəkildə artımı və azalması. Bu halda gün ərzində qiymət səviyyəsi o qədər artmış olur ki, minimum qiymət səviyyəsi ötən birja gününün qeydə alınmış maksimum qiymət səviyyəsini geridə qoyur və əksinə, gün ərzində maksimum qiymət səviyyəsi ötən gün qeydə alınmış minimum qiymət səviyyəsindən daha çox azalmaya məruz qalır.

- **Qiymətin minimal dəyişikliyi**
  Tick

Maliyyə alətinin qiymətində baş verməsi mümkün olan minimal dəyişiklik. Qiymətin minimal dəyişikliyi müvafiq alətin gəlirliliyinin və faiz dərəcələrinin faiz bəndinin 1/100-ni təşkil edir.

- **Qiymətləndirmə (qiymətqoyma)**
  Evaluation

Qiymətləndirmə, qiymətqoyma. Əmlakın, məhsulun və digər qiymətlilərin dəyərinin müəyyən edilməsi.

- **Qiymətlərlə manipulyasiya**
  Price manipulation

Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir.

- **Qiymətli kağızın dövlət qeydiyyat nömrəsi**
  State registration number of security

Müvafiq dövlət orqanı tərəfindən emissiya qiymətli kağızlarının konkret buraxılışının eyniləşdirilməsi məqsədilə verilən kod. Bu kod müvafiq qanunvericiliyə uyğun olaraq tərtib olunur və dövlət reyestrinə daxil edilir.

- **Qiymətli kağızın həqiqi sahibi**
  Beneficial owner

1) Qiymətli kağızın verdiyi hüquqlardan faydalanan şəxs;
2) Qiymətli kağızlara dair müəyyən əməliyyat qərarlarının təsdiqinə birbaşa və ya dolayısı ilə səs vermək və ya təsir göstərmək gücünə malik olan hər hansı bir şəxs və ya şəxslərdən ibarət qrup.

- **Qiymətli kağızın sertifikatı**
  Scrip

Müvafiq qanunvericiliyə uyğun olaraq, bilavasitə emitent tərəfindən, yaxud emitentin sifarişi əsasında müvafiq depozitar tərəfindən buraxılan və qiymətli

kağızların sertifikatda göstərilən sayına bütün hüquqları təsdiqləyən maliyyə sənədi. Bu sertifikat əsasında qiymətli kağızın sahibi, o cümlədən investor emitentin öhdəliklərini yerinə yetirməsini tələb etmək hüququna malikdir.

- **Qiymətli kağızlar bazarı (fond bazarı)**
  Securities market (stock market)

Qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.

- **Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları**
  Professional market participants

Qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və ya fiziki şəxslər.

- **Qiymətli Kağızlar üzrə İnvestorların Müdafiəsi Şirkəti**
  Securities Investor Protection Corporation

Brokerin müflisləşməsi vaxtı müştərilərin pul və qiymətli kağızlarının itirilməsinin qabağını almaq üçün dövlətin təminatına əsaslanan şirkətdir. İnvestorlara ödənilən kompensasiyanın məbləği məhduddur. Kompensasiya fondu birja üzvlərinin və digər fond bazarı iştirakçılarının ödədikləri üzvlük haqqından formalaşır.

- **Qiymətli Kağızlar üzrə Komissiyaların Beynəlxalq Təşkilatı**
  International Organization of Securities Commissions (IOSCO)

Qiymətli kağızlar bazarının tənzimləyicilərinin beynəlxalq təşkilatı. Təşkilatın əsas məqsədi qiymətli kağızlar bazarlarının ədalətli, səmərəli və şəffaf fəaliyyətini təmin edən beynəlxalq standartların müəyyənləşdirilməsi və onlara riayət edilməsinə nəzarət edilməsi sistemlərinin qurulmasıdır.

- **Qiymətli Kağızlar üzrə Milli Klirinq Şirkəti**
  National Clearing Corporation

ABŞ-ın Qiymətli kağızlar üzrə dilerlərin milli assosiasiyası tərəfindən yaradılmış klirinq şirkəti. Bu şirkət öz üzvləri arasında qiymətli kağızlar üzrə bütün klirinq əməliyyatlarını aparır.

- **Qiymətli kağızların buraxılışı**
  Issue of securities

Qiymətli kağızların buraxılışı emitentin qiymətli kağızların bir

növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızlarının toplusudur.

- **Qiymətli kağızların emissiyası**
  Paper issue

Emitentin qiymətli kağızların emissiyası haqqında qərarının qəbulundan başlayaraq, qanunvericiliyə uyğun olaraq, emissiya prospektinin tərtibi, qiymətli kağızların buraxılışı, yerləşdirilməsi və digər tədbirlərin məcmusu.

- **Qiymətli kağızların gözləniləndən daha az satınalınması**
  Undersubscribed

Yeni qiymətli kağızın investorlar tərəfindən tam alınmaması.

- **Qiymətli kağızların listinqi**
  Listing of securities

Fond birjasının şərtlərinə və tələblərinə uyğun gələn qiymətli kağızların kotirovka vərəqəsinə daxil olma prosedurası.

- **Qiymətli kağızların tədavülü**
  Circulation of securities

Qiymətli kağızların yerləşdirilməsindən sonra onlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesidir.

- **Qiymətli kağızların yerləşdirilməsi**
  Distribution of securities

Qiymətli kağızların yerləşdirilməsi emitentin qiymətli kağızlarının ilk sahiblərinə özgəninkiləşdirilməsidir.

- **Qiymətli metallar**
  Precious metals

İstənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında, kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan qızıl, gümüş, platin və platin qrupu metalları (palladium, iridium, osmium, rodium və rutenium).

- **Qiymət-mənfəət nisbəti**
  Price-to-earnings ratio (P/E ratio, PE ratio, PER)

Şirkətin səhminin cari qiymətinin hər səhmə düşən xalis mənfəətə nisbəti.

Məsələn, əgər 10 min səhmə malik şirkətin səhmi hazırda 10 manata tədavül olunursa və son ildə xalis mənfəət 5 min manata bərabərdisə, P/E nisbətini aşağıdakı qaydada tapmaq olar:

Hər səhmə düşən xalis mənfəət = 10 000/5 000 = 2

P/E = 10 / 2 = 5.

- **Qızılın qiymətinin müəyyənləşdirilməsi**
  Gold fix

Qızıl külçəsinin, qızıl məmulatlarının və qızıl tərkibli məhsulların dəyərini formalaşdırmaq üçün dilerlər tərəfindən qızılın qiymətinin təyin edilməsidir. Qızılın qiyməti dünyanın bütün qızıl mərkəzlərində gündə iki dəfə təyin edilir.

- **Qlobal depozitar qəbzləri (QDQ)**
  Global depositary receipts (GDR)

Xarici şirkətlərin bir neçə səhmini təmsil edən və müxtəlif ölkələrdəki banklar tərəfindən buraxılan sertifikat. QDQ yerli səhmlər kimi ticarət olunur, lakin müxtəlif bank nümayəndəlikləri vasitəsilə qlobal satış üçün təklif olunur. QDQ-lərlə ticarət həm şirkət, həm də investorlar üçün administrativ və ticarət xərclərini azaltmağa kömək edir.

- **Qlobal səhm təklifi**
  Global share offering

Səhmlərin eyni zamanda bir neçə ölkənin bazarında yerləşdirilməsi.

- **Qonorant**
  Payer for honor (payer for honour)

Vekselin üzərində imzası ilə təsdiq etməklə veksel məbləğinin ödənişinə zəmanət verən şəxs.

- **Qonorat**
  Referee in case of need

Vekseli təqdim etməklə qonorantın zəmanəti əsasında borc əldə edən şəxs.

- **"Qoruyucu"**
  Circuit breaker

Birjada səhmlərin qiymətlərinin gözlənilməz və kəskin dəyişməsinin qarşısının alınması üçün tətbiq edilən nəzarət mexanizmidir. Belə hallarda nəzarətdən çıxmış bazarın çökməsinin qarşısını almaq üçün ticarətin müvəqqəti dayandırılması, gün ərzində qiymətlərin dəyişməsinin müəyyən limitlər (aşağı və yuxarı hədlər) qoyulmaqla məhdudlaşdırılması və s. bu kimi tədbirlərdən istifadə olunur.

- **Qudvil**
  Goodwill

Firmanın işgüzar reputasiyası və ya onun bazar qiyməti ilə balans dəyərinin fərqi.

- **Qüvvəyə minmə günü**
  Effective date

Səhmlərin qiymətli kağızlar üzrə tənzimləyici orqanın icazə si ilə alqı-satqısına başlanıldığı gün.

- **Ləğv etmə mükafatı**
  Liquidation premium

Ləğv olunmuş müəssisənin borcları, səhmdar kapitalı üzrə ödənişləri və digər ödəmələri həyata keçirildikdən sonra sərəncamında qalan vəsaitlərin məcmusu. Bu halda müvafiq qanunvericilik əsasında, adətən, həmin qalıq vəsaiti müəssisənin sahibləri arasında bölüşdürülür.

- **Ləğv etmə**
  Liquidation

1) Ləğv etmə, fəaliyyətini dayandırma və s.;

2) Müqavilə müddətinin sona çat-ması, müqavilə üzrə münasibətlərin başa çatdırılması;

3) Əsas istehsal fondların reallaşdırılması;

4) Məhkəmə qərarları əsasında, yaxud idarə heyətinin və ya təsisçilərin razılığı (öncədən və ya sonradan) ilə müəssisənin, təşkilatın fəaliyyətinin tam şəkildə dayandırılması, ləğv edilməsi. Dövlət mülkiyyətində olan müəssisənin likvidasiyası üzrə qərar əsas etibarilə yüksək müvafiq dövlət orqanı tərəfindən verilir.

- **Ləğv olunma dəyəri**
  Liquidating value
  (liquidation value, residual value, salvage value)

Ləğv etmədən sonra əsas vəsaitlərin və digər aktivlərin satışından əldə olunan dəyər.

- **Likvid aktiv**
  Liquid asset
  (available asset, quick asset)

Ehtiyac yarandığı zaman sərbəst və rahat şəkildə nağd pul vəsaitinə çevrilən, reallaşdırıla bilən vəsait, aktiv. Pul özlüyündə likvid aktiv hesab olunur.

- **Likvidant**
  Liquidante

Hər hansı borc alan subyektə qarşı özünün borc tələbini ləğv edən kreditor.

- **Likvidat**
  Liquidate

Xeyrinə hər hansı borc tələbi ləğv olunan, qüvvədən düşmüş hesab olunan borc alan, yaxud borclu subyekt. *L.* likvidantın qarşı subyektidir.

- **Likvidator**
  Liquidator (receiver)

1) Sığorta münasibətləri zamanı sığorta halları üzrə dəymiş zərərin səbəblərini həcmini ölçən

şəxs, sığorta şirkətinin ixtisaslaşmış işçisi;

2) Bu və ya digər iqtisadi münasibət zamanı hər hansı ləğvetmə prosesini həyata keçirməklə, rəsmiləşdirməklə bağlı müəyyənləşdirilmiş (adətən məhkəmə tərəfindən təyin olunmuş) hüquqi və ya fiziki şəxs.

- **Likvid qiymətli kağızlar**
  Liquidity securities

1) İnvestor tərəfindən sahibi olduğu qiymətli kağızları (səhmləri, istiqrazları və s.) əldə etdiyindən daha yüksək dəyərə, yəni mənfəət əldə etməklə reallaşdıra bilməsi imkanları, qabiliyyəti. Başqa sözlə, qiymətli kağızların likvidliyi onlara bazar tələbinin yüksək olmasını ifadə edir;

2) istənilən növ qiymətli kağızın nağd pul vəsaitinə çevrilə bilinməsi imkanları, qabiliyyəti. Bu zaman gəlirliyin təmin olunması şərti tələb olunmur.

- **Likvidlik riski**
  Liquidity risk

1) Hər hansı şirkətin və ya maliyyə qurumunun öhdəliklərini vaxtında qarşılaması üçün lazımi miqdarda likvid vəsaitlərə sahib olmaması ehtimalı ilə şərtlənən risk. Məsələn, bankın depozit sahibləri və ya kreditorların tələblərini vaxtında və lazımi dərəcədə qarşılaya biləcək maliyyə vəsaitinə (adətən, nağd pul) sahib olmaması riski;

2) İnvestisiyanın müddəti bitənədək investisiya olunmuş vəsaitlərin ciddi itkiyə yol vermədən qaytarılmasının mümkün olmaması ehtimalı;

3) qiymətli kağızların təkrar bazarda müvafiq qiymətə satılmasının mümkün olmaması ehtimalı.

- **Likvidlik tələsi**
  Liquidity trap

Dövriyyədəki likvid formada pul kütləsinin həcminin artması, uçot faiz dərəcələrinin isə adekvat dəyişməməsi ilə müşayiət olunan vəziyyət. Belə olan halda insanlar pullarını banklarda saxlamaqda maraqlı olmurlar və yığımlar investisiyaya çevrilmir.

- **Likvidlik**
  Liquidity

1) Şirkətin, bankın və ya ölkənin öhdəliklərini vaxtında yerinə yetirə bilməsi qabiliyyəti**;**

2) Bazarın ticarətin yüksək fəallığı, müxtəlif maliyyə alətlərinin, alıcı və satıcıların çoxluğu ilə xarakterizə olunan vəziyyəti.

- **LİMEAN**
  London Interbank Median Average Rate (LIMEAN)

London banklararası kredit bazarında şərti faiz hesablaşma dərəcəsi. LİMEAN bu bazar üzrə hesablanan digər faiz

dərəcələri olan LİBİD və LİBOR göstəricilərinin orta kəmiyyəti kimi müəyyən olunur.

- **Limit (sərhəd, həddd)**
  Limit

Hədd, sərhəd, məhdudiyyət, norma və bu kimi bir sıra sinonimləri olan bu termin maliyyə bazarlarında, əsasən, hər hansı bir kəmiyyətə müəyyən məhdudiyyətlər qoyulmasını ifadə edir. Bu baxımdan, aşağıdakıları misal gətirmək olar: Broker limiti - fond bazarında investorun, müştərinin öz brokerinə bazarda əməliyyat aparmaqla bağlı müəyyənləşdirdiyi ən yüksək və ən aşağı qiymət səviyyəsi. Bu limit brokerə investorun sahib olduğu maliyyə alətləri ilə, bir qayda olaraq, həmin qiymət aralığında alqı-satqı əməliyyatları aparmağa imkan verir.

Valyuta əməliyyatları limiti banka hər hansı xarici valyutada əməliyyat aparmaqla bağlı müəyyənləşdirilmiş hədd. Bu hədd xaricində əməliyyat qeydə alındıqda bank müvafiq institutlar tərəfindən sanksiya və cərimələrə məruz qala bilər.

Dövlət borcunun limiti – (i) Bir maliyyə ili ərzində dövlətin daxili və xarici iqtisadi subyektlərdən cəlb etdiyi borc vəsaitlərinin həcminin müvafiq hökumət orqanı tərəfindən müəyyənləşdirilən yuxarı həddi. Beləliklə, həm daxili, həm də xarici dövlət borcunun limiti ayrı-ayrılıqda müəyyənləşdirilir. Hökumətin müvafiq maliyyə orqanı tərəfindən bilavasitə özünün istifadəsi, yaxud öz adından cəlb edərək istifadəçiyə ötürmək məqsədilə və ya dövlət zəmanəti əsasında alınan kreditlərin həcmi həmin limiti aşa bilməz. (ii) Dövlətin faktiki borc öhdəliklərinin əsas makro-iqtisadi göstəricilərə nisbətinin limitləşdirilməsi. Bu halda dövlət borcu limiti bilavasitə dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Müxtəlif iqtisadi nəzəriyyələrdə dövlət borcu limiti ilə bağlı fərqli yanaşmalar mövcuddur. Hal-hazırda aparıcı beynəlxalq maliyyə institutları (BVF, DB və s.) tərəfindən tövsiyə olunan normalara əsasən xarici dövlət borcunun limiti hesabat ilində ÜDM-nin 40%-i, əmtəə və xidmətlər ixracının 250%-i, xarici dövlət borcunun ödənişləri üzrə xərclərin məbləği ixracın 25%-i həcminə qədər qənaətbəxş hesab olunur.

Kredit limiti – bir qrup ölkələrdə bankın yerləşdirdiyi kredit vəsaitləri ilə bağlı hədd, limit. Bu limitə görə adətən hər hansı müştəri bankın şəxsi vəsaitlərinin 10%-dən çox həcmdə kredit vəsaiti əldə edə bilməz.

- **Listinq**
  Listing

1) Fond birjasına təklif edilən qiymətli kağızların birja ekspertləri tərəfindən keyfiyyət göstəricilərinə

və etibarlılıq səviyyəsinə görə qiymətləndirilməsi;

2) Səhmdar cəmiyyətin səhmlərinin birjada kotirovka olunan səhmlərin siyahısına daxil edilməsi.

- **Listinq tələbləri**
  Listing requirements

Fond birjalarında səhmlərin yerləşdirilməsi üçün listinqindən keçmə standartları və tələbləri. Hər bir fond birjasının öz listinq tələbləri var. Məsələn, bu tələblər siyahısında səhmdarların sayını, dövriyyədə olan səhmlərin sayını göstərmək olar.

- **Listinq üçün məlumatlar**
  Listing particulars

Fond birjasında listinqdən keçmək üçün iddiaçı şirkətin özü haqqında hazırlamalı və yaymalı olduğu ətraflı məlumatlar. Buraya şirkətin fəaliyyətinin əsas məqamları, malik olduğu aktivlərin dəyəri, səhmlərinin və səhmdarlarının sayı, gəlirləri və s. bu kimi məlumatlar aiddir. Adətən, bu məlumatlar emissiya prospektində əks olunur.

- **Listinqdən keçməmiş səhm**
  Unlisted stock

Listinq tələblərinə cavab vermədiyinə görə fond birjasında ticarət olunmayan səhm.

- **Lodinq**
  Loading

Bank tərəfindən banka təqdim olunan borc öhdəlikli qiymətli kağızların (əsasən, köçürmə vekselləri) risklilik səviyyəsi nəzərə alınmaqla, faiz və aksept ödənişlərindən əlavə haqq alınması.

- **London Banklararası Depozit Bazarında Alış Faiz Dərəcəsi (LİBİD)**
  London Interbank Bid Rate (LIBID)

London banklararası depozit bazarında bankların bir-birindən depozitə (kreditə) götürdüyü vəsaitlərə tətbiq olunan faiz dərəcəsidir. Bu faiz dərəcəsi LİBOR-la sıx əlaqəli olsa da (LİBİD = LİBOR – 0,25%), adətən, ondan baza faiz dərəcəsi kimi istifadə olunmur.

- **London Banklararası Təklif üzrə Faiz Dərəcəsi (LIBOR)**
  London Interbank Offered Rate (LIBOR)

London banklararası bazarında bankların borclanma faizi. LİBOR qısamüddətli kreditlər üzrə faiz dərəcəsinin müəyyənləşdirilməsi üçün dünyada ən çox istifadə olunan faiz dərəcəsidir.

- **Lot**
  Lot

Ticarət sövdələşməsi həcmini xarakterizə edən minimum ölçü vahididir. Ticarət həcmi hər zaman tam lot ölçüsü ilə xarakterizə edilir.

- **LÜKSİBOR**
  Luxembourg Interbank Offered Rate (LUXIBOR)

Lüksemburq pul bazarında banklararası depozit təklifinin orta dərəcəsi.

- **Maxinasiya**
  Machination (exchange fraud)

Qanunsuz iqtisadi fəaliyyət, maliyyə fırıldaqçılığı.

- **Maliyyə bazarı**
  Financial market

Maliyyə münasibətləri sferasında alqı-satqı münasibətlərinin məcmusu. Borc bazarı, kapital bazarı, valyuta bazarı, pul bazarı, sığorta bazarı, qiymətli kağızlar bazarı və s. maliyyə bazarının tərkib hissələridir.

- **Maliyyə Xidmətləri İdarəsi**
  Financial Services Authority (FSA)

Böyük Britaniyada maliyyə sektoruna nəzarət edən dövlət orqanı.

- **Maliyyə ili**
  Financial year

1) Hökumətin rəsmi şəkildə dövlət büdcəsinin uçotunu həyata keçirdiyi dövr. Əsas etibarilə bu dövr bir il müddətini əhatə edir, əksər ölkələrdə o cümlədən

Azərbaycanda təqvim ili ilə üst-üstə düşür;

2) Maliyyə və uçot hesabatlarının təqdim edildiyi standart dövr. Bu zaman maliyyə ilinin təqvim ili ilə üst-üstə düşməsi, habelə bir il müddətini əhatə etməsi əhəmiyyət kəsb etmir.

- **Maliyyə mərkəzi**
  Financial centre

Beynəlxalq və yerli, kommersiya və dövlət maliyyə əməliyyatlarının həyata keçirilməsi üçün ölkənin əsas məkanı. Bu məkan adətən ölkənin paytaxtında yerləşir. Məsələn, Tokio, Lüksemburq, London.

- **Maliyyə öhdəliyi**
  Financial liability

Maliyyə öhdəçiliyinə əsasən (i) debitorun kreditor ilə bağlanılan müqavilədə müəyyən olunan şərtlər əsasında ona ödəniş və ya ödənişlər etməsini tələb edir və ya (ii) iki tərəf arasında maliyyə xarakterinə malik müəyyən hüquqları və ya öhdəlikləri müəyyən edir.

- **Maliyyə riski**
  Financial risk

Maliyyə öhdəliyini yerinə yetirməsi üçün şirkətin lazım olan nağd pul kütləsinə malik olmaması riski.

- **Maliyyə riskinə məruz qalma**
  Exposure

Debitora və ya ölkəyə verilmiş kreditin ümumi məbləği. Defolt halında tam risk altında olmaq. Banklar maliyyə riskinin qarşısını almaq məqsədi ilə hər bir borc alana borcun miqdarına görə məhdudiyyət qoya bilər. Ticarət əməliyyatlarında, maliyyə riskinin yaranması təhlükəsi bazar qiymətlərindəki dəyişikliklərdən gəlir güdmək və ya itki üçün bir potensialdır.

- **Maliyyə vasitəçiliyi**
  Financial intermediation

Biznes və dövlət təşkilatları kimi kapital istifadəçilərini və pensiya fondları və şəxsi investorlar kimi kapital tədarükçülərini əlaqələndirən vasitəçilik fəaliyyəti. Bu termin, adətən, kommersiya və investisiya banklarının fəaliyyətlərini təsvir etmək üçün istifadə olunur.

- **Manipulyasiya**
  Manipulation

Qiymətli kağızların qiymətinin süni olaraq qaldırılması və ya endirilməsi. Adətən qeyri-qanuni sayılır.

Kiçik və az likvid olan şirkətlərin səhmlərini manipulyasiya etmək, adətən, daha asandır.

Məsələn, səhmin cari ticarət qiymətindən aşağı çoxlu sayda kiçik sifarişlərin qoyulması investorları şirkətlə bağlı problemlər olduğuna

inandıra bilər və nəticədə kütləvi satışa gətirib çıxara bilər ki, bu da qiymətləri daha da aşağı salar.

- **Maraq sifarişi**
  Indication of interest

İnvestorlar tərəfindən yeni təklif olunan qiymətli kağızlar üçün verilən sifariş. Bu, sadəcə investorun almaq marağını göstərir və investora heç bir hüquqi səlahiyyət vermir.

- **Marja çağırışı**
  Margin call

Klirinq evi və ya broker tərəfindən, marja hesabı minimal tələbdən daha aşağı düşən əks-tərəfdən (məsələn, müştəri) əlavə vəsait tələbi.

İnvestor, sahib olduğu qiymətli kağızların dəyəri aşağı düşdükdə, marja çağırışı ala bilər. Bu halda o, ya ticarət hesabına əlavə vəsait qoymaq, ya da aktivlərinin bir hissəsini satmaq məcburiyyətində qala bilər.

- **Marja hesabı**
  Margin account

Müştərinin broker şirkətində olan və ona maliyyə alətlərini kreditə almaq imkanını verən hesab; bu zaman hesaba yalnız marja (müəyyən məbləğdə pul vəsaiti) daxil edilir.

- **Marja**
  Margin

Birja əməliyyatı üzrə təminat qismində marja hesabında depo-nentləşdirilməli olan müəyyən məbləğdə pul vəsaiti.

- **Marjin ticarət**
  Margin trading

Digər qiymətli kağızları girov qoymaqla brokerdən alınan borc hesabına qiymətli kağızları almaq. İnvestorlara öz vəsaitlərindən daha artıq mövqe götürməyə imkan verir və nəticədə riski artırmış olur.

Marjin səviyyəsi müxtəlif qiymətli kağızlar üçün riskdən asılı olaraq fərqli ola bilər.

- **Market-meyker (bazar iştirakçısı)**
  Market-maker

Ticarətə buraxılmış qiymətli kağızların likvidliyinin artırılması öhdəliklərini üzərinə götürmüş dilerdir.

- **Mavi kristal (mavi fişka) səhmləri**
  Blue chip stocks

Gəlirliyi və divident ödənişləri yüksək olan etibarlı şirkətlərin səhmləri. Adətən, bu səhmlər sağlam (yaxşı) maliyyə vəziyyətində olan böyük şirkətlərə aid olur. Mavi kristal səhmlər uzun müddətli və stabil artım nümayiş etdirirlər. Buna görə də, digər səhmlərlə müqayisədə mavi kristal səhmlərin dəyəri daha az dəyişkən olurlar.

- **Metal pullarla (qızıl və gümüş sikkə və külçə formasında) investisiya**
  Hard money investments

Adətən qiymətli metal külçələr, külçə sertifikatları və külçə sikkələri (xüsusilə qızılın və gümüş) formasında qoyulan investisiyalar.

- **Meydança brokeri**
  Floor broker

Birja üzvü olan şirkətin müştərilərinin sifarişlərini birjada icra edən broker. Fond birjalarında alqı-satqı zamanı qiymətli kağızlar üzrə birbaşa saziş bağlayan treyder/ticarətçi.

- **Məhdud məsuliyyətli cəmiyyət (MMC)**
  Limited liability company (LLC)

Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət. MMC-nin firma adında «məhdud məsuliyyətli cəmiyyət» sözləri mütləq göstərilir. MMC-nin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayanın dəyəri həddində risk daşıyırlar.

- **Məhdud sifariş**
  Limit order

Müştəri tərəfindən brokerə verilən sifariş növüdür. Bu sifarişlə broker ancaq göstərilən sayda və göstərilən qiymətdə qiymətli kağızı ala və ya sata bilər.

- **Məhdudlaşdırılmış qiymətli kağızlar**
  Restricted Securities

Qiymətli kağızlar və birjalar üzrə tənzimləyici qurum tərəfindən sərbəst alqı-satqısı məhdudlaşdırılmış qiymətli kağızlar.

- **Məqsədli kredit**
  Purpose loan
  (special purpose credit)

Qiymətli kağızla təmin olunmuş və qiymətli kağız almaq məqsədini daşıyan kredit.

- **Mənfəət marjası**
  Profit margin

Xalis mənfəətin satış və ya kapitala nisbəti. Bəzən satışdan gəlir və ya kapitalın gəlirliliyi kimi tanınır.

- **Mənfəət və zərər haqqında hesabat (gəlirlər və xərclər haqqında hesabat)**
  Income statemen

Şirkətin müəyyən dövrə aid gəlirləri və xərcləri haqqında hesabat.

- **Mənfəət**
  Profit

Müəssisənin mənfəəti ümumi satışdan ümumi xərclər çıxıldıqdan sonra qalan məbləğdir. Mənfəət adətən daha

konkret, yəni fəaliyyətdən mənfəət və xalis mənfəət kimi müəyyən edilir.

- **Mənfəətin reallaşdırılması**
  Profit-taking

Mövcud mövqenin bağlanması vasitəsilə mənfəətin reallaşdırılması (məsələn, payın satılması və ya opsionun istifadəsi).

- **Mənfi qudvil**
  Negative goodwill

Şirkətin satış dəyəri ilə onun xalis aktivlərinin balans dəyəri arasında yaranan mənfi fərq.

- **Mərkəzi Bank (“Banklar bankı”)**
  Central Bank (banker's bank)

Ölkənin bank kredit sistemində hakim mövqeyə malik, digər bankların fəaliyyətini tənzimləyən, onlara kreditlər təqdim edən, onların vəsaitlərini müvəqqəti cəlb edən mərkəzi bank. Mərkəzi bank ölkə iqtisadiyyatındakı yerinə və roluna görə bütün digər banklardan üstün mövqeyə malik olduğuna, eləcə də digər banklara mərkəzləşmiş qaydada bank xidmətləri göstərdiyinə görə banklar bankı adını almışdır.

- **Mərkəzi Bankın qısamüddətli notları**
  Central bank notes

Mərkəzi Banklar tərəfindən bir ilədək müddətə buraxılan və buraxılmasında əsas məqsəd dövriyyədə olan pul kütləsinin tənzimlənməsi olan adlı sənədsiz dövlət qiymətli kağızlar.

- **“Məsrəflər üstəgəl” (“maya dəyəri üsğəgəl”) prinsipi üzrə müqavilə**
  Cost plus contract

İcraçıya müqavilə ilə icazə verilən və ya başqa yolla müəyyən edilən məsrəflərin əvəzi ilə yanaşı, həmin məsrəflərin faiz nisbətində olan əlavə məbləğin və ya sabit məbləğli qonoraron ödənilməsini nəzərdə tutan müqavilədir.

- **Məzənnə**
  Course

1) Məhsulların, həmçinin qiymətli kağızların alış və ya satış qiyməti;

2) Bir ölkənin milli pul vahidinin (milli valyutasının) başqa ölkənin milli pul vahidi ilə (xarici valyuta ilə) ifadə olunmuş qiyməti.

- **MİBOR**
  Moscow Interbank Offered Rate (MIBOR)

Moskva banklararası kredit bazarında iri bank-dilerlər tərəfindən kredit vəsaitlərin yerləşdirilməsi üzrə müəyyən olunan orta faiz dərəcəsi. Bu göstərici kreditlərin orta illik dərəcələrinin orta çəkili ölçüsü əsasında hesablanır.

- **Minimal ilkin alış**
  Minimum initial purchase

Minimal alış yeni hesab yaratmaq üçün fondun qəbul etdiyi ən kiçik investisiya miqdarını göstərir.

- **Minimum qiymət dəyişikliyi**
  Minimum price movement

Müqavilənin və ya qiymətli kağızın qiymətində mümkün olan ən kiçik dəyişiklik.

- **Minoritar səhm paketi**
  Minority interest

Şirkətin səhmlərinin nəzarət paketinə nisbətdə çox az bir hissəsinə sahib olmaq.

- **Monetar aktiv**
  Monetary asset

Hesabda göstərilən miqdar üzrə satıla bilən debitor hesab, nağd pul vəsaiti və bank balans aktivi üçün işlədilən ümumi termin. Maşın və avadanlıqlar, inventar və tez satılan qiymətli kağızlar kimi digər aktivlər mütləq olaraq şirkətin mühasibat balansında göstərilən qiymətdə satılmayacaqdır.

- **Moskva Banklararası Valyuta və Fond Birjasının Real Zaman İndeksi**
  INDEXCF

Moskva Banklararası Valyuta və Fond Birjası tərəfindən hesablanan və Rusiyanın 30 ən likvid səhmini əhatə edən real zaman indeksidir.

- **Möhtəkirlər (alverçilər)**
  Speculators

Qiymət dəyişikliyindən yüksək gəlir əldə etmək gözləntisilə yüksək riskli qiymətli kağızların ticarəti ilə məşğul olan şəxs.

- **Möhtəkirlik (alverçilik)**
  Speculation

Qiymət dəyişikliyindən yüksək gəlir əldə etmək gözləntisilə yüksək riskli investisiya yatırılması prosesi.

- **Mövqe**
  Position

Treyderlərin maliyyə aləti üzrə müəyyən vəziyyəti (uzun və ya qısa). Alınmış müəyyən valyuta növünün xalis həcmidir.

- **Mövqeni (pozisiyanı) bağlamaq**
  Closing a position

Qiymətli kağız üzrə mövcud pozisiyaya əks pozisiya götürməklə mövcud pozisiyadan çıxmaq.

Məsələn, uzun fyuçers mövqeyinə malik investor, bu pozisiya həcmində qısa pozisiya götürməklə öz pozisiyasını bağlaya bilər.

- **Mövqeni açmaq**
  Taking a position

Uzun və ya qısamüddətli mövqe tutmaqla alqı-satqı aktı. Müddətli kontraktları almaq və ya satmaq.

- **Mövqeyin saxlanması**
  Position keeping

Dilerin mövqeyinin daim monitorinq olunması və saxlanması üçün zəruri tədbirlər görülməsi.

- **Mübadilə məzənnəsi haqqında forvard razılaşması**
  Forward exchange agreement (FXA)

Törəmə valyuta maliyyə aləti olmaqla müəyyən edilmiş vaxtda bir valyutanın digərinə mübadiləsinin əvvəlcədən razılaşdırılmış məzənnə üzrə aparılması haqqında forvard müqaviləsidir. İcra vaxtı onun dəyəri müqavilə bağlandığı andakı forvard məzənnəsi ilə hesablaşma aparılan andakı svop məzənnəsi arasındakı fərq əsasında müəyyən olunur.

- **Mübadilə olunan istiqraz**
  Exchangeable bonds

Dönərli istiqrazlara oxşardır, lakin emitentin paylarına bağlı deyil. Onlar artıq emitentin də sahibi olduğu başqa şirkətdə səhmlərə mübadilə edilə bilirlər.

- **Müdaxilə (intervensiya)**
  Intervention

Qiymətin, məzənnənin iqtisadi vasitələrlə artırılması, yaxud azaldılması məqsədilə bu və ya digər orqan tərəfindən maliyyə bazarının tənzimlənməsi. Müdaxilə iqtisadiyyatın dövlət tənzimlənməsinin başlıca alətlərindən biridir.

Birja müdaxiləsi - böyük həcmdə qiymətli kağızların satın alınması, yaxud satılması, yerləşdirilməsi yolu ilə onların birja məzənnələrinin tənzimlənməsi (artırılması və ya azaldılması). Adətən birja intervensiyası birjada möhtəkir əməliyyatlarının məhdudlaşdırılması məqsədilə həyata keçirilir.

Forvard müdaxiləsi – ölkənin mərkəzi bankı tərəfindən forvard bazarında milli valyutanın nağd ödənişləri nəticəsində məzənnənin tənzimlənəsi istiqamətində aparılan əməliyyatlar.

"İntramarqinal" müdaxilə – Avropa valyuta sisteminə daxil olan ölkələrin mərkəzi bankları tərəfindən vahidlik prinsipi əsasında həyata keçirilən valyuta müdaxiləsi.

Valyuta müdaxiləsi – mərkəzi bank qismində hökumət tərəfindən valyuta bazarının tənzimlənməsi tədbirləri. Mərkəzi bank ölkənin valyuta birjasında xarici valyutanın iri həcmdə yığılması, alınması, yaxud yerləşdirilməsi, satılması yolu ilə milli valyutanın məzənnəsini

tənzimləyir. Adətən, mərkəzi bank beynəlxalq maliyyə institutları, xüsusilə də BVF tərəfindən təqdim olunan məqsədli kreditlər vasitəsilə valyuta intervensiyası həyata keçirir. İEÖ-lərdən fərqli olaraq İEOÖ və keçid iqtisadiyyatlı ölkələrdə valyuta intervensiyasına tez-tez müraciət olunur.

Razılaşdırılmış müdaxilə – valyuta kurslarını korrektə etmək məqsədilə bir neçə Mərkəzi bankın birgə fəaliyyətidir.

- **Müdaxilə dəhlizi**
  Intervention band

Dövlətin və ya Mərkəzi Bankın valyuta məzənnəsini saxlamağa çalışdığı ən yuxarı və ən aşağı limit çərçivəsidir. Əgər məzənnə çərçivədən çıxarsa, bu zaman dövlət və ya mərkəzi bank mümkün tədbirləri görərək onu geri qaytarmağa çalışır. Bunlara rəsmi faiz dərəcələrinin qaldırılıb- endirilməsi, valyuta bazarlarında valyutanın alınıb-satılması və s. bu kimi tədbirlər aiddir.

- **Müddəti keçmiş borc**
  Arrearage

1) Ödəniş müddəti keçmiş borc məbləği.

2) Müəyyən ödənişlər (kredit alətləri və istiqrazlar üzrə faiz ödənişləri və ya imtiyazlı səhmlərə görə divident ödənişləri və s. bu kimi digər ödənişlər) üzrə yaranmış və ya vaxtı keçmiş borc.

- **Müddətin bitməsi (ekspirasiya)**
  Expiration date (expiry date)

Opsion və ya fyuçers kontraktının vaxtının bitdiyi tarix və ya qüvvədə olma müddətinin başa çatması. Başqa sözlə, opsion və ya fyuçers kontraktının son istifadə tarixi.

- **Müddətli birja müqaviləsi**
  Exchange-traded contract

Mütəşəkkil ticarət meydançalarında alınıb-satılan bütün növ törəmə qiymətli kağızlar üzrə bağlanan müqavilələr.

- **Müddətli depozit (əmanət)**
  Time deposit

Tələb olunanadək depozitindən fərqli olaraq müəyyən müddətə açılan depozit hesabı.

- **Müddətli müqavilə**
  Fixed-term contract

Müəyyən müddət üçün bağlanan və bu müddət sona çatdıqda uzadılması və ya yenidən bağlanılmasına dair heç bir öhdəliyin götürülmədiyi müqavilədir.

- **Müəssisənin alınması**
  Purchase of enterprise

Müəssisənin aktivlərinə və biznes əməliyyatları üzrə idarəetməyə sahib olmaq məqsədilə müəssisənin nəzarət səhm paketinin əldə edilməsi.

- **Müflisləşmə (iflas)**
  Bankruptcy

Müəssisə və ya şəxsin kreditorlarına olan borcunu ödəyə bilməməsi ilə əlaqədar hüquqi proses. Bu proses zamanı debitorun aktivləri qiymətləndirilir və borcların ödənilməsinə yönəldilir. Müflisləşmə prosesi tam bitdikdə debitorun borcları tam ödənilir. Müflisləşmə prosesi debitorun təşəbbüsü ilə (əksər hallarda) və ya kreditorun adından başlanır.

- **Mühasibat yazılışı (hesabaalma)**
  Book entry (accounting entry)

Emitent tərəfindən qiymətli kağızların qeydə alınması. Bu, adətən, kompüterləşdirilmiş formada baş verir ki, bu da sənədləşməni və xərcləri azaldır və mülkiyyət hüququnun ötürülməsi prosesini asanlaşdırır.

- **Mühüm iştirak payı**
  Considerable proportion

Səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik.

- **Mükafat (premiya)**
  Premium

Adətən, nəyinsə nominal qiymətindən yuxarı qiymətə ticarət olunmasını ifadə edir. Qiymətli kağızlar bazarında bu anlayış səhm və istiqrazların nominal qiymətindən artıq satıldığı məbləği ifadə edir. Eyni zamanda opsion alıcısının satıcıya ödədiyi məbləğ də mükafat adlanır.

- **Müqavilə (emissiya müqaviləsi**
  Indenture

1) Tərəf-müqabillərin imzaları və möhürlə təsdiq olunmuş müqavilə sənədi;

2) Qiymətli kağızların emitenti ilə investorlar arasında bağlanan və razılaşdırılmış emissiya şərtlərini əks etdirən yazılı müqavilə.

- **Müqayisə üsulu**
  Comparables method

Cari aktivin dəyərləndirilməsində (o cümlədən ilkin yerləşdirilən qiymətli kağızların qiymətinin müəyyənləşdirilməsində) təzəlikdə satılmış oxşar (müqayisə oluna bilən) aktivlərin (qiymətli kağızların) istifadə edilməsi üsulu. Bu zaman müqayisə olunan aktivlərə oxşarlar deyilir. Müqayisə üsulundan şirkətlərin cari dəyərinin qiymətləndirilməsində də istifadə olunur. Bu zaman oxşarlar kimi müvafiq sahədə fəaliyyət göstərən, gəlirləri, aktivləri, artım tempi və digər bu

kimi göstəriciləri qiymətləndirilən şirkətlə müqayisə oluna bilən şirkətlər götürülür.

- **Mürəkkəb faizin hesablanması**
  Compounding

İnvestisiyanın dəyərinin mürəkkəb faiz mexanizminə əsasən eksponensial artması.

- **Müsbət sahibolma**
  Positive carry

Aktivin gətirdiyi gəlirin ona sahibliyə, saxlanmasına və ya birjada mövqeyin maliyyələşməsinə görə çəkilən xərclərin cəmindən çox olduğu hal. Mənfi sahibolma isə bunun tərsidir.

- **Müstəqil broker**
  Independent broker

Aktivliyin çox olduğu dövrlərdə ticarət zalında digər üzvlərin sifarişlərini vasitəsiz olaraq yerinə yetirən broker.

- **Müstəsna hüquq**
  Preemptive right
  (pre-emptive rights)

Cari səhmdarların şirkətin gələcəkdə buraxacağı səhmləri ilkin almaq hüququ.

- **Nağd hesablaşma**
  Cash settlement

Bəzi fyuçerslər və opsionlar üzrə mövqelərin baza aktivinin çatdırılması yolu ilə deyil, nağd pul vasitəsilə bağlanılması.

Baza aktivinə sahib olmaq istəməyən satıcılar üçün nəğd hesablaşma fyuçers və opsion əməliyyatları keçirmək üçün daha əlverişli üsuldur.

- **Nağd ödəniş**
  Payment in cash (cash payment)

1) Bir iqtisadi subyektdən digərinə nağd şəkildə təqdim edilən ödəniş əməliyyatı. Bu halda məbləğ müəssisənin, təşkilatın hesabına deyil, nağd pul nişanları şəklində kassasına daxil olur. Əsasən nağd hesablaşma fiziki şəxslər arasında əmtəə və xidmətlər bazarında geniş istifadə olunur. Bank sistemi yüksək inkişaf etmiş ölkələrdə ümumi hesablaşmaların çox az hissəsi nağd formada həyata keçirilir.

2) Fond birjasında qiymətli kağızların alqı-satqısının nağd for-

mada həyata keçirilməsi. Bu halda ödəniş qısa müddətdə həyata keçirilməklə maliyyə aləti alıcıya – investora və ya fond vasitəçisinə təqdim edilir.

3) Xarici valyuta ticarətində əməliyyatların nağd formada və qısa müddət ərzində həyata keçirilməsi. Bu əməliyyat spot əməliyyatı adlanır.

- **Nağd pul axını (pul vəsaitləri axını)**
  Cash flow

İqtisadi subyektə, o cümlədən müəssisə və təşkilata və ya iqtisadi subyektdən başqa bir iqtisadi subyektə nəğd pul ödənişləri. Adətən müəyyən dövr ərzində müəssisədən nağd pul axını əmək haqqı ödənişləri, investisiya qoyuluşu, vergi ödənişi, divident verilməsi ilə bağlı nağd pul ödənişlərinin məcmusunu təşkil edir. Müəssisədə konkret layihə üzrə nağd pul axını əsas etibarilə vergi ödənişləri və istismar xərclərinə əsasən hesablanır.

- **Nağd pul ekvivalenti (pul vəsaitləri ekvivalenti, pul ekvivalenti)**
  Cash equivalent

Nağd pula asanlıqla çevrilə bilən aktiv. Bu cürə aktivlərin müddəti 3 aydan artıq olmur. Məsələn, ABŞ qısamüddətli dövlət istiqrazları, pul bazarı alətləri.

- **Nağd pul formasında divident (pul dividenti)**
  Cash dividend

Şirkətin səhmdarlarına nağd pul formasında ödənilən divident.

- **Nağd pula satış (dərhal ödəniş əsasında satış)**
  Cash sale

Fond birjasının meydançasında qiymətli kağızların eyni gündə çatdırmasını tələb edən saziş. Adi fond ticarətində, satıcı qiymətli kağızları üçüncü iş günündə çatdırmalıdır. İstiqrazlar ticarət baş verdikdən sonra növbəti gündə çatdırılmalıdır.

- **NASD (Qiymətli Kağızlar üzrə Dilerlərin Milli Assosiasiyası)**
  NASD (National Association of Securities Dealers)

Nasdaq fond birjasının və birjadan kənar qiymətli kağızlar bazarının fəaliyyətinin tənzimlənəsi üçün məsul olan özünütənzimləyən təşkilat. O, həmçinin, investisiya üzrə mütəxəssislər üçün qəbul imtahanlarını keçirir.

- **NASDAQ (Qiymətli Kağızlar üzrə Dilerlərin Milli Assosiasiyasının Avtomatlaşdırılmış Kotirovkası)**
  NASDAQ (National Association of Securities Dealers Automated Quotations)

Broker və dilerləri birjadan kənar satılan kotirovka qiymətləri ilə təmin edən avtomatlaşdırılmış məlumat şəbəkəsi.

- **NASDAQ Toplu İndeksi**
  NASDAQ Composite

Qiymətli kağızlar üzrə dilerlərin Milli Assosiasiyasında listinqdə olan bütün şirkətlərin səhmlərinin məzənnələri haqqında məlumatlar əsasında hesablanan kapitallaşma üzrə çəkili indeks.

- **Neofit**
  Neophyte

1) Hər hansı fəaliyyətlə yenicə məşğul olan şəxs;
2) Qiymətli kağızlar bazarında yenicə tədavülə buraxılan maliyyə aləti (səhm, istiqraz və s.);
3) Yeni yaranan bank.

- **Nettinq**
  Netting

Qiymətli kağızlarla bağlanmış əqdlər üzrə eyni tipli qarşılıqlı tələb və öhdəliklərin əvəzləşdirilməsi yolu ilə klirinq iştirakçılarının yekun tələb və öhdəliklərinin müəyyən edilməsi.

- **Neytral**
  Neutral

Nə yüksəlmə nə də enmə meyili olmayan investisiya qoyuluşu fikiridir. Fərdi səhm üçün neytral fikir ümumiyyətlə səhmin alınıb satılmamasını göstərir.

- **Nəzarət (majoritar) səhm paketi**
  Majority interest

Şirkətin səsvermə hüququna malik səhmlərinin onun fəaliyyətinə nəzarət etməyə imkan verən hissəsi. Adətən, hesab olunur ki, şirkətin fəaliyyətinə nəzarət etmək üçün onun səhmlərinin yarıdan çoxuna sahib olmaq lazımdır. Lakin şirkətin səhmləri xırda hissələrlə çoxlu sayda səhmdarlar arasında bölündüyü hallarda effektiv nəzarət üçün 20-30%-də kifayət edə bilər.

- **Nəzəri (şərti) istiqrazlar**
  Notional bonds

İstiqrazlar üzrə müddətli müqavilələr bağlanarkən əsas kimi qəbul edilən hipotetik ödəmə müddətinə, kupon (faiz) ödənişinə və digər şərtlərə malik standartlaşdırılmış nəzəri (xəyali) istiqraz. Hər bir birjanın standart istiqraz haqqında öz anlayışı və real istiqrazların nəzəri standarta konvertə qaydaları ola bilər.

- **Nikei 225 fond indeksi**
  Nikkei 225

Yaponiyanın 225 ən iri şirkətlərinin Tokio Fond Birjasındakı səhmlərinin indeksi.

- **Nominal dəyərsiz**
  No par value

Heç bir nominalı olmadan buraxılan səhmlər. Nominal dəyər təmsil etdikləri satış dəyərinə və ya baza aktivlərinə heç bir aidiyyəti olmayan səhmlərin nominal və ya üzərində göstərilən dəyəridir. Səhmin dəyərinin nominal dəyərdən aşağı düşməsi kimi xoşagəlməz hallarda nominal dəyərli səhmlər səhmdarlara qarşı məsuliyyətin yaranması imkanının qarşısını almır.

- **Nominal faiz dərəcəsi**
  Nominal interest rates

İnflyasiya nəzərə alınmadan hesablanmamış cari faiz dərəcəsi.

İnflyasiya nəzərə alındıqda nominal faiz dərəcəsindən real faiz dərəcəsini əldə etmək olar:

$(1 + r)(1 + i) = (1 + R)$

R – nominal faiz dərəcəsi

r – real faiz dərəcəsi

i – inflyasiya səviyyəsi.

- **Nominal istiqraz**
  Par bond

Nominal dəyəri ilə yerləşdirilən və ya təkrar bazarda satılan istiqraz. Adətən, belə istiqrazlar borcun azaldılması məqsədilə buraxılır və keçmiş borcun aşağı faiz dərəcəsinə və ya uzun ödəniş müddətinə malik yeni nominal istiqraz ilə dəyişdirilə bilməsi üçün alternativ imkan yaradır.

- **Nominal qiymətləndirmə (kotirovka)**
  Nominal quotation

Qiymətli kağızın dəyərini göstərmək üçün (əməliyyat həyata keçirmək məqsədi ilə deyil) qeyd olunan qiymət.

- **Nominal**
  Nominal

Qiymətli kağızın, kağız pulun, yaxud sikkənin üzərində göstərilən dəyəri, ilkin dəyəri. Qiymətli kağızın nominal dəyəri, adətən, onun bazar dəyərindən fərqli olur. Bazar dəyəri nominal dəyərdən yuxarı olan qiymətli kağızlar *acio (ajio)*, əks halda isə *disacio (disajio)* adlanır. Bir sıra ölkələrdə (Kanada, ABŞ və s.) qiymətli kağızların nominal dəyəri göstərilmədən emissiya oluna bilər. Bəzi ölkələrdə isə qiymətli kağızın minimum nominal dəyəri müvafiq qanunvericilik əsasında müəyyənləşdirilir.

- **Normal (müsbət) gəlirlik əyrisi**
  Normal yield curve

Eyni kredit keyfiyyətinə malik qısamüddətli borc alətlərinin uzun

müddətli borc alətlərindən daha aşağı gəlirliliyə malik olduğu gəlirlilik əyrisi. Bu mənfəət əyrisinə yuxarı qalxma meyili verir. Bu gəlirlilik əyrisinin ən çox müşahidə edilən formasıdır. Bəzən «müsbət gəlirlilik əyrisi» də adlandırılır.

- **Normal bazar həcmi**
  Normal market size

1991-ci ildən etibarən səhmlərin alfa, beta, qamma və delta kimi kateqoriyalara bölünməsi sistemini əvəz edən yeni təsnifat sistemidir. Bu sistem hər bir qiymətli kağız üçün normal sayılan satış həcminə əsaslanan 12 kateqoriyadan ibarətdir.

- **Notifikasiya**
  Notification

Vekselin sahibi tərəfindən borc məbləğinin ödənilməməsi, veksel öhdəliyinin icra edilməməsi barəsində indossanta, vekseli təqdim edən şəxsə göndərilən rəsmi xəbərdarlıq və ya təqdim edilən xəbərdarlıq məktubu.

- **Növbədənkənar (fövqəladə) ümumi yığıncaq**
  Extraordinary general meeting

Səhmdarların birləşmə və kapital artımı kimi fövqəladə məqsədlər üçün çağırılan növbədənkənar ümumi iclası.

- **NYSE (Nyu York Fond Birjasının Toplu İndeksi)**
  NYSE Composite Index

Nyu-York fond birjasında özlərinin qiymətli kağızlarını qeydiyyatdan keçirmiş bütün şirkətlərin səhmlərinin məzənnələrinin dəyişməsinin bazar dəyəri ilə çəkili göstəricisi. Bu göstərici dollarla ifadə olunur. Nyu-York fond birjasında opsion və fyuçerslərlə əməliyyatlar bu indeks əsasında həyata keçirilir.

- **Nyu York Fond Birjası**
  New York Stock Exchange (NYSE)

ABŞ-ın Nyu York şəhərində yerləşən və bazar kapitallaşmasına görə dünyanın ən böyük səhm birjası.

- **Nyu York Fyuçers Birjası**
  New York Futures Exchange (NYFE)

Xəzinə istiqrazı fyuçersləri və bəzi valyuta fyuçersləri üzrə ticarətin aparıldığı birja.

- **Ofşor fond**
  Offshore fund

Ofşor zonada (məs., Kayman Adaları) qeydiyyatdan keçmiş investisiya fondu. Ofşor zonalarda tənzimləmə və vergi səviyyəsi daha aşağı olduğu üçün fondları özlərinə cəlb edə bilir.

- **Opsion dividenti**
  Optional dividend

Həm pul və həmdə səhm formasında ödənilə bilən divident. Səhmdarın seçim imkanı var.

- **Opsion klirinq şirkəti**
  Options clearing corporation

Birjada fond opsionları üzrə klirinq hesablaşmaları ilə məşğul olan şirkət. Bu şirkət opsionların icrasına təmanət da verir. "Koll" opsionları alıcıları öz opsionlarının icrası zamanı şirkətdən onlara məxsus qiymətli kağızları alırlar və analoji olaraq, "Put" opsionlarının alıcıları, opsionlarının icrası zamanı onlara məxsus qiymətli kağızları şirkətə satırlar.

- **Opsion mükafatı**
  Option premium

Opsiona görə ödənilən məbləğ. Baza aktivinin qiyməti və opsionun müddətindən asılıdır.

- **Opsion növü**
  Option type

Opsionun 2 növü var: "Koll" (almaq hüququ verir) və "Put" (satmaq hüququ verir).

- **Opsion sahibi**
  Option holder

Opsionu almış lakin onu icra etməmiş və satmamış şəxs. Həmçinin, opsionun alıcısı da adlanır.

- **Opsion seriyası**
  Option series

Müəyyən qiymətli kağız üzrə eyni qiymətə və eyni müddətə malik bir sinifə aid olan (məsələn, bütün "Put" opsionları) opsionlar.

- **Opsion spred**
  Option spread

Bir maliyyə alətinə eyni zamanda iki opsionun alınması və satılması. Bu zaman alınan və satılan opsionlar ya fərqli qiymətlərə, ya da fərqli icra müddətlərinə malik olur.

- **Opsion strategiyaları**
  Option strategies

Hedcinq və ya spekulyasiya məqsədilə "Koll" və "Put" opsionlarının kombinasiyasından istifadə edilməsi. Məsələn, straddle, strangle.

- **Opsion**
  Option

Opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq və ya satmaq hüququnu ifadə edən qiymətli kağız.

- **Opsionun daxili (real) dəyəri**
  Intrinsic value

Opsionun icra (istifadə) qiyməti ilə baza aktivlərinin cari qiyməti arasında fərq. "Pulla olan" opsionlar üçün müsbətdir, "pulsuz olan" opsionlar üçün mənfidir, "pulda olan" opsionlar üçün isə sıfırdır.

- **Opsionun istifadəsi (icrası)**
  Exercise of option

Opsion satıcısının müqavilənin şərtlərini yerinə yetirmək məqsədi ilə opsion sahibi tərəfindən görülən tədbirlər.

- **Opsionun satıcısı**
  Option writer

Opsion müqaviləsi ilə satışı həyata keçirən şəxsdir. Opsion satıcısı opsion sahibinin qərarından asılı olaraq, hansı aktivi satıb və ya alacağı öhdəliyini öz üzərinə götürür. Opsion satıcısı aktivi bazar qiymətlərindən aşağı qiymətə almaq və aktivi bazar qiymətlərindən yuxarı qiymətə satmaq öhdəliyini öz üzərinə götürür. Məsələn, "Koll" opsionunda, əgər opsion sahibi opsionu icra etməyi qərara alırsa, opsion satıcısı opsion sahibinə əsas aktivi satmalıdır. Əgər opsion satıcısı əsas aktivlə əlaqədar uzunmüddətli mövqeyə malik deyilsə, o mövqeni satmaq üçün ilk növbədə əldə etməli və müqaviləni yerinə yetirməlidir.

- **Order klauzulası**
  Order clause

Sənəddə benefisiarın adından sonra xüsusi qeydin yazılması ilə köçürülməsi və ya alqı-satqısının indossament vasitəsilə aparılması mümkün olan qiymətli kağız, order. Bu zaman klauzula vasitəsilə həmin maliyyə aləti tapşırıq vasitəsinə çevrilir. Öncədən tapşırıq məqsədilə yazılmış hüquqi vasitələrdə klauzula qeydinin aparılması vacib deyildir. Çünki, bu qiymətli kağızlar həmin qeyd olmadan da indossament hüququna malikdir.

- **Orta cəmi aktivlər**
  Average total assets

İki illik dövr ərzində cəmi aktivlərin orta göstəricisi. Bu göstərici aşağıdakı kimi hesablanır:

Tam aktivlər (cari il) + Tam aktivlər (əvvəlki il) ÷ 2.

- **Orta çəkili bazar indeksi**
  Market-value weighted index

Hər bir aktivin kapitallaşma səviyyəsi ilə ölçüldüyü fond indeksi. Kapitallaşma üzrə qiymətləndirilən indeks də adlanır.

- **Orta çəkili kupon**
  Weighted average coupon

Girovların birləşməsində (hovuzunda) orta kupondur (faiz ödənişi). Orta çəkili kupon hər ayın sonunda girovun verilməmiş əsas balansının kupon dərəcəsini çəkmək vasitəsi ilə hesablanır.

Orta çəki hesablamasında, hər bir qeyd edilmiş girovun əsas balansı çəki faktoru kimi istifadə edilir.

- **Orta çəkili ödəmə müddəti**
  Weighted average maturity

Sərmayə kimi portfelə qoyulan dollar miqdarına uyğun olaraq çəkilmiş, portfeldə olan aktivlərin ödəniş vaxtının çatması üçün lazım olan orta vaxt. Orta çəkili ödəmə müddəti qarışıq gəlir portfellərinin faiz dərəcə dəyişikliklərinə olan həssaslığını ölçür. Daha uzun orta çəkili ödəmə müddətli portfellər faiz dərəcələrində baş verən dəyişikliklərə çox həssasdır, çünki daha uzun öhdəliklər həyata keçirilir, faiz dərəcələrinin aşağı düşməsi və ya yüksəlməsi üçün böyük imkanlar yaradır və portfeldə öhdəliklərin icrasına təsir göstərir. Əgər faiz dərəcələri yüksələrsə istiqrazların dəyəri azalır, çünki bazarda daha çox marağı (faizi) ödəyən və buna görə də daha cazibədar istiqrazlar mövcuddur.

- **Ortalama (averaj)**
  Averaging

1) Müəyyən dövr ərzində eyni buraxılışdan olan və məzənnələri sabit olmayan səhmlərin orta alış qiymətini aşağı salmaq məqsədilə onların davamlı olaraq alınıb-satılmasından ibarət olan birja oyunu strategiyası;

2) Treyderin portfelində olan qiymətli kağızların orta qiymət nisbətini optimallaşdırılması məqsədi ilə onların birja dəyərində baş verən dəyişikliklər (artma və azalma) nəzərə alınmaqla müvafiq qiymətli kağızlardan əlavə olaraq alınması strategiyası;

3) Qiymətli kağızların və ya əmtəələrin qiymətləri aşağı düşərkən qiymətli kağızlar portfelinin və ya əmtəə ehtiyatlarının orta alış qiymətini aşağı salmaq məqsədilə əlavə alışların həyata keçirilməsi;

4) Müəyyən göstəricinin (məsələn, gəlir, xərc, faiz dərəcəsi və s.) müəyyən dövrlər (aylar, rublər, illər) üzrə orta kəmiyyəti.

- **Ortamüddətli istiqraz**
  Medium-term bond

Dövriyyə müddəti 1 ildən 3 ilədək olan istiqrazlar.

- **Overbout**
  Overbought

Müəyyən zaman ərzində bazara məhsulun, aktivin daxil olmaması (məqsədli və ya məqsədsiz şəkildə), yaxud yüksək tələb nəticəsində qiymətin ciddi şəkildə qalxması vəziyyəti. Bu ifadə daha çox qiymətli kağızlar bazarında işlədilir.

- **Overnayt**
  Overnight

1) Növbəti bank günü ödənilməli olan banklararası qısamüddətli kredit müqaviləsi.

2) Kontrakt günündən sonrakı birinci iş günü həyata keçirilmiş xarici valyuta mübadiləsi üzrə əməliyyat.

3) Bir iş günü ərzində aparılmış maliyyə əməliyyatları. Hesabatlarda overnayt, adətən, ON kimi ifadə olunur.

- **Oversold**
  Oversold

Bazara qısa zaman ərzində böyük həcmdə məhsulun, aktivin daxil olması, dolması nəticəsində qiymətin ciddi şəkildə düşməsi vəziyyəti. Bu ifadə daha çox qiymətli kağızlar bazarında işlədilir.

- **"Ödə və apar" ticarəti**
  Cash and carry trade

Bax: Baza ticarəti.

- **Ödəmə müddəti (ödəniş vaxtı)**
  Maturity

1) Borcun son ödəniş tarixi;

2) Borc qiymətli kağızları üzrə öhdəliyin müddəti, əsas borc məbləğinin, toplanmış və son faiz gəlirinin ödənildiyi tarix.

- **Ödəmə nisbəti**
  Payout ratio

Gəlirin səhmdarlara divident şəklində ödənilən hissəsini əks edir.

Ödəmə nisbəti = Divident/Xalis gəlir

Ödəmə nisbətinin aşağı olması şirkətin mənfəətini divident formasında ödəmə yerinə saxlamaq (məsələn, investisiya məqsədilə) istəyini göstərir.

- **Ödəmə zamanı gəlirlilik**
  Redemption yield (yield to maturity)

Borc qiymətli kağızların ödəmə zamanı gəlirliliyi.

- **Ödənilmiş kapital**
  Paid-up capital

Ödənilmiş kapital ödənişdə tam nominal dəyəri aldığı şirkət tərəfindən buraxılan səhmlərə əsaslanır.

- **Ödəniş qabiliyyəti olmayan**
  Insolvent

Öhdəliyini yerinə yetirə bilməyən borclu.

- **Ödəniş müddəti çatmış veksel**
  Due bill

Ödəniş müddəti çatdığına görə ödənişə təqdim olunmalı olan veksel.

- **Ödənişə qarşı tədarük (ÖQT)**
  Delivery versus payment (DVP)

Qiymətli kağızların tədarükünün yalnız alıcı tərəfindən satıcının pul hesabına müvafiq məbləğ köçürüldükdən sonra həyata keçirilməsini nəzərdə tutan ticarət mexanizmi. Başqa sözlə, qiymətli kağızların tədarükü ilə nəğd ödənişin eyni vaxtda həyata keçirilməsi.

- **Ödəyici agent**
  Paying agent

Səhmdarlara dividentlərin, istiqraz sahiblərinə isə əsas məbləğlərin və faizlərin ödənişini müəyyən haqq əvəzində bu səhm və istiqrazları buraxanların adından və onların hesabına həyata keçirən bank və ya digər maliyyə-kredit institutu. Sərbəst üzən faiz dərəcəsinə malik notlar üzrə ödəyici agent hər rübdə əvvəlcədən müəyyən olunmuş gündəki baza faiz dərəcəsi əsasında sabit gəlir səviyyəsini də müəyyən edir.

- **Öhdəliyin bağlanma qiyməti (gerialma qiyməti)**
  Redemption price

Borc qiymətli kağızlarının və imtiyazlı səhmlərin emitenti tərəfindən onların müddəti bitdiyi vaxt və ya vaxtından əvvəl geri alındığı qiymət. Gerialma qiyməti borc qiymətli kağızının nominalı ilə nəzərdə tutulmuş mükafatın cəminə bərabər olur.

- **Öhdəliyin bağlanması (geri alma ödənişi)**
  Redemption

Borc qiymətli kağızlarının emitenti tərəfindən müddəti bitdiyi vaxt həmin qiymətli kağızları geri alınması və investorun qiymətli kağıza ödədiyi nominal dəyərin qaytarılması.

- **"Öküz" bazarı**
  Bull market

Qiymətlərin uzun müddət ərzində yüksəlişi müşahidə olunan bazar. Öküz bazarının göstəriciləri optimizm, investor inamının yüksək olması və qiymətlərin qalxmasının gələcəkdə də davam edəcəyi gözləntiləridir.

- **“Öküzlər”**
  Bull

Bazarda müəyyən qiymətli kağızların qiymətlərinin və ya ümumilikdə qiymətlərin qalxacağına inanan və bundan yararlanmağa çalışan bazar oyunçuları.

- **“Ölü pişiyin sıçrayışı”**
  Dead cat bounce

Maliyyə alətinin qiymətində və ya ümumilikdə bazarda qiymət_lərin uzun müddət davam edən düşüşündən sonra birdən baş verən artım. Adətən, belə hal mövqelərin qısa qapanması nəticəsində baş verdiyindən qısamüddətli xarakterə malik olur və düşmə meyilinin artma meyili ilə əvəz olunması demək deyildir.

- **Ön ofis**
  Front office

Şirkətdə müştərilərlə təmasda olan departamentlər – marketinq, satış, xidmət kimi bölmələr.

- **Ötürmə (satma, həvalə etmə)**
  Assignment

1) Bir şəxsin ona məxsus müəyyən hüquqları və ya əmlakı başqa şəxsə ötürməsi (satması, həvalə etməsi).

2) Opsion satıcısının opsionun sahibinin öz hüquqlarını istifadə etmək niyyətini əks etdirən bildiriş alması nəticəsində opsionun əsaslandığı baza qiymətli kağızını əvvəlcədən təsbit olunmuş icra qiymətinə satmağa (“Koll” opsionu halında) və ya almağa (“Put” opsionu halında).

3) İlkin sahibinin razılığı ilə svop üzrə müqavilənin satılması.

4) Qiymətli kağızın üzərində ona sahiblik hüququnun başqa şəxsə keçməsi haqqında ötürücü qeydlər edilməsi.

- **Ötürülmüş divident**
  Passed dividend

Direktorlar şurasının qərarı ilə əvvəlcədən planlaşdırılmış və ya müəyyən edilmiş dövrdə ödənilməmiş divident.

- **Özəl investisiya şirkəti**
  Private equity firm

Biznesi genişləndirmək üçün maliyyə vəsaitinə ehtiyacı olan özəl şirkətlərə investisiya edən şirkət. İnvestor şirkət üstünlük təşkil edən payı alır və idarə heyətində iştirak edir.

- **Özəlləşdirmə çeki**
  Voucher

Özəlləşdirmə islahatı zamanı dövlət tərəfindən emissiya edilən, hər bir ölkə vətəndaşına paylanan, vətəndaşların özəlləşdirilən dövlət əmlakında payını təsdiq edən qiymətli kağız.

- **Paket (blok) ticarəti**
  Block trading

Adətən institusional investorlar tərəfindən aparılan böyük həcmli alqı-satqı əməliyyatları. Beynəlxalq təcrübədə, adətən, 10 min səhm və ya 200 min ABŞ dolları dəyərində istiqraz üzrə sabit dəyərli alqı-satqı paket (blok) ticarəti sayılır.

- **Paket (blok, qiymətli kağızlar toplusu)**
  Block

Böyük miqdarda təklif edilmiş və ya satılmış səhmlər və ya böyük dəyərə malik istiqrazlar. Bir qayda olaraq, sayı 10 000 paydan çox olan səhmlər və dəyəri 200 000 ABŞ dollarından daha çox olan istiqrazlar bloka alınmış kimi göstərilir.

- **Paritet**
  Parity

1) Qiymətli kağızların bazar dəyəri ilə nominal dəyərinin bərabər olması vəziyyəti;

2) Tərəflərin bərabərliyi, uyğun vəziyyəti.

İki və ya daha çox valyutaların konkret müəyyənləşdirilmiş əmtəə və xidmətləri almaq qabiliyyətinə görə müqayisə əsasında müəyyənləşən paritet alıcılıq qabiliyyəti pariteti adlanır.

- **Passiv idarəetmə**
  Passive management

Verilmiş bazar, yaxud sektorun strukturunun elə şəkildə nəzərə alınmasına yönəldilmiş investisiya strategiyasıdır ki, bu investorun gəlir və risk xarakteristikalarına uyğun gəlsin. İnvestisiya portfelinin o şəkildə idarə edilməsidir ki, bu zaman investor portfelin strukturunu hər hansı bazar indeksinin strukturuna uyğun formalaşdırır və portfelin strukturunun aktiv korreksiyası yolu ilə verilmiş indeksə uyğun gələn gəlirlilikdən yüksək gəlirlilik əldə etməyə çalışmır.

- **Passiv**
  Passive

1) Müəssisənin mühasibat uçotu balansının bir hissəsi;

2) İnvestorun investisiya qoyduğu müəssisənin idarə edilməsində fəal iştrak etmədiyi vəziyyət.

- **Pay almaq**
  Takedown

İlkin bazarda qiymətli kağızların bir hissəsini almaq və qəbul etmək.

- **Pay investisiya fondu (PİF)**
  Unit investment trust

Ayrı-ayrı xırda sahibkarlar tərəfindən etibarlılıq əsasında kapitalın investisiya fondu şəklində birləşdirilməsi nəticəsində yaranan investisiya fondu (trastı).

- **Pay qiymətli kağızı**
  Equity security

Şirkətin xüsusi kapitalına pay qoyuluşunu təsdiq edən qiymətli kağız. Sadə və imtiyazlı səhmlər, səhm varrantı və s. belə qiymətli kağız nümunələridir.

- **Pip (pips)**
  Pip

Valyuta məzənnəsində ən minimal dəyişikliyi əks edən anlayış. Adətən, 0.01%-ə bərabərdir.

Məsələn, USD/CAD valyuta cütlüyü (ABŞ dolları/Kanada dolları) ən az 0.0001 ABŞ dolları qədər dəyişə bilər.

- **Piramida sxemi (Ponzi sxemi)**
  Pyramid scheme (Ponzi scheme)

Yüksək gəlirlilik vəd edən aldadıcı (fırıldaqçı) investisiya sxemi. Bu gəlir əsaslandırılmış investiyalardan deyil, yeni investorların vəsaitlərindən əldə edilir. Köhnə investorlara vəsait ödəmək üçün yeni investorların sayı kifayət qədər olmadıqda sistem dağılır. Ponzi sxemi kimi də məlumdur.

- **Portfel investisiya**
  Portfolio investment

Divident və faizdən və kapitalın artımından gəlir əldə edilməsi məqsədilə qiymətli kağızlara, o cümlədən səhmlərə, istiqrazlara, veksellərə, xəzinə bonlarına, köçürmə depozit sertifikatlarına, bank akseptlərinə və s.-yə yatırılan investisiya. Birbaşa investisiyalardan (real aktivlərə və digər müəssisə üzərində idarə etməni əldə etmək və almaq üçün qiymətli kağızlara yatırılan investisiyalardan) fərqli olaraq portfel investisiya qoyuluşlarının əsas məqsədi passiv gəlir əldə etməkdir.

Fond bazarının inkişaf etdiyi ölkələrdə ümumi investisiyaların böyük hissəsi portfel investisiyaların payına düşür.

- **Portfel meneceri**
  Portfolio manager

İnvestor adından onun investisiya portfelini idarə edən maliyyə məsləhətçisi. Fonda investisiya zamanı nəzərə alınacaq ən önəmli faktorlardan biridir.

- **Portfel**
  Portfolio

İnvestorun maliyyə alətləri dəsti. Portfel birbaşa olaraq investorlar tərəfindən və ya maliyyə vasitəçiləri tərəfindən qurula bilər.

Portfelin qurulması zamanı investor gəlirlikdən əlavə riskə də

fikir verməlidir. Portfelin ümumi riskini azaltmaq məqsədilə diversifikasiyadan istifadə olunur.

Az risk tələb edən investorların portfelləri adətən sabit gəlirli qiymətli kağızlar və pul ekvivalentlərindən, yüksək risklə yüksək gəlir etmək istəyən investorların portfelləri isə səhmlər, derivativlər və alternativ investisiyalardan ibarət olur.

- **Portfelin formalaşdırılması**
  Book-building

Emitentlə müqavilə bağlamamışdan əvvəl anderrayter tərəfindən yeni buraxılış qiymətli kağızlara tələbi öyrənmək və optimal qiyməti müəyyənləşdirmək üçün potensial alıcılardan nə qədər qiymətli kağız almaq arzunda olduqları və onları hansı qiymətə almaq istədikləri barəsində ilkin sifarişlərin toplanaraq müvafiq kitabda qeydiyyata alınması (sifariş portfelinin formalaşdırılması). Andarrayter bu sifarişlərin təhlili əsasında müvafiq qiymətli kağıza bazar tələbinin səviyyəsini və optimal yerləşdirmə qiymətini müəyyənləşdirdikdən sonra yerləşdirmə üzrə qəti razılığa gəlir və müqavilə bağlayır.

- **Prinsipal (əsas məbləğ)**
  Principal (capital amount)

Borc alınmış və ya investisiya edilmiş ümumi məbləğ.

- **Problemli qiymətli kağızlar**
  Distressed securities

Hal hazırda müflisləşmə prosesində olan və ya müflislik ehtimalı böyük olan müəssisələrin qiymətli kağızları

Bu hal adətən müəssisələrin maliyyə öhdəliklərini qarşılaya bilməməsi ilə nəticələnir. Nəticədə, bu kimi şirkətlərin qiymətli kağızlarının dəyərində ciddi azalma müşahidə olunur.

- **Problemli şirkətlərin borcu**
  Distressed debt

Hal hazırda müflisləşmə prosesində olan və ya müflislik ehtimalı böyük olan müəssisələr tərəfindən əldə olunmuş borc. Bu hal, adətən, müflisləşmə əsnasında olan şirkətlərin öz borclarını qaytara bilməməsi ilə nəticələnir və nəticədə borc qiymətli kağızlar dəyərdən düşür.

- **Proqnoz**
  Forecast

Iqtisadi proseslərin, hadisələrin, və münasibətlərin gələcək inkişafını irəli sürən elmi əsaslandırılmış hipotez. Proqnoz keçmiş faktiki göstəricilərin tendensiyasının təhlili əsasında irəli sürülür. Proqnozlaşdırma prosesi müxtəlif amillərin təsirinin proqnozlaşdırılan prosesə təsirlərini ölçür. Bu amillər endogen və ekzogen amillərə ayrı-

lır. Bilavasitə proqnozlaşdırılan proseslə bağlı olan təsirlər endogen, kənar hadisələrdən gələn təsirlər isə ekzogen amillər kimi qəbul edilir.

- **Proqnozlaşdırma**
  Prognostication (forecasting)

Proqnozun irəli sürülməsi ilə bağlı istifadə olunan elmi praktiki metodların məcmusu və ya hər hansı bir prosesi, yaxud proseslər sisteminin inkişaf meyillərinə və perspektivlərinə yönəldilmiş elmi tədqiqat. Bax. Proqnoz. Proqnozlaşdırma proseslərin kəmiyyətcə öyrənilməsindən keyfiyyət qiymətləndirilməsinə istiqamətlənir. Sosial-iqtisadi sahədə proqnoz makro iqtisadi tənzimləməyə, planlaşdırmaya, eləcə də idarəetmənin digər həlqələrinə xidmət edir. Müddətinə görə proqnozlaşdırma aşağıdakı kimi təsnifləşdirilir: cari, qısamüddətli, ortamüddətli və uzunmüddətli.

- **Proqramlı ticarət**
  Program trading

Fundamental məlumatlara deyil, ticarət və qiymət səviyyəsinin hərəkətinə əsaslanan kompüter üzərindən ticarət metodu. Paket ticarət birja indeksinin fyuçersi, yaxud opsionlar və baza marjalar arasında arbitraj imkanlarından faydalanmaq məqsədi güdür.

- **Prudensial**
  Prudential

Maliyyə qurumlarının (banklarının) təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanan düşünülmüş (ehtiyatlı) davranış, idarəetmə və nəzarət üsuludur.

- **Pul axınları üzrə investisiyaların gəlirliliyi**
  Cash flow return on investment CFROI (%)

Cari əməliyyatlar üzrə pul axınla-rının inflyasiya nəzərə alınmaqla təshih olunmuş ümumi məbləğinin qoyulmuş investisiyaların (investisiya xərclərinin) inflyasiya nəzərə alınmaqla təshih olunmuş ümumi məbləğinə nisbəti. Bu göstərici daxili gəlirlilik dərəcəsi kimi çıxış edir. Bu göstəricinin hesablanması aşağıdakılara əsaslanır:

- aktivlərin istismar müddətində cari əməliyyatlarla əlaqədar hər il təkrarlanan pul axınlarının vergiyə cəlb edildikdən sonra qalan məbləğinə;

- aktivlərin istismar müddətinin sonuna kimi istifadə olunan dövriyyə kapitalı və digər bu kimi aktivlərin dəyərinə;

- əsas vəsaitlərin inflyasiya nəzərə alınmaqla təshih olunmuş ümumi məbləğinə.

- **Pul bazarı alətləri**
  Money market instruments

Pul bazarı alətlərinə əsasən aşağıdakılar aid edilir: xəzinə vekselləri, bank akseptləri, kommersiya kağızları, repolar, sövdələşmə depozit sertifikatları və s.

- **Pul bazarı fondu**
  Money market fund

Qısa müddətli pul bazarı alətlərinə investisiya edən fond. Pul bazarı fondu qısa müddətli pul bazarı alətlərinə investisiya etdiyinə görə riski və gəlirliyi az olur. Fondun portfelini yüksək keyfiyyətli və likvid qısamüddətli (1 ildən az) qiymətli kağızlar təşkil edir.

- **Pul bazarı**
  Money market

Qısamüddətli borc alətləri bazarı.

- **Pul emissiyası**
  Printing money

Ölkədə pul təklifinin artırılması üçün yeni banknotların nəşri, yaxud yeni dövlət borc kağızlarının buraxılışı.

- **Pul təklifi**
  Money supply

Müəyyən dövr ərzində hər hansı ölkənin iqtisadiyyatında dövriyyədə olan ümumi pul kütləsi təklifi. Pul təklifinin həcminin artmasının pula tələbin sabit qaldığı şəraitdə yalnız inflyasiya ilə nəticələnməsi qənaətində olan iqtisadçılar üçün pul təklifi inflyasiyaya nəzarət etmək üçün mühüm alət hesab olunur. Pul təklifinə nəzarət etmək üçün tənzimləyicilər pul təklifinin hansı konkret göstəricisinin hədəfə alınmasına dair qərar qəbul etməlidirlər. Lakin, hədəf göstəricisi nə qədər geniş olarsa sözügedən hədəfə nəzarət edilməsi bir o qədər çətin olacaqdır. Lakin, məqsədəuyğun olmayan dar pul kütləsinin hədəfə alınması da ölkədə mövcud olan ümumi pul kütləsinə qeyri-adekvat nəzarət olunmasına gətirib çıxara bilər.

- **Pul vəsaitləri hesabı**
  (nağd hesab, kassa hesabı)
  Cash account

Müştərilər tərəfindən yalnız tam ödənilmək şərti ilə aparılan qiymətli kağızların alışı üçün hesab.

- **Pulda olmaq**
  (öz dəyərində qalmaq)
  At the money

Opsionun istifadə qiymətinin baza aktivinin qiymətinə bərabər olduğu hal. Məsələn, XYZ şirkətinin səhminin cari bazar qiyməti 75 ABŞ dollarına bərabərdirsə və bu səhm üzrə opsionun istifadə qiyməti də 75 ABŞ dolları olarsa, bu opsion pulda sayılır.

- **Pusluz səhmlərin buraxılışı**
  Scrip issue

Şirkət ehtiyatda olan pul vəsaitlərini kapitallaşdıran zaman səhmdarlar üçün pulsuz səhmlərin buraxılışı. Biznesin uzunmüddətli maliyyələşməsinin tərkib hissəsi kimi ehtiyatların kapitallaşdırılması və ya yeni səhmlərə çevrilməsi ehtiyatları səhm kapitalının daha aydın və hesabatlı hissəsinə çevirir. Yeni səhmlər cari paylarına mütənasib olaraq mövcud səhm sahiblərinə paylanılır. Həmçinin, kapitallaşma emissiyası kimi də tanınır.

- **"Put" opsionu**
  Put option

Sahibinə qiymətli kağızı göstərilən dövr ərzində və öncədən razılaşdırılmış qiymətə satmaq hüququ verən opsion. "Put" opsionun alıcısı opsionu istifadə etmək istədikdə opsionun satıcısı müvafiq baza qiymətli kağızı almaq öhdəliyi daşıyır.

- **"Put-koll" nisbəti**
  Put-call ratio

"Put" opsionlarının həcminin "Koll" opsionlarının həcminə nisbəti. İnvestorun bazar haqqında sentimentini (düşüncələrini) ölçmək üçün istifadə olunur.

Məsələn, "Put" opsionların "Koll" opsionların kifayət qədər çox olması investorların qiymətin düşəcəyinə olan inamını göstərir.

- **"Put-Koll" pariteti**
  Put-call parity

Eyni xüsusiyyətlərə (eyni istifadə qiyməti və müddət) malik "Koll" və "Put" opsionları arasında münasibət. Bu münasibət Avropa opsionları (və ya son istifadə tarixindən əvvəl istifadə olunmayan Amerikan opsionları) üçün düzdür və bu münasibətin pozulması arbitraj imkanları yaradır.

$C + PV(X) = P + S$

C – "Koll" opsion

P – "Put" opsion

PV(X) – istifadə qiymətinin cari dəyəri

S – səhmin qiyməti.

- **Rantye**
  Rentier

Maliyyə gəliri ilə yaşayan şəxs. Gəliri yalnız dividentdən, kredit faizindən, qiymətli kağızlardan ibarət olan iqtisadi subyekt.

- **Rassel indeksləri**
  Russell indexes

ABŞ şirkətlərinin "Frank Russel" Şirkəti (Takoma, Vaşinqton) tərəfindən hesablanan və dərc edilən bazar kapitallaşmasının çəkili indeksləri (hesablamaya cəlb edilən şirkətlərin sayına və səhmlərinə görə Rassel 3000, 2000, 2500, 1000, 200 və s. indeksləri hesablanır).

- **Razılaşdırılmış qiymətləndirmələr**
  Consensus estimates

İqtisadiyyatın vəziyyətinin və ya şirkətin gələcək nəticələrinin razılaşma əsasında proqnozu. Müəyyən sayda ekspertin gözləntilərinin razılaşdırılması formasında hesablanır.

- **Real (fiziki) əmtəə bazarı**
  Physical market

Real əmtəələrlə ticarət edilən bazar.

Bax: *spot bazarı.*

- **Real faiz dərəcələri**
  Real interest rates

Nominal faiz dərəcəsinin inflyasiya nəzərə alınmaqla təhsis edilməsi nəticəsində əldə olunan faiz dərəcəsi.

İnflyasiya nəzərə alındıqda nominal faiz dərəcəsindən real faiz dərəcəsini əldə etmək olar:

$(1 + r)(1 + i) = (1 + R)$

R – nominal faiz dərəcəsi

r – real faiz dərəcəsi

i – inflyasiya səviyyəsi.

- **Realizə edilmiş (reallaşmış) gəlir**
  Realized Gain

1) Aktivin satışından əldə olunan nəğd gəlir;

2) Mövqenin likvidləşdirilməsindən əldə olunan nəğd gəlir.

- **Realizə edilmiş (reallaşmış) zərər**
  Realized loss

1) Aktivin satışından yaranan zərər;

2) Mövqenin likvidləşdirilməsindən yaranan zərər.

- **Reallaşdırılmamış gəlir/ mənfəət/zərər**
  Unrealized (paper) gain/profit/loss

İnvestisiya qoyuluşu ilə əlaqədar reallaşdırılmamış gəlir/mənfəət/zərər. Qiymətli kağızlara investisiya zamanı reallaşdırılmamış gəlir/ mənfəət/zərər qiymətli kağızın bazar qiymətini onun əsl alış qiyməti ilə müqayisə etməklə hesablanır. Gəlir və ya zərər yalnız qiymətli kağız satıldıqda reallaşır. Mövqe ləğv olunduqda, reallaşdırılmamış gəlir/mənfəət/zərər haqqında məlumat verilməlidir.

- **Reallaşma (satış) qiyməti**
  Realization price

1) Aktivin satış qiyməti;
2) Opsion müqaviləsində nəzərdə tutulmuş və opsion istifadə olunanda tətbiq olunan qiymət.

- **Rekvirent**
  Requirent

Vekseli üzrə öhdəlik daşıyan subyektə protest elan etmək üçün notariat konturuna müraciət edən şəxs, veksel sahibi.

- **REPO Baş sazişi**
  General REPO agreement

REPO və əks-REPO əməliyyatları aparılan zaman tərəflər arasındakı qarşılıqlı münasibətləri tənzimləyən və REPO və əks-REPO əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirən çərçivə sazişi.

- **Repo əməliyyatı**
  REPO transaction

Satıcısı tərəfindən qiymətli kağızların müştərilərə satışı (REPO-nun açılması) və eyni zamanda müştərilər tərəfindən həmin qiymətli kağızları emitentə satmaq, emitentin isə onları müştərilərdən geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

- **REPO sazişi (əqdi)**
  Repurchase agreement (REPO, RP)

Qiymətli kağızların satıcısının (emitentinin) müəyyən olunmuş müddətdə və müəyyən olunmuş qiymətdə həmin qiymətli kağızları geri alacağı barədə öhdəliyi əks edən saziş (əqd).

- **REPO-nun açılma tarixi**
  REPO opening date

REPO Şəhadətnaməsinə uyğun olaraq emitent tərəfindən qiymətli kağızların müştərilərə satıldığı gündür.

- **REPO-nun bağlanma tarixi**
  REPO closing date

REPO Şəhadətnaməsinə uyğun olaraq emitent tərəfindən qiymətli

kağızların müştərilərdən satın alındığı gündür.

- **Resessiya (iqtisadi geriləmə, tənəzzül)**
  Recession

İşgüzar dövrün yüksəliş (pik) fazasından sonra gələn və iqtisadi fəallığın bir müddət davamlı olaraq geriləməsi ilə müşayiət olunan fazası. Texniki olaraq, adətən, ardıcıl iki rüb ərzində iqtisadi artım tempinin mənfi olması (ÜDM və ÜMM-in səviyyəsinin azalması) halı resessiya sayılır. Resessiya istehsal həcminin, o cümlədən sənaye istehsalı həcminin, birja indekslərinin, real gəlirlərin və tələbin azalması, kapitalın xaricə axınının güclənməsi və işsizlik səviyyəsinin artımı kimi proseslərlə müşayiət olunur.

- **Restrukturizasiya olunmuş kredit**
  Rescheduled loan
  (Restructured credit)

Ödəniş vaxtının uzadılması, faiz dərəcələrinin aşağı salınması və bir hissəsinin və ya hamısının bağışlanması kimi tədbirlərə məruz qalan kreditlər.

- **Restrukturlaşdırma**
  Restructuring

Şirkətin borcu, əməliyyatları və strukturunda edilən ciddi dəyişiklik. Adətən şirkətlə bağlı ciddi problemlər olduqda edilir. Məsələn, şirkət borcunu ödəməklə bağlı problemlə üzləşdikdə, borcu restrukturlaşdıraraq daha uyğun formaya sala bilər.

- **Revalvasiya**
  Revaluation

Ölkənin valyuta məzənnəsinin digər ölkələrin valyutasına nisbətdə rəsmi yüksəldilməsi. Devalvasiyanın tərsidir.

- **Reyestr saxlayıcısı**
  Registrar

İstiqraz və səhm sahiblərinin qeydiyyatını (reyestrini) aparan təşkilat.

- **Rəqabətli sifariş**
  Competitive bid

Sifarişdə göstərilən şərtlərlə (dəqiq qiymət və miqdar) qiymətli kağızların alqı-satqısı müqaviləsinin bağlanması barədə investorun emitentə etdiyi təklifdir.

- **Rəqabətli təkliflər auksionu**
  Competitive bid auction

Anderrayterlərin emitentə öz qiymət təkliflərini irəli sürdükləri və ən yaxşı qiyməti təklif edən anderrayterin seçildiyi hərrac.

Bu metod əsasən dövlət qiymətli kağızlarının buraxılışında istifadə olunur. İstiqrazlar ilk öncə ən yüksək qiyməti təklif edən an-

derrayterlə, bu kifayət etmədikdə sonrakı ən yaxşı qiymət təklif edən anderrayterlərlə yerləşdirilir.

- **Rəqabətsiz sifariş hərracı**
  Non-competitive bid auction

Qiymət üzrə deyil, həcm üzrə sifarişlərə imkan verən hərrac növü.

Bu tip hərraclarda sifarişçilər adətən rəqabətli hərraclardakı orta qiyməti ödəyirlər. Əsasən dövlət istiqrazlarının satışında istifadə olunur.

- **Rəmzi pul**
  Fiat money

Dövlət tərəfindən buraxılan və qızıla və ya gümüşə konvertasiya olunmayan kağız pullar. O öz alıcılıq qabiliyyətini sadəcə olaraq dövlət təşkilatından və dövlət adından əldə edir.

- **Risk arbitrajı**
  Risk arbitrage

Riskə əsaslanan arbitraj sövdələşmələri.

1) Birləşmə və udulma arbitrajı – Birləşdirilən (alınan) şirkətin səhmlərinin alınması və birləşdirən (alan) şirkətin səhmlərinin satılmasının (qısa satılmasının) eyni zamanda həyata keçirilməsi;

2) Ləğvetmə arbitrajı - ləğv olunan şirkətin cari dəyəri və qiymətləndirilən ləğvetmə dəyəri arasındakı fərqə əsaslanan arbitraj sövdələşməsi;

3) Cüt ticarət arbitrajı – tarixən bir-biri ilə sıx əlaqəli olan eyni sahənin çox oxşar şirkətləri arasındakı fərqə əsaslanan arbitraj. Tarixən iki şirkətin dəyəri arasında fərq yüksək səviyyədə qalırsa, onda onların hər biri üzrə bir-birini kompensasiya edən mövqelər (məsələn, biri üzrə uzun mövqe, digəri üzrə qısa mövqe) götürülməsi özünü doğrulda bilər.

- **Risk mükafatı**
  Risk premium

Risksiz aktiv gəlirindən (dövlət istiqrazları) çox əldə olunan gəlir.

- **Risk**
  Risk

Hər hansı fəaliyyətin, yaxud hadisənin mənfi istiqamətdə inkişaf etməsi və ya mənfi nəticələnməsi ehtimalı.

- **Riskin idarə olunması**
  Risk management

İnvestisiya qərarlarının qəbulu zamanı qeyri-müəyyənliklərin (risklərin) müəyyən olunması, təhlili və ya bu risklərin qəbul olunması (nəzərə alınması) və ya da yumşaldılması prosesi.

- **Riskin önlənməsi**
  Risk reversal

"Put" opsionun alınması və "Koll" opsionun satılması və ya ək-

sinə əməliyyatı əhatə edən opsion strategiyası. Opsionun satılması nəticəsində əldə olunan gəlir opsionun alınması üçün çəkilən xərcləri qismən və ya tam olaraq ödəyə bilər.

- **Riskli (qarşılıqlı) artım fondu (kapital gəlirliliyini (maksimum) artırmağa çalışan (qarşılıqlı) fond, kapitalını artırmağa çalışan (qarşılıqlı) fond)**
  Aggressive growth mutual fund (aggressive growth fund, maximum capital gains mutual fund, maximum capital gains fund, capital appreciation fund, capital appreciation mutual fund)

Kapitalın uzunmüddətli dövrdə maksimal artımına nail olmağı qarşısına məqsəd qoyan və bunun üçün, əsasən, sürətli inkişaf potensialına malik olan kiçik şirkətlərin və dar sahələrin səhmlərinə yatırım edən qarşılıqlı investisiya fondu. Belə fondlar hər hansı bir şirkətin səhminə investisiya edərkən bu şirkətin böyük və ya kiçik olmasını deyil, onun müəyyən müddətdən sonra yüksək gəlir artımına nail olma perspektivlərinə əsaslanırlar. Dividentlərdən az gəlir əldə edildiyinə və ya heç gəlir əldə edilmədiyinə görə aqressiv artım fondları öz işlərini kapitalın dəyərinin artması ehtimalları üzərində qururlar. Bu halda yüksək gəlirlər əldə etmə istəyi risklərin artması ilə də müşayiət də olunur.

- **Riskli kapital**
  Venture capital

Kiçik və ilkin inkişaf mərhələsində olan şirkətlərə yatırılan vəsait.

- **S&P500 fond indeksi**
  S&P500

ABŞ fond bazarının əsas barometrlərindən olub "Standard and Poor's" agentliyi tərəfindən Nyu York Fond Birjasında listinqdə olan bütün şirkətlərin bazar dəyərinin təqribən 80%-ni təmsil edən 500 şirkətin (400 sənaye, 20 nəqliyyat, 40 maliyyə və 40 kommunal şirkəti) bazar kapitallaşması (səhmlərin sayının bazar qiymətinə olan hasili) əsasında hesablanan fond indeksidir. Çikaqo Əmtəə Birjasında fyuçerslər və fyuçers opsionları ilə ticarət bu indeksə əsaslanır.

- **Sabit faizli istiqraz**
  Fixed rate bonds

Kupon ödəmələri sabit olan istiqrazlar.

- **Sabit gəlir**
  Fixed income

Faizi kupon formasında ödənilən borc alətləri (istiqrazlar, kreditlər və s.) üçün istifadə olunan ümumi termindir. Bu hallarda əsasən sabit faiz dərəcəsi tətbiq olunduğundan onları ifadə etmək üçün "sabit gəlir" termini işlədilir.

- **Sabit xərclər**
  Fixed charges

Amortizasiya ayırmaları, faiz, icarə haqqı ödənişləri və s. bu kimi xərclər.

- **Sabit qiymətli təklı**
  Fixed price offer

Sabit qiymət əsasında təklif edilən yeni emissiyalardır. Son vaxtlarda emissiya qabaqcadan müəyyən edilmiş sabit qiymətə və kupona satılmışdır. Əksər yeni istiqraz buraxılışları bu əsasda təklif edilir.

- **Sabit valyuta məzənnəsi**
  Fixed exchange rate

Hökumətin və ya Mərkəzi Bankın milli valyutanı digər ölkələrin valyutasına, valyutalar səbətinə və ya qızıl kimi digər dəyər ölçüsünə bağladığı valyuta rejimi.

- **Sabit/üzən istiqrazlar**
  Fixed/floating bonds

Tədavüldə olduğu müddətin müxtəlif dövrlərində sabit və üzən faiz dərəcələrinin hər ikisini ödəyən istiqrazlar.

- **Sabitləşdirmə**
  Stabilization

Yeni yerləşdirilmiş qiymətli kağızın təklif olunan qiymətdən aşa-

ğı düşməsinin qarşısını almaq üçün anderrayter tərəfindən bir az yüksək qiymətlə alqı sifarişlərinin verilməsidir.

- **Sadə faiz**
  Simple interest

Borc almanın doğurduğu xərc və ya pul borc verilməsi nəticəsində əldə edilən gəlirdir. Borc götürülən və ya borc verilən məbləğ (əsas məbləğ), vəsaitlərin borc olaraq götürüldüyü müddət və bazarın ümumi faiz dərəcəsi səviyyəsi əsasında hesablanır.

- **Sadə maliyyə aləti**
  Plain vanilla

Özünəməxsus xüsusiyyətləri olmayan standart maliyyə alətləri və ya derivativlər.

Sadə səs çoxluğu prinsipi ilə səsvermə. Majority voting.

Bir səhm bir səs prinsipi ilə səsvermə metodu.

- **Sadə səs çoxluğu prinsipi ilə səsvermə**
  Majority voting

Bir səhm bir səs prinsipi ilə səsvermə metodu.

- **Sadə sürüşən orta**
  Simple moving average (an unweighted moving average)

Müşahidə aparılan dövrdən əvvəl müəyyən sayda zaman dövrlərinə nəzərən hesablanan çəkisiz orta kəmiyyət.

- **Sadə veksel (solo-veksel)**
  Promissory note (one-name paper, note of hand, PN, P/N)

Borclu tərəfindən təqdim edilən və borcun ödəniləcəyi vədini əks etdirən sənəd.

- **Sahibliyin (saxlamanın) mənfi nəticəsi**
  Negative carry

1) Aktivlərin, o cümlədən qiymətli kağızların və maliyyə fyuçers opsionlarının maliyyələşmə xərclərinin əldə ediləcək gəlirdən yüksək olması ilə səciyyələnən bir vəziyyət;

2) Mövqenin saxlanmasının maliyyələşmə xərclərinin gələn gəlirlərdən yüksək olması vəziyyəti.

- **Saxlama xərcləri (ehtiyatların saxlanılması dəyəri, kreditin dəyəri, sabit xərclər)**
  Carrying charge

Qiymətli kağızın və ya əmtəənin müəyyən müddətə saxlanılması ilə əlaqədar xərclər. Bu xərclərə sığorta, saxlanma və digər xərclər aiddir. Xərclər adətən fyuçers kontraktının və ya əmtəənin qiymətində əks olunur.

- **Saxlanc**
  Custody

Qiymətli kağızların cavabdehlik əsasında saxlanması və qorunması üzrə xidmət. Adətən ixtisaslaşmış banklar tərəfindən göstərilir. Müasir dövrdə, məhsul saxlanc müqavilələri əsas xidmət növü ilə yanaşı əlaqəli xidmətlərin göstərilməsini də nəzərdə tutur. Saxlanc xidməti həm sənədli, həm də sənədsiz (elektron) qiymətli kağızlar üzrə göstərilə bilər.

- **"Saxta" sövdələşmə (səhmlərin yalandan alqı-satqısı, "yuyulma" satışı)**
  Wash sale (sham transaction)

1) "Saxta" sövdələşmə. Eyni adamın bir hesabından digər hesabına və ya ərin hesabından arvadın hesabına qiymətli kağızlar üzrə mülkiyyətin dəyişməsi (alqı-satqı) əməliyyatının aparılması. Eyni zamanda, çox qısa müddət ərzində qiymətli kağızların alınaraq satılması (və ya tərsinə, satılaraq alınması). Bu halda fəal ticarət görüntüsü yaratmaqla potensial invostorları cəlb etmək və beləliklə, bazar qiymətlərinə təsir etməklə mənfəət əldə etmək məqsədi güdülür.

2) "Yuyulma" satışı (praktikada qadağan olunmuş hal). Vergi ödənişlərinin məbləğinin azaldılması məqsədi ilə qiymətli kağızların zərərlə satılması və onların geri alınması.

- **"Samuray" istiqrazı**
  Samurai bond

Xarici borcalan tərəfindən Yaponiyada buraxılan yen ilə ifadə olunan istiqraz.

- **Satan tərəf**
  Sell-side

Bu termin əsas işi birjada ticarət etməkdən ibarət olan maliyyə institutlarını təsvir etmək üçün istifadə olunur. Ya öz adından, ya da digər investorların adından investisiya edən maliyyə institutlarını təsvir etmək üçün işlədilən alan tərəfin əksidir.

- **"Satandan sonra almaq" şərtli sifariş (sərəncam)**
  Buy after sell limit order (B/S)

"Satmaq" və "almaq" kimi iki sifarişin birincinin yerinə yetirilməsindən sonra ikincinin yerinə yetirilməsi şərti ilə bir sifarişdə birləşdirilməsi. Başqa, sözlə, satış baş tutarsa, "aımaq" sifarişi qüvvəyə minir.

- **Satıcı opsionu**
  Seller's option

Satıcıya səhm və ya istiqrazları müəyyən edilmiş müddət ərzində istənilən vaxt təqdim etmək hüququnu verən xüsusi əməliyyat.

- **Satın alınmış sövdələşmə**
  Bought deal

Təkrar bazarda yenidən satmaq məqsədilə qiymətli kağızın bütün

emissiyalarını almaq üçün sığorta edənlə və ya aparıcı menecerlə razılaşma. Bu metod tələb edilən qiymətə bütün emissiyaların satılmamasına görə riski emitentdən sığorta edənə keçirir.

- **Satış təklifi**
  Offer for sale

Hər hansı bir şirkətin yeni səhmlərini satışa çıxarması üzrə təklif verməsi. Bunun üçün, əsasən, aşağıdakı iki yoldan istifadə edilir:

1) İnvestisiya bankı kimi bu sahədə ixtisaslaşmış və sponsorluq edə bilən vasitəçi qurumları dəvət etməklə kütləvi satış üçün təklif verilməsi;

2) Səhmlərə yazılış üzrə və ya şirkətin özü tərəfindən emissiya şirkətlərini kütləvi şəkildə dəvət etməklə birbaşa təklif verilməsi. Bu təklif əvvəlcədən müəyyənləşdirilmiş qiymətə də əsaslana bilər və ya investorlar arasında təşkil olunan tender vasitəsilə formalaşan qiymətə də. Tenderdə qiymət üzrə bütün təkliflər toplandıqdan sonra investorların hamısının ödəməyə hazır olduqları qiymətlər əsasında təklif qiyməti formalaşdırılır.

- **Satışa buraxmaq (endirimlə)**
  Selloff

Bazar şərtlərinin qiymətləri sıxacağı ehtimalına əsaslanaraq gələcək ziyandan qaçmaq üçün malların və ya maliyyə alətlərinin endirimlə satışa buraxılması.

- **Satışın həcmi**
  Sales

Firmanın əmtəə və xidmətlərin satışından əldə etdiyi vəsait. Bu məbləğə həmçinin icarə haqqı da daxil ola bilər.

- **Satqı sifarişi**
  Sell order

Qiymətli kağızın satılmasına dair brokerə verilən sifariş.

- **Sektor indeksi**
  Sector index

Fond birjasının müəyyən istehsal sahəsinin bazar fəaliyyətini əks etdirən toplu indeks.

- **Sektor təhlilçiləri**
  Sectoral analysts

Əsas diqqəti məxsusi bir sənaye sahəsinə yönəldən bazar təhlilçiləridir. Həmin sektorda fəaliyyət göstərən spesifik şirkətləri tədqiq edir və aparılmış tədqiqatlar nəticəsində alqı-satqıya dair tövsiyələr təqdim edirlər.

- **Sektor üzrə fondlar**
  Sector funds

Müəyyən istehsal sahəsinə (məsələn, dağ-mədən sənayesinə) investisiya qoyuluşu edən qarşılıqlı investisiya fondlarının bir növüdür. Bu cür fondların fəaliyyəti tam və ya qismən müvafiq sektorun şirkətlərinin qiymətli kağızlarına

investisiya qoyuluşlarını həyata keçirməkdən ibarətdir.

- **Sekuritizasiya**
  Securitization

Qeyri-likvid aktivlərin (ipoteka və s.) likvid aktivlərə (alınıb-satıla bilən) çevrilməsi məqsədilə müxtəlif növ borclardan yaradılan hovuzun (portfelin) girov qoyulması ilə qiymətli kağızlar buraxılışı.

- **Senyoraj**
  Seignorage

Dövlətin pul çap etməsindən əldə etdiyi gəlir. Bu gəlir pulun nominal dəyəri ilə onun çap edilməsi üçün sərf olunan vəsait arasındakı fərq ilə ifadə olunur.

- **Seriyalı istiqraz**
  Serial bond

Eyni vaxtda buraxılan, lakin bitmə müddəti müxtəlif olan istiqraz.

- **Sertifikat**
  Certificate

Hər hansı faktı və ya hüququ təsdiq edən sənəd, vəsiqə. Səhm üzrə mülkiyyət hüququnu təsdiq edən sənəd.

- **Sessiya**
  Cession

Şəxsin, müəssisənin və ya ölkənin mülkiyyəti, torpağı və ya hüquqları rəsmən başqasına verməsi.

- **Səhm kapitalı/Emissiya kapitalı**
  Share capital/Issued capital

Faktiki olaraq emissiya edilən və ya səhmdarlara paylanılan səhmlər. Öz nizamnaməsinə və ya əsasnaməsinə uyğun olaraq müəssisəyə emissiya imkanı verilən maksimum həcmdə səhmləri əks etdirən nizamnamə kapitalından fərqli ola bilər.

- **Səhm opsionu**
  Stock option (equity options)

Müəyyən səhmlərlə müəyyən müddət ərzində razılaşdırılmış qiymətlə alqı satqı əməliyyatı aparmaq hüququ verən törəmə alət.

- **Səhm svopu**
  Equity swap

Mübadilə olunan pul vəsaitlərinin biri və ya hər ikisi hər hansı bir səhmin gəlirliliyinə və ya fond indeksinin qiymətinə əsaslanan svop.

- **Səhm şəklində divident**
  Stock dividend

Nəğd pul əvəzinə səhmlərlə ödənilən divident ödəməsi.

- **Səhm**
  Share (stock)

Sahibinə hər hansı bir müəssisənin aktivlərində müəyyən bir paya sahiblik və payına uyğun olaraq

müəssisənin gəlirinin bir hissəsini divident şəklində əldə etmək hüququ verən qiymətli kağız Eyni zamanda, səhm sahibinin səhmdar cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququnu və cəmiyyətin ləğvindən sonra qalan əmlakın bir hissəsinə hüququnu təsdiqləyir.

- **Səhm-barometr**
  Bellwether stock
  (barometer stock)

Qiymətlərinin dəyişməsi bazar konyukturasının dəyişməsinin indiqatoru hesab olunan səhm. Adətən, barometr kimi yaxşı tanınmış iri şirkətlərin səhmləri çıxış edir.

- **Səhmdar (payçı)**
  Shareholder

Təşkilat və ya şirkətdə paya və ya səhmlərə sahib olan fərddir.

- **Səhmdar cəmiyyət**
  Joint-stock company

Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır.

- **Səhmdar dəyəri**
  Shareholder value

Səhmdar nöqteyi-nəzərindən şirkətin dəyəri. Bu dəyər həm dividentlər, həm də şirkətinin səhmlərinin qiymətində artım baxımından şirkətin öz səhmdarlarına gəliri təmin etmək qabiliyyətini göstərir. Bu zaman səhmdarlar əsas diqqəti şirkətin sərmayələri və öz kapitalından nağd vəsait axını yaratmaq bacarığına yönəldir.

- **Səhmdar kapital**
  (sahibkar kapitalı)
  Equity

1) Sahibkarlıq payını göstərən adi səhm və ya hər hansı başqa qiymətli kağız.

2) Müəssisənin balansında müəssisənin sahibləri tərəfindən yatırılan məbləğlə bölüşdürülməmiş mənfəət məbləğinin cəmidir.

3) Səhmdarların şirkətdəki payıdır. Qiymətli kağızlar bazarı payların və ya səhmlərin buraxıldığı və alqı-satqı əməliyyatlarında iştirak etdiyi bazarlardır.

- **Səhmdar kapitalı**
  (əsas fondlar)
  Capital stock (shareholders' equity)

Şirkətin adi və imtiyazlı səhmlər vasitəsilə maliyyələşməsinin məbləğini göstərir.

Səhmdar kapitalı = Məcmu aktivlər – Məcmu passivlər.

- **Səhmdar kapitalın riskinə görə mükafat**
  Equity risk premium

Bazar risklərinin kompensasiya edilməsi üçün xəzinə vekselləri ilə

müqayisədə ümumi fond bazarının və ya müəyyən birjanın təmin etməli olduğu əlavə gəlir. Xəzinə veksellərinə dövlət tərəfindən təminat verildiyi üçün onlar risksiz qiymətli kağız hesab olunur.

- **Səhmdar maliyyələşməsi**
  Equity financing

Kapitalı artırmaq məqsədi ilə sadə və ya imtiyazlı səhmin investora satılması.

- **Səhmdarların Ümumi Yığıncağı (İllik Ümumi Yığıncaq)**
  Annual General Meeting (AGM)

Səhmdarların məcburi illik yığıncağı. Bu yığıncaqlar səhmdarlara şirkətin fəaliyyəti və qərarları haqqında məlumat əldə etmək imkanı yaradır. Səhmdarların Ümumi Yığıncağı səhmdarların bir yerdə toplanaraq direktorlar şurasına şirkətin vəziyyəti və strategiyası haqqında suallar ünvanlamaq üçün yeganə vasitədir. Həmçinin bu yığıncaqda səhmdarların məlumatlandırılması ilə bərabər direktorların seçilməsi kimi önəmli qərarların müzakirəsi də aparılır. Səhmdarların Ümumi Yığıncağının keçirilməsi vaxtı, yeri və gündəliyi haqqında dəqiq məlumatlar mütləq şəkildə müəyyən olunmuş vaxt ərzində səhmdarlara çatdırılmalıdır.

- **Səhmdarların vəsaitləri**
  Shareholders' funds

Şirkətin xalis aktivlərindən (səhmdarların vəsaitləri ilə bölüşdürülməmiş ehtiyatların cəmi) minoritar paketin çıxılması yolu ilə müəyyən edilir. Həmçinin, səhm kapitalı və ya istifadə olunan kapital kimi də tanınır.

- **Səhmə dəyişdirilə bilən uzunmüddətli qiymətli kağızlar**
  Long-term equity anticipation securities (LEAPS)

Səhmə dəyişdirilə bilən bu qiymətli kağızları (səhm və ya indeks opsionları) "Put" və "Koll" tipində buraxırlar. Bu qiymətli kağızlar Çikaqo opsion və Amerika fond birjalarında və birjadankənar bazarlarda dövriyyədədirlər. Bu cür qiymətli kağızların müddəti 2-5 ilə bərabər olur.

- **Səhmin balans dəyəri**
  Book value per share (BVPS)

Balans dəyəri ümumi aktivlərlə ümumi passivlərin fərqinə bərabərdir. Səhmin balans dəyəri (BVPS) isə balans dəyərinin ödənilməmiş səhmlərin sayına nisbətinə bərabərdir.

- **Səhmin geri alınması**
  Share repurchase

Şirkətin səhmlərinin qiymətinin yüksəldilməsi məqsədilə öz səhmlərini bazardan geri almaqla dövriyyədə olan səhmlərin sayının azaldılması.

- **Səhmin qeydiyyatdan keçmiş sahibi**
  Holder of record

Emitent şirkətin reystrində adı qeyd olunmuş səhmdar. Yalnız belə səhmdarlar divident alma hüququna malikdirlər.

- **Səhmin ucuzlaşması**
  Share discount

Səhmin bazar dəyərinin nominal dəyərindən aşağı düşdüyü məbləğ.

- **Səhmlər üzrə mükafat**
  Share premium

Səhmlərin nominal dəyərindən yüksək olan bazar dəyəri.

- **Səhmlər üzrə ödənilməmiş dividentlər**
  Unpaid dividends

Adi səhmlər üzrə ödənişdən qabaq imtiyazlı səhmlər üzrə elan edilməmiş və ödənilməmiş dividentlər. Bu termin həmçinin faizləri ödənilməmiş bəzi gəlirli istiqrazlara da şamil edilir.

- **Səhmlərin (səhmdarların) reyestri (qeydiyyat jurnalı)**
  Share register

Müəyyən tarixə qeydə alınmış qiymətli kağız sahiblərinin, onlara məxsus qiymətli kağızların sayının və növünün eyniləşdirilməsini təmin edən siyahı. Adətən, reyestrlərin aparılması ixtisaslaşdırılmış mərkəzi qurum, fərdi reyestrsaxlayıcılar və ya emitentlərin özü tərəfindən həyata keçirilir.

- **Səhmlərin xırdalanması (bölünməsi)**
  Stock split

Şirkətin mövcud səhmlərinin ümumi dəyərini dəyişmədən sayının artırılması. Başqa sözlə, mövcud dövriyyədə olan səhmlərin bir neçə hissəyə bölünməsi. Bu cür əməliyyatın məqsədi bir səhmin qiymətini azaldaraq ticarətinin daha da asanlaşdırılmasıdır. Beləcə səhmlərin sayı artır, lakin ümumi dəyərdə heç bir artım olmur.

- **Səhmlərin listinqi**
  Stock listing

Müxtəlif şirkətlərin fond birjalarının müvafiq tələblərinə cavab verən səhmlərinin siyahısı. Listinqə düşmüş səhmlər fond bijasında ticarətə və kotirovkaya buraxılır. Müxtəlif fond birjalarında fərqli listinq standartları mövcud ola bilər.

- **Səlahiyyətli broker (səlahiyyətli treyder)**
  Authorized broker (authorized trader)

Hərrac iştirakçısının ştat işçisi olan, QKDK tərəfindən verilmiş ixtisas şəhadətnaməsinə malik olan, hərrac iştirakçısının adından fond birjasında sifarişlərin elan edilməsi və əqdlərin həyata keçirilməsi üçün hərrac iştirakçısı tərəfindən səlahiyyət verilmiş şəxsdir.

- **Səmərəli bazar hipotezi**
  Efficient market hypothesis

Bütün əldə olan məlumatın artıq aktivlərin qiymətində əks olunduğunu iddia edən hipotez.

Bu hipotezə görə, bazarın artıq "bildiyi" məlumatdan istifadə edərək, uzun müddət ümumi bazardan daha yaxşı nəticə göstərmək mümkün deyil.

- **Sənaye inkişafı istiqrazı**
  Industrial development bond

Yerli icra hakimiyyəti tərəfindən müxtəlif sənaye obyektlərinin tikintisinin maliyyələşdirilməsi məqsədilə buraxılan istiqrazlardır. Sonradan bu obyektlər icarəyə verilir və istiqrazlar üzrə ödənişlər həmin obyektlərin fəaliyyəti nəticəsində büdcəyə daxil olan ödənişlərdən və ya icarə haqlarından tutularaq ödənilir.

- **Sərbəst dövriyyədə olan səhmlər**
  Free float

Səhmdar cəmiyyətin səhmlərinin iri səhmdarların (səhmlərin 5%-dən çoxuna sahib olan) və insayderlərin əlində olmayan, eləcə də ticarəti məhdudlaşdırılmayan hissəsi. "Free-float" səviyyəsinin yüksək olması səhmlərin likvidlik səviyyəsinə təsir edir.

- **Sərbəst pul axını gəlirliliyi**
  Free cash flow yield

Şirkətin dividentləri ödəmək üçün bütün sərbəst vəsaitindən istifadə etdiyi halda səhmin divident gəlirinin nə qədər yüksək ola biləcəyinin ölçüsüdür. Müəssisənin sərbəst pul axınının gəlirliliyini müəyyən etmək üçün dövriyyə vəsaitləri balansından əsas kapitala çəkdiyi xərclərini çıxmaq və sonra alınmış fərqi onun cari səhmlərinin sayına bölmək lazımdır.

- **Sərbəst pul axını**
  Free cash flow

Şirkətin fəaliyyətindən yaranan nağd pul axını ilə onun əsas kapitala çəkdiyi xərclərin fərqi. Sərbəst nağd pul axını, sadəcə olaraq, verilmiş ticarət dövrü ərzində şirkətin xalis kassa mövqeyindəki dəyişikliyi ifadə edir.

- **Sərbəst üzən valyuta məzənnəsi**
  Free floating exchange rate

Sərbəst bazarda valyutaya olan tələb və təklifə əsasən təyin edilən üzən valyuta məzənnəsinin bir formasıdır. Bu formada Mərkəzi Bankın müdaxilələri mümkündür, lakin bu müdaxilələr çox nadir hallarda baş verir və qeyri-müntəzəmdir. Bu, əsasən, məzənnənin kəskin aşağı düşməsini sığortalamaq məqsədi daşıyır.

- **Sərbəst və açıq bazar**
  Free and open market

Tələb və təklifin qiymət baxımdan sərbəst ifadə olunduğu bazar. Təklif, tələb və qiymətin hamısının tənzimləndiyi idarə olunan bazarın əksi.

- **Səs hüququna malik olmayan səhm**
  Non-voting stock

Sahibinə korporativ məsələlərdə səs vermə hüququnu təmin etməyən səhm. İmtiyazlı səhmlər adətən səs vermə hüququna malik olmur. Bundan başqa şirkət sahibləri şirkətin başqalarının əlinə keçməsini önləmək üçün yeni səhmdarlara bu tip səhmlər sata bilərlər.

- **Səsli ticarət (açıq yüksək səslə)**
  Open outcry

Alıcı və satıcının birbaşa təması yolu ilə birja ticarəti üsulu. Bu halda alış və satış üzrə təkliflər ucadan səsləndirilir.

- **Səsvermə (ballot)**
  Ballot

Açıq və ya gizli səsvermə yolu ilə birja əməliyyatları ilə bağlı mübahisəli məsələlərin həlli variantı.

- **Səsvermə hüququ**
  Voting right

Şirkətin idarə edilməsi ilə əlaqədar qərarların qəbul olunmasında səs vermə hüququ.

- **SİBOR**
  Singapore İnterbank Offered Rate (SIBOR)

Sinqapur banklararası depozit bazarında təklifin faiz dərəcəsi.

- **Sifariş (tapşırıq)**
  Order

Opsionun ifadə etdiyi qiymətli kağızı müəyyənləşdirilmiş icra qiymətinə satmaq (“Koll”) və yaxud almaq (“Put”) öhdəsini qoyan opsion satıcısı tərəfindən icra haqqında bildiriş.

1) Sahibinə müəyyən olunmuş zaman ərzində, müəyyən olunmuş qiymətlərlə qiymətli kağızlar almağa hüquq verən sertifikat, rəsmi məktub.

2) Səhmdar cəmiyyət tərəfindən ona məxsus olan səhmlərin alınması ilə bağlı buraxılan opsion,

qiymətli kağız. 3) Hər hansı işin görülməsi, məhsulun göndərilməsi və s. ilə bağlı bir şəxsi tərəfindən digər şəxsə göndərilən rəsmi məktub, sənəd, əmr.

Qiymətli kağızın alınması və ya satılması üzrə müştəri tərəfindən brokerə instruksiyanın verilməsi. Əqdin mühüm şərtlərini nəzərdə tutan fond birjasının qaydalarına uyğun elan edilmiş qiymətli kağızlarla əqdin həyata keçirilməsi haqqında sərəncam.

- **Sifariş üzrə bölgü (abunə (yazılış) əsasında bölgü)**
  Allotment

Qiymətli kağızların əvvəlcədən sifariş (yazılma, abunə) əsasında bilavasitə yeni səhmdarlar və ya qiymətli kağızların yeni buraxılışına yazılışı və yerləşdirməni həyata keçirmək üçün yaradılmış sindikat üzvləri arasında bölüşdürülməsi.

- **Sifarişlər (təkliflər) əsasında**
  Order driven

Alış və satış təkliflərinin elan olunması yolu ilə qiymətlərin müəyyən olunduğu bazar. Fond birjalarının çoxu bu formada fəaliyyət göstərir.

- **Sıfır kuponlu istiqraz (kuponsuz istiqraz)**
  Zero coupon bond

Kupon ödənişləri olmayan istiqraz. Sıfır kuponlu istiqrazlar nominaldan aşağı qiymətə (diskontla) satılır və öhdəlik müddəti bitdikdə nominal üzrə ödənilir.

- **Sığorta**
  Insurance (assurance)

Müxtəlif formalarda və müxtəlif həcmdə dəymiş ziyanın ödənilməsi məqsədilə sığorta haqları vasitəsilə sığorta fondu şəklində pul fondlarının yaradılması və sığorta ödənişləri kimi istifadəsi üzrə iqtisadi münasibətlərin məcmusu.

- **Sığortaçı**
  Insurant

Mövcud qanunvericiliyə uyğun şəkildə sığorta fondu yaradaraq onun qanunauyğun bölgüsünü həyata keçirməklə sığorta əməliyyatı aparan müəssisə, təşkilat, qurum.

- **Sığortalı (sığorta olunan)**
  Insured

Sığorta fonduna sığorta haqları köçürməklə bu və ya digər sığorta münasibətlərinin bir tərəfinə çevrilən hüquqi və ya fiziki şəxs.

- **Sınanmış təklif**
  Seasoned offer

Fond birjasında artıq listinqdə olan şirkət tərəfindən səhmlərin və ya istiqrazların təklifi. İlk dəfə olaraq listinqə daxil olan şirkət tərəfindən həyata keçirilən ilkin kütləvi təklifin əksidir. Ümumilikdə, belə

təklif həm kütləvi satış üçün təklif, həm də institusional investorlar üçün məhdud yerləşdirmə formasında ola bilər.

- **Sindikat borcu**
  Syndicated loan

Bir neçə şirkətin (sindikat) bir borcalana kifayət qədər vəsait təmin etmək üçün birgə təklif etdikləri borc.

- **Sindikat**
  Syndicate

Eyni fəaliyyət sferası üzrə bir neçə təsərrüfat subyektinin, o cümlədən müəssisənin, təşkilatın hər hansı sahədə vahid istiqamətdə fəaliyyət göstərməsi məqsədilə birləşməsi. Məsələn, bank sindikatı – emitentə tədavülə buraxılan qiymətli kağızların birdəfəlik (topdan) alışı və yerləşdirilməsi ilə bağlı zəmanət təqdim edən investisiya bankları qrupu və ya maliyyə institutları qrupudur. Bank sindikatı beynəlxalq və daxili maliyyə bazarında borc öhdəlikli qiymətli kağızlarının tədavülünü sürətləndirməyə xidmət edən başlıca vasitələrdən biridir.

- **"Sınmış" ilkin yerləşdirmə**
  Broken IPO

İlkin yerləşdirilmədən sonra qiymətli kağızlar ilkin yerləşdirmə qiymətindən aşağı satılırsa, belə ilkin yerləşdirmə "sınmış" ilkin yerləşdirmə adlanır.

- **Sistem riski**
  (ödəniş sistemi riski)
  Systemic risk

Bütövlükdə maliyyə sisteminin və ya bazarın çökmə riski. Ödəniş sisteminə daxil olan maliyyə qurumlarından birinin və ya bir neçəsinin öhdəliklərini yerinə yetirə bilməməsi zəncirvari olaraq digər iştirakçıların da öz öhdəliklərini yerinə yetirə bilməməsinə və beləliklə də ümumilikdə maliyyə sisteminin böhranına gətirib çıxarır.

- **Sistematik risk**
  Systematic risk

Bütövlükdə iqtisadi vəziyyətin dəyişməsi və bazarda qiymətlərin ümumi səviyyəsinin azalması və ya artması nəticəsində şirkətin qiymətli kağızlarının qiymətinin dəyişməsi riski. Bu riskə bazar riski də deyilir və bu riski portfelin diversifikasiyası yolu ilə aradan qaldırmaq mümkün olmur.

- **Siyasi risk**
  Political risk

Siyasi cəhətdən qeyri-stabil olan ölkələrə investisiya etmək riski. Bu risk hakimiyyətin dəyişməsi, hərbi müdaxilə kimi faktorlardan yaranır.

- **Skeyt**
  Scathing

Fond birjasında dilerlərin qabaqcadan kütləvi informasiya

vasitələrində nəşr etdikləri səhmlərin kotirovkasından imtina etməsi. Bu halda həmin dilerə qarşı iddia qaldırıla bilər.

- **Skripofiliya**
  Scripophily

Köhnəlmiş qiymətli kağızların (səhmlərin, sertifikatların, istiqraz vərəqələrinin və s.) kolleksiyası, toplanılması.

- **Süst (qeyri-fəal) bazar**
  Thin market

Alış və ya satış üzrə faizlər aşağı olan, kiçik həcmli və ya zəif fəaliyyət göstərən bazardır. Bu termin bütövlükdə bazara və ya ayrı-ayrı maliyyə alətlərinə aid edilə bilər.

- **Solo-veksel**
  Sola bill

Üzərində veksel məbləğinin ödənişinə öhdəlik daşıyan yalnız bir şəxsin imzası olan sadə veksel.

- **Son instansiya (məqam) kreditoru**
  Lender of last resort

Likvidlik çatışmamazlığı olan və ödənişlər üzrə öz öhdəliklərini yerinə yetirə bilməyən kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən maliyyə vəsaitlərinin (kreditlərin) təklif olunmasıdır. Mərkəzi Bankın funksiyalarından biridir.

- **Son ödəmə tarixi**
  Maturity date

Borc qiymətli kağızlarının əsas məbləğinin ödənilməsinin son tarixi. Bəzi borc qiymətli kağızları "çağrıla bilən" olduqları üçün emitent borcu son ödəmə tarixindən əvvəl də qaytara bilər.

- **Son prospekt**
  Final prospectus

Potensial investorlar arasında yayılan və ilkin emissiya prospektindən fərqli olaraq, yeni emissiya haqqında qiymət, çatdırılma müddəti və anderrayterlərin mükafatlarının məbləği kimi bütün təfsilatlı məlumatları özündə əks etdirən emissya prospektinin son variantı.

- **Son ticarət günü**
  Last trading day

Fyuçers və ya opsion müqaviləsi üzrə əqd bağlana biləcəyi son gündür. Bu gündən sonra həmin müqavilə üzrə baza aktivinin (müvafiq əmtəə və ya maliyyə alətinin) çatdırılması və ya nəğd hesablaşma təmin edilməlidir.

- **Spot**
  Spot

Əmtəə və xidmətlərin, eləcə də maliyyə alətlərinin, valyutanın nağd pula satılması və təcili göndərilməsi, təqdim edilməsi saziş-

ləri. Spot əməliyyatları üzrə münasibətlərin məcmusu spot bazarını təşkil edir. Spot bazarları üzrə münasibətlər bazara təqdim etdiyi qiymətlini təcili surətdə satmağa cəhd göstərən satıcı subyektlər və alınmış qiymətlinin təcili göndərilməsini tələb edən alıcı subyektlər tərəfindən reallaşdırılır.

- **Spot bazarı**
  Spot market

Qiymətli kağızların və əmtəələrin alqı-satqısının nəğd pulla həyata keçirildiyi və tərəflərarası mübadilənin qısa müddət ərzində yerinə yetirildiyi bazar.

- **Spot qiyməti**
  Spot price

Müəyyən bir əmtəənin cari alqı-satqı qiyməti.

- **Spot məzənnə**
  Spot exchange rate

Əməliyyatın həyata keçirildiyi anda bir valyutanın digər valyutaya nəzərən müəyyən olunan məzənnəsi.

- **Spred ticarəti**
  Spread trading

Gözlənilən qiymət fərqindən gəlir əldə etmək məqsədilə bir fyuçers müqaviləsinin alınması və eyni zamanda, digərinin satılması ilə əlaqədar olan ticarət.

- **Spred (marja)**
  Spread

Qiymətli kağız üzrə təklif olunan qiymətlə tələb olunan qiymət arasındakı fərqdir.

- **Staqflyasiya**
  Stagfilation

Milli istehsalın ciddi şəkildə aşağı düşməsi nəticəsində makroiqtisadi qeyri-tarazlıq, o cümlədən yüksək işsizlik və inflyasiya səviyyəsi ilə müşahidə olunan iqtisadi durum, vəziyyət.

- **Staqnasiya**
  Stagnation

Müəyyən sahələrdə, maliyyə bazarlarında və ya ümumilikdə iqtisadiyyatda durğunluq vəziyyəti (çox kiçik, sıfır səviyyəli artım sürəti).

- **Standard & Poor's**
  Standard & Poor's

Aparıcı kredit reytinqi agentliklərindən biri.

- **Stellaj**
  Stellage

Qiymətli kağızların alqı-satqısı əməliyyatlarının bir növü. Burada alqı-satqı münasibətlərinin tərəflərindən biri əməliyyat anında birtərəfli qaydada ticarət mövqeyinin seçilməsi hüququna malik olur. Məsələn, alış və ya satış mövqeyi və s.

- **STİBOR**
  Stockholm İnterbank Offered Rate (STIBOR)

Stokholm pul bazarında banklararası təklif dərəcəsi, məzənnəsi.

- **Stredl**
  Straddle

İnvestorun eyni öhdəlik müddəti, baza aktivi və istifadə qiyməti olan opsion üzrə "Koll" və "Put" mövqelərinin götürməsi strategiyası.

Bu strategiya istənilən istiqamətdə böyük qiymət dəyişikliyi olduğu halda investora qiymətlərin qalxdığı bazarda "Koll" opsionunu, qiymətlərin düşdüyü bazarda isə "Put" opsionunu istifadə edərək yaranmış vəziyyətdən istifadə etmək imkanı yaradır. Aşaəıdakı hallar mümkün ola bilər:

1) Fond bazarında səhmin müəyyən qiymətə alınması və ya satılması ilə bağlı səhm sahibi ilə əldə olunan razılıq;

2) Qiymətli kağız sahibinə müəyyən qiymət əsasında alqı-satqı aparmaq hüququ verən ikiqat opsion;

3) Əmtəə və xidmətlər bazarında eyni zamanda bir əmtəə və xidmətin satılması ilə başqa birinin alınması.

- **Strenql**
  Strangle

İnvestorun eyni öhdəlik müddəti və baza aktivi, lakin fərqli istifadə qiyməti olan opsion üzrə "Koll" və "Put" mövqelərinin götürməsi strategiyası.

Bu strategiya yalnız baza aktivində böyük qiymət dəyişikliyi olduğu halda mənfəətli olur. Bu strategiya yaxın gələcəkdə böyük qiymət dəyişikliyi gözlədikdə lakin bu dəyişikliyin hansı istiqamətdə olacağına əminlik olmadıqda effektiv hesab edilir.

- **Strukturlaşmış məhsul**
  Structured product

Adi səhm, səhm səbəti, indeks, əmtəə, borc qiymətli kağızların emissiyası və ya xarici valyuta kimi ilkin (fyuçers müqavilələrinin əsasında duran) qiymətli kağızlara əsaslanan investisiya məhsulu.

- **Subanderrayter**
  Subunderwriter

Yeni tədavülə buraxılan borc öhdəlikli qiymətli kağızların ikinci zəmanətçisi kimi çıxış edən birja vasitəçisi.

- **Subemitent**
  Subborrower

Bilavasitə rəsmi emitent kimi çıxış etməyən, lakin emitentin öhdəliyinin bir hissəsini üzərinə götürən bank və ya istənilən hüquqi şəxs. Subemitentə əsas etibarilə borc öhdəlikli qiymətli kağızların emissiyası zamanı ehtiyac yaranır.

- **Suveren risk**
  Sovereign risk

Hər hansı bir ölkəyə borc vermək və ya investisiya yatırmaq riskləri (ölkə riski).

- **Suveren buraxılış**
  Sovereign issue

Dövlət zəmanətli şirkət tərəfindən buraxılan borc qiymətli kağızları.

- **Süst (qeyri-fəal) bazar**
  Thin market

Alış və ya satış üzrə faizlər aşağı olan, kiçik həcmli və ya zəif fəaliyyət göstərən bazardır. Bu termin bütövlükdə bazara və ya ayrı-ayrı maliyyə alətlərinə aid edilə bilər.

- **Sürüşən orta**
  Moving average

Müəyyən dövr ərzində qiymətli kağızın orta dəyərini göstərmək üçün texniki təhlillər zamanı tez-tez istifadə edilən göstərici Sürüşən orta göstəricidən, bir qayda olaraq, hərəkətlərin sayını və mümkün dəstək və müqavimət sahələrini müəyyən etmək məqsədilə istifadə olunur.

- **Sürüşən sarıq**
  Crawling peg

Adətən inflyasiyanı tənzimləmək üçün istifadə olunan, mübadilə kursunda tədrici qiymətdən düşməyə və ya qiymətləndirməyə imkan verən valyuta sistemi.

- **Sürüşən satış qiymətli opsion**
  Moving strike option

Satış qiymətinin opsionun dövriyyədə olduğu müddətə uyğun olaraq müəyyən edildiyi deyil, zamandan asılı olaraq dəyişən opsion.

- **Svop**
  Swap

Faiz dərəcəsi və ya valyuta riskini aradan qaldırmaq üçün iki tərəf müqabili arasında pul axınının mübadiləsi.

Misal üçün bir şirkətin xərcləri avro gəlirləri isə ABŞ dolları ilə, digər şirkətin isə xərcləri ABŞ dolları gəlirləri isə avro ilə olduqda bu şirkətlər pul axınlarını mübadilə etməklə özlərini effektiv şəkildə valyuta riskinə qarşı qorumuş olurlar. (valyuta svopları)

İki tərəf müqabili sabit və üzən faiz dərəcələrini mübadilə etdikdə isə özlərini faiz dərəcəsi riskinə qarşı qorumuş olurlar. (faiz dərəcəsi svopları).

- **Şaquli spred**
  Vertical spread

Eyni tipdən olan və eyni son icra tarixinə malik, lakin müxtəlif qiymətləri olan opsionların eyni zamanda və eyni sayda satışı və alışından ibarət opsion strategiyası.

- **Şaxələnmə (törəmə şirkət yaratma)**
  Spin-off (spinoff)

Şirkətin yeni bir şirkət (törəmə şirkət) yaratmaqla öz əməliyyatları və aktivlərini bölmək üçün istifadə etdiyi üsul. Bu zaman ana şirkət yeni şirkətin səhmlərini öz səhmdarları arasında onların paylarına mütənasib surətdə bölür. Şaxələnmə zamanı ana şirkətin səhmdarlarına çatacaq dividentləri törəmə şirkətin səhmləri ilə ödəməsi təcrübəsi də geniş istifadə olunur.

- **Şarp nisbəti**
  Sharpe ratio

Nobel mükafatçısı William Sharpe tərəfindən müəyyən olunan riski nəzərə almaqla portfel fəaliyyətini əks edən nisbət

Şarp nisbəti portfel gəlirinin müvəffəqiyyətli investisiya strategiyası nəticəsində və ya gəlirin yüksək risk nəticəsində əldə olunduğunu əks edir.

Sharp nisbəti = (Rp - Rf)/(Op)

Rp = Portfelin gözlənilən gəlirliyi

Rf = Risksiz aktivin (dövlət istiqrazı) gəlirliyi

Op = Portfelin standart kənarlaşması (riskin ölçü vahidi).

- **Şərti əsas məbləğ (kredit öhdəliyinin)**
  Notional principal

Faiz dərəcəsinin svop sazişlərində baza borc qiymətli kağızının əsas məbləği. Bu məbləğ faizi ödəmək üçün istiqrazdan ayrıldıqda, svop sazişində dövriyyə səhmi əmələ gətirən nəzəri (xəyali) və ya fiktiv məbləğə çevrilir.

Həmçinin, "nəzəri (xəyali, mücərrəd) məbləğ" də adlanır.

- **Şərti öhdəlik**
  Contingent liability

Şirkətin keçmişdəki fəaliyyəti ilə əlaqədar olan, lakin gələcəkdə müəyyən hadisələrin baş verməsi və ya baş verməməsindən (məsələn, məhkəmə qərarlarının nəticələrindən) asılı olaraq, yaranması ehtimal olunan öhdəliyi.

- **Şərtli opsion**
  Contingent option

Sahibinin yalnız mükafat ödədiyi opsion (əgər opsion reallaşarsa). Nə qədər ki, şərtli opsionlar reallaşdırılmayıb onların qiyməti sıfıra bərabərdir.

- **Şirkətlərin listinqi**
  Listing companies

Səhmləri hərraca çıxarılan şirkətlər.

- **Şişirdilmə və boşaldılma**
  Pump and Dump

Fırıldaqçıların səhmin qiymətinin yanlış və aldadıcı vədlərlə artıraraq, qiymət yüksək səviyyəyə çıxdıqda öz mövqelərini bağlaması. Fırıldaqçılar bazardan çıxdıqdan sonra qiymətlərin kəskin aşağı düşməsi nəticəsində bu sxemin qurbanları böyük miqdarda vəsait itirmiş olurlar. Buna görə də bu tip sxemlər qanunla qadağandır və böyük məbləğdə cərimələrlə cəzalandırılır.

- **Şişirdilmiş qiymət**
  Overvalued

Qiymətli kağızların fundamental amillərə əsaslanan qiymətlərdən daha yüksək qiymətlə ticarəti.

Məsələn, mənfəət gözləntiləri zəif olan bir şirkətin səhminin yüksək qiymətə ticarət olunması.

- **"Şoqun" istiqrazı**
  Shogun bond

Qeyri-rezidentlər tərəfindən Yaponiyanın milli bazarında xarici valyutada kütləvi satışa buraxılan (təklif olunan) istiqraz. Adətən, bu termin xarici borc alanların Yaponiyada yerləşdirdikləri dollar istiqrazlarına aid edilir.

- **Taksa**
  Statutory price

Qiymətin, tarifin, ödəniş məbləğinin dəqiq müəyyənləşmiş və yaxud müəyyənləşdirilmiş səviyyəsi.

- **Tam lot**
  Round lot

Birjada dövriyyədə olan səhm və istiqrazların standard ticarət vahidi. Adətən, standard ticarət vahid kimi 100 ədəd səhm götürülür. Amma 10, 25, 50 ədəd səhmdə standard ticarət vahid kimi götürülə bilər.

- **Tam seyrəltmə**
  Fully diluted EPS

Bir səhmə görə gəlirin hazırda ödənilməmiş olan səhmlərə deyil, daha böyük miqdarda səhmlərə bölünməsilə hesablanan göstəricidir. Bu göstərici bütün qiymətli kağızların tam emissiyasını nəzərə alır ki, bu da bir səhmə düşən gəlirin azalmasına gətirir.

- **Tarixi volatillik**
  Historical volatility

Keçmişdə qiymətin və ya gəlirin davranışına əsaslanaraq dəyişkənliyin qiymətləndirilməsidir. Belə qiymətləndirmə bazarın sakit vaxtı dəyişkənliyi qiymətləndirməyin yaxşı üsuludur.

- **Tayminq**
  Timing

Fond birjasında alışın və ya satışın həyata keçirilməsi üçün daha əlverişli, münasib vaxt.

- **TED spredi**
  TED spread

Xəzinə kağızları ilə Avrodollar arasındakı spred.

- **Texniki araşdırma (texniki təhlil)**
  Technical research (technical analysis)

Tələb və təklif əsasında bazar konyunkturasının təhlili. Bu Belə təhlil zamanı qiymətlərin dinamikası, bazarın həcmi və inkişaf meyilləri öyrənilir və cari bazar fəaliyyətinin mümkün nəticələri və gələcəkdə qiymətli kağızlar üzrə mümkün ola bilən tələb və təklifin qiymətləndirilməsi aparılır.

- **Texniki investisiya təhlili**
  Technical investment analysis

Bax: Texniki araşdırma.

- **Tender qiyməti**
  Tender price

Şirkətin səhmdarlarının səhmlərinin bir hissəsinin və ya tam həcminin alqısı üçün təklif olunan qiymət. Təklif olunan qiymət səhmlərin bazar qiymətindən yüksək olur.

- **Tender təklifi**
  Tender offer

Şirkətin səhmdarlarının səhmlərinin bir hissəsinin və ya tam həcminin alqısı üçün verilən təklifi.

- **Tertiya (vekselin üçüncü nüsxəsi)**
  Third bill

Köçürmə vekselin üçüncü nüsxəsi.

- **Teta**
  Theta

Opsionun müddətinin bitmə tarixi yaxınlaşdıqca opsionun dəyərində dəyişmə.

- **Təbii resursların tükənməsinin uçotu**
  Depletion accounting

Metal, neft, qaz, ağac və s. bu kimi il ərzində tamamilə tükənə bilən təbii ehtiyatlar kapitalın idarə edilməsində problemlər yaradır. Tükənmə uçot prosesidir və uçotun aparıldığı dövr ərzində ümumi ehtiyatlar arasından istifadə edilən aktivlərin miqdarına əsaslanan gəlir ilə müqayisədə xərcləri əhatə edir. Mühasibat daxil etmələri heç bir nağd xərcləri və ya bu məqsəd üçün ayrılmış vəsaitləri təmsil etmir.

- **Tədavül**
  Circulation

Əmtəələrin, qiymətli kağızların, habelə pul vəsaitinin hərəkəti, mübadiləsi, alqı-satqısı.

- **Tədbirli insan qaydası**
  Prudent man rule

Səlahiyyət verilmiş şəxsin digər şəxs adından vəsaitləri investisiya etməsinin ümumi hüquqi qaydası. Bu qaydaya əsasən səlahiyyət verilmiş şəxs tədbirli və düşünülmüş hərəkət etməli, etibar edilmiş vəsaitlərin və onlardan əldə edilmiş gəlirlərin təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməlidir.

- **Tədricən (zaman keçdikcə) dağılma**
  Time decay

Zaman keçdikcə opsionun qiymətinin davamlı olaraq düşməsi.
Bax: Teta.

- **Təhlükəsiz valyuta**
  Safe haven currency

Bazarda qarışıqlıq zamanı öz vəsaitlərinin təhlükəsiz saxlanmasını təmin etmək üçün investorlar və

fond menecerləri tərəfindən istifadə olunan ABŞ dolları və ya İsveçrə frankı kimi etibarlı tədavül valyutası.

- **Təxirə salınmış kupon**
  Deferred coupon

İlk bir neçə il ərzində kuponun ödənilməsinin vaxtını təxirə salan və vaxt çatanda birdəfəlik ödənişi təmin edən istiqraz. O, nağd pul hərəkətinin vaxtını dəyişdirmək və ilk illərdə vergilərin həcmini azaltmaq və ödənişləri gəlirlərin daha çox olacağı ehtimal edilən növbəti illərə saxlamaq istəyən investorlar üçün nəzərdə tutulmuşdur.

- **Təxirə salmaya (möhlətə) görə haqq (bakvordasiya)**
  Backwardation

Əmtəə bazarlarında əmtəənin nağd və ya ilkin çatdırılma ayı üzrə qiymətinin sonrakı aylardakı qiymətdən yüksək olması. Forvard qiyməti saxlanma xərclərinə görə adətən əmtəənin nağd qiymətindən yüksək olur. Əmtəə qıtlığı şəraitində nağd və ya ilkin ayda çatdırılacaq əmtəəyə tələb artdığı üçün bakvordasiya baş verir.

- **Təklif aralığı**
  Offering range

Şirkət qiymətli kağızı hansı qiymətə satacağını gözlədiyi qiymət aralığı. Bu qiymət aralığını şirkət ilkin prospektdə göstərir.

- **Təklif qiyməti (satış qiyməti)**
  Ask (offer price, selling price)

1) Sifarişin şərtlərindən biri olan və qiymətli kağızlar hərracı iştirakçısı tərəfindən satış üçün təklif etdiyi qiymətli kağızı satmağa razı olduğu qiymətdir;

2) İlkin investorların buraxılan qiymətli kağızı ala biləcəkləri ilkin qiymət;

3) Market-meykerin tələb etdiyi satış qiyməti.

- **Təklif**
  Offer

Qiymətli kağız, valyuta və ya digər maliyyə alətinin alqı və ya satqı təklifi.

- **Təkrar Bazar (birjadankənar bazar, qeydiyyatdan keçməmiş qiymətli kağızların bazarı)**
  Aftermarket (after-market, after market, over-the-counter market)

1) İlkin yerləşdirmədən sonra qiymətli kağızların birjada vasitəçi subyektlər, o cümlədən brokerlər və dilerlər tərəfindən alqı-satqısı (təkrar bazar).

2) İlkin yerləşdirilmədən sonra qiymətli kağızların birjadankənar qeyri-mütəşəkkil alqı-satqısı (birjadankənar bazar).

3) Qeydiyyatdan keçməmiş qiymətli kağızların alqı-satqısı (qeydiyyatdan keçməmiş qiymətli kağızlar bazarı).

- **Təkrar bazar sifarişi (Birjadankənar bazar sifarişi)**
  Aftermarket order

1) İlkin yerləşdirmədən sonra investorların qiymətli kağızların alınması üzrə əlavə sifariş vermələri.

2) Birjadan kənar bazarda investorların qiymətli kağızların alınması üzrə sifariş vermələri.

- **Təkrar fondlaşdırma (maliyyələşdirmə)**
  Refunding

Mövcud borc qiymətli kağızlar (istiqrazlar) üzrə borcun yeni borc qiymətli kağızlarının (istiqrazların) buraxılması (adətən, daha aşağı faiz dərəcəsi və ya daha uzun ödəniş müddətli) yolu ilə cəlb olunan borc vəsaitlərinin köməyi ilə ödənilməsi.

- **Təkrar girov**
  Remortgaging (Repawning)

Broker şirkəti tərəfindən müştərinin marja hesabında olan qiymətli kağızları girov qoymaqla kreditin götürülməsi.

- **Təkrar kapitallaşma (yenidən kapitallaşma)**
  Recapitalization

Şirkətin borc və sahibkarlıq kapitalı nisbətinin dəyişdirilməsi.

- **Təkrar qiymətli kağızlar bazarı**
  Secondary securities market

İlkin yerləşdirilməsindən sonra investorlar arasında qiymətli kağızların ticarəti həyata keçirildiyi maliyyə bazarı.

- **Təkrar sığorta**
  Reinsurance

Sığorta bazarında risklərin bölüşdürülməsi üsulu. Şirkət riski sığorta edir və məruz qaldığı riskin bir hissəsini digər şirkətlərlə təkrar sığorta müqavilələri bağlamaqla onlara ötürür. Nəzərə almaq lazımdır ki, bu halda risklərin əldən-ələ ötürülməsi ilə əlaqədar olaraq onların etibarsız şirkətlərin əlinə keçməsi təhlükəsi və yaxud, hətta, təsadüfən, ilkin sığortaçının özünə qayıtması ehtimalı mövcuddur.

- **Təkrar təklif (yerləşdirmə)**
  Secondary offering (secondary distribution)

Səhmlərini ilkin kütləvi təklif yolu ilə yerləşdirmiş şirkətin yeni səhm emissiyası. Şirkətlərin təkrar təklif etməkdə məqsədi yeni vəsaitin cəlb olunmasıdır. Həmçinin təkrar təklif adlanır. Emitent şirkət tərəfindən satılandan bir müddət sonra səhmlərin yenidən yerləşdirilməsi.

- **Təqvim spredi**
  Calendar spread

Müxtəlif müddətlərə icrası nəzərdə tutulan, eyni qiymətli və birtipli opsionların ("Put" və ya "Koll") eyni zamanda alqı-satqısını nəzərdə tutan opsion strategiyası.

- **Tələb olunanadək**
  On demand (on sight)

1) İstənilən pul ödənişi sənədləri, xüsusilə vekselin üzərində ödənişin təqdim olunan anda aparılacağını təsdiq edən imza;

2) İstənilən zaman ödəniş üçün təqdim edilə bilən, üzərində ödəniş müddəti göstərilməyən veksel.

- **Tələb olunan gəlirlik**
  Required return

İnvestorlar tərəfindən investisiyanın cəlbedici olub olmamasına qərar verməkdə istifadə olunan gəlirlik.

Məsələn, müəyyən səhmə investisiya etdikdə investorun tələb etdiyi gəlirlik səviyyəsi illik 12% ola bilər. Səhmin gözlənilən gəlirliyi bundan aşağı olduqda investor daha az riskli başqa qiymətli kağızlara (məsələn istiqrazlara) investisiya edə bilər.

- **Tələbnamə**
  Claim

Hər hansı bir formada müəyyən obyektlə bağlı bir subyektin başqa subyektə tələbini təsdiq edən xüsusi formaya malik sənəd və ya sənədlər toplusu. Məsələn, görülmüş işə görə ödənişin aparılması üçün sifarişçiyə təqdim olunan ödəniş sənədi.

Tələbnamənin aşağıdakı növlərini qeyd etmək olar:

◦ borc tələbnaməsi – kreditor, yaxud malgöndərən tərəfindən qarşı tərəfə öhdəliyin icrası ilə bağlı təqdim olunan ödəniş sənədi;

◦ qarşılıqlı tələbnamə – borclu subyektin kreditora ona olan borcunu hər hansı başqa öhdəlik məbləği ilə qarşılıqlı əvəzləşdirilməsi barədə rəsmi təklifini ifadə edən sənəd.

◦ ödəniş tələbnaməsi – kreditor, malgöndərən, yaxud ödəniş almaq hüququ olan subyektin, borc alana, yaxud ödəniş etməklə bağlı borcu olan subyektə bank vasitəsilə ödənişi həyata keçirməklə bağlı təqdim etdiyi hesablaşma sənədi.

- **Təminat marjası (təminatlı marja)**
  Maintenance margin

Marja hesabında saxlanmalı olan minimum həcmdə səhmdar kapitalı. NYSE və NASD kontekstində, investor marja üzrə qiymətli kağızlar aldıqdan sonra marja üçün tələb olunan minimum səviyyə marja hesabında olan ümumi qiymətli kağızların bazar dəyərinin 25%-dir. Nəzərə almaq lazımdır ki, bu minimum səviyyədir və əksər maklerlər 30-40% civarında olan daha yüksək saxlama tələblərinə malikdirlər.

Eyni zamanda, "minimum saxlama" və ya "saxlama tələbi" da adlandırılır.

- **Təminatlı "Koll" opsionu satışı**
  Covered call writing

İnvestorun baza aktivi üzrə uzun pozisiya saxlaması və bu aktivlər üzrə "Koll" opsionu satması.

Baza aktivinin qiymətinin artacağına və ya stabil qalacağına inan investor, bu aktivi saxlamadan əlavə gəlir əldə etmək üçün bu strategiyadan istifadə edir və opsion premiumu əldə edir. Qiymətin aşağı düşməsi halında net pozisiya zərər edə bilər.

- **Təminatlı "Koll" opsionu**
  Covered call option

Satıcının opsion müqaviləsində göstərilmiş sahib olduğu əsas səhm paylarının qısa "Koll" opsionu mövqeyinə verilməsi.

- **Təminatlı istiqraz**
  Covered bond

Dəyəri və ödənişləri müvafiq baza aktivlərindən gələn vəsaitlər hesabına formalaşan istiqraz.

Bu tip qiymətli kağızlar, adətən, maşın kreditləri və kredit kart ödənişləri kimi kiçik və qeyri-likvid aktivlər hovuzunun sekuritizasiyası yolu ilə yaradılır.

Aktivlərlə təmin olunmuş qiymətli kağızlara bənzəyir. Əsas fərqi təminatlı istiqrazların emitentin balansında qalması, aktivlərlə təmin olunmuş qiymətli kağızların isə sekuritizasiya yolu ilə balansdan çıxarılmasıdır.

- **Təminatsız borc istiqrazları (borc iltizamı)**
  Debenture bond (debentures)

Təminatsız (girova əsaslanmayan) borc qiymətli kağızları. Emitentin ümumi krediti hesabına qarşı buraxılmış, müəssisənin heç bir xüsusi əmlakı ilə təmin edilməmiş borc öhdəliyi. Bu kimi borc alətlərinin təminatı emitentin etibarlılığı (nüfuzu) və borclanma tarixçəsi sayılır. Məsələn: dövlət istiqrazları.

- **Təminatsiz kredit**
  Unsecured credit
  (unsecured loan)

Girov təminatı olmadan verilən kredit. Bu cür kredit borcverən qarşısında etibara əsaslanır.

- **Təmiz oyun**
  Pure play

Konqlomeratdan və fəaliyyətini şaxələndirmiş şirkətlərdən fərqli olaraq şirkətin bir fəaliyyət növü ilə məşğul olması.

- **Tənəzzül**
  Downturn

İqtisadi və ya fond birjası tsiklinin artımdan enişə doğru dəyişməsi.

- **Tənzimləyici (təsisedici) istiqraz**
  Adjustment bond

Müflisləşmə riski altında olan şirkətin yenidən kapitallaşması zamanı, kreditorların qarşılıqlı razılığı əsasında, dövriyyədə olan istiqrazların əvəzlənməsi üçün buraxılan istiqraz. Adətən, bu istiqraz şirkət mənfəət əldə edən dövrlərdə faiz ödənişlərini nəzərdə tutur. Mahiyyətinə görə bu istiqrazlar gəlir istiqrazlarının bir növüdür.

- **Təsbit etmək**
  Fix

Valyuta və ya əmtəə üçün rəsmi qiymətin qoyulması (müəyyən edilməsi), adətən gündəlik əsasda.

- **Təsdiqləmə (affirmasiya)**
  Affirmation

Sənədlərin, o cümlədən maliyyə sənədlərinin, hesabların təsdiq edilməsi, düzgünlüyünə təminat verilməsi.

- **Təzə buraxılış**
  On-the-run issue

Periodik emissiya olunan qiymətli kağızın (əsasən istiqraz) ən son buraxılmış seriyası.

Daha likvid olduğu üçün, adətən, digər qiymətli kağızlara nisbətən mükafatla (əlavə gəlirlə) satılır.

- **Ticarət (qiymət) diapazonu**
  Trading (price) range

Müəyyən müddət (gün, ay, il) ərzində müəyyən maliyyə alətinin birjada ən yüksək və ən aşağı qiymətləri arasındakı fərq. Birja təhlilçiləri maliyyə alətinin qiymətinin dəyişmə meyillərini proqnozlaşdırmaq üçün bu göstəricinin necə dəyişdiyini daimi müşahidə altında saxlayırlar.

- **Ticarət evi**
  Trading house

Müştərilərin və ya öz adından fyuçerslərin və əmtəələrin alqı satqısı ilə məşğul olan müəssisə.

- **Ticarət həcmi**
  Trading volume

Qiymətli kağızlar bazarında ticarət olunan qiymətli kağızların sayı.

- **Ticarət meydançası**
  Floor

Ticarət meydançası. Treydinq fəaliyyətinin həyata keçirildiyi meydança. Ticarət meydançası birjaların binasında yerləşir.

- **Ticarət meydançası**
  Trading floor

Treydinq fəaliyyətinin həyata keçirildiyi meydança

Ticarət meydançası birjaların binasında yerləşir.

- **Ticarət sessiyası**
  Trading session

Birjada rəsmi ticarət üçün müəyyən olunmuş vaxt. Birjada sifarişlərin elanı və qiymətli kağızlarla əqdlər bağlanması bu müddət ərzində həyata keçirilir.

- **Ticarət yeri (postu)**
  Trading post

Fond birjasının ticarət zalında oxşar xüsusiyyətlərə malik qiymətli kağızların satıldığı yer.

- **Tiker simvolu**
  Ticker symbol

Fond birjasında satılan səhmləri ifadə edən hərflərdir. Səhmi ifadə etməyin qısa və asan üsuludur.

- **Tiker**
  Ticker (ticker tape)

1) Cari maliyyə məlumatlarını operativ surətdə kağız lent və ya ekranda verən teleqraf və ya elektron aparat; ilk dəfə 1867-ci ildə ABŞ birjalarında istifadə edilmişdir.

2) Ekran və ya monitorda qaçan sətir formasında ekranın aşağısında səhmlərin simvollarının, əməliyyatların həcminin və yerinə yetirildiyi qiymətlərin ardıcıl olaraq davamlı şəkildə təqdim olunması.

- **Tiraj**
  Tirage (circulation)

1) Bir müəllif, və ya bir qrup müəlliflər tərəfindən, yaxud bir adda nəşrin çap olunmuş nüsxələrinin sayı;

2) Lotereya biletlərinin, uduşlu istiqrazların növbəti uduşunun keçirilməsi prosesi;

3) İstənilən formalı gəlir ödənişinə malik istiqrazların dəyərinin ödənilməsi, pula dəyişdirilməsi.

- **Toxunulan bazar**
  Market if touched

Qiymətli kağız müəyyən edilmiş qiymətə çatdıqda şərti sifarişin bazar sifarişinə çevrilməsi. Toxunulan bazar sifarişi əsasında alış edən broker aktivi almaq üçün qiymətli kağızın qiymətinin müəyyən səviyyəyə qədər aşağı düşməsini gözləyəcəkdir. Qiymətli kağızın qiyməti müəyyən səviyyəyə qədər qalxdıqda toxunulan bazar sifarişi əsasında satış həyata keçiriləcəkdir. ”Sərhəd sifarişi” də adlanır.

- **TOPİKS**
  Tokio Stock Price Index (TOPIX)

Tokio fond birjasında opsion və fyuçerslər üçün hesablanan qiymət indeksi.

- **Toplanan (mürəkkəb) faiz**
  Compound interest

İlkin vəsait və onun faizinin cəmi üzrə faiz. Məsələn, ildə 10% gəlir gətirən 100 manatlıq deposit, ilin sonunda 110 manat olacaq. İkinci il üzrə faiz artıq 100 manatdan deyil, 110 manat üzərindən hesablanacaq və nəticədə ikinci ilin sonunda depozitdə 121 manat vəsait olacaq.

- **Toplanmış (yığılmış) faizlər**
  Accrued interest

Axırıncı faiz ödənişindən sonra qiymətli kağız üzrə yığılmış faiz gəlirləridir. Əgər qiymətli kağız iki faiz ödənişi tarixinin arasında satılarsa, adətən, alıcı yığılmış faizi satıcıyla qiymətə əlavə olunmaqla ya nağd formada və ya da digər ödəniş formasında əvəzləşdirir. Ödəmə müddəti çatdıqda isə alıcı ödədiyi bu faiz gəlirlərini də əldə edir.

- **Törəmə şirkət**
  Subsidiary

Nəzarət səhm paketinin 50 faizdən çoxu digər şirkətə məxsus olan şirkət.

- **Transfer**
  Transfer

1) Pul vəsaitlərinin, valyutanın bir ölkədən digərinə keçirilməsi.

2) Pulun bir hesabdan başqa hesaba köçürülməsi.

3) Bir büdcə həlqəsindən başqa birinə, əsas etibarilə aşağı büdcə həlqəsinə onun gəlir və xərclərinin səviyyəsini, eyni zamanda kassa icrasını təmin etmək məqsədilə vəsaitin əvəzsiz təqdim olunması, köçürülməsi.

4) Müxtəlif məqsədlər üçün bir hesabdan başqa hesaba, yaxud bir büdcə həlqəsindən başqa büdcəyə əvəzsiz köçürülən vəsait.

5) Qiymətli kağızların bir sahibindən digərinə keçməsi, ötürülməsi.

6) Hər hansı maliyyə fondundan, əsasən dövlət maliyyəsi fondlarından digər fondlara, yaxud müəssisə hesablarına əvəzsiz və məqsədli pul vəsaitlərinin köçürülməsi.

7) Xarici subyektlər tərəfindən ölkədaxili hüquqi və fiziki şəxslərə iqtisadi yardım və digər məqsədlər üçün təqdim edilən, köçürələn pul vəsaitləri. Vergilər və kreditlər transfertlər kimi xarakterizə olunmur. Transfer, adətən, köçürmə yazısının – indossamentin köməyi ilə icra olunur.

- **Tranş**
  Tranche (tranch)

1) Xüsusi, ayrıca buraxılış üzrə yerləşdirilən qiymətli kağızlar, istiqrazlar seriyası;

2) Borcalan subyektə bir ödənişlə, yəni birdəfəlik təqdim edilən kredit məbləği. Bir müqavilə üzrə kredit məbləği bir neçə kredit tranşı ilə təqdim oluna bilər. Kredit

məbləğinin tranşlar üzrə təqdim edilməsində başlıca məqsəd ilkin tranşların icrası səviyyəsindən asılı olaraq sonrakı ödəmələrin həyata keçirilib-keçirilməməsi ilə bağlı qərarların qəbul edilməsindən ibarətdir. Borc müqaviləsi əsasında əvvəlki tranşlar məqsədli şəkildə istifadə olunmadıqda növbəti tranşlar kreditor tərəfindən dayandırılır.

- **Trassant (veksel verən)**
  Drawer

Köçürmə vekselinin sahibi. *T.* Veksel üzrə borc məbləğinin ödənişi və aksepti üçün cavabdehlik daşıyır. *T.*-nin imzası tratta üçün başlıca göstərici sayılır.

- **Trassat (ödəyici (köçürmə vekseli üzrə))**
  Drawee

Köçürmə veksel üzrə borc məbləğinin ödəyicisi. Köçürmə vekselin son sahibinin borc məbləğinin təsbit olunmuş müddətdə ödənilməsi ilə bağlı müraciətindən sonra *t.* Ödənişi həyata keçirməyə borcludur.

- **Trasslaşdırma**
  Tracing (drawing)

Kreditorla borcalan arasında borcu ödənilmə qaydasının, şərtlərinin müəyyənləşdirilməsi. Trattanın köçürmə vekselinin qoyulması, veksel dövriyyəsinin, valyuta əməliyyatlarının, müxtəlif formalı beynəlxalq hesablaşmaların, bu hesablaşmalar üzrə müqavilələrin tərkib hissəsi.

- **Trast**
  Trust

1) İşgüzar müstəvidə, əməkdaşları, kreditorları arasında yüksək imicə və etibarlıq səviyyəsinə malik müəssisə, təşkilat;

2) Etibarlığın qorunması, inamlı idarəetmə barəsində tərəflər arasında razılaşma, müqavilə, müqavilə sənədi;

3) Xüsusi şərtlər əsasında banka, kredit təşkilatına və ya başqa təşkilata idarə olunması məqsədilə verilən əmlak.

Hüquqi və fiziki şəxslərin əmlakını etibarlı idarəetmə məqsədilə müvəqqəti cəlb edən subyekt, təşkilat trast-təşkilat, trast-şirkət adlanır. ayrı-ayrı xırda sahibkarlar tərəfindən etibarlılıq əsasında kapitalın investisiya fondu şəklində birləşdirilməsi nəticəsində İnvestisiya trastı yaranır.

- **Trast-istiqraz**
  Trust-obligation

Emitent subyektin mülkiyyətində olan əmlakın və qiymətlilərin təminatı əsasında buraxılan istiqraz vərəqələri. Təminatlılıq xüsusiyyətinə görə *t.-i.*-nin bazar tələbi yüksək, bundan irəli gələrək gəlirlilik səviyyəsi nisbətən aşağı olur.

- **Trast-şirkət**
  Trust company

Etibarlılıq, yüksək inam əsasında müxtəlif istiqamətdə iqtisadi fəaliyyətlə məşğul olan şirkət, müəssisə. Əsas etibarilə bu şirkətlər əhali əmanətlərinin və qiymətlilərinin idarə olunmasını həyata keçirir. Bu zaman cəlb olunan əmlak və qiymətlilərə görə məsuliyyət trast-şirkətin üzərinə düşür. Trast şirkət maliyyə münasibətlərində başlıca vasitəçi, o cümlədən pul köçürmələri üzrə vasitəçi kimi də fəaliyyət göstərə bilər. Bəzi ölkələrdə ayrı-ayrı müəssisələrin pensiya fondlarının idarə edilməsi üzrə trast şirkətlər mövcuddur.

- **Tratta (köçürmə veksel)**
  Bill of exchange

Bir şəxsin (kreditorun) digərinə müəyyən məbləğin üçüncü şəxsə verilməsi haqqında yazılı tapşırığını özündə əks etdirir. Köçürmə vekseli verən şəxs - trassant, ödənişi həyata keçirməli olan şəxs - trassat, pulu almaq hüququ verilən şəxs isə remitent adlanır. Köçürmə vekselin obyekti əmtəə kapitalıdır. Köçürmə veksel istər daxili, istərsə də beynəlxalq ticarət münasibətlərində əsas hesablaşma sənədi hesab olunur. Onun aşağıdakı növlərini ayırmaq olar:

1) Bank trattası – bilavasitə bank tərəfindən verilən və təqdim etdiyi zaman sahibinə üzərində göstərilən məbləğdə ödəniş almaq hüququ verən köçürmə veksel. Bank trattası çox etibarlı pul sənədi olduğuna görə nağd pul vəsaiti ilə bərabər tutulur. Adətən, bank trattası bank daxilində pul hesablaşmaları üçün istifadə olunur. Bank filialından bank trattası əldə edən müştəri mərkəzi ofisdən, yaxud digər filiallardan ödəniş almaq imkanı qazanır. Eyni zamanda, bank trattasından xarici ticarət münasibətlərində geniş istifadə olunur.

2) Faiz trattası – rəsmiləşdirildiyi gündən ödəniş müddətinə qədərki dövr ərzində borclu subyekt – trassat tərəfindən müəyyən faiz ödəmələri şərtilə razılaşdırılan tratta – köçürmə veksel. Faiz trattasından, əsasən, xarici ticarət münasibətlərində istifadə olunur.

3) Sənədli tratta – ticarət münasibətləri zamanı əmtəə sənədləri ilə birgə təqdim olunan köçürmə veksel.

- **Trend xətti**
  Trendline

Texniki təhlildə trend xətti bazarın istiqamətini müəyyənləşdirmək üçün spesifik qiymət nöqtələrini birləşdirən xəttdir. Trend xətti nə qədər böyük müddət ərzində işləyərsə, yoxlanılarsa, lakin qırılmazsa, onun əhəmiyyəti də bir o qədər artar.

- **Trend**
  Trend

Müəyyən dövrdə iqtisadi göstəricilərin, hadisələrin tendensiyası.

- **Treyder**
  Trader

1) Fond birjasında əməliyyat hüququ olan istənilən hüquqi və fiziki şəxs.
2) Ticarət fəaliyyəti ilə məşğul olan istənilən şəxs, tacir. 3) Broker firmasının ixtisaslı işçisi.

- **Treyderlərin öhdəlikləri**
  Commitments of traders

ABŞ-ın tənzimləyici orqanlarından olan Əmtəə Fyuçersləri üzrə Ticarət Komissiyası tərəfindən hazırlanan və iriölçülü ticarətçilər, möhtəkirlər, hedcerlər və kiçik ticarətçilər tərəfindən tutulan ümumi açıq yerləri göstərən aylıq hesabat.

- **Uçot qiyməti**
  Book price

Aktivlərin şirkətin mühasibat balansı kitablarına ilkin daxil edilmiş dəyəri.

- **Udulma təklifi**
  Takeover bid

Bir şirkətin digər şirkətə sahiblik hüququnu (nəzarət paketini) əldə etmək məqsədilə onun səhmdarlarına səhmlərini almaq üçün təklif olunan qiymət.
Adətən, bu halda təklif olunan qiymət səhmlərin bazar qiymətindən yüksək olur.

- **Udulma**
  Takeover

Şirkətin səhmlərinin (nəzarət paketinin) alqısı yolu ilə şirkətə sahibliyi (nəzarəti) əldə etmək.

- **Uduşlu opsion**
  In the money

Opsionun istifadə qiymətinin baza qiymətli kağızın qiymətindən kiçik olduğu hal.

- **Uoll strit**
  Wall street

Nyu York Fond Birjasının danışıq dilində adıdır, geniş istifadədə, ümumiyyətlə, ABŞ-da istiqrazlarla ticarət əməliyyatlarının aparılması mənası kəsb etməyə başlamışdır.

- **Uzun hedc**
  Long hedge

Aktivin qiymətinin gələcəkdə yüksəlməsi riskindən sığortalanmaq məqsədilə fyuçers və ya opsion vasitəsilə hedcinq.

Məsələn, müəyyən əmtəəni nizamlı alan şirkət, fyuçers üzrə uzun mövqe götürməklə gələcəkdə qiymət artmasına qarşı sığortalana bilər.

- **Uzun mövqe**
  Long (long position)

Səhm və ya istiqraz üzrə uzun mövqe, investorun qiymətli kağıza sahib olması və nəticədə qiymət artdıqda mənfəət qazanacağını ifadə edir. Fyuçers müqaviləsi uzun mövqe investorun, fyçers kontraktının qiyməti artdıqda mənfəət qazanacağını göstərir.

Məsələn, Apple şirkətinin səhmlərinə malik olan şəxs Apple-da uzun mövqeyə sahibdir.

- **Uzunmüddətli aktivlər**
  Long-term assets

İstifadəsi bir neçə il nəzərdə tutulan aktivlərdir (əsas vəsaitlər, kapital, yaxud başqa maliyyə qoyuluşları, qeyri-maddi aktivlər).

- **Uzunmüddətli borc (öhdəlik)**
  Long-term debt

Ödəniş müddəti 5 ildən çox olan, kreditlər və qiymətli kağızlar da daxil olmaqla, bütün maliyyələşdirmə mənbələri üzrə borclar.

- **Uzunmüddətli gəlir və zərər**
  Long-term gain & long-term loss

12 aydan çox müddətdə eyni şəxsə məxsus olan aktivlərin satışından gəlir və ya zərərlər.

- **Uzunmüddətli xəzinə istiqrazları**
  Treasury bond

Öhdəlik müddəti 10 il və ya daha uzun müddətli olan dövlət borc qiymətli kağızları.

- **Uzunmüddətli investisiyalar**
  Long-range investment (long-term investment)

Iqtisadiyyatın müxtəlif sahələrinə uzunmüddətli kapital qoyuluşudur, başqa sözlə, sənayeyə, kənd təsərrüfatına, nəqliyyata və digər təsərrüfat sahələrinə uzunmüddətli kapital qoyuluşu formasında reallaşan məsrəflərin məcmusudur. Uzunmüddətli investisiyalar istehsal amillərinin alınmasına istifadə

olunur və uzun müddət ərzində öz xərcini ödəyirlər. Ümumi (məcmu) və xalis investisiyalar fərqləndirilir. Ümumi investisiyalar amortizasiya ayırmalarından və xalis investisiyalardan ibarətdir. Amortizasiya ayırmaları istehsala qoyulmuş kapitalın ödənilməsini əks etdirir. Xalis investisiyalar istehsala əlavə qoyuluşlar hesabına kapitalın artımını əks etdirir.

Əgər istehsalın genişlənməsi üçün xüsusi gəlirlər çatışmırsa, müəssisə əlavə pul vəsaitləri axtarmalı olur.

Beləliklə investisiya iki mənbədən: (i) müəssisələrin xüsusi yığımlarından (mənfəət, amortizasiya ayırmaları) və (ii) borc yığımlarından (digər müəssisələrin, əhalinin müvəqqəti sərbəst vəsaitləri) formalaşır.

- **Uzunmüddətli istiqraz**
  Long-term (long) bond

Dövriyyə müddəti 3 ildən artıq olan istiqrazlardır.

- **Üçüncü dərəcəli bazar**
  Third market

Fond birjasının üzvü olmayan brokerlərin, dilerlərin və institusional investorların birjada kotirovkada olan qiymətli kağızlarla alqı-satqı etdikləri birjadan kənar bazar. ABŞ-da belə bazar 1950-ci illərdə yaranmışdır.

- **Üfüqi spred**
  Horizontal spread

Alış və satış müqavilələrini eyni qiymətə, lakin valetlilikdə gözlənilən dəyişikliklər baxımından müxtəlif müddətlərdə həyata keçirilməsini ehtiva edən opsion strategiyası.

- **Ümidsiz borc**
  Bad debt

Borclu subyektin maliyyə durumundan, o cümlədən borc öhdəliyini icra etmək qabiliyyəti aşağı olmasından asılı olaraq qaytarılmaq ehtimalı az olan debitor borc.

- **Ümumi (məcmu) faiz**
  Gross interest

Gəlirdən vergili xərclər çıxılmadan hesablanmış faiz dərəcəsi və ya faiz məbləği.

- **Ümumi (məcmu) gəlir**
  Gross-profit (gross profit)

Vergi ödənişləri də daxil olmaqla bütün xərclər nəzərə alınmaqla investorun yatırdığı kapitaldan əldə etdiyi gəlir.

- **Ümumi (məcmu)**
  Gross

1) Tara və qablaşma ilə birlikdə əmtəənin çəkisidir (netto çəkisi ilə müqayisə et);

2) Müəssisənin fəaliyyətinin vergilərin ödənilməsinə qədər hesablanan maliyyə göstəriciləridir. Məsələn, brutto gəlir – vergilər çıxılmadan ümumi gəlirdir; brutto mənfəət – vergilərin ödənilməsinə qədər balans mənfəətidir; brutto satış – müəssisənin satışının ümumi dəyəridir; brutto faizlər – tutulan vergilər ödənilənə qədər hesablanan faiz tədiyyələridir;

3) Sığorta əməliyyatlarının aparılması üzrə xərclərin ödənilməsi üçün əlavələrin və netto-dərəcələrin cəmi kimi hesablanan sığorta tədiyyələrinin tarif dərəcəsidir.

- **Ümumi aktivlər**
  Total assets

Hər hansı bir təşkilatın (bankın, şirkətin və s.) büün aktivlərinin dəyəri (mühasibat balansının yekunu).

- **Ümumi balans**
  General balance

Müəyyən edilmiş tarixə şirkətin aktiv, passiv və kapital məbləğini göstərən qısaldılmış maliyyə hesabatı. Dollar məbləği ilə ümumi balans şirkətin nəyə sahib olduğunu və onun səhmdarlarının şirkət kapitalındakı payını əks etdirir.

- **Ümumi borc**
  Total debt

Müəssisənin ümumi borcu. Kredit, əməkhaqqı və digər ödənişlər, kreditor borcları və digər borc öhdəlikləri üzrə borcların ümumi məbləğidir.

- **Ümumi daxili məhsul (ÜDM)**
  Gross domestic product (GDP)

İl ərzində ölkənin maddi istehsal və qeyri-maddi xidmətlər sahəsində iqtisadi vahidlərin – rezidentlərin istehsal fəaliyyətinin son nəticəsi olaraq son istehlak məqsədləri üçün mal və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlərin məcmusu. ÜDM milli hesablar sisteminin ən mühüm göstəricilərindən biri

kimi ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini xarakterizə etməyə imkan verir. ÜDM-nin hesablanmasında bir neçə üsuldan istifadə olunur. ÜDM hesablanmasının gəlirlər üsulunda istehsal olunan məhsul və xidmətlərin istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərin əmək haqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği toplanır. Gəlirlər üsulu ilə ÜDM aşağıdakı kimi hesablanır:

İşçilərin əmək haqqı ödənişləri + müəssisələrin əməliyyat qalığı, o cümlədən amortizasiya = faktor dəyəri üzrə ÜDM + subsidiyaları çıxmaqla mallar üzrə vergilər = bazar qiymətləri üzrə ÜDM +xaricdən əldə olunan xalis gəlirlər = ümumi milli gəlir (ÜMG)

+ xalis mövcud xarici transfertlər = mövcud milli gəlir (MMG)

- amortizasiya (a) = xalis mövcud milli gəlir (XMMG)

ÜDM-dən istifadə edilməsi (xərclər üsulu) mal və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini, habelə mal və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir. Xərclər üsulu ilə ÜDM aşağıdakı kimi hesablanır:

Özəl sektorun istehlakı + ümumi dövlət istehlakı + malların və xidmətlərin ixracı- malların və xidmətlərin idxalı = bazar qiymətləri üzrə ÜDM.

- **Ümumi ipoteka istiqrazı**
  General mortgage bond

Şirkətin mülkiyyətində ümumi girovla təmin edilmiş, lakin bir və ya bir neçə digər ipotekalarla müqayisə oluna bilən istiqraz.

Borcalanın konkret aktivləri ilə deyil, bütün əmlakı ilə təmin edilmiş ipoteka istiqrazlarıdır.

- **Üstün hüquqa malik təminatlı borc**
  Senior secured debt

Müflislik halında ilk növbədə ödənilən təminatlı borc.

- **Üstün hüquqa malik təminatsız borc**
  Senior unsecured debt

Müflislik halında bütün təminatsız və subordinasiyalaşdırılmış borclardan öncə ödənilən təminatsız borc.

- **Üstündən atma**
  Flipping

Bazar iştirakçılarının ilkin yerləşdirilən qiymətli kağızı təklif olunan qiymətdə alaraq və ilkin yerləşdirmə sonrasında həmin qiymətli kağızın qiyməti çox artıqda onu dərhal satmaqla böyük mənfəət əldə etmələridir.

- **Üzən borc**
  Floating debt

Təsbit edilmiş faiz dərəcəsi ilə borca əks olan üzən faiz dərəcəsi ilə borc.

- **Üzən faiz dərəcəli not**
  Floating rate note (FRN)

Faizinin davamlı olaraq nəzərdən keçirildiyi istiqraz növlərindən biridir (məsələn, baza dəyəri LİBOR + təsbit edilmiş marja). Baza dəyərinin dəyişməsinin ardından bu istiqrazlar üzrə faiz dərəcələri də dəyişir. Avrobazarda geniş istifadə olunur.

- **Üzən faizli istiqraz**
  Floating rate bond

Kupon dərəcəsi sabit deyil dəyişkən olan istiqraz.

Bu istiqrazların kupon dərəcələri adətən pul bazarının faiz dərəcəsinə (məsələn LİBOR) bağlanır və üzərinə spred əlavə olunur. Pul bazarının faiz dərəcəsi daim dəyişdiyi üçün istiqrazın kupon dərəcəsi də dəyişir.

- **Üzən valyuta məzənnəsi**
  Floating exchange rates

Xarici valyuta bazarında ölkənin valyutasının digər ölkələrin valyutasına nisbətdə məzənnəsinin tələb və təklif nəticəsində formalaşması rejimi. Üzən valyuta məzənnəsi xarici valyuta bazarında sərbəst şəkildə dəyişir.

- **Üzərində göstərilən (nominal) dəyər**
  Face value (nominal value)

Qiymətli kağızın emitent tərəfindən müəyyənləşdirildiyi nominal dəyəri. Səhm üçün bu səhmlərin üzərində əks olunan nominal qiymətdir. İstiqrazlar üçün bu istiqrazın müddəti bitmə tarixində ödəniləcək məbləğdir. Emitent tərəfindən qiymətli kağıza verilən ilkin dəyər. Qiymətli kağızın üzərində əks olunan və bazar dəyərindən fərqli olaraq dəyişməyən dəyər.

- **Üzv korporasiya**
  Member corporation

Korporasiyanın əməkdaşı və ya işçisi olan Nyu York Fond Birjasının ən azı bir üzvünün iştirakı ilə korporasiya qismində yaradılan qiymətli kağızlar üzrə broker şirkəti.

- **Üzv şirkət**
  Member firm

Nyu York Fond Birjasının ən azı bir üzvü qismində əsas tərəfdaş və ya işçiyə malik və tərəfdaşlıq əsasında yaradılan qiymətli kağızlar üzrə broker şirkəti.

- **Üzv təşkilat**
  Member organization

Termin Nyu York Fond Birjasının üzv şirkətlərini və üzv korporasiyalarını əhatə edir.

- **Üzv**
  Member

1) Hər hansı bir təşkilatın, birliyin və ya qurumun üzvü;

2) Fond Birjası tərəfindən təsdiq edilmiş və üzv olan şirkət tərəfindən ticarət zalında əməliyyatları həyata keçirməyə təyin edilmiş şəxs.

- **Vaxtı uzadıla bilən istiqraz**
  Extendible bond

Şərtləri ilkin ödəmə müddətindən sonrakı dövr üçün yenidən dəyişdirilmiş istiqraz. Bir qayda olaraq, həm debitorun və həm də investorun bu dəyişdirilmiş şərtlərdə istiqrazları almaq hüquqları olur.

- **Vaxtından əvvəl geri alına (ödənilə, geri çağrıla) bilən**
  Callable

Vaxtından əvvəl geri alına bilən istiqraz öz sahibinə onu göstərilən geri alma tarixində göstərilən geri alma qiyməti qarşılığında vaxtında əvvəl geri almaq hüququ verir.

- **Vaxtından əvvəl geri alma (ödəmə, geri çağırma) şərtləri**
  Call provision

İstiqraza dair müqavilədə göstərilən onu buraxmış tərəfə ödəniş tarixindən əvvəl buraxılışı bütünlüklə və ya tam geri almaq hüququ verən şərtdir.

- **Vaxtından əvvəl istifadə**
  Early exercise

Opsion və ya digər qiymətli kağızın son istifadə tarixindən əvvəl istifadə olunması. Avropa opsionları vaxtından əvvəl istifadə hüququ verməsə də, Amerika opsionları vaxtında əvvəl istifadə hüququ verir.

- **Vaxtından əvvəl ödəmə**
  Early redemption

Emitent tərəfindən borc qiymətli kağızlarının müddəti bitmə tarixindən öncə geri alınması.

Emitent borca götürdüyü məbləği vaxtından əvvəl ödəyərək borc qiymətli kağızlarını geri alır.

- **Valorizasiya**
  Valorization

Dövlətin müdaxiləsi nəticəsində əmtəə, xidmət, yaxud maliyyə bazarında qiymətlərin qaldırılması. *V.* iqtisadiyyatın dövlət tənzimlənməsi alətlərindən biridir.

- **Valyuta (pul, pul tədavülü, tədavül vasitəsi)**
  Currency

1) Ölkənin pul vahidi (milli valyuta). Məsələn, manat (Azərbaycanda), dollar (ABŞ-da) və s.;

2) Ölkədə pul tədavülü.

3) Xarici ölkələrin pul vahidi (xarici valyuta), eləcə də beynəlxalq hesablaşmalarda istifadə olunan ödəniş, yaxud kredit vəsaitləri.

- **Valyuta borcu**
  Currency debt

İqtisadi subyektin (dövlətin, müəssisənin və s.-nin) xarici valyuta ilə cəlb etdiyi borc vəsaiti. Əksər hallarda dövlətin xarici kreditorlara olan borcu onun valyuta borcunu təşkil edir.

- **Valyuta böhranı**
  Exchange crisis

Valyuta bazarında qəfil uyğunsuzluqlar nəticəsində valyuta məzənnələrinin kəskin dəyişməsi, valyuta riskinin artması, dövlətin, eləcə də digər iqtisadi subyektlərin valyuta ehtiyatlarının dəyərsizləşməsi və ümumilikdə valyuta sferasında kritik vəziyyətin yaranması.

- **Valyuta kotirovkası**
  Exchange quotation

Ölkənin mərkəzi bankı, eləcə də bir sıra hallarda iri kommersiya bankları tərəfindən milli valyuta kursuna nisbətdə hər hansı xarici valyuta kursunun müəyyən edilməsi.

- **Valyuta məzənnəsi haqqında müqavilə**
  Exchange rate agreement

Törəmə valyuta maliyyə aləti olmaqla, xarici valyutanın mübadilə məzənnəsi üzrə razılaşmadır. Bu razılaşmaya görə ödəniş spot dərəcəsi ilə deyil, iki forvard məzənnəsi üzrə fərqə əsaslanır (məsələn, 3 aylıq və

6 aylıq forvard məzənnələri arasında fərq).

- **Valyuta məzənnəsinin fiksə edilməsi**
  Currency fixings

Bəzi bazarlarda gündəlik görüşlər keçirməklə alış və satış səviyyələrini bazarın vəziyyətinə uyğunlaşdırmaq məqsədilə müxtəlif valyutalar üzrə sabit məzənnələr müəyyən edilir. Adətən, müvafiq ölkənin mərkəzi bankları qiymət qoyuluşuna təsir etmək üçün bu prosesdə iştirak edirlər.

- **Valyuta mövqeyi**
  Currency position

Bankın, yaxud digər kredit təşkilatının xarici valyutada öhdəlikləri ilə yerləşdirmələri arasındakı nisbət.

$V_m = D_x / K_x$

Burada: V_m - valyuta mövqeyi; D_x - xarici valyutada olan öhdəliklər; K_x- xarici valyutada yerləşdirilən vəsaitlər.

V_m=1, yəni D_x= K_x olduqda qapalı valyuta mövqeyi, əks halda isə açıq valyuta mövqeyi adlanır.

- **Valyuta mükafatı**
  Exchange premium

Müəyyən müddət ərzində valyutanın bazar məzənnəsinin təsbit edilmiş rəsmi məzənnəyə nisbətdə artım səviyyəsi. Məs, rəsmi məzənnəyə görə 1USD=0,80 AZN, bazar məzənnəsinə görə isə 1USD=0.81 AZN təşkil edirsə, valyuta mükafatı 0,01 AZN, yaxud 1,25% -ə bərabər olacaqdır.

- **Valyuta riski**
  Currency risk

Valyuta məzənnələrinin dəyişməsi nəticəsində zərər etmə riski. İnvestorlar və ya şirkətlər öz doğma ölkələrindən kənarda əməliyyatlar apardıqları zaman valyuta riski ilə üzləşirlər. İnvestorlar və ya şirkətlər valyuta riskindən qorunmaq üçün bu riskə qarşı müxtəlif hedcinq üsullarından istifadə edə bilərlər.

- **Valyuta səbəti**
  Currency basket

Bir qrup valyutanın bir qrup digər valyutalara nisbətdə orta məzənnəsini hesablamaq üçün təsbit edilən ölçü vahidi. *V.s.*-dən beynəlxalq maliyyə-kredit münasibətləri üzrə hesablaşmalarda, qiymətli kağız indekslərinin hesablanmasında istifadə olunur. Məsələn, SDR BVF çərçivəsində istifadə olunan valyuta səbətidir. Bu valyuta səbətinə 3 ölkənin milli valyutası – ABŞ dolları, funt sterlinq, Yapon yeni və bir kollektiv valyuta – avro daxildir.

- **Valyuta siyasəti**
  Foreign exchange policy

Iqtisadiyyatın dövlət tənzimlənməsi, o cümlədən pul-kredit siyasətinin tərkib hissəsi olub dövlət tərəfindən ölkə daxili valyuta bazarında xarici valyutanın alqı-satqısı yolu ilə milli valyuta məzənnəsinin tənzimlənməsi.

- **Valyuta svopu**
  Foreign exchange swap

Bir valyutanın digərinə nəzərən müxtəlif periodlar üzrə (adətən nağd və forvard) eyni vaxtda alınması və satılması.

Bu növ svopda, iki tərəf arasında müəyyən gün üçün valyuta mübadiləsi üzrə məzənnə və gələcəkdə bir gün üçün əks mübadilə üzrə məzənnə razılaşdırılır.

- **Valyuta şurası**
  Currency board

Milli valyutasını digər bir valyutaya (məsələn, dollar və ya avroya) bağlayan və təsbit olunmuş mübadilə məzənnəsi rejimi tətbiq edən ölkələrdə valyuta siyasətinə məsul olan maliyyə qurumudur. Belə valyuta siyasəti həyata keçirən ölkələr milli valyutada pullarının təsbit edilmiş mübadilə məzənnəsi üzrə istinad edilən valyutaya tam dönərliliyinə zəmanət verir. Bu zəmanətə görə, ölkə sahib olduğu xarici valyutanın həcmindən çox milli valyutada pul buraxa bilməz. Odur ki, bu ölkələr müstəqil pul siyasəti həyata keçirmək imkanına malik olmurlar və milli pul kütləsinin həcmi ölkənin malik olduğu valyuta ehtiyatlarının həcmindən asılı olaraq avtomatik tənzimlənir. Milli valyutanın əlavə emissiyası Mərkəzi Bank tərəfindən xarici valyuta alınması halında mümkün olur. Belə rejimdə Milli Bankın funksiyası kommersiya banklarının fəaliyyətinə prudensial nəzarəti həyata keçirməklə məhdudlaşır. Bu sistem əlavə pul emissiyası yolu ilə müəyyən əməliyyatlar üzrə dövlət xərclərinin maliyyələşdirilməsinin və beləliklə də, inflyasiyanın qarşısını alır.

- **Vanil istiqrazları**
  Vanilla bond

Qeyri adi xüsusiyyətlərə malik olmayan, sabit kupon ödəmələri olan və son ödəmə tarixində öhdəlik üzrə tam məbləğdə ödənilən istiqrazlar.

- **Varrant**
  Warrant

Sahibinə qiymətli kağızları müəyyən müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə almaq hüququ verən törəmə alətdir.

- **Veksel krediti**
  Paper credit

Bankın və ya digər kredit təşkilatının veksel sahibinə, veksel təqdim etdiyi şəxsə borc müddəti bitməmişdən öncə vekselin üzərində göstərilmiş məbləğ həcmində təqdim etdiyi kredit vəsaiti.

- **Veksel tədavülü**
  Paper circulation
  (circulation of bills)

Vekselin pul sənədi formasında tədavül sferasında hərəkəti, o cümlədən bir iqtisadi subyektdən digərinə verilməsi, təsbit olunmuş müddətdən sonra geri qaytarılması və s.

- **Veksel**
  Bill (promissory note, commercial paper, bill of exchange, circulating notes)

Veksellər müəyyən borc öhdəliklərini əks etdirən orderli qiymətli kağızlardır. Veksel verən veksel vasitəsi ilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli) və ya hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel).

- **Vekselin ikinci nüsxəsi**
  Second bill

Köçürmə vekselin ikinci nüsxəsi. Köçürmə vekselin itməsi və ya vaxtında ödəniş yerinə çatmasını sığortalamaq məqsədilə yazılır.

- **Vekselin protesti**
  Protestation of a bill
  (protest of a bill)

Vekseli təqdim edən şəxsin – borc alan subyektin və ya akseptantın müəyyən olunmuş müddətdən sonra borc məbləğinin ödənişindən qismən, yaxud tam imtina etməsi.

- **Veqa**
  Vega

Baza aktivinin qiymətinin 1 faiz valetliliyi nəticəsində opsionun qiymətindəki dəyişilmə həcmi.

- **Vençur əməliyyatlari**
  Venture operation

Yeni layihələrin, elmi-texniki kəşflərin, ixtiraların maliyyələşdirilməsi istiqamətində aparılan qiymətli kağızlarla əməliyyatlar və pul-kredit əməliyyatları.

- **Vergi bazası**
  Tax base

Vergiqoyma obyektinin dəyər xarakteristikası, yaxud, vergi obyektinin ümumi məbləği. Məsələn, vergiyə cəlb edilən mənfəətin və ya əmlakın ümumi məbləği.

- **Vergi ödənişindən öncəki gəlir**
  Earnings before tax (EBT)

Vergi ödənişindən öncəki gəlir müəssisənin gəlirindən xərclərini (vergi ödənişləri istisna olmaqla) çıxmaq üsulu ilə hesablanır.

Vergi ödənişindən öncəki gəlir müxtəlif vergi qanunvericiliyinə əsasən fəaliyyət göstərən şirkətlərin fəaliyyətini müqayisə etmə imkanı verən göstəricidir.

- **Vergi Sığınacağı**
  Tax shelter

Vergi yükünün azaldılması və ya yox edilməsi vasitələri. Məsələn, vergiyə cəlb olunmayan qiymətli kağızlar və ya digər maliyyə alətləri alınması, vergi güzəştlərindən, vergilərin ödənilməsinin təxirə salınması və sürətli amortizasiya sxemlərindən istifadə olunması.

- **Vergi və faiz xərclərindən öncəki gəlir**
  Earnings before interest and tax (EBIT)

Müəssisənin gəlirlik göstəricisi olub onun gəlirindən xərclərini (vergi və faiz ödənişləri istisna olmaqla) çıxmaq üsulu ilə hesablanır. Vergi və faiz ödənişlərini istisna etməklə şirkətin fəaliyyəti nəticəsində əldə etdiyi gəlir ortaya çıxır.

- **Vergidən azad qiymətli kağızlar**
  Tax-exempt securities

Vergi yığmaq səlahiyyəti olan ştat, şəhər, rayon və digər dövlət orqanlarının munisipal istiqrazları. Bu istiqrazlar üzrə gəlirlər vergidən azad edilir. Lakin bu cür istiqrazlara satışdan əldə olunan əlavə kapitala, mülkiyyət və vərəsəlik üzrə vergilər aid deyil.

- **Vərəqə**
  Sheets

Birjadan kənar dövriyyədə olan qiymətli kağızların kotirovkasının rəsmi siyahısı. Siyahı üzrə vərəqələr qırmızı, istiqrazlar isə sarı vərəqədə dərc edilir.

- **Volatillik (dəyişkənlik) təhlili (qeyri-sabitliyin təhlili)**
  Volatility analysis

Qeyri-sabitliyin təhlili bazar qiymətlərində təsadüfi dəyişiklik dərəcəsini ölçür.

- **Volatillik (dəyişkənlik, qeyri-sabitlik)**
  Volatility

Maliyyə alətinin risk göstəricisi. Qiymətli kağızın müəyyən dövr ərzində gəlirliklərinin standard kənarlaşması kimi hesablanır. Alətin volatilliyinin az olması investorlara daha stabil gəlirlik vəd edir. Valetlilik tarixi və ya nəzərdə tutulan ola bilər.

- **Yaxşı tədarük**
  Good delivery

Bazarda satılmış qiymətli kağızların çatdırılmasından öncə yerinə yetirilməli olan bəzi işlər. Qiymətli kağız alıcıya satış müqaviləsinə və transfer şərtlərinə uyğun formada təqdim olunmalıdır.

- **Yaxşılaşma**
  Upgrade

Qiymətli kağızın reytinqində müsbət dəyişikliklərin edilməsi. Bu hal təhlil nəticəsində müəssisənin cari və ya gələcək fəaliyyətində və ya müəssisənin fəaliyyət göstərdiyi sektorda irəliləmələrin müəyyən olunması zamanı baş verir.

- **"Yalın" mövqe**
  Naked position

Bazar (qiymət) riskinə qarşı qorunmayan (hedc olunmamış) uzun və ya qısa mövqe. Məsələn, opsionun əsaslandığı aktivə malik olmayan "Koll" opsionunun satıcısının mövqeyi və ya Koka-kola şirkətinin 100 səhminə malik investorun mövqeyi.

- **"Yalın" varrant**
  Naked warrant

Müşayiətedici qiymətli kağız olmadan buraxılan varrant. Adətən, banklar və qiymətli kağız anderayterləri tərəfindən buraxılır. Əsas qiymətli kağızın qəbul edilməsi və ya çatdırılması əvəzinə nağd pul ödənişlərindən istifadə olunur.

- **Yastı gəlirli istiqraz**
  Flat income bond

Bu termin istiqrazın satıldığı qiymətin bütün ödənilməmiş faizləri də daxil etməsini göstərir. Bu halda ödənilməmiş faizləri almaq hüququ da alıcıya keçir. Adətən, belə istiqrazlar ödəniş qabiliyyəti olmayan şirkətlərin istiqrazları olurlar.

- **Yastı**
  Flat

1) Bazarda müəyyən dövr ərzində qiymətlərin nisbi sabitliyinin müşahidə olunduğu vəziyyət. Belə vəziyyət bazarda möhtəkirlik məqsədi daşıyan sövdələşmələrin həyata keçirilməsinə imkan vermir. Adətən, belə vəziyyətin qiymət qrafikində təsviri üfiqi parça kimi görünür;

2) Artımsız faizlə alınıb-satılan istiqrazlar;

3) İstiqraza görə faiz məbləğinin istiqrazın məzənnəsinə daxil edil-

məsi. Dövri olaraq faiz ödənişləri istiqrazın məzənnəsinə daxil edildiyi üçün sonda bu cür istiqrazlara görə sonradan faiz hesablanmır.

4) Bazar və ya maliyyə alətləri üzrə mövqelərin tarazlı vəziyyətdə olması, nə çox uzun, nə də çox qısa mövqelərin olmaması.

- **"Yaşıl poçt" ("yaşıl şantaj")**
  Greenmail

Şirkətin səhmlərinin böyük hissəsini əldə edərək bu şirkətə tam sahiblik iddiasını irəli sürməklə şantaj edərək öz səhmlərini şirkətə daha yüksək qiymətlə geri satılması. Bu zaman səhmlərini yüksək qiymətə geri alan şirkət qarşı tərəf.

- **Yekun divident**
  Final dividend

Maliyyə ilinin son dövrü üzrə Direktorlar Şurasının tövsiyyəsi və səhmdarların illik ümumi yığıncağının təsdiqi əsasında şirkət tərəfindən səhmdarlara ödənilən divident.

- **Yeni oferta**
  New offer

Oferta üçün gecikmiş aksept yeni oferta sayılır. Əgər cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılıq ifadə olunmuşsa, belə cavab ofertadan imtina və eyni zamanda yeni təklif sayılır.

- **Yeni səhmlərin emissiyası**
  Rights issue

Şirkətin əlavə vəsait əldə etməsi üçün yeni səhmlər buraxması. Bu yeni səhmlər ilk növbədə mövcud səhmdarlara təklif olunur və səhmdarlara malik olduqları hər bir səhm müqabilində əlavə səhmlər almaq imkanı verir. Məsələn, üçə-iki yeni səhmin emissiyası mövcud səhmdarlara malik olduqları hər üç səhm müqabilində iki əlavə səhm almaq imkanı verir. Yeni səhmlər bazarda da satıla bilər.

- **Yenidən investisiya riski**
  Reinvestment risk

İnvestisiyadan gələcək gəlirlərin daha aşağı gəlirlik səviyyəsində investisiya olunacağı riski. Reinvestisiya riski faiz dərəcələrinin aşağı düşdüyü dövrdə daha da qabarıqlaşır. Məsələn, bu dövrdə istiqraz sahibləri istiqrazların vaxtı bitdikdə daha aşağı gəlirlikli istiqrazlara investisiya etməli olurlar.

- **Yenidən investisiya**
  Reinvestment

Əməliyyatları artırmaq məqsədi ilə gəlirləri yenidən şirkətə yatırmaq. Səhm sahibi əldə edilən dividentləri yeni səhmlər almaqla yenidən yerləşdirə bilər.

- **Yenidən kreditləşmə (maliyyələşmə)**
  Roll over (rollover)

1) Ödəniş müddəti çatmış qiymətli kağızların eyni və ya oxşar qiymətli kağızlar buraxılması yolu ilə əvəzlənməsi əsasında fondların yenidən maliyyələşdirilməsi;

2) Vergi nəticələri yaratmadan (və ya vergi güzəştlərini saxlamaqla) toplanmış vəsaitlərin bir investisiya qoyuluşu formasından (və ya maliyyə qurumundan) digərinə köçürülməsi. Bu mənada göstərilən termin, əsasən, vəsaitlərin bir pensiya planından digərinə köçürülməsini ifadə etmək üçün işlədilir;

3) Açıq mövqelərini növbəti ticarət gününə keçirən Forex investorlarının məruz qaldığı xərclər.

- **Yenidən maliyyələşdirmə**
  Refinancing

1) Ödəniş vaxtı çatmış borc öhdəlikli qiymətli kağızların (veksellərin, xəzinə bonların və s.) Yeni qiymətli kağızların tədavülə buraxılması yolu ilə maliyyələşdirilməsi.

2) Borc müddətinin uzadılması.

3) Borc öhdəlikli qiymətli kağızların uçotu əsasında ölkənin mərkəzi bankı tərəfindən həyata keçirilən pul-kredit siyasətinin alətlərindən biri.

4) Kreditləşdirmə, xüsusilə cari kredit əməliyyatlarını həyata keçirmək məqsədilə kommersiya bankları tərəfindən pul vəsaitlərinin mobilizasiyası, səfərbər edilməsi.

- **Yenidən uçota alma**
  Rediscount

Bazarın canlanmasına, o cümlədən likvidliyin artmasına və kreditə artan tələbin qarşılanmasına kömək etmək məqsədilə artıq hər hansı maliyyə qurumları (adətən kommersiya bankalrı) tərəfindən uçota alınmış qısamüddətli sərbəst dövr edən dövlət və ya digər borc alətlərinin ödəniş müddəti başa çatmazdan əvvəl Mərkəzi Bank tərəfindən yenidən uçota alınması.

- **Yer (üzvlük)**
  Seat

1) Derivativlər bazarında istifadə edilən termindir. "Yer" birjada əməliyyatlar aparmağa icazə verən üzvlük hüqugudur. "Yer" satın alına və ya satıla bilər və onun qiyməti yüksəliş potensialı və birjanın perspektivliyini əks etdirir;

2) Fond birjasında üzvlük.

- **Yetərincə kapitallaşmamış**
  Undercapitalized

Müəssisə öz fəaliyyətini dəstəkləmək və ehtiyac duyulan istənilən genişlənməni təmin etmək üçün sahibləri tərəfindən zəruri vəsaitlərlə təmin edilməməsi. Bu

hal düzgün maliyyə siyasətinin aparılması və kapitala olan tələbin yanlış qiymətləndirilməsi nəticəsində meydana çıxa bilər.

- **Yığım (ödəmə) fondu**
  Sinking fund

Alınmış borcun (və ya imtiyazlı səhmlərin) gələcəkdə sabit şəkildə və vaxtında ödənilməsi üçün müntəzəm sürətdə əlavə vəsaitlər yığılan fond.

- **Yığımlı (toplanan faizli, yığılan faizli) istiqraz**
  Accrual bond

Faiz gəliri hesablanan, lakin əsas məbləğinin ödənilmə tarixinə kimi ödənilməyən istiqraz. Bu istiqraz üzrə hesablanmış faiz gəlirləri onun əsas məbləğinin üzərinə toplanır və ödəmə tarixində investora ödənilir. Belə istiqrazlar sıfır kuponlu istiqrazlara oxşardır, lakin onlardan fərqli olaraq kupon dərəcəsinə malikdir.

- **Yuxardan aşağıya**
  Top down

Ümumi iqtisadiyyatın və iqtisadiyyatın müxtəlif sektorlarının təhlilinə əsaslanan investisiya strategiyası. İnvestor ümumi iqtisadi vəziyyəti təhlil etdikdən sonra sektorları, daha sonra isə bu sektorda olan səhmləri təhlil edərək investisiya qərarı verir.

- **Yuxarı həddd (limit)**
  Limit Up

Bir ticarət günü ərzində əmtəə fyuçersləri müqaviləsinin qiymətinin maksimal irəliləməsi.

Qiymət yuxarı həddə çatdıqda bəzi bazarlarda ticarət dayandırılır. Bəzi digər bazarlarda qiymət yuxarı həddən aşağı qayıtdıqda ticarət təkrar başladılır. Əmtəənin qiymətinə əhəmiyyətli dərəcədə təsir edəcək bir xəbər olduqda, fyuçers müqaviləsinin qiymətinin bu xəbəri əks etdirməsi bir neçə gün çəkə bilər və nəticədə bazar bir neçə ticarət günü yuxarı hədd səviyyəsinə çata və bu günlər ərzində ticarət baş verməyə bilər.

- **"Yuxarı və son" opsionu**
  Up and out option

Əsası səhm olan, bazar qiymətlərinin müəyyən həddən yuxarı qalxması ilə əlaqədar olaraq icra müddətinin sonuna qədər ödənilməyən opsionlar.

- **Yüksək risklə təsnifləşdirilmiş aktivlər**
  Assets classified with high risk

Qeyri-qənaətbəxş, təhlükəli və ya ümidsiz təsnifləşdirmə kateqoriyasına aid edilmiş aktivlər.

- **Yüksəlmə meyili (artan, "öküzvari")**
  Bullish

1) Qiymətlərin artması meyili müşahidə olunan bazar;

2) Bazarda qiymətlərin artmasını şərtləndirən amillər;

3) Bazar iştirakçıları arasında qiymətlərin artmasına inam yaradılması (adətən, bazar iştirakçıları arasında belə əhval-ruhiyyənin yaranması bazarda qiymətlərin artmasına səbəb olur ki, bu da möhtəkirlər üçün əlverişli şərait yaradır).

- **Yüksəlmə-enmə (artma-azalma) xətti**
  Advance-decline line

Texniki təhlildə bazarın fəallığının müəyyənləşdirilməsi üçün istifadə olunan əsas indiqatorlardan biri olan yüksəlmə-enmə (artma-azalma) indeksinin dinamikasını əks etdirən xətt. Başqa sözlə, qiymətləri artan səhmlərin sayının (və ya kapitallaşmasının) qiymətləri aşağı düşən səhmlərin sayına (kapitallaşmasına) nisbətinin (fərqinin) və ya qiymətləri artan səhmlərin emitentlərinin sayının qiymətləri aşağı düşən səhmlərin emitentlərinin sayına nisbətinin (fərqinin) dinamikasını əks etdirən xətt.

- **Zaman intervalı (müddət (ödənişədək))**
  Duration

1) Hər hansı bir prosesin sürəkliliyi (davam etdiyi müddət);

2) Müqavilənin qüvvədə olduğu müddət;

3) Müəyyən zaman intervalı;

4) Müəyyən bir prosesin müddətinin uzandığı dövr;

5) Maliyyə axınları və qiymətli kağızlar üzrə ödənişədək keşən orta müddət. Bu müddət ödəniş riskini və qiymətli kağızların faiz riskini xarakterizə edir. Bu kəmiyyəti qiymətləndirmək üçün müxtəlif əmsallardan istifadə olunur. İstiqrazlar üçün belə bir əmsal onların ödəniş tarixinədək müddətinin istiqrazların dövriyyədə olan həcminə görə ölçülməsidir. Bu göstərici nə qədər yüksək olarsa, istiqraz üzrə faiz riski də o qədər yüksək olar. Bu məqsədlə ən çox istifadə olunan Makulay əmsalıdır ki, onu da aşağıdakı düstur vasitəsilə hesablayırlar:

$$D = \frac{\sum_{i=1}^{N} (PV_i \times T_i)}{\sum PV_i}$$

Burada:

◦ PV_i — gələcək ödənişlərin (kupon və əsas) cari dəyərini;

◦ T_i — ödənişlərin daxil olma dövrünü - 1,2,3,4…N;

◦ N — dövrlərin sayını göstərir.

- **Zamin**
  Trustee

Emitent tərəfindən fondların saxlayıcısı və istiqraz sahibinin rəsmi nümayəndəsi kimi təyin edilən bank.

- **Zebras**
  Zebras

Böyük Britaniya hökuməti tərəfindən beynəlxalq maliyyə bazarında tədavülə buraxılan, funt-sterlinq ilə ifadə olunmuş kuponsuz istiqraz vərəqələri (Sıfır Kuponlu Avrosterlinq Təqdimatçı Səhmi ifadəsinin abreviaturası).

- **Zəhər**
  Toxic

Defolta düşmək ehtimalının çox böyük olduğu olduqca yüksək riskli sərmayə

- **"Zəhərli həb"**
  Poison pill

Şirkət üçün arzuolunmaz alış təklifinin qarşısının alınması məqsədilə istifadə olunan strategiya. Məsələn, mövcud səhmdarlara əlavə imtiyazların verilməsi (yeni səhmləri daha ucuz əldə etmək imkanı və s.).

- **Zəmanətli anderraytinq**
  Standby underwriting

Anderrayterin ilkin yerləşdirmədən sonra yerdə qalan qiymətli kağızların alacağına zəmanət verdiyi anderraytinq prosesi.

- **Zəmanətli səhm**
  Guaranteed stock

Emitentdən fərqli üçüncü şəxs tərəfindən (i) dividentlərinin ödənilməsinə zəmanət verilən səhmlər (xüsusən də imtiyazlı səhmlər); (ii) faiz gəlirlərinin və əsas məbləğinin ödənilməsinə zəmanət verilən istiqrazlar.

- **Zərərsizlik nöqtəsi (minimum gəlir səviyyəsi)**
  Break-even point (BEP))

İnvestisiyadan gələn gəlirin xərclərə bərabər olduğu səviyyə.

Bizneslər üçün minimum gəlir səviyyəsinə çatmaq gəlirli olmaq üçün ilkin addımdır.

- **Ziyanda olan opsion**
  Out of the money

Opsionun istifadə qiymətinin baza aktivinin qiymətindən yüksək olduğu hal. Opsionun vaxtı bitdikdə bu tip opsion dəyərsiz olur.

- **10-K forması**
  Form 10-K

Bütün səhmdar cəmiyyətlər tərəfindən büdcə ili başa çatdıqdan sonra Qiymətli Kağızlar və

Birjalar üzrə Komissiyaya təqdim edilən şirkətin illik fəaliyyəti haqqında hərtərəfli yekun hesabatdır. Adətən, 10-K forması illik hesabatdan daha çox, şirkət haqqında təfsilatlı məlumatları əks etdirən sənəd xarakterinə malikdir. Bu formada şirkətin tarixi, təşkilati strukturu, aktivləri, holdinqləri, səhmə görə qazancı, filialları və s. kimi məlumatlar əks olunur. 10-K forması büdcə ili başa çatdıqdan sonra 60 gün (əvvəl 90 gün olmuşdur) müddətində təqdim edilməlidir.

- **10-Q forması**
  Form 10-Q

10-Q hər rübdən sonra bütün səhmdar cəmiyyətləri tərəfindən Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyaya təqdim edilən şirkətin fəaliyyəti haqqında hərtərəfli hesabatdır. 10-Q formasında şirkətlərdən onların maliyyə vəziyyətlərinə dair müvafiq məlumatları açıqlamaları tələb olunur. Forma vaxtında təqdim edilməlidir və məlumat bütün maraqlı tərəflərə açıq olmalıdır. 10-Q forması ilin ilk üç maliyyə rübünün hər biri üzrə həmin rüblərdən sonrakı 35 gün (əvvəllər 45 gün olmuşdur) ərzində təqdim olunmalıdır. Dördüncü rübdən sonra 10-K təqdim edildiyi üçün 10-Q-ni təqdim etməyə ehtiyac yoxdur.

- **501-(C)(3) istiqrazı**
  501-(C)(3) bond

Təhsil müəssisələri, məscidlər, kilsələr və digər xeyriyyə qrupları kimi gəlirsiz təşkilatlar üçün dövlət və ya yerli hakimiyyət orqanları tərəfindən buraxılan vergidən azad istiqrazdır. İstiqrazın bu növündən daha çox aşağı gəliri olan ali təhsil ocaqları, xəstəxanalar və s. təşkilatlar yararlanırlar. istiqrazın bu növü vergidən azad olduğu üçün, onun dərəcələri, adətən, standart maliyyələşdirmə formalarından aşağı olur.

- **72 qaydası**
  72 rule (rule of 72)

Müxtəlif faizlər üzrə qoyulan pulun ikiqat artımı üçün lazım olan illərin sayını hesablamaq qaydasıdır. 72 qaydasından istifadə etmək üçün, kapital qoyuluşundan gələn faizi 72-yə bölün. Cavab pulun ikiqat artımı üçün lazım olan illərin sayını göstərəcəkdir.

- **8-K Forması**
  Form 8-K

8-K Formasının bazara qiymətli kağız buraxan istənilən şirkət tərəfindən Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyaya təqdim olunması tələb olunur. Bu sənəddə şirkətin mövqeyinin və ya onun səhmlərinin qiymətinin dəyişməsinə təsir edə bilən bütün əhəmiyyətli hadisələr (məsələn, birləşmə və ya udulma, adının və ya ünvanının dəyişməsi, iflas, auditorlarının dəyişməsi) barədə ətraflı məlumat əks olunur.

SÖZLÜK

A2/P2 spread	A2/P2 spredi
Abandon (abandonment)	Abandon (imtina etmək)
Acceptance (accept)	Aksept (qəbul etmə, təsdiq etmə, razılıq)
Acceptance credit	Aksept krediti
Acceptance order	Aksept tapşırığı
Accepting house	Aksept evi
Acceptor	Akseptant
Accredited investor	Akkreditə olunmuş investor
Accrual bond	Yığımlı (toplanan faizli, yığılan faizli) istiqraz
Accrued interest	Toplanmış (yığılmış) faizlər
Acquisition	Akvizisiya (əldə etmə, satın alma)
Active market (tight market)	Aktiv bazar (fəal bazar)
Active operations	Aktiv əməliyyatlar
Actuarial calculations	Aktuar hesablamalar
Actuarial gains and losses	Aktuar mənfəət və zərər
Actuarial risk	Aktuar risk
Actuariat	Aktuariat
Addressant (addresser)	Göndərən (adresant)
Addressat (addressee)	Qəbul edən (adresat)
Adjustment bond	Tənzimləyici (təsisedici) istiqraz
Administrator	İnzibatçı (administrator)
Admonition	Admonisiya (ehtiyat tədbiri)
Advance-decline line	Yüksəlmə-enmə (artma-azalma) xətti
Affiliated persons (control persons)	Əlaqəli (aidiyyəti, afilə edilmiş) şəxslər
Affiliated persons of bank	Bankın əlaqəli (afilə edilmiş) şəxsləri
Affirmation	Təsdiqləmə (affirmasiya)
Aftermarket (after-market, after market, over-the-counter market)	Təkrar bazar (birjadankənar bazar, qeydiyyatdan keçməmiş qiymətli kağızların bazarı)
Aftermarket order	Təkrar bazar sifarişi (birjadankənar bazar sifarişi)
Agency cross (dual agency, put through)	İkitərəfli agent (çarpaz agent, dual agent)

Agent	Agent
Agent-transfer	Agent-transfer
Aggressive growth mutual fund (aggressive growth fund, maximum capital gains mutual fund, maximum capital gains fund, capital appreciation fund, capital appreciation mutual fund)	Riskli (qarşılıqlı) artım fondu (kapital gəlirliliyini (maksimum) artırmağa çalışan (qarşılıqlı) fond, kapitalını artırmağa çalışan (qarşılıqlı) fond)
Agio	Ajio
Agio-conto	Ajio – konto
Agiotage	Ajiotaj
Allonge	Allonj
All-or-none offering	"Hər şey və ya heç nə" prinsipi ilə təklif ("ol or nan" təklifi)
All-or-none order	"Hər şey və ya heç nə" prinsipi ilə sifariş (sərəncam) ("ol or nan" sifarişi (sərəncamı))
Allotment	Sifariş üzrə bölgü (Abunə (yazılış) əsasında bölgü)
Alpha	Alfa (alfa əmsalı)
American Depositary Receipt (ADR)	Amerikan Depozitar Qəbzi (ADQ)
American option (American-style option)	Amerikan tipli opsion
American Stock Exchange (AMEX)	Amerika Fond Birjası
Amortization	Amortizasiya
Amortization cost(s)	Amortizasiya dəyəri
Analyst	Analitik (təhlilçi, təhlil üzrə mütəxəssis)
Annual general meeting (AGM)	Səhmdarların ümumi yığıncağı (İllik ümumi yığıncaq)
Annual Rate	İllik göstərici (səviyyə, dərəcə)
Annual report	İllik hesabat
Annualized interest rate	İllik hesablı faiz dərəcəsi
Annualized rate	İllik hesablı səviyyə (dərəcə)
Annuity	Annuitet (maliyyə rentası)
Anticipation	Antisipasiya
Apportionment	Aport
Appreciation	Aktivin dəyərinin artması (bahalaşması)

Arbitrage	Arbitraj
Arbitrage transaction	Arbitraj sövdələşməsi
Arrearage	Müddəti keçmiş borc
Artificial capital (fictitious capital)	Fiktiv kapital
Ask (offer price, selling price)	Təklif qiyməti (satış qiyməti)
Asset (holding)	Avuar
Asset allocation	Aktivlərin yerləşdirilməsi (paylanması)
Asset management	Aktivlərin idarə edilməsi
Asset stripping	Aktivlərin bölünməsi (ayrılması)
Asset-backed securities (asset-based securities, ABS)	Aktivlərlə təmin edilmiş qiymətli kağızlar
Assets	Aktivlər
Assets classified with high risk	Yüksək risklə təsnifləşdirilmiş aktivlər
Assignment	Ötürmə (satma, həvalə etmə)
Association of broker	Broker assosiasiyası
At best	Ən yaxşı qiymətlə
At par	Alpari (nominal dəyər üzrə, paritet üzrə)
At the money	Pulda olmaq (öz dəyərində qalmaq)
Auction	Auksion (hərrac)
Auction market	Auksion bazarı (ikitərəfli auksion)
Auditor	Auditor
Auditor's report	Auditor hesabatı
Authorized broker (authorized trader)	Səlahiyyətli broker (səlahiyyətli treyder)
Authorized capital (authorized capital stock, authorized stock, authorized shares)	Buraxılışa icazəli səhmdar kapital (səhmlər)
Aval (allonge, bank guarantee, surety, collateral acceptance, collateral guarantee, collateral security)	Aval
Average total assets	Orta cəmi aktivlər
Averaging	Ortalama (averaj)
Back office	Arxa ofis (əməliyyat şöbəsi)
Back-end load	Çıxarış haqqı
Backwardation	Təxirə salmaya (möhlətə) görə haqq (bakvordasiya)
Bad debt	Ümidsiz borc

Baisse	Bessa
Balance sheet	Balans (balans hesabatı, balans cədvəli)
Ballot	Səsvermə (ballot)
Bank	Bank
Bank bill	Bank bileti
Bank branch (branch of a bank)	Bankın filialı
Bank certificate	Bank sertifikatı
Bank check	Bank çeki
Bank consortium	Bank konsorsiumu
Bank credit	Bank krediti
Bank department	Bankın şöbəsi
Bank diversification	Bank diversifikasiyası
Bank guarantee	Bank zəmanəti
Bank holding company	Bank holdinq şirkəti (bank holdinqi)
Bank risk	Bank riski
Bank syndicate	Bank sindikatı
Bankers' acceptances (BA)	Bank aksepti (bank tərəfindən akseptləşdirmə)
Banking	Bank işi (əməliyyatları)
Banking capital	Bank investisiyası
Banking licence (licence of bank)	Bank lisenziyası
Banko	Banko
Bankruptcy	Müflisləşmə (iflas)
Base currency	Baza valyutası
Base metals	Adi (oksidləşən, paslanan) metallar
Base period	Baza (bazis) dövrü
Baseline	Baza səviyyəsi
Basis	Bazis
Basis point	Baza dərəcəsi (baza dəyişmə bəndi)
Basis risk	Baza riski
Basis trading	Baza ticarəti
Bear	"Ayılar"
Bear market	"Ayı" bazarı
Bearer bond	Adsız istiqraz
Bearer security	Adsız qiymətli kağız
Bearer shares	Adsız səhmlər
Bearish	Enmə ("ayıvari") meyili

Bellwether bond	İstiqraz-barometr
Bellwether stock (barometer stock)	Səhm-barometr
Benchmark	Bençmark (müqayisə bazası)
Beneficial owner	Qiymətli kağızın həqiqi sahibi
Beneficiary	Benefisiar (faydalanan şəxs)
Best efforts offering	"Ən yaxşı səylər" prinsipi üzrə təklif
Beta	Beta əmsalı
BİBOR	BİBOR
Bid	Alış üzrə sifariş (təklif)
Bid and ask	Alıcı və satıcı qiyməti
Bid price	Alıcının qiyməti
Bid-ask quote	Alqı-satqı kotirovkası
Bid-ask spread	Alqı-satqı spredi
Big board	"Böyük tablo"
Bill (promissory note, commercial paper, circulating notes)	Veksel
Bill of exchange	Tratta (köçürmə veksel)
Bill of lading (letter of consignment)	Konosament
Binomial model	Binomial model
Black & Scholes model	Blek-Şulz modeli
Black knight	"Qara cəngavər"
Blank	Blank
Blank credit	Blank (etimad) krediti
Blanko-bill	Blanko-veksel
Blank-voucher	Blank-vauçer
Block	Paket (blok, qiymətli kağızlar toplusu)
Block trading	Paket (blok) ticarəti
Blotter	Qeydiyyat kitabı (jurnalı)
Blue chip stocks	Mavi kristal (mavi fişka) səhmləri
Blue sky laws	Kapital qoyuluşu üzərində nəzarət barədə qanunvericilik
Board of directors	Direktorlar Şurası (İdarə Heyəti)
Bond indenture	İstiqraz emissiyası müqaviləsi
Bond variable redemption	Dəyişən ödəniş dəyərli istiqraz
Bond washing	İstiqrazların yuyulması
Bonded debt	Borc istiqrazı

Bonifikation	Bonifikasiya
Bonus	Bonus
Book	Hesab kitabı (mühasibat kitabı)
Book entry (accounting entry)	Mühasibat yazılışı (hesabaalma)
Book price	Uçot qiyməti
Book runner	Qeydiyyat aparan (qeydçi)
Book value (balance sheet value, book cost, carrying value, carrying amount)	Balans (hesabaalma) dəyəri
Book value per share (BVPS)	Səhmin balans dəyəri
Book-building	Portfelin formalaşdırılması
Boom	Bum
Bottom up	Aşağıdan yuxarıya
Bought deal	Satın alınmış sövdələşmə
Break-even point (BEP)	Zərərsizlik nöqtəsi (minimum gəlir səviyyəsi)
Break-point	Dönmə (keçid) nöqtəsi
Broken IPO	"Sınmış" ilkin yerləşdirmə
Broker	Broker
Brokerage	Broker haqqı (brokerçilik)
Brokers' loans	Broker borcu (ssudası)
Bubble	Köpürdülmüş (fırıldaqçı) müəssisə ("sabun köpüyü", qondarma müəssisə)
Bucket shop	"Baket-şop" (köşk)
Bulge	Qabarma
Bull	"Öküzlər"
Bull market	"Öküz" bazarı
Bullish	Yüksəlmə meyili (artan, "öküzvari")
Bunny bond	"Dovşan" istiqrazı
Butterfly spread	"Kəpənək" spredi
Buy after sell limit order (B/S)	"Satandan sonra almaq" şərtli sifariş (sərəncam)
Buy back	Geri almaq (bay-bek)
Buydown	Baydaun
Buyer's market	Alıcının bazarı
Buy-side	Alan tərəf
CAC 40 index	CAC 40 indeksi
Calendar spread	Təqvim spredi

Call	Geri çağırma
Call loan	Geri çağırılan borc
Call option	Alıcı opsionu (“Koll” opsionu)
Call provision	Vaxtından əvvəl geri alma (ödəmə, geri çağırma) şərtləri
Callable	Vaxtından əvvəl geri alına (ödənilə, geri çağrıla) bilən
Callable security	Geri çağırıla bilən qiymətli kağız
Cambio	Kambio
Cambist	Kambist
Capital	Kapital
Capital adequacy	Kapitalın adekvatlığı (kapitalın kafilik norması)
Capital adequacy ratios	Kapitalın adekvatlıq əmsalları
Capital assets	Əsas kapital (əsas vəsaitlər (fondlar), uzunmüddətli maddi aktivlər)
Capital expenditure	Kapital xərcləri
capital gain	Kapitalın artımından gəlir
Capital loss	Kapital zərəri
Capital market	Kapital bazarı
Capital stock (shareholders’ equity)	Səhmdar kapitalı (əsas fondlar)
Capitalization	Kapitallaşma
Capitalization of interest	Faizin kapitallaşdırılması
Carrying charge	Saxlama xərcləri (ehtiyatların saxlanılması dəyəri, kreditin dəyəri, sabit xərclər)
Carve out	Ayrılma
Cash account	Pul vəsaitləri hesabı (nağd hesab, kassa hesabı)
Cash and carry trade	“Ödə və apar” ticarəti
Cash dividend	Nağd pul formasında divident (pul dividenti)
Cash equivalent	Nağd pul ekvivalenti (pul vəsaitləri ekvivalenti, pul ekvivalenti)
Cash flow	Nağd pul axını (pul (vəsaitləri) axını)
Cash flow return on investment (CFROI (%))	Pul axınları üzrə investisiyaların gəlirliliyi

Cash flow statement	Dövriyyə (pul) vəsaitləri balansı
Cash sale	Nağd pula satış (dərhal ödəniş əsasında satış)
Cash settlement	Nağd hesablaşma
Cash (spot) transaction (trade)	Adi (nağd) birja sövdələşməsi (ticarəti)
Central Bank (Banker's Bank)	Mərkəzi Bank ("Banklar Bankı")
Central bank notes	Mərkəzi Bankın notları
Certificate	Sertifikat
Certificate of deposit (CD)	Depozit sertifikatı
Cession	Sessiya
Chartered financial analyst (CFA)	Diplomlu maliyyə analitiki
Check (cheque)	Çek
Check-counter	Çek-kaunter
Cheque Investment Found	Çek İnvestisiya Fondu (ÇIF)
Chicago Board Options Exchange (CBOE)	Çikaqo Opsion Birjası
Chicago Mercantile Exchange (CME)	Çikaqo Əmtəə Birjası
Chief executive officer (CEO)	İdarə Heyətinin Sədri (Baş icraçı direktor)
Chinese wall	Çin səddi
Churning	Dolama
Circuit breaker	"Qoruyucu"
Circulation	Tədavül
Circulation of securities	Qiymətli kağızların tədavülü
Claim	Tələbnamə
Class action suit	Kollektiv iddia
Classic equity securities	Klassik qiymətli kağızlar
Classical stock exchange	Klassik fond birjası
Clausula	Klauzula
Clearing	Klirinq
Clearing activity	Klirinq fəaliyyəti
Clearing bank	Klirinq bankı
Clearing house	Klirinq evi
Clearing system	Klirinq sistemi
Clearstream	"Clearstream" klirinq sistemi
Close corporation	Qapalı səhmdar cəmiyyəti
Closed distribution (private placement)	Qapalı yerləşdirmə

Closed end fund (closed-end fund)	Qapalı fond (qapalı tipli fond)
Closing a position	Mövqeni (pozisiyanı) bağlamaq
Closing purchase	Bağlanış alışı
Closing rate	Qapanış məzənnəsi (son məzənnə)
Collateral	Girov
Collateralized debt obligation (CDO)	Borc öhdəlikləri ilə təmin olunmuş istiqraz
Collateralized mortgage obligations (CMO)	İpoteka ilə təmin olunmuş istiqrazlar
Co-manager	Köməkçi menecer
Commercial paper	Kommersiya sənədi (vərəqəsi)
Commission	Komissiya
Commission broker	Komissiya brokeri
Commitments of traders	Treyderlərin öhdəlikləri
Commodities	Əmtəələr
Commodity exchange (COMEX)	Əmtəə birjası
Common stock (common share, equity share, ordinary share)	Adi (sadə) səhm
"Common" store for compensation paid to assests	Aktivlər üzrə zərərin ödənilməsi üçün "adi" ehtiyatlar
Comparables method	Müqayisə üsulu
Competitive bid	Rəqabətli sifariş
Competitive bid auction	Rəqabətli təkliflər auksionu
Compound annual growth rate (CAGR)	Kumulyativ (toplanan) illik artım tempi
Compound interest	Toplanan (mürəkkəb) faiz
Compounding	Mürəkkəb faizin hesablanması
Conglomerate	Konqlomerat
Consaly	Konsali
Consensus estimates	Razılaşdırılmış qiymətləndirmələr
Considerable proportion	Mühüm iştirak payı
Consolidated balance sheet	İcmal mühasibat balansı
Consolidated (summarized) financial statements	İcmal maliyyə hesabatları
Consolidated tape	Birləşdirilmiş informasiya sistemi (birləşdirilmiş məlumat lenti, tiker)
Consortium	Konsorsium
Consumer price index (CPI)	İstehlak qiymətləri indeksi (İQİ)

Contango	Kontanqo
Contingent liability	Şərti öhdəlik
Contingent option	Şərtli opsion
Conto	Konto
Contract month	Kontrakt ayı
Contract of agency	Agent müqaviləsi (sığorta üzrə)
Contract of commission	Komissiya müqaviləsi
Contrarian (contrain investor)	Əks istiqamətli investor (“qəribə” investor)
Convergence	Konvergensiya
Conversion	Konversiya (konvertasiya)
Conversion ratio (conversion rate)	Konvertasiya (konversiya) əmsalı
Convertible bond	Dönərli istiqraz
Convertible preference share	Dönərli imtiyazlı səhmlər
Convexity	Qabarıqlıq (konveksiya)
Corporate stocks	Korporativ səhmlər
Corporation	Korporasiya
Cost of carry	İnvestisiya mövqeyinin saxlanması xərcləri
Cost plus contract	“Məsrəflər üstəgəl” (“maya dəyəri üsğəgəl”) prinsipi üzrə müqavilə
Cost, insurance and freight (CIF)	Dəyər, sığorta və fraxt (SİF)
Counterpart (counteragent, cosignatory)	Kontragent (tərəf-müqabil)
Coupon	Kupon
Coupon bond	Kuponlu istiqraz
Coupon stripping	Kuponların ayrılması
Coupon yield	Kupon gəliri
Course	Məzənnə
Covered bond	Təminatlı istiqraz
Covered call option	Təminatlı “Koll” opsionu
Covered call writing	Təminatlı “Koll” opsionu satışı
Crack spread	Krek-spred (“neft-neft məhsulları” spredi)
Crash	İflas
Crawling peg	Sürüşən sarıq
Credit	Kredit

Credit derivatives	Kredit derivativləri
Credit rating	Kredit reytinqi
Credit risk	Kredit riski
Credit squeeze (crunch)	Kredit qıtlığı (sıxıntısı)
Credit union	Kredit ittifaqı
Credit watch	Kredit nəzarəti
Cross rate (cross-course, cross currency pairs)	Çarpaz məzənnə
Cross-bill	Qarşı-veksel (əks-iddia, rekambio)
Cross-listing (dual listing)	Kross-listinq (ikitərəfli listinq)
Cum all	Bütün hüquqlarla
Cum dividend	Divident daxil olmaqla
Cumulative	Kumulyativ
Cumulative preference shares (cumulative preferred stocks)	Kumulyativ imtiyazlı səhmlər
Cumulative voting	Kumulyativ səsvermə
Currency	Valyuta (pul, pul tədavülü, tədavül vasitəsi)
Currency basket	Valyuta səbəti
Currency board	Valyuta şurası
Currency debt	Valyuta borcu
Currency fixings	Valyuta məzənnəsinin fiksə edilməsi
Currency position	Valyuta mövqeyi
Currency risk	Valyuta riski
Current assets	Cari aktivlər
Current coupon bond	Cari kuponlu istiqraz
Current currency transactions	Cari valyuta əməliyyatları
Current liabilities	Cari borclar (passivlər)
Current maturity	Cari ödəmə müddəti
Current ratio	Cari likvidlik əmsalı
Current yield	Cari gəlirlilik
Custodian	Kastodian
Custody	Saxlanc
Custody account	Depo hesabı
Cyclical stocks	Dövri səhmlər
Daily price limit	Günlük qiymət limiti (həddi)
Damno	Damno

Data-bill	Data-veksel
Day order	Günlük sifariş
Day to day	Günbəgün
Day traders	Günlük treyderlər
Dead cat bounce	"Ölü pişiyin sıçrayışı"
Deal limit	Əqd limiti
Dealer	Diler
Debenture bond (debentures)	Təminatsız borc istiqrazları (borc iltizamları)
Debit	Debet
Debit balance	Debet qalığı (balansı)
Debt	Borc
Debt financing	Borcla maliyyələşdirmə
Debt instruments	Borc öhdəlikləri (alətləri)
Debt-equity ratio	Borc-kapital nisbəti
Debt-equity swap	Borc-səhm svopu
Deck holder	Dekholder
Default	Defolt
Defaulter	Defolter
Deferred coupon	Təxirə salınmış kupon
Deficiency letter	İrad məktubu
Deflation	Deflyasiya
Delayed opening	Açılışın (ticarətin) ləngiməsi
Delisting	Delistinq
Delivery price	Çatdırılma qiyməti
Delivery versus payment (DVP)	Ödənişə qarşı tədarük (DVP)
Delta	Delta
Delta hedging	Delta hedcinq
Depletion accounting	Təbii resursların tükənməsinin uçotu
Deponent	Deponent
Deport	Deport
Deposit	Depozit
Deposit bank (bank of deposit)	Depozit (əmanət) bankı
Deposit insurance	Depozitlərin sığortalanması
Depositary	Depozitar
Depositary activity	Depozitar fəaliyyət
Depositary system	Depozitar sistemi

Depository Trust Company (DTC)	Depozitar Trast Şirkəti
Depreciation	Köhnəlmə (qiymətdən düşmə, dəyər itirmə)
Depression	Depressiya
Derivatives	Derivativlər (törəmə qiymətli kağızlar)
Deutsche Aktien (German Stock Exchange) Index (DAX)	Alman Birja İndeksi (DAX)
Devalvation	Devalvasiya
Development bond	İnkişaf istiqrazı
Deviation	Kənarlaşma
Dilution	Azalma (gəlirliliyin)
Direct public offering	Birbaşa ilkin təklif
Disagio	Dizajio
Discount	Diskont (endirim)
Discount rate	Diskont dərəcəsi
Discount window	Diskont pəncərəsi
Discount yield	Diskont gəlirliliyi
Discounted cash flow	Diskontlaşdırılmış pul axını
Discretionary account	Diskresion (ixtiyar) hesab
Discretionary order	Diskresion (ixtiyar) sifariş
Disintermediation	Dezintermediasiya
Distressed debt	Problemli şirkətlərin borcu
Distressed securities	Problemli qiymətli kağızlar
Distribution of securities	Qiymətli kağızların yerləşdirilməsi
Diversification	Diversifikasiya
Diversification of investments	Kapital (investisiya) qoyuluşların diversifikasiyası
Dividend	Divident
Dividend cover	Dividentin ödənməsi
Dividend discount model	Divident diskontlaşdırma modeli
Dividend reinvestment plan (DRIP)	Dividentlərin təkrar (yenidən) investisiyası planı
Dividend stripping	Dividentlərin ayrılması
Dividend yield	Divident gəlirliliyi
Dollar cost averaging	Dollar dəyərinin ortalanması
Dollarization	Dollarlaşma

Domiciliation	Domisilləşmə
Double currency market	İkili (ikiyaruslu) valyuta bazarı
Double rate	İkili məzənnə
Double-barreled bond	İkiqat təminatlı istiqraz
Dow Jones Industrial Average (DJIA)	Dou-Cons Sənaye (Səhmləri) Indeksi
Dow theory	Dou nəzəriyyəsi
Down tick (downtick)	"Daun-tik" ("mənfi-tik", düşmə, enmə)
Downgrade	Aşağı salmaq (endirmək)
Downstream	Aşağı axın
Downtrend	Azalma meyili (qiymətlərin düşməsi meyili)
Downturn	Tənəzzül
Drawee	Trassat (ödəyici (köçürmə vekseli üzrə))
Drawer	Trassant (veksel verən)
Dual currency bond	İkivalyutalı istiqraz
Due bill	Ödəniş müddəti çatmış veksel
Duration	Zaman intervalı (müddət (ödənişədək))
Dutch auction	Holland hərracı
Early exercise	Vaxtından əvvəl istifadə
Early redemption	Vaxtından əvvəl ödəmə
Earnings before interest and tax (EBIT)	Vergi və faiz xərclərindən öncəki gəlir
Earnings before tax (EBT)	Vergi ödənişindən öncəki gəlir
Earnings per share (EPS)	Bir səhmə düşən mənfəət
Earnings report	Gəlirlik hesabatı
Economic barometer	İqtisadi "barometr"
Economic indicators	İqtisadi göstəricilər (indiqatorlar)
Economic risk	İqtisadi risk
Economic value added	Əlavə olunmuş iqtisadi dəyər
Effective date	Qüvvəyə minmə günü
Effective exchange rate	Effektiv valyuta məzənnəsi
Effective interest method	Effektiv faiz metodu
Effective interest rate	Effektiv faiz dərəcəsi
Efficient market hypothesis	Səmərəli bazar hipotezi
E-manager	İ-menecer

Endorsee	İndossat
Endorsement	İndossament
Endorser	İndossant
Equipment trust certificate	Avadanlığın kreditləşdirilməsi sertifikatı
Equity	Səhmdar kapital (sahibkar kapitalı)
Equity financing	Səhmdar maliyyələşməsi
Equity risk premium	Səhmdar kapitalın riskinə görə mükafat
Equity security	Pay qiymətli kağızı
Equity swap	Səhm svopu
Euro STOXX	Avro STOXX
Eurobond	Avroistiqraz (Avrobond)
Eurobor	Avrobor
Eurocard	Avrokard
Eurocheque	Avroçek
Euroclear	Avroklir
Eurocredit	Avrokredit
Eurocurrency	Avrovalyuta
Eurodollar	Avrodollar
European option	Avropa tipli opsion
Evaluation	Qiymətləndirmə (qiymətqoyma)
Ex	İstisna etməklə
Ex-all	Bütün hüquqlar istisna olunmaqla
Exchange	Birja
Exchange bank	Birja bankı
Exchange circulation	Birja dövriyyəsi
Exchange committee	Birja komitəsi
Exchange crisis	Valyuta böhranı
Exchange duty	Birja rüsumu
Exchange hole	Birja çökəkliyi (çalası)
Exchange intervention	Birja müdaxiləsi
Exchange meeting	Birja yığıncağı
Exchange premium	Valyuta mükafatı
Exchange price (market price)	Birja qiyməti (bazar qiyməti)
Exchange quotation	Valyuta kotirovkası
Exchange rate agreement	Valyuta məzənnəsi haqqında müqavilə

Exchange speculation	Birja möhtəkirliyi
Exchange transaction	Birja əqdi
Exchangeable bonds	Mübadilə olunan istiqraz
Exchange-traded contract	Müddətli birja müqaviləsi
Exchange-traded fund (ETF)	Birja səhmli investisiya fondu
Ex-dividend (Ex-dividend stock)	Eks-divident ("dividentdən kənar" səhm)
Exercise	İstifadə (icra) etmək
Exercise of option	Opsionun istifadəsi (icrası)
Exercise price / Strike price	İstifadə (icra) qiyməti
Exit bond	Çıxış istiqrazı
Exotic	Ekzotik (qeyri-adi)
Exotic currency	Ekzotik valyuta
Expense ratio	Xərc (məsrəf) əmsalı
Expiration date (expiry date)	Müddətin bitməsi (ekspirasiya)
Exponential moving average	Eksponensial sürüşən orta
Exposure	Maliyyə riskinə məruz qalma
Ex-rights	Hüquqlar istisna olmaqla
Extendible bond	Vaxtı uzadıla bilən istiqraz
Extra dividend	Ekstra divident
Extraordinary general meeting	Növbədənkənar (fövqəladə) ümumi yığıncaq
Extrapolation	Ekstrapolyasiya
Face value (nominal value)	Üzərində göstərilən (nominal) dəyər
Factor(ing)-bank	Faktor-bank
Factor(ing)-company	Faktor-firma
Fair value	Ədalətli dəyər
Fallen angels	Düşmüş mələklər
Fed funds	Federal fondlar
Federal funds rate	Federal fondların uçot faiz dərəcəsi (qısamüddətli kreditlər üzrə)
Federal Open Market Committee (FOMC)	Açıq Bazar Üzrə Federal Komitə
Federal Reserve System	Federal Rezerv Sistemi
Fiat money	Rəmzi pul
Filiere	Filyera
Final dividend	Yekun divident

Final prospectus	Son prospekt
Financial centre	Maliyyə mərkəzi
Financial intermediation	Maliyyə vasitəçiliyi
Financial liability	Maliyyə öhdəliyi
Financial market	Maliyyə bazarı
Financial risk	Maliyyə riski
Financial Services Authority (FSA)	Maliyyə Xidmətləri İdarəsi
Financial year	Maliyyə ili
First notice day	Xəbərdarlığın birinci günü
Fiscal year	Büdcə ili
Fix	Təsbit etmək
Fixed assets (permanent assets)	Əsas vəsaitlər
Fixed charges	Sabit xərclər
Fixed exchange rate	Sabit valyuta məzənnəsi
Fixed income	Sabit gəlir
Fixed price offer	Sabit qiymətli təklif
Fixed rate bonds	Sabit faizli istiqraz
Fixed/floating bonds	Sabit/üzən istiqrazlar
Fixed-term contract	Müddətli müqavilə
Fixing	Fiksinq
Flat	Yastı
Flat income bond	Yastı gəlirli istiqraz
"Flipper"	Flipper
Flipping	Üstündən atma
Float	Flout
Floating debt	Üzən borc
Floating exchange rates	Üzən valyuta məzənnəsi
Floating rate bond	Üzən faizli istiqraz
Floating rate note (FRN)	Üzən faiz dərəcəli not
Floor broker	Meydança brokeri
Fluctuation	Enib-qalxma (fluktuasiya)
Forecast	Proqnoz
Foreign bond	Xarici istiqraz
Foreign currency (foreign exchange)	Xarici valyuta
Foreign direct investment (FDI)	Birbaşa xarici investisiyalar
Foreign exchange market (FOREX market, FX market)	Xarici valyuta bazarı (valyuta bazarı)

Foreign exchange policy	Valyuta siyasəti
Foreign exchange swap	Valyuta svopu
Forfeiter	Forfeyter
Forfeiting	Forfeytinq
Form 10-K	10-K forması
Form 10-Q	10-Q forması
Form 8-K	8-K forması
Formula investing	İnvestisiya formulası
Forward exchange agreement (FXA)	Mübadilə məzənnəsi haqqında forvard razılaşması
Forward margin	Forvard marjası
Forward market	Forvard bazarı
Forward rate agreement (FRA)	Gələcək faiz dərəcəsi haqqında razılaşma
Forwards	Forvard
Fourth market	Dördüncü dərəcəli bazar
Frankfurt Interbank Offered Rate (FIBOR)	FİBOR
Free and open market	Sərbəst və açıq bazar
Free cash flow	Sərbəst pul axını
Free cash flow yield	Sərbəst pul axını gəlirliliyi
Free float	Sərbəst dövriyyədə olan səhmlər
Free foating exchange rate	Sərbəst üzən valyuta məzənnəsi
Free issue	Bonus emissiyası
Free on board (FOB)	FOB
Front office	Ön ofis
Front running	Qabaqlayıcı sövdələşmə
FTSE 100 (FTSE, Footsie)	"Financial Times 100" fond indeksi (Futsi)
Fully diluted EPS	Tam seyrəltmə
Fund	Fond
Fund manager	İnvestisiya meneceri
Fundamental analysis	Fundamental (əsaslı) təhlillər
Fundamental research	Fundamental (əsaslı) tədqiqatlar
Funded debt	Fondlaşdırılmış borc
Funded income	Fondlaşdırılmış gəlir
Funding	Fondlaşdırma

Fungible	Qarşılıqlı əvəzlənə bilən
Future value	Gələcək dəyər
Futures	Fyuçers
Futures contract	Fyuçers müqaviləsi
Gambling	Birjada oyun
Gamma	Qamma
Gap	Qiymət uçurumu
Gearing	Cirinq
General balance	Ümumi balans
General mortgage bond	Ümumi ipoteka istiqrazı
General REPO agreement	REPO Baş sazişi
Gilt-edged bond	Etibarlı istiqraz
Give up (give-up)	İmtina
Global depositary receipts (GDR)	Qlobal depozitar qəbzləri (QDQ)
Global share offering	Qlobal səhm təklifi
Global share offering	Qlobal səhm təklifi
Going public	Açıq səhmdar cəmiyyətə çevrilmə
Gold fix	Qızılın qiymətinin müəyyənləşdirilməsi
Good delivery	Yaxşı tədarük
Good til canceled (GTC)	"İmtinaya qədər" sifarişi (sərəncamı, əmri)
Goodwill	Qudvil
Government bonds	Dövlət istiqrazları
Greenmail	"Yaşıl poçt"("Yaşıl şantaj")
Gross	Ümumi (məcmu)
Gross domestic product (GDP)	Ümumi Daxili Məhsul (ÜDM)
Gross interest	Ümumi (məcmu) faiz
Gross-profit (gross profit**)**	Ümumi (məcmu) gəlir
Growth rate	Artım sürəti
Growth stock	Artım səhmləri (artan səhmlər)
Guaranteed stock	Zəmanətli səhm
Haircut	Kəsmə
Hang Seng Index (HSI)	Hanq Senq İndeksi
Hard money investments	Metal pullarla (qızıl və gümüş sikkə və külçə formasında) investisiya
Hedge	Hedc

Hedge clause	Hedc qeyd-şərti
Hedge effectiveness	Hedcinqin effektivliyi
Hedge fund	Hedc fondu
Hedger	Hedcer
Hedging	Hedcinq
Hedging instrument	Hedcinq aləti
Historical volatility	Tarixi volatillik
Holder of record	Səhmin qeydiyyatdan keçmiş sahibi
Holding company	Holdinq şirkəti
Horizontal spread	Üfüqi spred
hostile bid	Qərəzli təklif
House call	Daxili xəbərdarlıq
Hybrid elements of capital	Kapitalın hibrid elementləri
Hybrid securities	Hibrid qiymətli kağızlar
Hypothecation	İpoteka (girov)
Identification	Eyniləşdirmə (identifikasiya)
Illiquid	Qeyri-likvid
Impairment loss	Dəyərin azalmasına görə zərər
Implied volatility	Xüsusi (daxili) volatillik
In the money	Uduşlu opsion
Income bond	Gəlir istiqrazları
Income shares (income stock)	Gəlir səhmləri
Income statement	Mənfəət və zərər haqqında hesabat (gəlirlər və xərclər haqqında hesabat)
Incoterms (International Commercial Terms)	İnkoterms (Beynəlxalq Kommersiya Şərtləri)
Indenture	Müqavilə (emissiya müqaviləsi)
Independent broker	Müstəqil broker
Index	İndeks
Index funds	İndeks fondları
INDEXCF	Moskva Banklararası Valyuta və Fond Birjasının Real Zaman İndeksi
Indexing	İndeksləşdirmə
Index-linked bonds	İndekslə əlaqələndirilmiş istiqraz
Indication of Interest	Maraq sifarişi
Indicator	İndiqator (göstərici)
Indirect quotation	Dolayı kotirovka

Industrial development bond	Sənaye inkişafı istiqrazları
Inflation	Inflyasiya
Information collection	İnformasiya toplusu (massivi)
Information resources	İnformasiya resursları
Information security	İnformasiya təhlükəsizliyi
Information system	İnformasiya sistemi
Information technology (IT)	İnformasiya texnologiyaları (İT)
Infranchisement	İnfranşizment
Infrastructure	Infrastruktur
Initial margin	İlkin marja
Initial public offering (IPO)	İlkin kütləvi təklif
Innovation	İnnovasiya
Inscribed bill	Adlı veksel
Insider	İnsayder
Insider dealings (insider tradings)	İnsayder əməliyyatları (insayder ticarəti)
Insider information	İnsayder informasiyası
Insider loan	İnsayder krediti
Insolvent	Ödəniş qabiliyyəti olmayan
Institutional investor	İnstitusional investor
Insurance (assurance)	Sığorta
Insurant	Sığortaçı
Insured	Sığortalı (sığorta olunan)
Intangible asset	Qeyri-maddi aktivlər
Integration	İnteqrasiya
Interbank requests (needs)	Banklararası tələblər
Intercession	İntersessiya
Inter-dealer broker	Dilerlərarası broker
Interest bearing	Faizli
Interest cost	Faiz xərcləri
Interest rate differential	Faiz dərəcəsinin diferensialı (faiz dərəcəsində fərq)
Interest rate risk	Faiz riski
Interest rate swap	Faizli svop
Interest rates	Faiz dərəcəsi
Interim dividend	Aralıq divident
Intermarket Trading System (ITS)	Bazarlararası Ticarət Sistemi

Internal rate of return	Daxili gəlirlilik (rentabellik) səviyyəsi (norması)
International credit	Beynəlxalq kredit
International Organization of Securities Commissions (IOSCO)	Qiymətli Kağızlar üzrə Komissiyaların Beynəlxalq Təşkilatı
Interpolation	İnterpolyasiya
Intervention	Müdaxilə (intervensiya)
Intervention band	Müdaxilə dəhlizi
Intraday	Gün ərzində
Intraday limit	Günlük limit
Intrinsic value	Opsionun daxili (real) dəyəri
Inverted yield curve (negative yield curve)	Çevrilmiş gəlirlilik əyrisi
Investing	İnvestisiya etmək
Investing activities (investment operations, investment activity)	İnvestisiya fəaliyyəti
Investment	İnvestisiya
Investment bank	Investisiya bankı
Investment banker	İnvestisiya bankiri
Investment barometer	İnvestisiya "barometri"
Investment certificate	İnvestisiya sertifikatı
Investment company	İnvestisiya şirkəti
Investment counsel	İnvestisiya məsləhətçisi (konsultantı)
Investment fund	İnvestisiya fondu
Investment grade	İnvestisiya dərəcəsi
Investment grade bond	İnvestisiya səviyyəli istiqraz
Investment institute	İnvestisiya institutu
Investment portfolio (securitys portfolio, holding of securities)	İnvestisiya portfeli (qiymətli kağızlar portfeli)
Investment securities	İnvestisiya qiymətli kağızları
Investment trust fund	İnvestisiya trast fondu
Investor	İnvestor
ISE NATIONAL-100	ISE NATIONAL-100 indeksi
Issuance	Buraxılış (emissiya)
Issue	Emissiya
Issue date	Buraxılış (emissiya) tarixi
Issue of securities	Qiymətli kağızların buraxılışı

Issue price	Buraxılış (emissiya) qiyməti
Issuer	Emitent
Joint-stock company	Səhmdar cəmiyyət
Junk bond	Aşağı keyfiyyətli (keyfiyyətsiz)istiqraz
Keogh plan	"Kiu" planı
Kerb	Kerb
Kerb market	Küçə ticarəti (qara bazar, qeyri-rəsmi birja)
Key indicators (leading indicators)	Əsas (aparıcı) göstəricilər (indiqatorlar)
Korner	Korner
Laddering	Aktivlərin müddətlərinə görə sıralanması
Last notice day	Xəbərdarlığın son günü
Last trading day	Son ticarət günü
Lay off	Dayandırmaq
Lead manager/underwriter	Aparıcı menecer/anderrayter
Legal list	Qanuni siyahı
Lender of last resort	Son instansiya (məqam) kreditoru
Lending margin	Kredit (borc) marjası
Leverage	Kredit dayağı
Leveraged buyout (LBO)	Borcla alma
Limit	Limit (sərhəd, hədd)
Limit down	Aşağı hədd (limit)
Limit order	Məhdud sifariş
Limit up	Yuxarı hədd (limit)
Limited liability company (LLC)	Məhdud məsuliyyətli cəmiyyət (MMC)
Liquid asset (available asset, quick asset)	Likvid aktiv
Liquidante	Likvidant
Liquidate	Likvidat
Liquidating value (liquidation value, residual value, salvage value)	Ləğv olunma dəyəri
Liquidation	Ləğv etmə
Liquidation premium	Ləğvetmə mükafatı
Liquidator (receiver)	Likvidator
Liquidity	Likvidlik

Liquidity risk	Likvidlik riski
Liquidity securities	Likvid qiymətli kağızlar
Liquidity trap	Likvidlik tələsi
Listed stock	Kotirovkada olan səhm
Listing	Listinq
Listing companies	Şirkətlərin listinqi
Listing of securities	Qiymətli kağızların listinqi
Listing particulars	Listinq üçün məlumatlar
Listing requirements	Listinq tələbləri
Load	Qarşılıqlı-ümumi fond əlavəsi
Loading	Lodinq
Loan loss provisions	Kredit zərəri ehtiyatı
Loan value	Kredit məbləği
Loanable funds	Borc kapitalı
Lock up period (lock-up period)	Bağlanma müddəti
Locked in	Bağlanmış (dondurulmuş)
London Interbank Bid Rate (LIBID)	London Banklararası Depozit Bazarında Alış Faiz Dərəcəsi (LİBİD)
London Interbank Median Average Rate (LIMEAN)	LİMEAN
London Interbank Offered Rate (LIBOR)	London Banklararası Təklif Faiz Dərəcəsi (LIBOR)
Long (long position)	Uzun mövqe
Long hedge	Uzun hedc
Long-range investment (Long-term investment)	Uzunmüddətli investisiyalar
Long-term (long) bond	Uzunmüddətli istiqraz
Long-term assets	Uzunmüddətli aktivlər
Long-term debt	Uzunmüddətli borc (öhdəlik)
Long-term equity anticipation securities (LEAPS)	Səhmə dəyişdirilə bilən uzunmüddətli qiymətli kağızlar
Long-term gain & long-term loss	Uzunmüddətli gəlir və zərər
Lot	Lot
Luxembourg Interbank Offered Rate (LUXIBOR)	LÜKSİBOR
Machination (manipulation, exchange fraud)	Maxinasiya
Maintenance call	Əlavə vəsait tələbi

Maintenance margin	Təminat marjası (təminatlı marja)
Majority interest	Nəzarət (majoritar) səhm paketi
Majority voting	Sadə səs çoxluğu prinsipi ilə səsvermə
Management buyout (MBO)	Daxili idarəetmə alışı
Manipulation	Manipulyasiya
Margin	Marja
Margin account	Marja hesabı
Margin call	Marja çağırışı
Margin trading	Marjin ticarət
Mark to market (MTM)	Bazar qiymətləndirməsi
Markdown	Endirim (ucuzlaşdırma)
Market capitalization	Bazar kapitallaşması (kapitalı)
Market if touched	Toxunulan bazar
Market liquidity	Bazar likvidliyi
Market order	Bazar qiymətində sifariş (bazar sifarişi)
Market price	Bazar qiyməti (birja qiyməti, birja məzənnəsi)
Market risk	Bazar riski
Market sector	Bazar sektoru
Market timing	Bazar vaxtı
Market trend	Bazar meyilləri (bazarın inkişaf meyilləri)
Market value	Bazar dəyəri
Market-maker	Market-meyker (bazar iştirakçısı)
Market-value weighted index	Orta çəkili bazar indeksi
Markup	Bahalaşdırma (qiymət əlavəsi, marja)
Master agreement	Baş (çərçivə) sazişi
Matched book	Balanslaşdırılmış (tarazlaşdırılmış) portfel
Matching	Balanslaşdırma (tutuşdurma)
Maturity	Ödəmə müddəti (ödəniş vaxtı)
Maturity date	Son ödəmə tarixi
Medium-term bond	Ortamüddətli istiqraz
Member	Üzv
Member corporation	Üzv korporasiya
Member firm	Üzv şirkət
Member organization	Üzv təşkilat

Merger (fusion)	Birləşmə
Merger arbitrage	Birləşmə üzrə arbitraj
Mergers and acquisitions (M&A)	Birləşmə və udulma
Mezzanine finance	Aralıq maliyyə
Mezzanine financing	Aralıq maliyyələşdirmə
Middle office	Aralıq ofis
Minimum initial purchase	Minimal ilkin alış
Minimum price movement	Minimum qiymət dəyişikliyi
Minor metals	Kiçik metallar
Minority interest	Minoritar səhm paketi
Monetary asset	Monetar aktiv
Money market	Pul bazarı
Money market fund	Pul bazarı fondu
Money market instruments	Pul bazarı alətləri
Money supply	Pul təklifi
Moody's	Beynəlxalq reytinq agentliyi Moody's
Mortgage certificate	İpoteka şəhadətnaməsi
Mortgage bank	İpoteka bankı
Mortgage bond	İpoteka istiqrazı
Mortgage contract	İpoteka müqaviləsi
Mortgage credit	İpoteka krediti
Mortgage deed	İpoteka kağızı
Mortgage interests	İpoteka hüququ
Mortgage market	İpoteka bazarı
Mortgage pool	İpoteka portfeli (hovuzu)
Mortgage-backed security (MBS)	İpoteka (girov) təminatlı qiymətli kağızlar
Mortgagee	İpoteka saxlayan
Mortgaging certificate	Girov kağızı
Mortgagor	İpoteka qoyan
Moscow Interbank Offered Rate (MIBOR)	MİBOR
Movable property	Daşınar əmlak
Moving average	Sürüşən orta
Moving strike option	Sürüşən satış qiymətli opsion
Multinational	Çoxmilli şirkət
Multiplier bond	Çoxalan istiqraz

Municipal bond insurance	Bələdiyyə istiqrazlarının sığortalanması
Municipal bonds (muni)	Bələdiyyə istiqrazları
Municipal securities	Bələdiyyə qiymətli kağızları
Mutual fund/unit trust	Qarşılıqlı/müştərək/ümumi fond
Mutual loan fund	Qarşılıqlı kredit fondu
Naked position	"Yalın" mövqe
Naked warrant	"Yalın" varrant
NASD (National Association of Securities Dealers)	NASD (Qiymətli Kağızlar üzrə Dilerlərin Milli Assosiasiyası)
NASDAQ (National Association of Securities Dealers Automated Quotations)	NASDAQ (Qiymətli Kağızlar üzrə Dilerlərin Milli Assosiasiyasının Avtomatlaşdırılmış Kotirovkası)
NASDAQ Composite	NASDAQ Toplu İndeksi
National Clearing Corporation	Qiymətli Kağızlar üzrə Milli Klirinq Şirkəti
National/government/public debt	Dövlət borcu
National/state bank	Dövlət bankı
Negative carry	Sahibliyin (saxlamanın) mənfi nəticəsi
Negative goodwill	Mənfi qudvil
Negative pledge clause	Girovdan imtina ("mənfi girov") şərti
Negotiable	Dönərli
Neophyte	Neofit
Net assets (net asset value, NAV, net worth)	Xalis aktivlər (xalis aktivlərin dəyəri)
Net cash flow	Xalis pul axını
Net change	Xalis dəyişmə (fərq)
Net earnings	Xalis qazanc
Net income	Xalis gəlir
Net position	Xalis mövqe
Net present value (NPV)	Xalis cari dəyər
Net profit	Xalis mənfəət
Netting	Nettinq
Neutral	Neytral
New York Futures Exchange (NYFE)	Nyu-York Fyuçers Birjası
New York Stock Exchange (NYSE)	Nyu-York Fond Birjası
Nikkei 225	Nikei 225 fond indeksi

No par value	Nominal dəyərsiz
No-load (no-load fund)	Komissiyasız fond
Nominal	Nominal
Nominal interest rate	Nominal faiz dərəcəsi
Nominal quotation	Nominal qiymətləndirmə (kotirovka)
Non-bank credit organization	Bank olmayan kredit təşkilatı
Non-callable bond	Geri çağırılmayan istiqraz
Noncompetitive bid	Qeyri rəqabətli sifariş
Non-competitive bid auction	Rəqabətsiz sifariş hərracı
Noncumulative	Qeyri-kumulyativ
Noncumulative preference share	Qeyri-kumulyativ imtiyazlı səhmlər
Nondiscretionary account	Qeyri-diskresion hesab
Non-performing loan	Qeyri-işlək kredit
Non-performing loan amount	Qeyri-işlək kreditin məbləği
Non-resident bank	Qeyri-rezident bank
Non-residents	Qeyri-rezidentlər
Non-subordinated debenture	Qeyri-subordinasiya borc öhdəlikləri
Non-voting stock	Səs hüququna malik olmayan səhm
Normal market size	Normal bazar həcmi
Normal yield curve	Normal (müsbət) gəlirlik əyrisi
Notification	Notifikasiya
Notional bonds	Nəzəri (şərti) istiqrazlar
Notional principal	Şərti əsas məbləğ (kredit öhdəliyinin)
NYSE Composite Index	Nyu-York Fond Birjasının Toplu İndeksi
Obligation (bond, loan securities)	İstiqraz
Odd lot	Qeyri-normal əqd
Off balance sheet	Balansarxası hesab
Off-board	Birjadankənar əməliyyatlar
Offer	Təklif
Offer for sale	Satış təklifi
Offering range	Təklif aralığı
Offshore fund	Ofşor fond
Off-the-run issue	Köhnə buraxılış
On demand (on sight)	Tələb olunanadək
One-day order	Bir günlük sifariş
On-the-run issue	Təzə buraxılış
Open arder	Açıq sifariş

Open autcry	Səsli ticarət (açıq yüksək səslə)
Open devaluation	Açıq devalvasiya
Open factoring	Açiq faktorinq
Open interest	Açıq mövqelərin sayı
Open market operations	Açıq bazar əməliyyatları
Open position	Açıq mövqe
Open-end fund (open-end investment fund, open-end mutual fund)	Açıq fond (açıq investisiya fondu, açıq qarşılıqlı fond)
Open-end investment company	Açıq investisiya şirkəti
Open-end management company	Açıq idarəetmə şirkəti
Operating cash flow (OCF)	Cari əməliyyatlar üzrə pul axını
Operating expenses	İstismar xərcləri (cari xərclər)
Operating profit	Əməliyyat gəlirləri
Operating profit margin (Operating margin)	Əməliyyat mənfəəti marjası
Opportunity cost	Alternativ xərclər
Option	Opsion
Option holder	Opsion sahibi
Option premium	Opsion mükafatı
Option series	Opsion seriyası
Option spread	Opsion spred
Option strategies	Opsion strategiyaları
Option type	Opsion növü
Option writer	Opsionun satıcısı
Optional dividend	Opsion dividenti
Options clearing corporation	Opsion klirinq şirkəti
Order	Sifariş (tapşırıq)
Order clause	Order klauzulası
Order driven	Sifarişlər (təkliflər) əsasında
Out of the money	Ziyanda olan opsion
Outright	Autrayt
Outright purchase	Qəti alış
Outsider	Autsayder
Outtrade	Aut-treyd
Overbought	Overbout
Overbought & oversold	Həddən artıq alış/satış
Overnight	Overnayt

Oversold	Oversold
Oversubscribed	Həddən çox yazılma
Over-the-counter (over the counter, OTC)	Birjadankənar
Overvalued	Şişirdilmiş qiymət
Paid-up capital	Ödənilmiş kapital
Paper barrel	Kağız bareli
Paper circulation (circulation of bills)	Veksel tədavülü
Paper credit	Veksel krediti
Paper issue	Qiymətli kağızların emissiyası
Par bond	Nominal istiqraz
Parity	Paritet
Participating preferred	İmtiyazlı iştirak
Partly secured credit	Qismən təminatlı kredit
Passed dividend	Ötürülmüş divident
Passing the dividend	Dividentin ötürülməsi
Passive	Passiv
Passive management	Passiv idarəetmə
Pay date	Dividentin ödəniş günü
Payback	Xərcini ödəmə (qaytarma)
Payback period	Xərcini ödəmə (qaytarma) müddəti
Paydown	Qismən ödəmə
Payer for honor (payer for honour)	Qonorant
Paying agent	Ödəyici agent
Payment in cash (cash payment)	Nağd ödəniş
Payment in-kind (PIK)	Əmtəəli ödəniş
Payout ratio	Ödəmə nisbəti
Penalty bid	Cərimə qiyməti
Penny stocks	Xırda nominallı (qəpik) səhmlər
Percent (percentage, rate)	Faiz
Percentage point	Faiz bəndi
Performing loan	İcra edilən kredit
Physical market	Real (fiziki) əmtəə bazarı
Pip	Pip (pips)
Plain vanilla	Sadə maliyyə aləti
Point	Dərəcə (bənd)
Poison pill	"Zəhərli həb"

Political risk	Siyasi risk
Portfolio	Portfel
Portfolio investment	Portfel investisiya
Portfolio manager	Portfel meneceri
Position	Mövqe
Position keeping	Mövqeyin saxlanması
Positive carry	Müsbət sahibolma
Precious metals	Qiymətli metallar
Preemptive right (Pre-emptive rights)	Müstəsna hüquq
Preferred (chartered, privileged) share	İmtiyazlı səhm
Preliminary prospectus	İlkin prospekt
Pre-market trading	Açılışa qədər ticarət
Premium	Mükafat (premiya)
Present value (PV)	Cari dəyər
Price indicators	Qiymət göstəriciləri (indiqatorları)
Price manipulation	Qiymətlərlə manipulyasiya
Price-to-earnings ratio (P/E ratio, PE ratio, PER)	Qiymət-gəlir nisbəti
Primary dealer	Əsas diler
Primary distribution	İlkin yerləşdirmə
Primary security market	İlkin qiymətli kağızlar bazarı
Prime bank	Birinci sinif bank
Prime rate	Baza dərəcəsi
Principal (capital amount)	Prinsipal (əsas məbləğ)
Printing money	Pul emissiyası
Private equity firm	Özəl investisiya şirkəti
Private placement	Özəl yerləşdirmə
Producer price index (PPI)	İstehsalçı qiymətləri indeksi
Professional market participants	Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları
Profit	Mənfəət
Profit margin	Mənfəət marjası
Profit-taking	Mənfəətin reallaşdırılması
Prognostication (forecasting)	Proqnozlaşdırma
Program trading	Proqramlı ticarət
Promissory note (one-name paper, note of hand, PN, P/N)	Sadə veksel (Solo-veksel)

Prompt date	Çatdırılma tarixi
Property	Əmlak
Prospectus	Emissiya prospekti
Protestation of a bill (protest of a bill)	Vekselin protesti
Proxy	Etibarnamə (etibarlı şəxs)
Prudent man rule	Tədbirli insan qaydası
Prudential	Prudensial
Public corporation	Açıq səhmdar cəmiyyəti
Public offering price	İlkin yerləşdirmə qiyməti
Pump and dump	Şişirtmə və boşaltma
Purchase of enterprise	Müəssisənin alınması
Pure play	Təmiz oyun
"Purposeful" (special purpose) store for compensation paid to assests	Aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli" ehtiyatlar
Purpose loan (special purpose credit)	Məqsədli kredit
Put option	"Put" opsionu
Put-Call parity	"Put-Koll" pariteti
Put-Call ratio	"Put-Koll" nisbəti
Pyramid scheme (Ponzi scheme)	Piramida sxemi (Ponzi sxemi)
Quantitative analysis	Kəmiyyət təhlili
Quanto	Kvanto
Quasi-money (near money)	Kvazi pul
Quick ratio	Cəldlik əmsalı
Quittance (receipt)	Qəbz
Quotation (quota)	Kotirovka
Quote driven	Kotirovkaya əsaslanan
Quoted currency	Kotirovka olunan valyuta
Rainbow	Göy qurşağı
Rally	Canlanma
Rate of return	Gəlirlilik səviyyəsi (dərəcəsi)
Real Estate Investment Trust (REIT)	Daşınmaz Əmlak üzrə İnvestisiya Fondu
Real Interest rates	Real faiz dərəcələri
Real property	Daşınmaz əmlak
Realization price	Reallaşma (satış) qiyməti
Realized gain	Realizə edilmiş (reallaşmış) gəlir
Realized loss	Realizə edilmiş (reallaşmış) zərər

Recapitalization	Təkrar kapitallaşma (yenidən kapitallaşma)
Recession	Resessiya (iqtisadi geriləmə, tənəzzül)
Record date	Qeydiyyat tarixi
Red herring (red herring prospectus)	"Balıq" (səhm buraxılışı üçün ilkin prospekt)
Redemption	Öhdəliyin bağlanması (geri alma ödənişi)
Redemption price	Öhdəliyin bağlanma qiyməti (geri alma qiyməti)
Redemption yield (yield to maturity)	Ödəmə zamanı gəlirlilik
Rediscount	Yenidən uçota alma
Referee in case of need	Qonorat
Refinancing	Yenidən maliyyələşdirmə
Refunding	Təkrar fondlaşdırma (maliyyələşdirmə)
Registered bond	Adlı (qeydiyyatdan keçmiş) istiqraz
Registered competitive market maker	Qeydiyyata alınmış market-meyker (bazar iştirakçısı)
Registered representative	Qeydiyyata alınmış nümayəndə
Registered securities (registered certificates)	Adlı qiymətli kağızlar (qeydiyyatdan keçmiş qiymətli kağızlar)
Registrar	Reyestr saxlayıcısı
Registration statement	Qeydiyyat ərizəsi
Reinsurance	Təkrar sığorta
Reinvestment	Yenidən İnvestisiya
Reinvestment risk	Yenidən investisiya riski
Remortgaging (repawning)	Təkrar girov
Rentier	Rantye
REPO closing date	REPO-nun bağlanma tarixi
REPO opening date	REPO-nun açılma tarixi
REPO transaction	REPO əməliyyatı
Representative office	Bankın nümayəndəliyi
Repurchase agreement (REPO, RP)	Repo saşişi (əqdi)
Required return	Tələb olunan gəlirlik
Requirent	Rekvirent

Rescheduled loan (restructured credit)	Restrukturizasiya olunmuş kredit
Reserve currency	Baza (ehtiyat) valyutası
Reserve fund	Ehtiyat fondu
Reserve requirements	Ehtiyat tələbləri
Restricted securities	Məhdudlaşdırılmış qiymətli kağızlar
Restructuring	Restrukturlaşdırma
Retained earnings	Bölüşdürülməmiş mənfəət
Return on net assets	Xalis aktivlərin rentabelliliyi
Return on total assets (ROA)	Cəmi aktivlər üzrə rentabellik (gəlirlilik)
Revaluation	Revalvasiya
Revenue	Gəlir
Reverse split (reverse stock split)	Geriyə split (səhmlərin geriyə spliti)
Reverse-repo contract	Əks-REPO müqaviləsi
Rights issue	Yeni səhmlərin emissiyası
Risk	Risk
Risk arbitrage	Risk arbitrajı
Risk management	Riskin idarə olunması
Risk premium	Risk mükafatı
Risk reversal	Riskin önlənməsi
Road show	İlkin təqdimat
Roll over (rollover)	Yenidən kreditləşmə (maliyyələşmə)
Rolling settlement	Cari hesablaşma
Round lot	Tam lot
Russell indexes	Rassel indeksləri
S&P500	S&P500 fond indeksi
Safe haven currency	Təhlükəsiz valyuta
Sales	Satışın həcmi
Samurai bond	"Samuray" istiqrazı
Scalp	Xırda əməliyyat
Scalper	Xırda alverçisi (skalper)
Scathing	Skeyt
Screen trading	Elektron ticarət
Scrip	Qiymətli kağızın sertifikatı
Scrip issue	Pusluz səhmlərin buraxılışı
Scripophily	Skripofiliya

Seasoned offer.	Sınanmış təklif
Seat	Yer (üzvlük)
Second bill	Vekselin ikinci nüsxəsi
Secondary offering (secondary distribution)	Təkrar təklif (yerləşdirmə)
Secondary securities market	Təkrar qiymətli kağızlar bazarı
Sector funds	Sektor üzrə fondlar
Sector index	Sektor indeksi
Sectoral analysts	Sektor təhlilçiləri
Securities	Qiymətli kağızlar
Securities and Exchange Commission (SEC)	Birja və Qiymətli Kağızlar üzrə Komissiya (SEC)
Securities Investor Protection Corporation	Qiymətli Kağızlar üzrə İnvestorların Müdafiəsi Şirkəti
Securities market (stock market)	Qiymətli kağızlar bazarı (fond bazarı)
Securities underwriting	Anderraytinq (qiymətli kağızlar üzrə)
Securitization	Sekuritizasiya
Seignorage	Senyoraj
Sell order	Satqı sifarişi
Seller's option	Satıcı opsionu
Selling away	Kənar satış
Selloff	Satışa buraxmaq (endirimlə)
Sell-side	Satan tərəf
Senior secured debt	Üstün hüquqa malik təminatlı borc
Senior unsecured debt	Üstün hüquqa malik təminatsız borc
Serial bond	Seriyalı istiqraz
Settlement	Hesablaşma
Settlement date	Hesablaşma tarixi
Settlement price	Hesablaşma qiyməti
Settlement risk	Hesablaşma riski
Share (stock)	Səhm
Share capital/Issued capital	Səhm kapitalı/Emissiya kapitalı
Share discount	Səhmin ucuzlaşması
Share premium	Səhmlər üzrə mükafat
Share register	Səhmlərin (səhmdarların) reyestri (qeydiyyat jurnalı)

Share repurchase	Səhmin geri alınması
Shareholder	Səhmdar (payçı)
Shareholder value	Səhmdar dəyəri
Shareholders' equity	Səhmdar kapitalı
Shareholders' funds	Səhmdarların vəsaitləri
Sharpe ratio	Şarp nisbəti
Sheets	Vərəqə
Shogun bond	"Şoqun" istiqrazı
Short covering (short cover)	Qısa ödəmə (bağlama)
Short hedge	Qısa hedc
Short margin account	Qısa marja hesabı
Short position	Qısa mövqe
Short sale	Qısa satış
Short term bonds	Qısamüddətli istiqraz
Short-term borrowing	Qısamüddətli borclanma
Simple interest	Sadə faiz
Simple moving average (an unweighted moving average)	Sadə sürüşən orta
Singapore İnterbank Offered Rate, SİBOR	SİBOR
Single tariff	Baza tarifi
Sinking fund	Yığım (ödəmə) fondu
Small cap	Kiçik kapitallaşma
Sola bill (sola bill)	Solo-veksel
Sovereign issue	Suveren buraxılış
Sovereign risk	Suveren risk
Special Drawing Rights (SDR)	Xüsusi Borc Alma Hüququ (SDR)
Special reserve fund	Xüsusi ehtiyatlar fondu
Speculation	Möhtəkirlik (alverçilik)
Speculators	Möhtəkirlər (alverçilər)
Spinning	Informasiya manipulyasiyası
Spin-off (spinoff)	Şaxələnmə (törəmə şirkət yaratma)
Spot	Spot
Spot exchange rate	Spot məzənnə
Spot market	Spot bazarı
Spot price	Spot qiyməti
Spread	Spred (marja)

Spread trading	Spred ticarəti
Stabilization	Sabitləşdirmə
Stagfilation	Staqflyasiya
Stagnation	Staqnasiya
Standard & Poor's	Standard & Poor's
Standby underwriting	Zəmanətli anderraytinq
State Committee for Securities of the Republic of Azerbaijan (SCS)	Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK)
State credit	Dövlət krediti
State guarantee	Dövlət zəmanəti
State registration number of security	Qiymətli kağızın dövlət qeydiyyat nömrəsi
Statutory price	Taksa
Stellage	Stellaj
Stock dividend	Səhm şəklində divident
Stock exchange	Fond birjası
Stock Exchange Automated Quotations (SEAQ)	Avtomatlaşdırılmış Fond Birjası Kotirovka Sistemi
Stock index	Fond indeksi
Stock index fund	Fond indeksi üzrə fond
Stock index futures	Fond indeksi üzrə fyuçers
Stock index option	Fond indeksi üzrə opsion
Stock listing	Səhmlərin listinqi
Stock option, equity options	Səhm opsionu
Stock split	Səhmlərin xırdalanması (bölünməsi)
Stockholm İnterbank Offered Rate (STİBOR)	STİBOR
Stop order	"Dayan" sifarişi
Stop-loss order (S/L)	"Dayan-zərər" sifarişi ("dayan" əmri, "dayan-itki" sifarişi)
Straddle	Stredl
Strangle	Strenql
Street name	Küçə adı
Structured product	Strukturlaşmış məhsul
Subborrower	Subemitent_
Subscription right (subscription privelege)	İmtiyazlı yazılış hüququ

Subsidiary	Törəmə şirkət
Subunderwriter	Subanderrayter
Swap	Svop
Syndicate	Sindikat
Syndicated loan	Sindikat borcu
Systematic risk	Sistematik risk
Systemic risk	Sistem riski (ödəniş sistemi riski)
Takedown	Pay almaq
Takeover	Udulma
Takeover bid	Udulma təklifi
Taking a position	Mövqeni açmaq
Tax base	Vergi bazası
Tax shelter	Vergi sığınacağı
Tax-exempt securities	Vergidən azad qiymətli kağızlar
Technical investment analysis	Texniki investisiya təhlili
Technical research (technical analysis)	Texniki araşdırma (texniki təhlil)
TED spread	TED spredi
Tender offer	Tender təklifi
Tender price	Tender qiyməti
Theta	Teta
Thin market	Süst (qeyri-fəal) bazar
Third bill	Tertiya (vekselin üçüncü nüsxəsi)
Third market	Üçüncü dərəcəli bazar
Tick	Qiymətin minimal dəyişikliyi
Ticker (ticker tape)	Tiker
Ticker symbol	Tiker simvolu
Time decay	Tədricən (zaman keçdikcə) dağılma
Time deposit	Müddətli depozit (əmanət)
Timing	Tayminq
Tirage (circulation)	Tiraj
Top down	Yuxarıdan aşağıya
TOPIX, Tokio Stock Price Index	TOPİKS
Total amount of credit	Kreditin ümumi dəyəri
Total assets	Ümumi aktivlər
Total capital of bank	Bankın məcmu kapitalı (öz vəsaiti)
Total debt	Ümumi borc
Toxic	Zəhər

Tracing (drawing)	Trasslaşdırma
Tracking stock (share)	İzləyici səhm
Trader	Treyder
Trading band	Alqı-satqı dəhlizi (diapazonu)
Trading floor	Ticarət meydançası
Trading house	Ticarət evi
Trading post	Ticarət yeri (postu)
Trading (price) range	Ticarət (qiymət) diapazonu
Trading session	Ticarət sessiyası
Trading volume	Ticarət həcmi
Tranche (tranch)	Tranş
Transaction costs	Əməliyyat xərcləri
Transaction fees	Əməliyyata görə əlavə ödənişlər
Transfer	Transfer
Transfer agent	Köçürmə (transfer) agenti
Treasuries	Xəzinə kağızları
Treasury bill	Xəzinə vekseli
Treasury bond	Uzunmüddətli xəzinə istiqrazları
Treasury note	Dövlət orta müddətli istiqrazları (xəzinə notu)
Treasury stock	Xəzinə səhmi
Trend	Trend
Trendline	Trend xətti
Trust	Trast
Trust company	Trast-şirkət
Trustee	Zamin
Trust-obligation	Trast-istiqraz
Two-way market	İkitərəfli bazar
Undercapitalized	Yetərincə kapitallaşmamış
Underlying	Anderlainq
Underlying asset	Baza aktivi
Undersubscribed	Qiymətli kağızların gözlənilləndən daha az satın alınması
Undervalued	Aşağı qiymətləndirilmiş
Underwriter	Anderrayter
Unit investment trust	Pay investisiya fondu (PİF)
Unlimited liability	Qeyri-məhdud məsuliyyət

Unlisted stock	Listinqdən keçməmiş səhm
Unpaid dividends	Səhmlər üzrə ödənilməmiş dividentlər
Unrealized (paper) gain/profit/loss	Reallaşdırılmamış gəlir/mənfəət/zərər
Unseasoned security	Xam qiymətli kağız
Unsecured credit (unsecured loan)	Təminatsız kredit
Unweighted/weighted indices	Çəkisiz/çəkili indekslər
Up and out option	"Yuxarı və son" opsionu
Upgrade	Yaxşılaşma
Uptick (up tick, plus tick)	Ap-tik (qiymətin qalxması, canlanma)
Uptrend/downtrend	Artma ("buğa") meyili/azalma ("ayı") meyili
US treasury bill	ABŞ xəzinə vekseli
US treasury bond	ABŞ uzunmüddətli xəzinə istiqrazları
US treasury note	ABŞ xəzinə notu
Valorization	Valorizasiya
Value (cost)	Dəyər
Vanilla bond	Vanil istiqrazları
Variable rate	Dəyişkən dərəcə
Vega	Veqa
Venture capital	Riskli kapital
Venture operation	Vençur əməliyyatları
Vertical spread	Şaquli spred
Volatility	Volatillik (dəyişkənlik, qeyri-sabitlik)
Volatility analysis	Volatillik (dəyişkənlik) təhlili (qeyri-sabitliyin təhlili)
Volatility index	Dəyişkənlik indeksi (qeyri-sabitlik indeksi)
Volume	Həcm
Voting right	Səsvermə hüququ
Voucher	Özəlləşdirmə çeki
Wall street	Uoll strit
Warrant	Varrant
Wash sale (sham transaction)	"Saxta" sövdələşmə (səhmlərin yalandan alqı-satqısı, "yuyulma" satışı)

Weighted average cost of capital (WACC)	Kapitalın orta çəkili dəyəri (kapitalın cəlbinin orta çəkili xərci)
Weighted average coupon	Orta çəkili kupon
Weighted average maturity	Orta çəkili ödəmə müddəti
Weighted/unweighted index	Çəkili/çəkisiz indeks
Weighting	Çəkmək
When issued (W/I)	Emissiya edildikdə
White knight	"Ağ cəngavər"
Working assets (circulating assets)	Dövriyyə vəsaitləri (aktivləri)
Working capital	Dövriyyə kapitalı
Working control	Cari (işçi) nəzarət
Yield	Gəlirlik (qiymətli kağızların gəlirliliyi)
Yield curve	Gəlirlik əyrisi
Zebras	Zebras
Zero coupon bond	Sıfır kuponlu istiqraz (kuponsuz istiqraz)
501-(C)(3) bond	501-(C)(3) istiqrazı
72 rule (rule of 72)	72 qaydası

İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

1. Англо-Русский словарь банковских и финансовых терминов (English – Russian glossary Banking and finance). Яков М.Миркин и др. Институт Всемирного Банка и Государственная Финансовая Академия, Москва, 1998.
2. Azərbaycan Respublikasının Mulki Məcəlləsi.
3. Azərbaycan Pespublikasnin Milli Bankı haqqında Azərbaycan Pespublikasının Qanunu.
4. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu.
5. Investment Glossary KCI Investing, a division of Capitol Information Group, Inc http://wwwkciinvestingcom/.
6. IPO Glossary_updated.
7. И.Ф.Жданова Англо-Русский экономический словарь. 2003 – 880 с.
8. Рынок ценных бумаг: учебник для студентов вузов, обучабщихся по экономическим специальностям / Под ред Е.Ф.Жукова – 2-е изд, перераб и доп – М: ЮНИТИ-ДАНА, 2006, - 463 с.
9. General Investment Glossary http://wwwtaipanpublishinggroupcom/.
10. Glossary – BSE.
11. Glossary of Financial and Investment Terms http://wwwgobcafundscom/.
12. Glossary of Investment Terms http://wwwcraigsipcom/.
13. Glossary of Mortgage, Finance and Securitization Terms (Финансовй Глоссарий: Ипотека и Секьюритаризация) 2007 http://wwwifcorg/russia_mortgage/.
14. Government Finance Glossary NEWBOOK.
15. Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının Qanunu.
16. http://wwwbloombergcom/invest/glossary/bfglosahtm.
17. http://wwwfinraorg/.
18. http://wwwinvestopediacom/dictionary/defaultasp.
19. http://wwwinvestortermscom/.
20. http://wwwiseie/.
21. http://wwwlondonstockexchangecom/global/glossary/ahtm.
22. http://wwwnasdaqcom/reference/glossary.
23. http://wwwnysecom/glossary/Glossaryhtml.
24. https://wwweuroclearcom/site/public/EB/.

MALİYYƏ BAZARLARI TERMİNLƏRİNİN
İZAHLI LÜĞƏTİ

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV

Yığılmağa verilmişdir: 03.08.2010
Çapa imzalanmışdır: 12.08.2010
Nəşrin ölçüsü: 70x100 1/16
Fiziki çap vərəqi: 17,0
Sifariş: 102. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com